**Məhərrəm Zülfüqarlı**

# GÖYÇAY TARİXİ

**Bakı - 2022**

*Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası*
***1905.az KİTABI***

**Seriyanın ideya müəllifi və naşiri**
Elxan SÜLEYMANOV
Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının prezidenti

**Seriyanın tərtibçisi və elmi redaktoru**
Fuad BABAYEV
siyasi elmlər üzrə fəlsəfə doktoru, Əməkdar jurnalist

**Nəşrin elmi redaktoru**
Asif HACILI
filologiya elmləri doktoru, professor

***Azərbaycan Turizm və Menecment Universiteti Elmi Şurasının 26 noyabr 2021-ci il tarixli iclasının qərarı ilə (pr. № 02) nəşr olunub***

***Zülfüqarlı M.P. Göyçay tarixi. Bakı: 2022 – 312 s.***

*AVCİYA-nın vitse-prezidenti, tarix üzrə elmlər doktoru, Azərbaycan Turizm və Menecment Universitetinin professoru Məhərrəm Zülfüqarlının "Göyçay tarixi" kitabı Azərbaycanın qədim tarixə malik bölgələrindən biri olan Göyçayın tarixinə həsr olunub. Kitab Göyçayın miladdan əvvəl II minillikdən başlayaraq hazırkı dövrə qədər olan tarixinin ilk dəfə olaraq kompleks şəkildə elmi tədqiqi nəticəsində ərsəyə gəlib və bakalavr, magistr, doktorant səviyyəsində təhsil alan şəxslər, alimlər və regionun tarixi ilə maraqlanan bütün insanlar üçün nəzərdə tutulub.*

*Fotosənədlər Azərbaycan Respublikası Kino-Foto Sənədləri Arxivindən, azertag.az, aayda.gov.az, atv.az, e-derslik.edu.az, kulis.az, medeniyyet.az, metbuat.az, science.gov.az, fleetphoto.ru, kitaphane.tatarstan.ru, kobold-wizard.livejournal.com, mapio.net, pamyat-naroda.ru, twitter.com, wikipedia.org, wikiwand.com saytlarından, Göyçay Tarix-Diyarşünaslıq muzeyinin ekspozisiyasından götürülüb.*

*Cildin tərtibatında Hacı Rəhim Əfəndi tərəfindən 1891-ci ildə inşa olunan Qaraman kənd məscidinin fotosundan istifadə olunub.*

ISBN 978 - 9952 - 37 - 815 - 3

*© AVCİYA 2022*
*© M.P.Zülfüqarlı 2022*

*Görkəmli din xadimi, ziyalı və xeyriyyəçi*

*Hacı Rəhim Əfəndinin (1862-1924)*

*əziz xatirəsinə ithaf olunur*

## Ön söz

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra tariximizin obyektiv tədqiqi sahəsində araşdırmalar aparılsa da, görüləsi işlər hələ çoxdur. Vətən tarixinin yenidən araşdırılması, yeddicildlik "Azərbaycan tarixi" və digər fundamental əsərlərin işıq üzü görməsi tarixçilərin böyük zəhmətinin bəhrəsidir. Lakin vətən tarixinin ümumi şəkildə tədqiqinə böyük diqqət verildiyi halda, çox təəssüf ki, ayrı-ayrı regionların tarixinin araşdırılmasına demək olar ki, çox az fikir verilir. Halbuki, regionların tarixi haqqında tədqiqatları genişləndirməklə, fundamental əsərlər yazmaqla vətən tarixini daha da zənginləşdirir, yeni-yeni faktları oxucuların diqqətinə çatdırmış oluruq.

Sizə təqdim olunan bu kitab Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının ərsəyə gətirdiyi tədqiqat əsərlərindən biridir. Assosiasiyamız digər problemlərlə yanaşı, tariximizin obyektiv tədqiqinə xüsusi fikir verir və Azərbaycan, türk, ingilis, fransız, rus dillərində çoxlu sayda kitablar nəşr edib. Bunlardan "KHOJALY GENOCIDE: million signatures – one demand" (2011), " Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü" (7 dildə - 2012), "Sərsəng SOS: Təhlükə altında qalan tarixi və mədəniyyət abidələri" (4 dildə - 2014), "Şamaxı soyqırımı 1918" (2 dildə - 2014), "Şamaxı qırmızı terrorun hədəfində" (2 dildə - 2015), "Sərsəng harayı" (2017), "Xocalı yaddaşı" (2017), "Ermənistanın işğalçı siyasətinin ifşası (məqalələr toplusu)" (2019), "İlham Əliyev: "Əziz Şuşa, biz qayıtmışıq!" (4 dildə - 2021) "ZİRVƏDƏ. Qoşa ömrün 60 epizodu" kitab-albomu (2021) və s. kitabları göstərmək olar.

Assosiasiyamız Göyçayın tarixinə aid iki kitab - "Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi Göyçay döyüşləri" (2017),

“Göyçay döyüşləri Türkiyə tarixşünaslığında” (2018) kitablarını nəşr edərək, geniş ictimaiyyətin diqqətinə çatdırıb. Hər iki kitabın Türkiyə səfirliyinin nümayəndələrinin, görkəmli alimlərin, ictimai-siyasi xadimlərin iştirakı ilə Göyçayda geniş təqdimatı keçirilib. Hazırda Assosiasiyamız “Göyçay ensiklopediyası” kitabı üzərində işlərini davam etdirir.

Belə bir deyim var ki, Vətən insanın doğulub, boya-başa çatdığı yerdən başlayır. Bu baxımdan da, mənim üçün Vətən Azərbaycanın dilbər guşələrindən biri, zəngin tarixə və mədəniyyətə malik olan doğma Göyçaydan başlayır. Göyçayın tarixinin ayrı-ayrı dövrləri haqqında bir sıra məqalələr və kitablar yazılsa da, tarixən böyük bir qəza mərkəzi olan, böyük tarixi hadisələrə şahidlik edən Göyçayın tarixinin kompleks şəkildə indiyə qədər tədqiq edilməməsi, bizi daim narahat edirdi. Bu kitabın nəşri ilə biz Göyçayın tarixinin kompleks şəkildə öyrənilməsi sahəsində ilk addımı atdıq. İnanırıq ki, gələcəkdə tarixçilər bu işi ləyaqətlə davam etdirib, Göyçayın tarixi ilə bağlı araşdırmalara daha çox diqqət verəcək və doğma vətənimizin bir hissəsi olan Göyçayın tarixi haqqında yeni-yeni əsərlər yazaraq, geniş ictimaiyyətə təqdim edəcəklər.

***Elxan Süleymanov***
*Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına*
*Yardım Assosiasiyasının prezidenti*

# Giriş

Azərbaycanın qədim tarixə malik bölgələrindən biri də Göyçaydır. Göyçayın tarixi haqqında bu günə kimi çox az araşdırmalar aparılıb, az sayda məqalə və kitablar yazılıb. Bu qədim diyarın tarixinin kompleks şəkildə hərtərəfli obyektiv tədqiqi əvvəlki illərdə olduğu kimi bu gün də öz aktuallığı ilə diqqəti cəlb edir.

Göyçayın zəngin tarixinin tədqiqinə başlamamışdan əvvəl bəzi məsələlərə aydınlıq gətirilməsinə ciddi ehtiyac var. Hər şeydən əvvəl aydınlaşdırılmalıdır ki, Göyçayın tarixi dedikdə biz hansı ərazinin tarixindən - bugünkü 55 kənd və 1 rayon mərkəzini əhatə edən ərazi, yoxsa bu ərazidən dəfələrlə böyük olan Göyçay qəzasının ərazisinin tarixindən bəhs etməliyik?

Göyçayın qəza mərkəzi kimi ərazisi indiki rayon ərazisindən qat-qat çox ərazini əhatə edirdi. Ona görə də, fikrimizcə, dövrlər üzrə Göyçayın tarixinin izahı daha geniş ərazilərin tarixinin izahı ilə başlayıb, nəhayət 1930-cu il 8 avqustda təşkil olunan indiki inzibati rayonun sərhədləri daxilindəki ərazilərin tarixinin izahı ilə yekunlaşmalıdır. Məsələn, əgər bugün Göyçay rayonu ərazisində 55 kənd və 1 şəhər varsa, çar Rusiyasının Qafqazda apardığı inzibati islahatlar çərçivəsində 1867-ci ilin 9 dekabrında Bakı quberniyasının tərkibində Göyçay qəzası yaradıldı ki, bura indiki 7 rayonun - Göyçay, Ucar, Ağdaş, İsmayıllı, Ağsu, Kürdəmir, Zərdab rayonlarının əraziləri daxil idi. Qəza mərkəzi olan Göyçay yaşayış məntəqəsi isə 1916-cı ildən şəhər adlandırılıb və indiki 7 rayonun mərkəzi olubdur. Bir məsələni də qeyd etmək lazımdır ki, Azərbaycan SSR-in inzibati-ərazi bölgüsü haqqında məsələ VI Ümumazərbaycan Sovetlər qurultayında (1-9 aprel 1929-cu il) müzakirə olunub, 15 qəza əvəzinə 8 mahal yaradılaraq, dairələrin sayı 128-dən

62-yə endirildi. Göyçay Şirvan mahalının tərkibinə qatıldı. 1930-cu ilin avqustunda 63 rayon yaradıldı. 1932-ci ildə isə rayonlaşmanı möhkəmlətmək məqsədilə 63 rayonun bəziləri birləşdirilməklə 47 rayon saxlanıldı. [1, s.296-297] Bu prosesdə Göyçay qəza mərkəzi rayon mərkəzinə çevrildi, amma əhatə etdiyi ərazinin miqyası xeyli kiçildi.

Göyçay tarixinin tədqiqi ilə bağlı daha bir məsələnin də dəqiqləşdirilməsinə ehtiyac var: XVI əsrin məhşur hürufi şairi Həbibi, milli şüurun inkişafının başlanğıcı hesab olunan "Əkinçi" qəzetinin banisi, görkəmli mütəfəkkir Həsən Bəy Zərdabi və digər görkəmli şəxsiyyətlərin anadan olduğu, boya-başa çatdıqları ərazilər vaxtı ilə Göyçay qəzasının ərazisi hesab olunduğundan, həmin şəxsiyyətləri Göyçayın görkəmli şəxsiyyətləri kimi təqdim etmək olarmı?

Göyçay qəzası ilə Göyçay rayonu arasında ərazi cəhətdən fərqi aydın görmək üçün aşağıdakı xəritələri müqayisə etmək kifayətdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, fikrimizcə, Göyçayın tarixini iki dövrə bölmək olar:

**I dövr** - qədim dövrdən 1930-cu ilin 8 avqustuna qədər - rayonlaşmaya qədərki mərhələ. Bu dövrə daxildir: miladdan əvvəlki dövr və miladın ilk illəri; Qazfqaz Albaniyası dövrü (m.ə. IV-III əsr); ərəb işğalı dövrü (VII-IX əsrlər); Şirvanşahlar dövrü (861-1535); Səfəvilər və Əfşarlar dövrü (1501-1747-ci illər); xanlıqlar dövrü (1747-1828); çar Rusiyasının tərkibində (1828-1917); Azərbaycan Xalq Cümhuriyyəti dövrü (1918-1920); Azərbaycan SSR dövrü (27.04.1920 - 08.08.1930).

**II dövr** - 1930-cu il 8 avqustdan - rayonlaşmadan sonrakı mərhələ - Azərbaycan SSR (08.08.1930 - 18.10.1991) və Azərbaycan Respublikası dövrü (1991 - hazırkı dövr).

Göyçayın çoğrafi mövqeyi əlverişli olduğundan qədim

zamanlardan insanların diqqətini cəlb edib. Rayonun ərazisi əsasən dağətəyi və düzən ərazilərdən ibarətdir. Onun ərazisi Bozdağ silsiləsinin bir hissəsini əhatə edir. Bozdağ silsiləsi – Acınohur-Ceyrançöl ön dağlığının (Böyük Qafqaz) cənub hissəsi olaraq Qanıxçayın (Alazan) mənsəbindən başlayıb cənub-şərq istiqamətində Girdiman çayınadək davam edir. Uzunluğu təq-




*Göyçay qəzasının inzibati xəritəsi*




*Göyçay rayonunun hazırkı inzibati xəritəsi.*
*Mənbə: Azərbaycan Respublikası. Milli atlas. Bakı, 2014*

ribən 150 km, hündürlüyü təqribən 500 m-dir. Bozdağ silsiləsinə Qocaşen, Axar-Baxar, Arçandağ, Surxayxan silsilələri və

Göyçay tirəsi daxildir. Bozdağ silsiləsinin ən uca zirvəsi Babaeldağ ilə Qazanlı dağı arasında yerləşən 520 m-lik adsız zirvədir. Neogen və Antropogen sistemlərinin gil, qum, qumdaşı, konqlomerat və s. süxurlarından ibarətdir. Tikinti materialları var. Neft və qaz yataqları aşkar edilib. [4]

Göyçayın tarixi haqqında hazırda müxtəlif rəsmi saytlarda aşağıdakı məlumatlar mövcuddur:

***Azərbaycan Respublikasının Şirvan düzünün şimal hissəsində, Böyük Qafqaz dağlarının ətəklərində yerləşir. Şimaldan cənuba 25 km, şərqdən qərbə 40 km uzanır. Sahəsi 736 kv.km, əhalisi 122 512 nəfərdir. Rayon mərkəzi Göyçay şəhəri Bakı-Qazax magistral yolunun 216 km-də, Ucar dəmiryolu stansiyasından 18 km məsafədə yerləşir. Şimal-şərqdən İsmayıllı, cənub-şərqdən Kürdəmir, cənubdan Ucar, qərbdən Ağdaş rayonu ilə həmsərhəddir.***

***"Göyçay" sözü türk mənşəli olub, sahilində yerləşən Göyçay çayının adından götürülüb. Çayın suyu həddindən artıq şəffaf göy (mavi) rəngə çaldığına görə belə adlanıb. 1867-ci ildə Göyçay qəzası yaranıb. 1902-ci il zəlzələsindən sonra Şamaxı əhalisi Göyçaya köçür və əhalinin sayı artır. 8 avqust 1930-cu ildə Göyçay rayonu təşkil olunub. 1918-ci il iyun ayında Göyçay yaxınlığında baş verən döyüşdə erməni-bolşevik qüvvələri Azərbaycan və türk ordusu tərəfindən məğlub edilib. Qarabağ uğrunda döyüşlərdə göyçaylılar 212 nəfər [3] şəhid verib.***

***Rayonun ilkin arxeoloji tapıntıları IV-VII əsrlərə aid tunc, qızıl və gümüşdən hazırlanan bəzək əşyalarından və VIII əsrə aid gümüş pullardan ibarətdir. Həmin mədəniyyət qalıqları 1973-cü ildə II Ərəbcəbirli kəndində qəbiristanlıqdan toplanıb.***

***İkinci tapıntı 1976-cı ildə Aşağı Qaraməryəm kəndi yaxınlığında su anbarı tikintisi zamanı qeydə alınıb. Burada küp, küp qırıqları, kasa qırıntıları, insan fiqurları b.e.ə. II-I***

*və b.e. I əsrində bu ərazidə yaşayan əkinçi tayfaların ideoloji təsəvvürləri ilə əlaqələndirilir. Köçəri tərəkəmə tayfaları yerli əhali ilə qaynayıb-qarışıb. Ərəb işğalları zamanı Göyçay ərazisi işğal məntəqəsinə çevrilib və bura ərəb tayfaları köçürülüb. Şamaxıdan köçən Ərəbcəbirli kəndinin əhalisi indiki I və II Ərəbcəbirli kəndlərinin ərazisində məskunlaşıb. VII əsr ərəb səyyahı Göyçay çayı sahilində yerləşən Təhlə yaşayış məntəqəsində olub və Göyçay əhalisinin ona təmənnasız olaraq ərik və tut qurusunu sövqat verməsini yazıb. Digər səyyah Üveys əl-Qərari Qarabağlar kəndi ərazisində olub və Surxay qalasının adını Surxay xanın adı ilə bağlayıb. Ərəb dilindən tərcümədə "surx", "surxab", "surxub" "qala divarı" deməkdir.*

*Göyçay ərazisində 55 kənd yaşayış məntəqəsi vardır. Kəndlərin adları yalnız XIX əsr Azərbaycan tarixi ilə bağlı ədəbiyyatda çəkilir. Bığır, Qarabaqqal, Ərəbcəbirli kəndləri XVIII əsrə aid karvan yolunun dayanacağı kimi qeyd edilir.*

*1025-ci ildən XIV əsrədək Göyçay Qəbələ mahalına tabe olub. Xanlıqlar dövründə Göyçay artıq Şirvanın inzibati ərazisinə çevrilib.*

*1910-cu il statististikasına görə, sahəsi 4 988 kv.km, əhalisi 142 900 nəfər idi. Əhali əsasən pambıqçılıq, baramaçılıq, maldarlıqla məşğul olub. Xalçaçılıq, ağac emalı, misgərlik inkişaf edib. İdarəedici şəxs kimi rus pristavı əhaliyə planlı surətdə mülki binalar tikməyi, çinarlar əkməyi tapşırmışdı. Bu qayda ilə ilkin şəhərsalma 1886-1896-cı illər arasında olub. İlkin yaşayış XIX əsrin birinci rübünün ortalarına təsadüf edir.*

*XX əsrin əvvəllərində iqtidar və müxalifət partiyalarının şöbələri Göyçayda da yaranıbdır. Şəhərin indiki ərazisi ayrı-ayrı məhəllələr üzrə adlanıb (Əlbətlilər, Qurdlar, Türkmənlər, Dördyol, Salyanstroy, Ucar yolu, Karvansara yanı, Ləzgilər məhəlləsi və s.). Eləcə də əvvəlki illərdə tikilən Yuxarı*

*Məscid (1902), Yeraltı hamam (1903), Qaraman, Alpout, Mirzəhüseynli kənd məscidləri, Göyçayda Şirvan İstehsalat Birliyi, Məişət Xidməti İstehsalat Birliyi, Konserv zavodu, Tikiş Fabriki, Toxuculuq kombinatı, Konyak zavodu, Süd zavodu, Kərpic zavodu, Pambıq Əyrici Fabrikası, saxsı qablar məmulatı kombinatı, 10 orta və 1 əsas məktəb, 12 uşaq bağçası vardı. Müəssisələrin əksəriyyəti öz fəaliyyətini mövcud ictimai-siyasi proseslərlə, müharibə ilə əlaqədər olaraq dayandırmışdı. Hazırda fəaliyyət göstərən "Göyçay Süd" Açıq Tipli Səhmdar Cəmiyyəti öz məhsullarını Rusiya, Ukrayna, Estoniya, Moldova və İsrailə ixrac edir.*

*Rayon ərazisində ilk bazar Potu kəndində olub. Bura Zərdab, Qəbələ, Ucar, Ağdaş, İsmayıllı rayonlarından tacirlər gəlirdilər. Ayrıca mal bazarı var idi. Qəbələdən alma, Zərdabdan balıq, Tiflisdən qənd və çay, Bakıdan isə neft gətirilirdi. Kollektivləşmə dövründə bəzən bir kənddə 2-3 kolxoz təşkil olunurdu. 1981-ci ilin məlumatına əsasən rayonda 19 kolxoz və 3 sovxoz var idi.*

*İlk orta məktəb 1867-ci ildə - indiki 1 nömrəli məktəbin yerində açılıb. 1885-ci ildə Məlikkənd, daha sonra Alpout kənd orta məktəbləri istifadəyə verilib.*

*Rayonun ilk qəzeti 1930-cu ildə "Pambıqçı" adı ilə nəşr edilib. Sonralar "Qalibiyyət bayrağı", "Yeni həyat", Göyçay" adlı qəzetlər çıxıb.*

*Müasir Göyçay gündən-günə çiçəklənir. Ərazisində yeni yaşayış, orta məktəb binaları, Heydər Əliyev Mərkəzi, R.Rza adına muzey, Tarix Diyarşünaslıq muzeyi, Olimpiya idman kompleksi, Mədəniyyət evi, Mərkəzi kitabxana, Musiqi məktəbi, Uşaq Yaradıcılıq birliyi, Məşğulluq idarəsi, Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci, Peşə liseyi fəaliyyət göstərir [2].*

Bugünə qədər nəşr olunan məqalələr, publisistik yazılar,

sosial şəbəkələrdə verilən məlumatlar Göyçay ərazisinin zəngin tarixini çox təəssüf ki, lazımi səviyyədə əks etdirmir. Buna görə də Göyçayın tarixinin elmi şəkildə obyektiv tədqiq olunmasına ciddi ehtiyac var.

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının "Göyçay ensiklopediyası" layihəsi çərçivəsində Göyçayın tarixinin araşdırılması yeni faktların üzə çıxarılmasına imkan verib. Fikrimizcə, gələcəkdə tədqiqatçılar bu mövzuya daha çox diqqət ayırmalı, qədim tarixə malik Göyçay ərazisində arxeoloji qazıntılar, etnoqrafik tədqiqatlar davam etdirilməlidir. Bu tədqiqatların Göyçay tarixinə aid yeni-yeni faktların üzə çıxmasına, bu qədim ərazinin tarixinin yeni faktlarla zənginləşməsinə imkan verəcəyi şübhəsizdir.

Göyçayın zəngin tarixini bir kitabda əhatə etmək mümkün deyil. Gələcəkdə bu qədim diyarın tarixinin obyektiv şəkildə tədqiqi davam etdirilməli, bu zəngin tarixə aid yeni-yeni əsərlər yazılmalıdır.

### İstifadə olunan ədəbiyyat

1. Azərbaycan tarixi. Yeddi cilddə. VI cild (aprel 1920 - iyun 1941-ci illər), Bakı, 2008
2. http://goychay-ih.gov.az/page/11.html

## Göyçay adının mənşəyi

Göyçay əhalisinin böyük bir hissəsinin Qaramanlı tayfasından formalaşması, bu tayfanın mənşəyi və Göyçay ərazisinə gəlişi haqqında məlumatların araşdırılmasını aktual edir. Hazırda Türkiyənin Qaraman vilayətində axan çayın da adı Göy çaydır. Hətta belə ehtimal da var ki, Qaraman tayfasının nümayəndələri Göyçaya köçərkən özləri ilə Göy çay adını yeni köçdükləri ərazidə axan çaya veriblər. [1]

Hazırda qardaş ölkədə Göyçay çayı, Göyçay parkı, Qaraman, Göyçay yer adları, Karaman və Göyçay soyadı daşıyan çoxlu sayda insan var.

Göyçay çayı Geyik (Maral) dağlarında olan Söbüçəmən yaylasındakı Əyrigöldən qaynaqlanır. Göldən yer altına sızan sular 3 km məsafədən üzə çıxır, digər bulaqlarla birləşərək dar dərin vadilərdən axır, Suçatı ərazisində Göy su çayının digər qolu olan Göydərə ilə birləşir. Göyçayın hövzəsi 3.500 kv.km, uzunluğu 170 km-dir.

Göyçay çayı Antalya, Konya, Qaraman və Mersin ərazisindən axan, Mersinin Silifke rayonunda Aralıq dənizinə tökülən Göy su çayının şimal qoludur. Bu çayın cənub qolu isə Göy dərə adlanır. Hər iki çay öz mənbəyini Toros dağlarının Geyik (Maral) adlanan hissəsindən götürür. Geyik (Maral) dağları Alanyanın 50 km şimalında Antalya-Gündoğmuş və Konya-Hadim arasındadır. Bu iki qol Qaraman-Ermeneki keçdikdən sonra Mutun cənubunda birləşərək Göy su adını alır və Silifkenin cənubunda Paradəniz adıyla bilinən deltada Aralıq dənizinə tökülür. Göy su və onun qolları olan Göyçay və Göy dərə çayları üzərində su anbarları və su elektrik stansiyaları tikilib. [2]

## İstifadə olunan ədəbiyyat

1. Süleymanov E.S., Nəsirov B.M., "Hacı Rəhim Əfəndi", Bakı, 1993, 104 s.
2. "Türkiye'nin Akarsuları ve Vadileri" (PDF), 4 Ocak 2015 tarihinde kaynağından (PDF) arşivlendi, Erişim tarihi: 17 Ekim 2015 - dicle.edu.tr

## Göyçayın qədim dövr tarixi

Azərbaycanın ən qədim tarixi ərazilərindən olan Qafqaz Albaniyası və Şirvanşahlar dövlətlərinin çoğrafi və strateji cəhətdən ən əlverişli torpaqlarından biri də Göyçaydır. Ərazidə müasir dövrə qədər ciddi arxeoloji qazıntıların aparılmaması təəssüf doğurmaya bilməz.

Tarixi abidələrin az aşkar edilməsi heç də bu ərazidə abidələrin az olması anlamına gəlməməlidir. Fikrimizcə, bunu Göyçay ərazisində arxeoloji qazıntıların digər ərazilərə nisbətən çox az aparılmasında, elmi mərkəzlərin obyektiv və ya subyektiv səbəblərdən bu əraziyə az diqqət ayırmasında axtarmaq daha düzgün olar.

Bununla əlaqədar akademik Ziya Bünyadov yazırdı: “Təəssüf ki, Azərbaycanın arxeoloji xəritəsində müəyyən edilməmiş yerləri göstərən ağ ləkələr hələ çoxdur. Bunun əsas səbəbi Azərbaycandakı orta əsr abidələrinin arxeoloji nöqteyi-nəzərindən qeyri-bərabər surətdə öyrənilməsidir. Ayrı-ayrı təsadüfi tapıntılar hesaba alınmazsa, orta əsrlərin əvvəllərinə aid abidələr son zamanlaradək ciddi və müntəzəm surətdə öyrənilməmiş, bu məqsədlə qazıntı işləri görülməmişdir.” [6, s.143]

Bu fikirləri Göyçayın ərazisinə də aid etmək olar. Məsələn, əgər yerli əhali tərəfindən təsadüfən bəzi abidələr aşkara çıxarılmasaydı, deməli oradan aşkara çıxarılıan maddi mədəniyyət abidələri hələ də torpağın altında qalmaqda idi. Buradan belə qənaətə gəlmək olar ki, Göyçay ərazisində hələlik aşkara çıxarılmayan çoxlu sayda qiymətli maddi mədəniyyət abidələri öz tədqiqini gözləməkdədir.

Göyçayda aparılan işlərlə digər rayonlarda aparılan işləri müqayisə etsək, problemin kökünü aşkara çıxarmaq olar. Məsələn, qonşu Ağsu rayonunda müəyyən vaxtlarda arxeolo-

ji tədqiqatlar aparıldığına görə, rayon ərazisində 11-i ölkə və 13-ü isə yerli əhəmiyyətli olmaqla, 24 tarixi mədəniyyət abidəsi olduğu halda [19], Göyçay rayonunda 7 arxeoloji, 5 memarlıq abidəsi aşkara çıxarılıb. Təəccüb doğuran məsələ odur ki, rayon ərazisində tapılan 7 arxeoloji abidə xüsusi elmi arxeoloji ekspedisiya tərəfindən deyil, yerli əhali tərəfindən təsərrüfat işləri görülərkən tapılıb. Bugün əgər relyefinə görə Göyçay kimi dağətəyi, düzən ərazidə yerləşən Ağcabədidə mütəmadi aparılan arxeoloji qazıntıların nəticəsində 7 min il yaşı olan yaşayış məskəni aşkar edilibsə, fikrimizcə, tədqiqatlar aparılarsa, elə yaşayış məskənlərini Göyçay ərazisində də aşakar etmək mümkündür. [17]

Göyçay rayonu (arxeoloji abidələr)

| | | | |
|---|---|---|---|
| 1073. | Küp qəbirləri nekropolu | e.ə. II əsr - I əsr | Ərəbcəbirli kəndi |
| 1074. | Qəbiristanlıq | I-II əsr | II-ci Ərəbcəbirli kəndi |
| 1075. | Yaşayış yeri | ilk orta əsrlər | Yekəxana kəndi |
| 1076 | Qəbiristanlıq | ilk orta əsrlər | Qaraməryam kəndinin yaxınlığında |
| 1077 | Küp qəbirləri nekropolu | e.ə. III əsr | Qaraməryam kəndi |
| 1078. | Yaşayış yeri | ilk orta əsrlər | Şahsoltanlı kəndi |
| 1079. | Küp qəbirləri nekropolu | e.ə. I əsr-I əsr | İncə kəndi |

Memarlıq abidələri

| | | | |
|---|---|---|---|
| 4268 | Məscid | 1903-cü il | Göyçay şəhəri |
| 4269 | Yeraltı hamam | | Göyçay şəhəri |
| 4270 | | XIX əsr | Alpout kəndi |
| 4271 | Məscid | | Qaraman kənd |

[21]

Rayon ərazisində arxeoloji tədqiqatların çox az aparılması, bu problemə alimlərin də az diqqət verməsinə səbəb olub. Məsələn, "Azərbaycanın tarixi abidələri və toponimləri: biblioqrafiya" kitabında 5 353 kitab və məqalənin adı qeyd olunub ki, bunlardan yalnız 5-i Göyçaydakı arxeoloji qazıntılara aiddir. [6]

Göyçayda hələlik tarixi maddi-mədəni abidələrin az sayda aşkar olunmasına baxmayaraq, onlar haqqında alimlər tərəfindən kitab və məqalələrin yazılması, fikrimizcə, yüksək qiymətləndirilməlidir. Alimlərdən İ.Əliyev, A.Nuriyev, Q.Cəbiyev, F.Osmanov, F.Yusifov, Ə.Əliyev, A.Ələkbərov, B.Sultanova, N.A.Abelov, F.Qədirov və başqa tədqiqatçıların yazdığı məqalə və kitablar [7, 9, 13, 14, 16, 23, 24, 28, 29 və s.] bu qədim ərazinin tarixinin öyrənilməsində mühüm əhəmiyyətə malikdir. T.e.d., professor Qafar Cəbiyevin "Girdiman tarixi (IV-IX əsrlər)" kitabında Göyçay ərazisində tapılmış maddi mədəniyyət abidələri və onlar haqqında yazılmış elmi məqalələr haqqında verilən məlumatlar təqdirəlayiqdir. [10]

F.Yusifov öz məqaləsində Ərəbcəbirli kəndində tapılan maddi mədəniyyət abidəsini Qobustanın "oxşarı" adlandırıb. [16]

"Girdiman tarixi (IV-IX əsrlər)" kitabında Ə.Əliyev, A.Ələkbərovun məqaləsinə istinadən qeyd olunur ki, XX əsrin 60-cı illərində Qaraməryəm-Müsüslü yolunun kənarında, Aşağı Qaraməryəm kəndində, Yuxarı Şirvan kanalının sol tərəfində əmək və məişət əşyaları tapılıb. Həmin tapıntıları İnçə kənd orta məktəbinin müəllimləri toplayıb AMEA Tarix İnstitutuna məlumat veriblər. Həmin məlumat əsasında 1962-ci ildə S.M.Qazıyev, R.B.Göyüşov kəndə gələrək çoxlu sayda material toplayıb. Bundan bir il sonra F.L.Osmanov da bura gələrək Qaraməryəm çayının əmələ gətirdiyi yarğanlarda qədim dövrə aid küp və torpaq qəbirlər aşkara çıxarıb. Burada həmçinin divarlarının qalınlığı 2,5 sm olan saxsı küpə və bardaqların fraqmentləri tapılıb.

1976-cı ildə Aşağı Qaraməryəm kəndi yaxınlığında su anbarı üçün yer qazılarkən də analoji tapıntılar aşkara çıxdı. O zaman kəndə ezam olunan arxeoloqlar Ə.Əliyev, A.Ələkbərov orta əsrlərə aid çoxlu sayda maddi mədəniyyət nümunələri, şirli və şirsiz saxsı qablar aşkara çıxardılar. Tapılan küplərin birinin üzərində olan cızma üsulu ilə işlənən sxematik təsvir var. Mütəxəssislərin fikrincə bu, insan təsviridir.

Qaraməryəm tapıntıları xronoloji cəhətdən ərəb xilafətinin işğalı dövrünə (VII-VIII əsrlərə) aid edilir. Kəndin adının da Məryəm adlı qara rəngli ərəb qadınının adından götürüldüyü ehtimal olunur. [7, s.85-92; 10, s.162]

10 aprel 1973-ci ildə Göyçayın rayon qəzetində F.L.Osmanovun "Nadir tapıntı" adlı məqaləsi dərc olunur. Həmin məqalədə Ərəbcəbirli kəndində quşçuluq ferması üçün bünövrə qazılarkən aşkara çıxarılan maddi mədəniyyət nümunələrindən bəhs olunur. Həmin tapıntılarla əlaqədar arxeoloq Aləm Nuriyev Göyçaya ezam olunur. Materiallarla tanışlıqdan sonra məlum olur ki, həmin tapıntıların aşkara çıxarıldığı yerdə vaxtilə nekropol (*Yunan dilindən tərcümədə "ölü şəhər" mənasını verən bu söz arxeolofi qazıntılar zamanı tapılan məzarlıqlara verilən addır*) mövcud olub. Həmin nekropolda aşağıdakı əşyalar tapılıb:

1. Metal məmulatlar: dəmir, tunc, mis, gümüş, qızıldan sinə bəzəkləri, bilərziklər, üzüklər, sırğalar;

2. Şüşə məmulatlar: bunlara muncuqlar və müxtəlif şüşə qablar aiddir.

Ərəbcəbirlidə tapılan məmulatların - bilərziklər, üzüklər, sırğaların əksəriyyətinin bolluq rəmzi olan ilan simvollu forma və naxışlara malik olması diqqəti cəlb edir. Mütəxəssislər kənddə aşkara çıxarılan küp qəbirləri IV-VIII əsrlərə aid edirlər. [27, s.43-44]

F.L.Osmanov 1966-1970-ci illərdə Bakı-Qaraməryəm yolunun şimalında yerləşən Yekəxana kəndinin ərazisində antik

və ilk orta əsrlərə aid maddi mədəniyyət nümunələri aşkara çıxarıb. Həmin tapıntılar içərisində kömürləşən taxıl qalıqları diqqəti cəlb edir. Akademik İmam Mustafayev həmin tapıntıları tədqiq edərək onların mədəni arpa və yumşaq buğda növündən ibarət olduğunu müəyyən edib. [28, s.19-20]

1980-ci illərin əvvəllərində Yekəxana və ona yaxın olan Şahsoltanlı kəndlərində təsərrüfat işləri aparılarkən, xeyli sayda maddi mədəniyyət nümunələri aşkara çıxıb. Tapıntılar içərisində qədim əmək vasitələri, məişət əşyaları və bəzək nümunələri üstünlük təşkil edir. Şahsoltanlı kənd məktəbinin yaxınlığında yer şumlanarkən çoxlu sayda gil qablar aşkara çıxarılıb.

Sakinlərin verdiyi məlumata görə müxtəlif həyətlərdə də bu cür tapıntılar aşkar olunub. Şahsoltanlıda tapılan əşyalar - iri təsərrüfat küpləri, çölmək və cam tipli dayaz qablar, təkayaqlı vazların fraqmentindən ibarətdir. Tapıntılar içərisində diametri 8 sm olan araba təkərinə oxşar əşya, qulpları üzərində çərtmə naxışlar olan su qabları parçaları və iki qadın fiquru diqqəti cəlb edir.

Şahsoltanlı materialları içərisində həm antik, həm də ilk orta əsrlərə aid əşyalar var. Bu da o deməkdir ki, miladi təqvimin başlanğıcından IV-V əsrlərə qədər burada intensiv yaşayış olub. Sonradan əhali Yekəxana ərazisinə köçüb. [7, s.88-91; 10, s.163]

KİV-lərin məlumatına görə, Göyçayın Yekəxana kəndi ərazisində qədim dövrə aid maddi mədəniyyət nümunələri tapılıb. Rayonun qədim yaşayış məntəqələrindən olan Yekəxana kəndində yaşayan Qasımov Yalçın həyətyanı sahəsində təsərrüfat işləri görərkən torpağın altından bir neçə saxsı küp qab və 10-a yaxın qədim məişət əşyası, müxtəlif növ təsərrüfat qabları, keramika məmulatları aşkar edib. O, torpaq qazıntısını dayandırıb və aşkar etdiyi mədəniyyət nümunələrini rayon tarix-diyarşünaslıq muzeyinə təhvil verib. Muzeyin direktoru Bəsti Sultano-

va bildirib ki, bir neçə ay öncə rayonun Ərəb kəndi ərazisində də qədim yaşayış məskəninin qalıqları aşkarlanıb. Kənd sakinləri torpağın altından küp qəbirlər, insan skeletləri, bəzək, məişət əşyaları, şüşə muncuqlar və saxsı qablar taparaq muzeyə veriblər: "Yekəxana və Ərəb kəndlərinin giriş hissəsində həmin ərazinin qədim yaşayış məskəni olmasını əks etdirən lövhə qoyulub. Ehtimal olunur ki, bu tapıntılar ilk orta əsrlər dövrünə, yəni bizim eranın III-V əsrlərinə aid maddi mədəniyyət nümunələridir. Çünki tarixi mənbələrdə də qeyd olunur ki, Böyük Qafqaz sıra dağlarının cənub hissəsindəki ərazilərdə təxminən 1 500 il əvvəl də yaşayış olub. Lakin həmin kəndlərdə bununla bağlı heç vaxt arxeoloji qazıntılar aparılmayıb".

B.Sultanova ərazinin qədimliyi barəsində ehtimallara, tarixi faktlara və maddi mədəniyyət nümunələrinə daha dəqiq aydınlıq gətirilməsi üçün ərazidə tədqiqat işlərinin aparılmasına ciddi ehtiyac olduğunu bildirib. O, tapıntılar barəsində Mədəniyyət və Turizm Nazirliyinə məlumat verildiyini qeyd edib. [12]

Göyçayın qədim tarixi ilə bağlı yazılı mənbələrlə yanaşı, şifahi tarixi mənbələrdə də çoxlu maraqlı faktlara rast gəlmək olur. Bu baxımdan əslən Göyçayın Bığır kəndindən olan Azərbaycan Turizm və Menecment Universitetinin dekanı, t.ü.f.d., dosent Bahadur Bilalovun verdiyi dəyərli tarixi məlumatlar diqqəti cəlb edir. Məlumatda Göyçayın Bığır kəndində "Qaraul təpə" adlanan yerin yaxınlığında kənd əhalisi tərəfindən küp qəbirlərin aşkara çıxarılmısı qeyd olunur. B.Bilalovun fikrincə, Bığır kəndindəki "Qaraul təpə"nin hansısa məhşur şəxsin dəfn olunduğu kurqan olduğunu ehtimal etmək olar. Əvvəllər bu ərazidə pay torpağı alan sakinlər ev tikmək üçün bünövrə qazarkən çoxlu sayda şirəli saxsı qablar, iri ölçüdə insan sümükləri aşkar ediblər. Hətta bir dəfə həmin ərazidə traktorçu torpaq işləri görərkən iri bir küp qəbir aşkara çıxarıb. Həmçinin həmin ərazidəki əkinləri

suvarmaq üçün bu əraziyə su buraxılsa da, suyun harasa axıb yoxa çıxdığı məlum olub.

Bu məlumatdan belə nəticəyə gəlmək olar ki, həmin ərazidə arxeoloji qazıntılar aparılarsa, Azərbaycan tarixini, o cümlədən Göyçayın tarixini zənginləşdirə biləcək, hətta dünya əhəmiyyətli tarixi abidələrin aşkara çıxarılması mümkündür.

Göyçayda tapılan maddi mədəniyyət abidələrinin aid olduğu dövrə görə burada yaşayışın 2 000 ildən bir qədər artıq olduğu qənaətinə gəlmək olar. Lakin, fikrimizcə, Göyçayda insan yaşayışının tarixi daha qədimdir. Rayonun yerləşdiyi ərazinin dünyada qədimliyinə görə 4-cü tapıntı hesab olunan Azıxantropun (m.ə. 350-400 min il) tapıldığı Qarabağ ərazisinə çox yaxın (təxminən 31 km) olması deyilənlərin əsaslı olduğunu sübut edir. Bundan başqa, Göyçay ərazisinin qədim Albaniya dövlətinin, daha sonra isə Şirvanşahlar dövlətinin strateji cəhətdən ən əlverişli ərazisinə aid olması, Albaniyanın paytaxtı olan Qəbələnin qonşuluğunda, sonrakı paytaxtı Bərdənin yaxınlığında yerləşməsi də bu ərazinin qədim ənənələrə malik olduğunu sübut edir. Antik dövr müəllifləri Strabon, Ptolemey, Plini və başqalarının Qafqaz Albaniyası haqqında dediyi fikirlərin Göyçay ərazisinə də aid edilməsi təbiidir.

Cənubi Qafqazada "Albaniya" adlı ölkənin adını ilk dəfə yunan çoğrafiyaşünası Strabon çəkib. Bu ölkədə yaşayan çeşidli boy və tayfaların adı isə albanlar şəkilində m.ə. 331-ci ildə Qavqamel döyüşü ilə bağlı olaraq Flavi Arrian tərəfindən yazıya alınıb. Çağdaş tarixşünaslıqda bu ad "Alban ölkəsində yaşayanlar", "albaniyalılar" anlamında deyil, Alban ölkəsinə öz adını vermiş etnosun adı ilə sayılmaqdadır. Böyük Plini və Klavdi Ptolemeyin yazıları üzrə burada "Alban" adlı şəhərin və çayın olması bunu göstərir... Qəbələ ilə Göyçay arasında olan "Alvandərə" adlı yerin adı da Alban sözündən əmələ gəlmişdir. [3, s.170]

Qədim Qafqaz Albaniyasının ərazisindən baş magistrallardan əlavə, Qəbələ, Mingəçevir, Şamaxı, Torpaqqala, habelə digər məskənləri və şəhərləri birləşdirən ticarət yolları da keçirdi. Ehtimal ki, Albaniyanın baş quru magistrallarından biri Kür çayından şimalda yerləşən ərazidən keçirdi və Bakıdan Şamaxı, Göyçay, Ağdaş, Şəki, Zaqatala, Balakən istiqamətində Laqodexiyə qədər davam edən və oradan Qərbə gedən yol ilə ayrı-ayrı yerlərdə üst-üstə düşürdü. [1, s.295-296]

Göyçayın hazırkı ərazisi Ptolemeyin Albaniya xəritəsindəki ikinci zonaya müvafiq gəlir; qədim yunan astronomu və coğrafiyaşünası adı çəkilən xəritədə 12 yaşayış məntəqəsi yerləşdirir. Bunların içərisində Alam (ola bilsin, Göyçayın qərb qolunun sahilində yerləşən müasir Zalam kəndidir) kəndi də var. [1, s.312-313]

Göyçay ərazisində başqa qədim ərazilərə nisbətən tarixi abidələrin az olması heç də onun vətənimizin ən qədim tarixi ərazilərindən biri olmasına kölgə sala bilməz. Çünki bu ərazidə aparılan arxeoloji qazıntılar nəticəsində tunc dövrünə aid abidələrin aşkara çıxarılması Göyçayın qədim tarixə malik olduğunu sübut edir. Hətta iddia olunur ki, Qafqaz Albaniyasının paytaxtı Qəbələ şəhəri ilə yanaşı Göyçay çayının sahilindəki kiçik yaşayış məntəqəsi də inkişaf edib, əhalisi xeyli artıb. Şəhərdə çoxlu karvansaraylar tikilib, sənətkar məhəllələri salınıb. Arandan Qəbələyə qalxan ən yaxın və əlverişli yol bu şəhərin üstündən keçib. Bu şəhər orta əsrlər dövründə bütün yaşayış şərtlərinə görə Qəbələ ilə bağlı olub. Hətta şəhərin çay boyu mərkəzi küçəsi elə o vaxtlardan Qəbələ adlanıb. Lakin sonradan Nizami Gəncəvinin yubileyi keçirilən vaxt Qəbələ küçəsinin adı dəyişdirilərək Nizami adlandırılıb. [9]

Qafqaz Albaniyası ərazisində iri küplərdə dəfn etmək adəti geniş yayılmışdı. Belə qəbirlər Mil, Qarabağ və Şirvan düzlərin-

də, dağətəyi rayonlarda, Kür çayının sahillərində qeydə alınıb. Ağcabədi, Ağdam, İsmayıllı, Göyçay, Ucar, Şamaxı, Xankəndi, Qəbələ rayonlarında, Mingəçevirdə, Qalatəpə xarabalıqlarının ətrafında və başqa rayonlarda yüzlərlə küp qəbir tədqiq edilib. Küplərdə dəfn etmək adəti ən qədim əsrlərdən başlanıb. Bu tip qəbirlər müxtəlif vaxtlarda Ön Asiyada və Qafqazda geniş yayılıb. Albaniyada bu adət e.ə. I minilliyin ikinci yarısından eramızın VIII əsrinədək mövcud olmuşdur. [1, s.340-341]

Elmi ədəbiyyatda qeyd olunur ki, Göyçay ərazisində tapılan küp qəbirlər e.ə. IV əsr - eramızın VIII əsrlərində Cənubi Qafqazda, xüsusilə də Qafqaz Albaniyası ərazisində yayılıb. Ölülər bükülü vəziyyətdə sağ və ya sol böyrü üstə, əsasən üfüqi şəkildə dəfn olunub. Qəbir inventarları metal (tunc və başlıca olaraq dəmir alət və silahlar, bürünc, gümüş və qızıl bəzək şeyləri), ağac, daş, gil, şüşə və pastalardan ibarətdir. Nisbətən sonrakı dövrlərə aid qəbirlərdə Roma, Arşaki və Sasani sikkələ-



***Küp qəbir***

rinə də təsadüf edilir. Bu mədəniyyət əkinçilik, heyvandarlıq, ovçuluq, balıqçılıq və sənətkarlıqla məşğul olan oturaq əhaliyə aiddir. [3]

Küp qəbirlər dünyanın müxtəlif regionlarında aşkara çıxarılıb. Bu cür dəfn mərasimləri m.ə. 4500-cü ildən başlayaraq XV-XVII əsrlərə qədər həyata keçirilib. Bir sıra tanınmış tarixçilər küp qəbirlər haqqında müxtəlif əsərlər yazıbdır. [24, 25, 26, 29, 30 və s.]

"Küp qəbrindəki qabların birindən qoz və nar qalıqları, başqa birindən şaftalı çərdəkləri tapılmışdır. Çiy kərpic qəbrində gilas tumları aşkar edilmişdir." [1, s.290; 8, s.321]

Əvvəllər Göyçay qəzasına aid olan hazırkı Ucar rayonunun Bərgüşad kəndi yaxınlığında Adsız təpə abidəsində aparılan arxeoloji tədqiqat işləri nəticəsində antik dövrə aid küp qəbirlər aşkar olunub. Qəbirlərin hündürlüyü 2 metrə çatır. Əldə olunan bəzək əşyaları, keramika məmulatlarına və s. əsasən Bərgüşad küp qəbirlərini m.ə. III - m. II əsrinə aid etmək mümkündür. [15]

Küp qəbirlərin Gürcüstanda, Ermənistanda, Cənubi Azərbaycanda və başqa yerlərdə geniş yayılması faktı adları çəkilən ərazilərin əhalisinin albanlarla əlaqəsi olduğunu parlaq surətdə təsdiq edir. [1, s.286]

Arxeoloji qazıntılar zamanı tapılan zərgərlik məmulatlarının bir hissəsi bu yerlərdə hazırlanıb. Sənət məmulatlarının kütləvi xarakteri və standartlaşdırılması şəhərdə meydana gələn əmtəə istehsalının göstəricisi idi. Başqa yerlərdən gətirilən çoxlu sayda məmulatlar - qızıl sırğalar, gümüş qədəhlər, Nereidanın Hippokampın belində təsviri olan məşhur gümüş dövrə və digər əşyalar əmtəə-pul münasibətlərinin nisbətən yüksək səviyyədə olduğuna dəlalət edir. Göyçay-Ağsu çaylararası ərazidə yaşayan əhalinin uzaq vilayətlərlə intensiv əlaqələri haqqında,

inkişaf etmiş pul təsərrüfatı haqqında yerli sikkələrdən ibarət dəfinə əsasında mühakimə yürütmək olar. [1, s.319]

Eramızdan əvvəl IV-III əsrlərdən başlayaraq Albaniyanın dekorativ-tətbiqi sənətində kiçik formalar plastikası, məişət süjetlərinə və mifoloji süjetlərə dair səhnələrin batıq xətlərlə təsvir edildiyi daş heykəllər xüsusi yer tutur. Albaniya terrakotları hər şeydən əvvəl qadın heykəlcikləri, çox az hallarda kişi heykəlcikləri, zoomorf fiqurlar, o cümlədən yüyənli at təsvirləri ilə təmsil olunmuşdur. Alban incəsənətinin bu abidələri olduqca çoxdur: təkcə İsmayıllı rayonunun ərazisində (Göyçay şəhərinin yaxınlığında - M.Z), Mollaisaqlı-Hacıhatəmli yaylasında 60-dan artıq heykəlcik aşkara çıxarılmışdır. [1, s.345]



***Gümüş boşqab***

Şəkildə gördüyünüz bu gümüş qab Roma imperiyasının şərq hissəsində, Suriyanın dəniz sahili əyalətlərinin birində IV əsrin ikinci yarısında hazırlanıb. Hazırda Sankt-Peterburq şəhərində Ermitaj muzeyinin Şərq şöbəsində saxlanılır. Göy-

çay qəza rəisinin 8 yanvar 1894-cü ildə verdiyi məlumata görə, Göyçay qəzasının Lahıc sahəsinin Yenikənd-2 kəndinin əhalisi üç ay əvvəl qazıntı işləri apararkən, qılınc, xəncər, gümüş qab, qızıl pullar aşkara çıxarmışlar. Şəkildəki gümüş boşqab da həmin tapıntılardan biridir. Bu tapıntı, yarım litrdən çox maye tutumu olan dairəvi bir qabdır. Onun çəkisi 1030 qram, diametri 24 sm-dir. Sənətşünas R.V.Kinjalov "Kədərli Nereida" adlı məqaləsində qeyd edir ki, "Ermitaj Muzeyində saxlanılan məşhur gümüş qab II-III əsrlər Roma imperiyasının ən maraqlı abidələrindən biridir. Texniki bacarıq və bədii ifadə qabiliyyəti baxımından Zaqafqaziyada onun tayı-bərabəri yoxdur." Həmin qabı erməni tacir Yeqor Romanoviç Mirzəbekyan ələ keçirmiş, lakin sonradan məhkəmə yolu ilə ondan alınaraq muzeyə təhvil verilmişdir. [20]

Bütün elmi təhlilər sübut edir ki, gələcəkdə rayon ərazisində ciddi elmi arxeoloji tədqiqatlar aparılarsa, daha qədim dövrlərə aid çoxlu sayda arxeoloji və mədəni abidələr üzə çıxarmaq olar.

## İstifadə olunan ədəbiyyat


1. "Azərbaycan tarixi. Yeddi clddə. I cild (Ən qədimdən - b.e. III əsri)", Bakı, 2007

2. "Azərbaycan tarixi". Z.M.Bünyadov və Y.B.Yusifovun redaktəsi ilə, I cild, Bakı, 1994, 496 s.

3. "Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər)", Bakı, 1996

4. "Азәрбајҹан Совет Енсиклопедијасы. Куба-Мисир. 10 ҹилддә. VI ҹилд", Бакы, 1982. səh.42-43

5. "Azərbaycanın tarixi abidələri və toponimləri: biblioqrafiya", Bakı, 2016

6. Bünyadov Z. “Azərbaycan VII-IX əsrlərdə” Bakı, 2007

7. Əliyev Ə. “Göyçay rayonu ərazisində arxeoloji tapıntılar ”AzSSR EA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq ser.”, 1986, №1, s.85-92

8. Əliyev Taleh "Əlican və Türyançay hövzələrinin küp qəbirləri", "Tarix və onun problemləri", № 4 2013

9. Əhmədoğlu M., “Qədim-müasir Göyçay - Turizmə maraq haradan başlayır?”, “Ədalət” qəz., 17.6.2011

10. Cəbiyev Q., “Girdiman tarixi (IV-IX əsrlər)”, Bakı, 2010

11. Cəbiyev Q., “Göyçay rayonunun ilk orta əsr abidələri”, ”Azərbaycan arxeologiyası”, 2006, №1-4, s.108-111

12. “Göyçayın kəndlərində qədim dövrə aid əşyalar tapılıb”, 11.03.2009 - https://apa.az/az/xeber/sosial-xeberler/-149030

13. Sultanova B., “Göyçay qədim yaşayış məskənlərindən biridir”, Dördüncü Beynəlxalq Avrasiya Arxeologiyası konfransı tezislər, 2012, s.65

14. Qədirov F., “Göyçay dərəsinin Qərb tərəfindəki bir qrup arxeoloji abidələr haqqında”, "Az.SSR EA-nın Məruzələri", 1975, №8, s.86-93

15. Vəlişov N.T., “Ucar rayonu və onun toponimiyası”, Bakı, 2005

16. Yusifov, F., “Qobustanın “oxşarı”: [Göyçay r-nun Ərəbcəbirli kəndində arxeoloji axtarış zamanı tapılmış nadir tapıntılar haqqında”, “Azərbaycan gəncləri”, 29.5.1973

17. “Ağcabədidə 7 min il yaşı olan yaşayış məskəni aşkar edilib”//“Mədəniyyət”qəz., 20.8.2010

18. http://goychay-ih.gov.az/page/11.html

19. http://agsu-ih.gov.az/page/16.html

20.https://ourbaku.com/index.php/История_одного_серебряного_блюд

21. http://mct.gov.az/medias/media/other/358/mta.pdf

## *Rus dilində*


22. Абелов Н.А., «Экономический быт государственных крестьян Геокчайского и Шемахинского уездов Бакинской губернии (МНЭБГКЗК)», т.VI, Тифлис, 1887 г.

23. Алиев И., Османов Ф.Л., «Бассейн рек Геокчай-Гирдманчай-Ахсучай в античное время», СА, 1975 г., №1, с.183-202

24. Голубкина Т.И., «Культура кувшинных погребений в Азербайджане, в сб.: Тр. Музея истории Азербайджана», т.4, Баку, 1961 г.

25. Иващенко М., «Кувшинные погребения Азербайджана и Грузии», «Известия АН Азербайджанской ССР», 1947 г., № 1

26. Казиев С.М., «Альбом кувшинных погребений», Баку, 1960 г.

27. Нуриев А.Б., Юсифов Ф.А., «Ахеологические находки в Геокчайском районе», (АЭИА 1973), Баку 1974 г., с.43-44

28. Мустафаев И. «Изучение по изучению пущеницы, ржы, ячмения и эгилопсов», Баку, 1961 г.

29. Ноешвили А. «Похоронная практика народов Закавказья (могильники кувшинов VIII до н.э. - VIII н.э.», Тбилиси, 1992 г.

30. Пахомов Е.А., «Обследование и раскопки кувшинных погребений Азербайджана», «Известия АзФАН СССР», 1939 г., №3, с.170-171

# Orta əsrlərin Çöyçayı

## *1. Ərəblərin Azərbaycana və Arrana köçürülməsi*



Ərəb xilafəti yarandıqdan sonra, islam dinini yaymaq məqsədilə müxtəlif istiqamətlərdə yürüşlərə başladı. Sasaniləri məğlub etdikdən sonra Cənubi Azərbaycan ərazisi işğal edilsə də, Göyçay ərazisinin daxil olduğu Girdiman dövləti özünün görkəmli sərkərdəsi Çavanşirin uzaqgörən siyasəti nəticəsində 680-ci ilə qədər dövlət müstəqilliyini qoruyub saxlaya bildi. Bizans dövlətinin tərəfdarları tərəfindən Cavanşirin sui-qəsd nəticəsində öldürülməsi vəziyyəti dəyişdi. Şimali Azərbaycan Ərəb, Xəzər və Bizans dövlətləri arasında savaş meydanına çevrildi. Ərəblərin qələbəsi nəticəsində 705-ci ildə Azərbaycan ərazisi tamamilə Xilafətin tərkibinə qatıldı. Bütün işğal dövrlərində olduğu kimi bu dövrdə də yerli əhalini təsir altında saxlamaq üçün ərəblər köçürmə siyasətini həyata keçirdilər.

Onlar mövqelərini möhkəmləndirmək üçün Azərbaycan və Arrana böyük sayda ərəb əhalisini köçürdü. Hələ xəlifə Əli

ibn Əbu Talibin dövründə (656-661) Azərbaycana hakim təyin edilən əl-Əşəs ibn Qeys "Ərdəbildə əta və divan siyahısına salınmış ərəblər yerləşdirdi... Ərəblər Azərbaycanda məskən saldıqda, onların Küfədən, Bəsrədən və Şamdan olan qohumları bura axışdılar... 8-ci əsrin 30-cu illərində Məsləmə Dərbəndə 24 min ərəb yerləşdirdi". [5, s.192]

Köçürmə siyasəti haqqında ərəb tarixçisi əl-Bəlazuri maraqlı məlumat verir: "əl-Valid ibn Ukba Azərbaycana gələrkən, əl-Əşəs ibn Qeys də onunla idi. Əl-Valid Azərbaycanı tərk edərkən, onu vali təyin etdi. Azərbaycan (əhalisi) üsyan etdikdə, (Əl-Əşəs əl-Validə) məktub yazaraq, ondan kömək istədi; o da Kufə əhalisindən (təşkil olunmuş) böyük bir ordunu ona köməyə göndərdi... buranı Huzeyfə və Utba ibn Farkadla bağlanmış müqavilələrin şərtlərinə görə (yenidən) fəth etdi, burada əta və divan əhlindən olan (yəni təqaüd və maaş alan) ərəblərdən yerləşdirdi. Onlara əmr etdi ki, adamları islama dəvət etsinlər".

Bu məlumatda işğal olunan ərazidə dövlət xəzinəsindən maaş və təqaüd alan ərəb əhalisinin yerləşdirilməsi və nəhayət, onlara yerli əhali arasında islamı yaymaq tapşırığı verilməsi maraq doğurur. Görünür, bu, sonralar Xilafət məmurları tərəfindən həyata keçirilən və tədricən daha genişlənən köçürmə siyasətinin başlanğıcı idi. [14, s.29-30]

Azərbaycana köçürülən ərəb kəndlilərinin bir hissəsi indiki Göyçay ərazisinə yerləşdirildi. Ərəb tayfalarının VII-IX əsrlərdə Azərbaycana köçürülməsinin izləri Azərbaycanın bəzi rayonlarında indiyədək qalmaqdadır. Akademik Ziya Bünyadov yazırdı: "Vaxtilə ərəblərin məskən saldıqları yaşayış məntəqələrinin adında indiyədək "ərəb" sözü qalmışdır... Bu kəndlər Xilafətin məhz şimal sərhədləri boyunca, əsasən ticarət yolları üzərində yerləşirdi... Göyçay-Ərəbcəbirli, Ərəbxana, Ərəbmehdibəy, Ərəbşahverdi" [8, s.169] bu kəndlərdəndir.

“Azərbaycan tarixi”ndə ərəblərin Şimali Azərbaycana köçürülməsi ilə bağlı yazılıb: “Ərəblərin Azərbaycana köçürülmə siyasəti IX yüzilin birinci rübünə qədər davam etdi. Ancaq Harun ər-Rəşidin dövründə baş qaldıran və əl-Məmun dövründə ən yüksək zirvəsinə çatan Xürrəmilər hərəkatı, eləcə də bir çox ərazilərin Xilafət tərkibindən çıxması ərəb tayfalarının Qafqaza mühacirətinə təsir etdi və nəhayət, onu tamamilə dayandırdı. Bu tayfalar haqqında indi yalnız müasir Azərbaycanın bəzi yaşayış məntəqələrinin həmin tayfalar üçün ümumi olan “ərəb” sözünün qaldığı adları xəbər verir. Məsələn, Ərəbkeymuraz, Ərəbhacı, Ərəblər, Ərəbuşağı, Ərəbşahverdi, Ərəbbəsrə, Ərəbocaq və s. [3, s.156]

Xürrəmilər hərəkatı ərəblərin Azərbaycana köçürülməsini dayandırmaqla yanaşı, xilafətə böyük zərbə vuraraq onu sarsıtdı. Bu da IX-XI əsrlərdə Azərbaycanda beş müstəqil dövlətin meydana gəlməsinə səbəb oldu. Bunlardan 861-ci ildə ilk yaranan və ən uzunömürlü olan Şirvanşahlar dövləti oldu ki, Göyçay ərazisi də onun tərkibinə daxil oldu. Mənbələrin məlumatına görə, Məzyədilər sülaləsinin hakimiyyətinin ilk dövrlərində Şirvanşahların sərhədləri cənubda Kür çayı, şimalda Dərbənd və Samur çayı, qərbdə Göyçay və Şəki, şərqdə Xəzər dənizi ilə əhatə edilirdi. Lakin tədricən onun ərazisi genişləndi. [1, s.274]

Tarixçi Sara Aşurbəyli “Şirvanşahlar” əsərində tarixi mənbələrə istinadən Göyçay çayı üzərində tikilən qala haqqında maraqlı məlumat verir: “Tarix-i-ıl babda” Şirvanşah Yəzid ibn Əhməd hicri 389-cu (miladi 999-cu ildə) Gürzül qalasını (Göyçay çayı üzərində tikilən Girdədül qalası) almışdı. Sonralar XI əsrin I rübündə də Qəbələ və Gürzül Şirvanşahların əlində olmuşdu. [6, s.112]

Ərəblərin Qafqazda uzun müddət davam edən hərbi əməliyyatları zamanı bölgənin bəzi ərazilərində ərəb qarnizonları

yerləşdirildi və hərbi istehkamlar tikildi. IX əsr ərəb tarixçisi Əl-Bəlazuri bu barədə belə yazıb: "Xəlifə Hişamın (724–743) başçılığı ilə Məsləmə (xəlifənin qardaşı) Dərbəndi ələ keçirdi. Şəhərin əhalisi bu hücum ərəfəsində Dağıstanın mərkəzinə doğru qaçmağa başladı. Şəhəri işğal edən Məsləmə özünə etnik dayaq yaratmaq üçün 24 min suriyalı ailəni Dərbəndə yerləşdirdi. Məsləmə Dərbəndə gətirilən ərəbləri yeddi kvartala böldü və hərəsində Hüms, Dəməşq, Fələstin, Əlcəzair, Mosuldan olan ərəbləri yerləşdirdi. Dərbənddə yaşayan xəzərlər üçün şəhərin şimalında xüsusi bir xəzər məhəlləsi ayrıldı." [39, s.7-8]

Ərəb tarixçilərinin yazdığına görə Bərdə şəhəri Zaqafqaziyada əksər ərəb valilərinin iqamətgahı idi və bura çox sayda ərəb köçürülmüşdü. Bundan başqa, xəlifənin Azərbaycan valisi Yezid ibn Üsayd Şirvanda Böyük və Kiçik Arcil şəhərlərini qurdu və burada Fələstin ərəblərini məskunlaşdırdı. [31, s.44]

Qeyd etmək lazımdır ki, Əməvilər sülaləsinin hakimiyyəti dövründə şimalda (Suriya), Abbasilər dövründə isə cənubda (əsasən Yəmən) yaşayan ərəb tayfaları köçürülürdü. Məsələn, xəlifə əl-Mansurun (754-775) dövründə Yəməndən Azərbaycana köç başlandı. 755-ci ildə Terek çayından Kür çayına qədər ərazidə Suriya və Ərəbistandan gətirilən 7 min ərəb ailəsi məskunlaşdırıldı... Ərəblər Azərbaycanın şimal-şərqinə (Şabran və Müşkür) ilk dəfə 763-cü ildə köçürülüb. İkinci kütləvi köç Arran hökmdarı Yusif ibn Rəşid və Yezid ibn Məzyədin dövründə başladı. Bu zaman Şirvana minlərlə ərəb ailəsi köçürüldü. Harun ər-Rəşidin dövründə (786–809) ərəblərin Azərbaycana köçü zəiflədi. Xəlifə Məmunun (809-813) Arrana hakim kimi Xalid ibn Yezidi təyin etməsindən sonra ərəb köçü yenidən sürətləndi. Ziya Bünyadovun fikrincə, bu ərəb ailələri Azərbaycana köçürülən sonuncu ərəblər idi. [33, s.188]

XVIII-XIX əsrin birinci yarısına aid mənbələrdə indiki

Azərbaycanın şərq hissəsində bir çox köçəri və oturuşmuş ərəb kəndlərinin olması qeyd olunur. Bu ərəblər müəyyən dərəcədə ənənəvi etnik görünüşünü, dilini və bəzi mədəni xüsusiyyətlərini qoruyub saxlamışdı. Belə ərəb qrupları Azərbaycanda əsasən Muğan (onların əsas köçəri düşərgələri burada yerləşirdi) və Şirvan regionunda yaşayırdı. Bu regionlardan başqa digər ərazilərdə də oturaq formasına keçid etmiş ərəb kəndləri mövcud idi.

1859-1864-cü illərdə Nikolay Zeydliç *(1831-1907-ci illər - rus naturalisti, statistiki, etnoqrafı)* tərəfindən hazırlanan vilayətin kameral təsviri əsasında tərtib olunan "Bakı əyalətinin etnoqrafik eskizi" əsərində ərəb kəndlərinin və köçəri tayfaların siyahısı verilmişdir: "Ərəb Cəbirli və Ərəb Şahverdi Göyçay və Şamaxı uyezdlərində, Ərəb Mehdibəy, Ərəb Sarvan və Ərəb Xanədan Göyçay uyezdində köçəri həyat sürürdü. Oturaq ərəblər isə ölkənin əsasən şimal və cənub hissələrində yaşayırdılar. Bakı quberniyasının kameral təsvirinə əsasən, burada olan ərəb kəndlərində 1.680 təsərrüfatda ümumi olaraq 9.881 nəfər əhali yaşayırdı. [32, s.90]

Tarixi mənbələr sübut edir ki, 1864-1886-cı illərdə Azərbaycanda ərəblərin sayı 13,5 min nəfərə qədər artıb. Əlbəttə ki, bu rəqəmi qeyd edərkən nəzərə almaq lazımdır ki, bu zaman artıq bu kəndlərdə yaşayan ərəblər hamısı türkləşmişdi, buna baxmayaraq rəsmi siyahıyaalınmada onlar öz milliyyətini ərəb kimi göstəriblər.

Əhalisi mənşəcə ərəb hesab edilən yaşayış məntəqələri və köçəri düşərgələr haqqında ən dolğun məlumat 1886-cı ildə Zaqafqaziya bölgəsi əhalisinin sayını özündə əks etdirən cədvəldə qeyd olunub. Cədvəldə verilən məlumata görə, 1886-cı ildə Göyçayın Ərəbcəbirli (İndiki I və II Ərəbcəbirli ) kəndində 650 nəfər, Ərəbşahverdi kəndində 232 nəfər əhali yaşayırdı. [31, s.48]

Muğan və Şirvanda yaşayan ərəblərin (xüsusən də köçəri

ərəblərin) məşğuliyyəti dəvəçilik idi. Dəvəçilik peşəsi təxminən 1200 il əvvəl Ərəbistan yarımadasından bura köçən ərəblərin mirası kimi qalmışdır. [8, s.223] 1880-ci illərdə dəvəçilik təsərrüfatı ölkənin şərq hissəsində geniş yayılmışdı. Məsələn, Qəbristan mahalında (indiki Qobustan rayonu) yaşayan ərəb tayfalarında 1.300-dən çox dəvə var idi. Ərəblər dəvənin əti ilə yanaşı, yunundan müxtəlif məişət əşyaları hazırlamaq üçün istifadə edirdi. Buna baxmayaraq, ərəblər üçün dəvələr əsasən nəqliyyat vasitəsi kimi vacib idi. Şamaxı və Göyçay uyezdlərində yaşayan Ərəb Şahverdi, Ərəbcəbirli, Ərəb Şam və Ərəb Qədim tayfalarında dəvə ilə yük daşıma ticarəti (çarvadarlıq) geniş yayılmışdı. Bu tayfalardan olan ərəblər dəvələrlə Bakı quberniyasından Zaqafqaziyanın müxtəlif yerlərinə yük daşıyırdı. Azərbaycanın daxilində, xüsusən duz və neft dəvələrlə daşınırdı. Göyçay ərəbləri bu malları Zaqafqaziya dəmir yolunun Ucar stansiyasından, Qəbristan ərəbləri isə Bakı quberniyasından alaraq digər regionlarda satırdı. Maraqlısı odur ki, ərəblər puldan istifadə etmirdi və satdıqları mal əvəzində düyü, fındıq, meyvə götürürdülər.

Göyçayın Ərəbcəbirli kənd sakinləri kömürdən istifadə edirdi. Bu kəndin sakinləri əldə edilən kömürü Bakının mis və dəmir tökmə müəssisələrinə satırdılar. Ərəb tayfalarının bir ortaq xüsusiyyəti də hər birində yun məhsullarının (kilim, xalça) geniş istifadə olunması idi. Bu xalçalardan ən məşhuru Ərəb Qədim xalçası idi. Qobustan rayonunun Ərəbqədim kəndində xalçaçılıq ənənəsi indi də qalır. Təəssüf ki, Azərbaycan ərəblərinin ailə həyatı və mədəniyyətini xarakterizə edən heç bir material yoxdur. [14; 31, s.49]

VII-VIII əsrlərdə Azərbaycana köçürülən ərəb qəbilələri imtiyazlara sahib olmasına və dillərinin rəsmi dil olmasına baxmayaraq, Azərbaycandakı etnik prosesdə əhəmiyyətli

dəyişikliklər edə bilmədi. XIV əsrə qədər ərəblərin bir hissəsi türklər, bir hissəsi (xüsusən şimal-şərq) isə tatlar tərəfindən assimilyasiya edildi.

Azərbaycan tarixşünaslığının banisi Abbasqulu Ağa Bakıxanov XIX əsrin ortalarına qədər Azərbaycanda ərəblərin böyük hissəsinin ana dillərini itirdiyini qeyd edir. Bakıxanovun fikrincə, Şirvan uyezdində yaşayan ərəblərin yalnız bir qrupu ərəb dilindən məişətdə istifadə edirdi. Nuxa və Şamaxı uyezdlərində yaşayan ərəblərin köçəri olunması və etnik təcrid ilə türkləşmə prosesi nisbətən gec baş verdi. Bu regionda yaşayan ərəblər azərbaycanlılarla (nəinki şiələrlə, eləcə də sünnilərlə) evlənmirdilər. Ancaq bu vəziyyət onların ətrafdakı əhali ilə ünsiyyət dili olan Azərbaycan dilini bilməsinə mane olmurdu. Azərbaycan ərəblərinin türkləşməsi prosesi XIX  əsrin sonlarına yaxın başa çatdı. Bu vaxta qədər demək olar ki, bütün ərəb kəndləri ana dilini itirdi. [33, s.51] 1905-ci ildə aparılan statistikada Bakı quberniyasında 6 kişi və 5 qadın ana dili kimi ərəb dilini göstərir. Sovet hakimiyyəti qurulduqdan sonra, 1926-cı ildə aparılan ilk statistikada Azərbaycan SSR-də - 7, Ermənistan SSR-də isə - 2 nəfər ana dili kimi ərəb dilini qeyd etmişdi. [12; 33, s.86]

## *2. Qaramanlıların Göyçaya gəlişi*

Arxeoloji tədqiqatlar zamanı Göyçay rayonu ərazisində Atabəylər (XII-XIII əsrlər), Hülakilər (XIII-XIV əsrlər) zamanı və sonrakı dövrlərdə kəsilən pullar aşkar olunub. XIII əsrin ikinci yarısında indiki Göyçay şəhərinin yerləşdiyi ərazinin meşəlik olması və bu yerin Ərvan adlanması haqqında tarixi mənbələrdə məlumatlar var.

Azərbaycan tarixində şərəfli yer tutan, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər, Əfşarlar və Qacarlar dövlətinin ictimai-si-

yasi həyatında aparıcı tayfalardan biri olan Qaraman Oğuz türk tayfası haqqında məlumatlar əsasən XIII əsrə aid mənbələrdə verilməyə başlayıb. Sonrakı dövrlərdə isə onların fəaliyyəti genişləndikcə məlumatlar daha da artıb. Tarixi mənbələrdə Qaramanlıların oğuzların Əfşar boyuna mənsub olması barədə məlumatlar var. Azərbaycan tarixşünaslığının banisi Abbasqulu ağa Bakıxanov Qaraman tayfası haqqında yazıb: "Quba və Şirvanda Zəngənə, Xəlilli və Kəngərli; Şirvanda Qaramanlı, Təkəli, Şamlı və Çakərli; Qubada Osallı, Ərşəli, Ustacallı və Qacar tayfaları; Quba, Dərbənd və Şirvanda Bayat qəbiləsi; Şəkidə, Şirvanda Qaraqoyunlu, Xələc və sair bir çox tayfalar vardır. Bunlar İran və Rum ölkələrində sakin olan tərəkəmə və sair elat kimi, türk tayfalarındandır. [7, s.11]

Qaraman tayfası XV əsrdə Qaraqoyunlu, Ağqoyunlu dövlətləri yaranana qədər regionda çox böyük nüfuza malik olub və




***Qaramanoğulları (1256-1487) dövləti (bəyliyi)***

Türk xalqları tarixində özünəməxsus yeri olan Qaramanoğulları (1256-1487) dövlətinin əsasını təşkil edib.

Qaramanlıların Anadoluda yaratdığı bəylik Konya və Qaraman ərazisini əhatə edən güclü bir dövlət idi. Onların kökü indiki Şimali və Cənubi Azərbaycanın Xəzər dənizi hövzəsində yayılan İç Oğuz və Dış Oğuz tayfalarındandır. Qaraman tayfasının Anadoluya nə zaman gəlməsi haqqında dəqiq məlumat yoxdur. Ancaq onların Toğrul bəylə birlikdə Anadoluya gəlməsi, Toğrul bəy geri dönəndən sonra burada qalmaları haqqında mənbələrdə məlumat verilir. Lakin monqol-tatar yürüşləri zamanı da gəlmələri haqqında tarixi qaynaqlar mövcuddur. Qaraman tayfasının Anadoluya gəlmələrinə aid dəqiq tarix Ələddin Keyqubad zamanına - 1228-ci ilə aiddir. Ələddin Keyqubad onları Ermenak ərazisində yerləşdirib.

Onlar Hoca Saadettinin oğlu Nurə Süfinin başçılığı altında indiki Türkiyənin Sivas əyalətinə gələrək, bəylik yaradıblar. Müxtəlif tarixlərdə bəyliyin 19 hökmdarı olub ki, bunlardan da ilk hökmdar Nurə Sufi bəy Qaramanoğlu (1250-1256), sonuncu isə Sultanzadə Pir Əhməd bəy Qaramanoğlu (1469-1483) hesab edilir. Qaraman tayfasının ilk mühüm tarixi şəxsiyyəti Kərimüddin Qaraman hesab edilir. O, 1256-cı ildə Səlcuq dövlətinin monqol-tatarlar qarşısında düşdüyü ağır vəziyyətdən faydalanaraq sərbəst hərəkət edib və böyük ərazilər ələ keçirərək, ərazilərini daha genişləndirib.

Bu bəylik Anadoluda ilk yaranan və ən çox ömür sürən bəylik olub. Azərbaycanda yaranan Hülakülər dövləti ilə təxminən eyni zamanda yaransa da, Hülakilər 100 il, Qaramanoğulları 231 il tarix səhnəsində olub. Bu bəyliyin tez yaranması ona böyük ərazilərə sahib olmaq və ərazilərini daha da genişləndirmək imkanı verdi. Bəyliyin möhkəmlənməsi Səlcuqlu dövlətinin paytaxtı Kərimüddin bəyin oğlu Mehmet bəyin (1261-1277) Konya-

nı tutması ilə başladı. Bundan sonra Qaramanoğulları özlərini Səlcuqlu dövlətinin varisi elan etdilər.

Anadoluda türk dili ilk dəfə rəsmi dövlət dili olaraq Qaramanoğulları bəyliyində həyata keçirilib. Qaraman bəyliyinin başçısı Mehmet bəy Konyanı tabe etdikdən sonra 15 may 1277-ci ildə (10 zilhiccə 675) belə bir buyruq vermişdi: "Şimdən gerü divanda, dərgahda, bargahda, məclisdə və meydanda türkcədən başqa dil kullanılmayacaqdır". [2, s.295, 333]

Osmanlılarla Qaramanlılar arasında ilk münasibətlər Orxan bəyin zamanında yaranıb. Qaramanlı hökmdarı Əliəddin Əli bəy (1361-1398) Osmanlı sultanı I Muradın qızı Nəfisə Sultan ilə evlənərək qohumluq əlaqələri yaradıb. Sonradan ərazi üstündə münasibətlər korlanıb və Əliəddin Əli bəy öz qaynı olan İldırım Bəyazidlə iki dəfə müharibə edib. 1389-cu ildə döyüşdə məğlub olan Qaramanlı hökmdarı Konyaya geri çəkildi, lakin şəhər Osmanlılar tərəfindən ələ keçirildi və Əliəddin Əli bəy öldürüldü.

Əmir Teymurla İldırım Bəyazid arasında olan 1402-ci il Ankara döyüşünə qədər Qaraman ölkəsinə Osmanlılar sahib olub. Əmir Teymur Anadolu bəylərinin əvvəlki torpaqlarını geri qaytararkən, Qaramanoğulların da torpaqlarını onlara qaytarıb. [26; 27]

Daha sonra Osmanlılar gücləndikcə Anadoluda özlərinə rəqib gördükləri Qaramanoğullarını məğlub etmək üçün yenidən mübarizəyə başlayıb. Bu mübarizə II Muradın dövrünə qədər davam edib. II Murad 1444-cü ildə Varna savaşından zəfərlə geri döndükdən sonra Qaramanoğullarına qarşı döyüşə hazırlaşır. Nəhayət, Osmanlılar 1487-ci ildə Qaramanoğullarını məğlub edərək ərazilərini öz torpaqlarına qatdılar.

Qaraman tayfasının nüfuzundan ehtiyat edən Osmanlılar gələcəkdə problemlər yaradacağından ehtiyat edərək onla-

rı yeni fəth olunan Balkan yarımadasına, oradan Bolqarıstana, Kiprə, o cümlədən Azərbaycana köçürdülər.

Lakin faktlar sübut edir ki, Qaramanlılar 1487-ci ildən də çox əvvəl Azərbaycanda böyük nüfuz sahibi olub, Qaramanoğulları dövlətinin süqutundan sonra, əhalinin bir hissəsi soydaşlarının yanına pənah gətiriblər. Məsələn, tarixi mənbələrdə qeyd olunur ki, Qaramanoğulları dövlətinin süqutundan 81 il əvvəl, yəni 1406-cı ildən başlayaraq Gəncə və Qarabağı Yarməmməd Qaramanlı idarə edib. Qaramanlı tayfası Qaraqoyunlularla müttəfiq olaraq, bu dövlətin güclənməsində mühüm rol oynayıb. Qaraqoyunlu dövlətinin yaranmasında fəal iştirak edən Qaramanlılar 1412-ci ilin dekabrında Qara Yusifin Şirvanşah I İbrahim, Şəki hakimi Seyid Əhməd və Gürcü çarı Konstantinin birləşmiş qüvvələrinə qarşı döyüşündə fəal iştirak ediblər. Onlar bu döyüşdə Yarməmmədin başçılığı altında "Qaramanlı əsgərləri" adı altında döyüşüblər. 1420-ci ildə Qara Yusifin ölümündən istifadə edərək Azərbaycana hücum edən Əmir Teymurun nəvəsi Şahruxa qarşı 1421-ci ildə Yarməmməd Qaramanlının başçılığı altında üsyan olur və Şahrux Baysunquru Yarməmmədin üzərinə göndərir. Onun xidmətləri Qaraqoyunlu dövləti tərəfindən yüksək qiymətləndirilərək əmirəlümat rütbəsinə layiq görülüb. Sonradan Şahrux Qaraqoynlu İsgəndərə qarşı döyüşərkən, Yarməmmədi tutaraq Bərdədə edam etdirir. Burada müəyyən tarixi izahata ehtiyac var. Yəni Əmir Teymurun Osmanlılardan Qaramanoğullarının torpaqlarını geri alaraq onlara qaytarması onunla Qaramanoğullarının müttəfiqliyindən xəbər verir. Lakin Əmir Teymurun nəvəsi Şahruxun Yarməmməd Qaramanlını edam etməsi Teymurilərin Azərbaycanda Qaramanlılara münasibətinin dəyişdiyini göstərir.

Qara Yusifdən sonra dövlətə başçılıq edən oğlu İsgəndərin əmirlərindən biri Piri Qaramanlı idi. İgid və qəhrəman

sərkərdə olan Piri Qaramanlı və oğlanları sonradan Cahan şahı müdafiə ediblər.

Qaramanlılar Ağqoyunlu dövlətinin tarixində də mühüm rol oynayıblar. Ağqoyunlu sultanı Rüstəm Baysunqura qarşı mübarizə apararkən ona kömək edən bacısı oğlu Sultan Əlinin (Şeyx Heydərin oğlu, Şah İsmayılın böyük qardaşı) yanında Rüstəm Qaramanlı da var idi. Onlar sonradan Ərdəbil şeyxlərinə qoşulmuş və Səfəvilər dövlətində mühüm rol oynamışlar. Şah İsmayılın atası Şeyx Heydər 1488-ci ildə Şirvana hücum edərkən onun qoşunlarının tərkibində qaramanlılar da var idi. [11; 36]

Qaramanlı tayfasında olan Qaramanlı Zülfüqar xan bir müddət Şirvanı idarə edib. Bu məsələ barədə A. Bakıxanov yazır: "Hicri 1016-cı (miladi 1607-ci) ildə I Şah Abbas gəlib buranı aldı. Bu zamandan etibarən Şirvanı İran bəylərbəyi idarə etməyə başladı. Qaramanlı Zülfüqar xan - 2 il, Yusif xan - 18 il, Ərəb xan - 8 il, Fərəc xan - 3 il, Ərəb xan - 11 il, Xosrov xan - 8 il, Mənuçehr xan - 6 il, Hacı xan - 3 il, Məhəmmədi xan - 2 il, Nəcəfqulu xan - 7 il, Mehrəli xan - 13 il, Məkriqulu xan - 2 il, Səid xan - 7 il, Əliqulu xan - 6 il, Musa xan ilə Həsənəli xan -20 il və Hüseyn xan - 2 il Şirvanda bəylərbəyi olmuşlar". [7]

Yuxarıda qeyd olunan faktlar sübut edir ki, Qaraman tayfası Yaxın və Orta Şərqdə, Cənubi Qafqazda böyük nüfuza malik, güclü və sayca çox böyük tayfalardan biri olub. Ona görə də bu ərazilərdə yaranan dövlətlərin ictimai-siyasi həyatında mühüm rol oynayblar.

Azərbaycan Respublikası ərazisində Göyçayın Qaraman kəndi ilə yanaşı, Qaraman tayfasının adı ilə bağlı digər yer adları və ziyarətgahlar da mövcuddur. Bunlardan Cəbrayıl rayonu ərazisində Hacı Qaraman ziyarətgahını, Yevlax rayonunun Qaramanlı kəndində tunc və ilk dəmir dövrünə aid Qaramanlı kurqanlarını və s. göstərmək olar.

Çələbilərin adlı-sanlı başçılarından olan Hacı Qaraman XIII-XIV əsrlərdə Cəbrayıl ərazisinə gələrək, əvvəlcə Niftalılar və Nusus kəndləri arasındakı yerdə özünə məskən salıb, sonralar Çələbilər kəndinə köçüb. Ona görə də Hacı Qaramanın dəfn edildiyi məzar sonralar "Ocaq" kimi müqəddəsləşdirilib. Çələbilər kəndindəki məscid isə Məhəmməd ibn Hacı Qaraman Əhmədli tərəfindən hicri 1088-ci (miladi 1678-ci) ildə inşa edilib. [22; 24]

Göyçay yaşayış məntəqəsinin və çayın adının Qaraman tayfası tərəfindən bölgəyə gətirildiyi ehtimal olunur. [10]

### *3. Xətai və Füzulinin formalaşmasında rolu olan şair Həbibi*



Göyçayın Bərgüşad kəndində anadan olan Azərbaycanın görkəmli şairi Həbibinin (1470/1475-1520) yaşadığı mühit Qaramanlıların, Ağqoyunluların və Səfəvilərin Azərbaycanda haki-

miyyəti dövrünə düşdüyündən onun dünyagörüşünə mühüm təsir edib. Məhz buna görə onun yaradıcılığı Azərbaycan ədəbiyyatının milli bir mədəniyyət hadisəsi kimi özünü göstərir.

Həbibi Ağqoyunlu Sultan Yaqubun, sonralar isə Şah İsmayıl Xətainin sarayında böyük nüfuz qazanmış, hətta məlik üş-şüəra olmuşdur. Həbibi yaradıcılığı Xətai və Füzuli poeziyasının formalaşmasında münbit zəmin rolunu oynamışdı. Böyük Füzulinin özü Həbibi şeirindən təsirlənmiş və onun bədii təsvir baxımından gözəl bir qəzəlinə təxmis *(Şərq, o cümlədən Azərbaycan şeirində lirik janrın nisbətən az yayılan şəkillərindən biri)* yazmışdı. [5, s.741]

Çaldıran döyüşündən (1514-cü il) sonra Həbibinin ömrünü Türkiyədə keçirməsi haqqında mənbələrdə qısa məlumat verilsə də, səbəbləri göstərilməyib. Fikrimizcə, görkəmli şair Çaldıran döyüşündən sonra, I Səlim tərəfindən İstanbula aparılan sənətkarlar arasında olub. Bu məsələ barədə tarixi mənbələrdə aşağıdakı məlumat var: "Əsas döyüş 1514-cü il avqustun 23-də Maku şəhəri yaxınlığındakı Çaldıran düzündə baş verdi... Sentyabrın 6-da Sultan Səlim Səfəvilər dövlətinin paytaxtı Təbrizə daxil oldu, lakin bir həftədən sonra geri döndü. Qışın yaxınlaşması, ərzaq qıtlığı və ən nəhayət, qızılbaş döyüşçülərinin vətən torpağı uğrunda misilsiz igidliyi Sultan Səlimi Azərbaycandan tezliklə çıxmağa vadar etdi... Sultan Səlim geri dönərkən, bir neçə min mahir Təbriz sənətkarını ailəliklə əsir alıb Türkiyəyə apardı." [4, s.178-179]

Azərbaycandan aparılan həmin əhalinin bir hissəsi 1509-cu ildə İstanbulda baş verən güclü zəlzələdən sonra şəhərdə həyata keçirilən bərpa işlərinə cəlb edilib. Fikrimizcə, şair Həbibi də onların arasında olub və İstanbula gətirildikdən 6 il sonra, 1420-ci ildə burada vəfat edib.

Həbibinin ədəbi irsindən yalnız 50-yə qədər şeiri (qəsidə,

qəzəl, müsəddəs *(hər bəndi 6 misradan ibarət klassik şeir forması)*, tohid, qitə və s. məlumdur. Şairin şeirləri "Şeirlər" (1981), "Qəsidələr, qəzəllər. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 clddə", 3-cü cild (1984) və "Həbibi. Şeirlər" (2006) kitablarında nəşr olunub.

### *4. XVIII əsr tarixi abidəsi — Surxay qalası*

Göyçayın tarixi ilə bağlı bu günə kimi təqdim olunan yazılarda Göyçayda mövcud olan Surxay qalası ilə bağlı məlumatlar hələ də qeyri-dəqiqdir. Goycay rayonunun Şəhadət və Mirzəhüseynli kəndləri arasında, Böyük Qafqaz dağlarının uzaq cənub ətəklərində yerləşən Surxay qalasını tarixi mənbələrə əsasən XVIII əsrə aid etmək olar. Lakin sosial şəbəkələr və KİV-də qala haqqında hələ də yanlış olaraq aşağıdakı fikirlər öz əksini tapmaqdadır:

- ***"Ərəbcəbirli kəndindəki XII-XIV əsrlərdə inşa edilmiş Ərəb xilafəti dövrünə aid "Surxay" qalası". [21]***
- ***Şəhərdən 6-7 km şimal-qərbə doğru qalıqları indiyədək qalan Surxay qalası (Alban dövrü). [16]***
- ***Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) M.Ş.Vazeh adına Mərkəzi Kitabxanası "Ölkəmizi tanıyaq" layihəsinin virtual formada davamlılığını təmin edir. "Vətənimizə virtual səyahət" layihəsi çərçivəsində hazırlanan videoçarxda Göyçay rayonunun ərazisində xalqımızın tarixi keçmişini əks etdirən tarixi abidələr sırasında Surxay qalasının XII-XVI əsrə aid olduğu bildirilir.***

Bu məlumatlarla yanaşı, qala haqqında sosial şəbəkələrdə məlumat əldə etmək üçün axtarış edəndə ən çox rast gəlinən məlumat 2018-ci il iyulun 23-də baş verən hadisə barədə yazıla-

rın sərlövhələridir: “Göyçayda “Surxay qalası” adlanan dağlıq ərazidə və meşə sahəsində yanğın başlayıb.”

Fikrimizcə, Surxay qalası haqqında verilən bu məlumatlar obyektivlikdən uzaqdır və gerçəkliyi əks etdirmir. Qala ilə bağlı indiyənə qədər heç bir elmi araşdırma aparılmadığından, bugün də tarixi abidə haqqında əhalinin əksəriyyəti məlumatsız olaraq qalır.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin saytında toplanan 175 müdafiə qurğuları içərisində Göyçaydakı Surxay qalasının adı olmasa da, Oğuz rayonunda olan Surxay xan qalası haqqında aşağıdakı məlumat var:

***Surxay xan qalası - Azərbaycanın qəhrəmanlıq tarixi və memarlıq mədəniyyətinin gözəl nümunələrindən biri də Oğuz rayonunun Yuxarı Filfilli kəndindəki Surxay xan qalasıdır. Qala düzbucaqlı formada olub, hündür qaya üzərində ucaldılıb. Eni 1 metrə yaxın, hündürlüyü təxminən 10 metr olan qala divarları qayanın düz uçurumunda bənd edilib. Qala əsasən çay daşından və kərpic məhlulundan hörülüb. Əfsus ki, qalanın divarları bir neçə yerdən dağılıb. Bütün müdafiə qalaları kimi, Surxay xan qalasının da gizli yolu olub. Bu yol, adətən mühasirədən çıxmaq, yaxud həmin yol vasitəsilə ətrafla əlaqə yaradarkən düşməni duyuq salmamaq üçün nəzərdə tutulub. Qalaya yeraltı su kəməri də çəkilib. Bu isə yadellilərin hücumları zamanı əhalinin müdafiə üçün qalaya çəkilməsi və uzun müddət burada yaşamasına dəlalət edir. Qalanın ətrafındakı yaşayış evlərinin xarabalıqları bu gün də qalmaqdadır. Qala XVIII əsrdə Dağıstan feodalı Surxay xan tərəfindən tikilib, Nadir şahın Dağıstana və Azərbaycana hücumları zamanı dağıdılıb. [18; 19]***

Fikrimizcə, Göyçaydakı Surxay qalası, qonşu rayon olan Oğuzdakı Surxay xan qalası ilə eyni şəxsin adını daşıyır və

eyni dövrə, XVIII əsrə aiddir. Bəs qalanın adını daşıdığı Surxay xan kim olub?

**Surxay xan Gəray bəy oğlunun** hökmdar olduğu Qazıqumux xanlığı Azərbaycanın şimal xanlıqlarının Dağıstanla sərhədində yerləşib. Xanlıq XI-XII əsrlərdən bu ərazilərdə mövcud olan şamxallıq dağıldıqdan sonra, 1642-cı ildə yaranıb. Xanlığın mərkəzi Qumux şəhəri idi. Qazıqumux xanlığının ilk hökmdarı olan Suraxay xan hakimiyyətə gəlmək üçün ona tabe olmaq istəməyən yeddi əmisi oğlunun qüvvələrinə qarşı mübarizə aparmalı olub. Bu mübarizədə sol əlini itirdiyinə görə ona Çolaq təxəllüsünü veriblər. Tarixi sənədlərdə o, I Surxay xan Çolak adlanır. Hakimiyyət uğrunda mübarizə uzun müddət getdiyinə görə, onun hakimiyyətə gəlməsinin dəqiq vaxtı bilinmir. Lakin 1710-cu ildə Qazıqumux ordusu yaratması haqqında



*Surxay xan*

tarixi sənədlərdə məlumat var. Hakimiyyət uğrunda mübarizədə qalib çıxan Surxay xan 1748-ci ilə qədər xanlığı idarə edib. Surxay xandan sonra oğlu Məhəmməd (1748-1789), daha sonra isə nəvəsi II Surxay (1789-1820) xanlığı idarə edib. Xanlıq Dağıstanda çar Rusiyası əleyhinə baş verən milli azadlıq hərəkatı yatırıldıqdan sonra, 1860-cı ildə ləğv edilib. [28; 29; 34]

Surxay xanın hakimiyyəti altında olan ərazinin milli tərkibi haqqında A.A.Bakıxanov yazırdı: "Qazıqumux şəhərində və bu böyük şəhərdən ayrılmış olan bəzi nahiyələrdə üç tayfa sakindir: Qaççi, Məççə, və Qumuq. Ehtimal ki, Qaççi tayfası Hun, Slavyan, Avar və Xəzər nəslindən olsun; Məççə - Məkkə sözündən dəyişmə olub, ərəblərin Qüreyş qəbiləsindən Qumuq da, qədim Kamak tayfasından olsun." [7, s.11]

Dağıstanda olan bir çox xalqların və əmirliklərin müxtəlif dilləri və hesabsız ləhcələri vardır. Bunlardan beş dil ümumiyyətlə daha çox işlənir. 1) Qumuq ləhcəsilə olan türkcədir. Bu dil Qaytağın aşağı hissəsində, Şamxal mülkündə və Qumuqda olan bütün düzlərdə işlənməkdədir. Bununla bərabər, başqa yerlərin əhalisindən bir çoxu da bu dili bilir. 2) Avar dilidir. Bu dil bütün Avarıstana yayılmış və bir çox xalqlar arasında işlənməkdədir. Sair qəbilələrdən bir çoxu da bu dili bilir. 3) Beş Aqquşa mahalının dilidir. Bu dildə Sürhidə və Qaytağın yuxarı mahallarında müxtəlif ləhcələrdə danışılır. 4) Qazıqumux dilidir. Bu dil həmin ölkəyə məxsusdur. 5) Mıçıqıç dilidir. Bu dil həmin ölkəyə və bu ölkənin yuxarı nahiyələri olan Şübut, Carili və sairə məxsusdur. [7, s.13]

Əlamətdar haldır ki, əvvəlki dövrlərdə olduğu kimi XVIII-XIX əsrlərdə Qafqazda, o cümlədən Dağıstanda millətlərarası ünsiyyət dili kimi Azərbaycan dili işlənirdi. Bunu görkəmli rus şairi Lermontov da Qafqazda sürgündə olarkən dostlarına yazdığı məktubda təsdiq edib.

Rus şairi Lermontov Azərbaycan dilinin Qafqazda "linqva franka" olması barədə öz məktublarında məlumat verir. Lermontov Azərbaycan dilini bu baxımdan Avropada istifadə edilən fransız dili ilə müqayisə edirdi. [37, s.12]

M.Y.Lermontov dostu Rayevskiyə yazırdı: "Tatar dilini (yəni Azərbaycan dilini) öyrənməyə başlamışam, fransız dili Avropada zəruri olduğu kimi, bu dil də burada və ümumiyyətlə, Asiyada zəruridir". [15, s.366]

Deməli, Surxay xanın Şirvana, o cümlədən Göyçaya gəldiyi və Şirvanı idarə etdiyi vaxt Dağıstanda vahid ünsiyyət dili kimi Azərbaycan dilindən istifadə olunub.

Azərbaycan dilinin regionda oynadığı böyük rolu digər bir fakt, 1923-cü ildə Dağıstanın yeganə rəsmi dilinin Azərbaycan dili elan edilməsi sübut edir. Bu status 1928-ci ilə qədər dəyişməz qalıb. [40, s.231] Azərbaycan dilinin rəsmi dil elan edilməsində Dağıstan MSSR Ali Rəyasət Heyətinin sədri olan Nəcmudin Samurskinin böyük əməyi olub. Samurski avar, dargin, kumık, lak və ləzgi kimi dillərin yalnız əyalətlərdə işləməsi üçün faydalı olduğuna inanırdı. Partiyanın siyasi xəttini kütlələrə çatdırmaq üçün vətəndaşlar "əsl mədəniyyətin dilini" bilməli idilər. Əslən ləzgi olan Samurski bu dil kimi Azərbaycan dilini görürdü. [40, s.130]

Hazırda Dağıstanda azərbaycanlılar yaşayan kəndlərdən ən çox diqqəti cəlb edən Rutul rayonunda yerləşən Aşağı Katrux kəndidir. Bu kənddə təxminən 400 nəfər azərbaycanlı yaşayır. Qəribəsi odur ki, bu kəndin 150 km radiusunda azərbaycanlılar olan heç bir yaşayış məntəqəsi yoxdur. Kənddə danışılan Azərbaycan dili güclü şəkildə lak dilindən təsirlənib. Əhalinin danışdığı dilin təxminən 10-15%-ni lak sözləri təşkil edir. Bu həmin kəndin lak dilində danışan Arakul və Yuxarı Katrux kəndlərinə bitişik olması ilə izah edilir. Kəndin cənubunda ru-

tullar, qərbində saxurlar, şimal-şərqində isə laklar məskunlaşıb. 2.035 metr hündürlükdə yerləşən bu əraziyə azərbaycanlıların hansı yolla gəlməsi haqqında qonşu laklar cürbəcür rəvayət və əfsanələr danışır. Kənd sakinlərinin danışdığına görə, bu ərazi Qazıqumux xanın yay bağı ikən burada onun icazəsi ilə 7 nəfər məskunlaşır. Bunun 4 nəfəri də xanın Şirvan yürüşü zamanı əsir alınan iki ləzgi və iki azərbaycanlı idi. Lak qızları ilə evləndirilən bu əsirlərin sayəsində bu yaşayış məntəqəsi Azərbaycan dilində danışmağa başlayıb. Başqa bir hekayəyə görə, Qazıqumux xanı I Surxay xan Nadir şahla müharibədə əsir aldığı azərbaycanlıları lak qızlarla evləndirmiş və indiki Aşağı Katrux kəndində onlara torpaq vermişdi. Sonuncu versiya tarixçilər tərəfindən daha etibarlı qəbul edilir. [13; 35, s.146]

Şimali Qafqaz və Cənubu Qafqazda yaşayan xalqların, xüsusilə də Azərbaycan xalqı ilə Dağıstan xalqlarının uzun illər şərəfli müştərək tarixi mövcud olub. Təsadüfi deyil ki, Azərbaycan tarixşünaslığının banisi hesab olunan Abbasqulu Ağa Bakıxanovun “Gülüstani-İrəm” əsəri Şirvanın və Dağıstanın tarixinə həsr olunub. Belə müştərək tarixin şanlı səhifələrindən biri də  XVIII əsrin əvvəllərində Qafqaz xalqlarının çar Rusiyasının işğalçı siyasətinə qarşı mübarizə tarixidir. Bu dövrdə çar Rusiyasına qarşı mübarizə ilə yanaşı, zəifləmiş Səfəvi dövlətinin ayrı-ayrı əyalətlərində, ucqarlarında üsyanlar baş veririrdi. Bu üsyanlarda da Şimali Azərbaycan əhalisi ilə Dağıstan əhalisi birlikdə iştirak edirdilər. Surxay xan da XVIII əsrin əvvəllərində Səfəvilər dövlətinin zəiflədiyi bir vaxtda onun müxtəlif ərazilərində baş verən üsyanlardan birinə rəhbərlik edib. Şəkidə baş verən etirazlara Hacı Çələbi başçılıq etdiyi kimi, Surxay xan da Qazıqumuxda bu prosesin önündə olub. XVIII əsrin əvvəllərində Səfəvilər dövlətinin bu cür ağır vəziyyətə düşməsində, ayrı-ayrı regionlarda baş verən üsyanlarda üsyançıları və bu

üsyanlara rəhbərlik edən şəxsləri qınamaq, fikrimizcə, düzgün deyil. Vəziyyətin bu həddə çatmasının əsas səbəbini I Şah İsmayıl kimi görkəmli şəxsiyyətin əsasını qoyduğu dövlətin II Təhmasibin dövründə düzgün idarə olunmamasında axtarmaq lazımdır. Səriştəsiz idarəçilik, vergilərin gündən-günə artması mərkəzdənqaçma qüvvələrinin fəallaşmasına səbəb olub. XVIII əsrin əvvəllərində Səfəvilər dövlətinin daxilində qanunsuzluq, dərəbəylik, rüşvətxorluq hökm sürürdü. 1702-ci ildə Şah Hüseyn vergiləri artırdı. Bununla bağlı 15 yaşından yuxarı hamı vergi sayımına alındı. Qaçqınlıq kütləvi hal almışdı. Volınski öz gündəliyində yazırdı: "Səfəvilər dövlətinin çörək ağası sayılan Azərbaycanda tarlalar yeddi ildir əkilmir, ölkədə aclıq var idi. 1711-ci ildə Car vilayəti üsyan etdi. Carlılar şah xəzinəsinə vergilərdən azad idilər. Əksinə, Səfəvi təbəəliyinə qoşulub sərhəd xidmətində sayıldıqları üçün onlara şah adından illər boyu pul ilə ödənc də verilirdi. Şirvan bəylərbəyliyinin özbaşınalığı ilə bu ödəncin kəsilməsi onları bərk narazı salmışdı. Carlıların Şəki və Şirvana girməsi bir çox yerlərdə kəndlilərin onlara qoşulması ilə nəticələndi. [2, s.465]

Cənubi Qafqazda yaranan bu vəziyyətdən Səfəvilərin regionda rəqibi olan Rusiya və Osmanlı imperiyaları istifadə etməyə çalışıb. Belə gərgin bir vəziyyətdə Hacı Davud və Surxay xan Osmanlı dövləti ilə əlaqə yaradaraq onun müttəfiqinə çevrildilər. Səvəfilərin zəifləməsi ilə Qafqazda Hacı Davud və Surxay xan vasitəsilə Osmanlı imperiyasının mövqelərinin güclənməsi çar Rusiyasını narahat etməyə başladı.

Surxay xanın mübarizəsi Səfəvi şahı II Təhmasibin və onun sərkərdəsi olan, sonradan Suqovuşanda şah seçilən Nadir xan Əfşarın hakimiyyət illərinə təsadüf edir. A.Bakıxanov bu barədə yazır: "Hicri 1124-cü (miladi 1712-ci) ildə müskürlü Hacı Davud, Üsminin və Surxayın köməyilə Quba hakimini

tələf edib, Şamaxını aldı və qüdrətli bir hökmdar oldu. Sonra, hicri 1138-ci (miladi 1725-ci) ildən Nadir şahın gəlməsinə qədər, Şamaxı 9 il Surxay xanın ixtiyarında qaldı. [7, s.39]

1721-ci ilin avqust ayında Hacı Davud, əsasən Qazıqumuxlu Surxay xanın qoşunları və üsyançı dəstələri ilə Səfəvilərin Şirvandakı əsas inzibati mərkəzi olan Şamaxını şamaxılıların köməyi ilə tutdu. [4, s.327] Şamaxı şəhəri alınarkən buradakı zəngin bazarın, karvansaraların, xarici ölkədən gələn tacirlərin, o cümlədən rus tacirlərinin bir neçə milyonluq malı qarət olundu. Qeyd etmək lazımdır ki, bu məsələdə rus tacirlərinin özlərinin də günahı olmuşdu... Üsyançılar şəhərə daxil olduqdan sonra tacirlərin əmlakını tələb etmiş, rus tacirləri isə bu tələbi yerinə yetirməmiş və üsyançılara toplardan atəş açmışdılar. Bundan sonra, adətən, xarici tacirlərə toxunmayan üsyançılar rus tacirlərini cəzalandırmışdılar. [4, s.327-328]

Peterburqda qorxurdular ki, Osmanlı dövləti Səfəvilərin süqutundan istifadə edib Rusiyadan əvvəl Xəzərboyu vilayətləri ələ keçirər. Qəti addım atmazdan əvvəl I Pyotr Xəzərboyu əyalətlərin sakinləri arasında yürüşün əsl səbəbini gizlətmək məqsədilə “Manifest” çap edib, xüsusilə rus ordusu hərəkət edəcək istiqamətdə yerləşən şəhər və kəndlərə göndərdi. “Manifestdə yürüşün əsl səbəbi, mahiyyəti ört-basdır edilir və göstərilir ki, rus ordusunun bu yürüşdə məqsədi Şirvan üsyanı zamanı Şamaxıda qətl və qarətə məruz qalan rus tacirlərinin intiqamını almaq, habelə Rusiya dövlətinin dostu olan İran şahına qarşı qalxan üsyançılara, xüsusilə Hacı Davuda və Surxay xana cəza verməkdən ibarətdir. I Pyotr “Manifest”ində, həmçinin yerli əhaliyə əmin-amanlıq da vəd edirdi. “Manifest” Azərbaycan dilində də çap olunub. [4, s.329-330]

Abbasqulu ağa Bakıxanov bu barədə yazırdı: “Qolikov I Pyotrun fəaliyyətindən bəhs edən tarix əsərində yazır ki, İran



*I Pyotrun "Manifest"i*

dövlətində səltənət işlərinin qarışıqlığını, Şirvanda rus tacirlərinin qarət edilib öldürülməsini nəzərə alaraq rus padişahı Pyotr hicri 1134-cü (miladi 1722-ci) ildə həziran (iyun) ayının 15-də Hacı Tərxana gəldi, İran vilayətinə bu məzmunda bir müraciətnamə yazdı: "Ləzgilərin əmiri Davud bəy və Qazıqumux əmiri Surxay öz padişahlarına yağı olub, hicri 1125-ci (miladi 1713-cü) ildə Şamaxı şəhərini yürüşlə almış, rus tacirlərini qətl və qarət etmişlər... İran padişahı bu fitnəkarların öhdəsindən gələ bilmir. Buna görə biz özümüz onlara tənbeh etmək və intiqam almaq fikri ilə o tərəfə gəlirik". [7, s.54]

Surxay xan öz dəstəsi ilə I Pyotra qarşı çıxdı. Ruslar 12 sentyabr 1723-cü ildə şah Təhmasibin Astrabaddan Sulaka qə-

dər Xəzəryanı ərazinin Rusiyaya güzəştə getdiyini iddia etsələr də, Surxay xan bunu qəbul etmədi. Bununla da Qazıqumux hakiminin nüfuzu ətraf ərazilərdə xeyli artdı.

I Pyotr Rusiyaya qayıtdıqdan sonra, Osmanlı sultanı Hacı Davuda xətti-şərif göndərib bildirdi ki, o, Krım xanı səlahiyyətində Osmanlı təbəəliyinə qəbul olunur. Sultan Hacı Davuda xan titulu verdi, onu Şirvan və Dağıstan hakimi kimi tanıdı. Lakin 1728-ci ildə Gəncədə Sultanın nümayəndələri ilə danışıqlardan sonra ondan xan titulu geri alındı. Onun yerinə sabiq müttəfiqi, sonralar isə rəqibinə çevrilən Qazıqumuxlu Surxay xan Şirvanda hakimiyyət başına gətirildi.

Osmanlı dövlətindən hərbi kömək alan Surxay xan Xəzərboyu əyalətlərə mütəmadi hücumlar edirdi. Surxay xanın, həmçinin Quba, Dərbənd, Salyan mahallarına basqınlarına cavab olaraq, Bakıdakı general-leytenant A.Rumyantsev təcili surətdə ona etiraz məktubu göndərdi. Lakin Təbrizdəki Osmanlı qarnizonundan kömək alan Surxay xan, Rumyantsevin məktubuna məhəl qoymadı, öz əməllərinə davam edirdi. General-leytenant, Rumyantsev onu cəzalandırmaq üçün podpolkovnik Puşeçnikovun başçılığı altında Bakı qarnizonundan dörd yüz nəfər əsgər göndərdi. Rus qoşunlarının Salyana yaxınlaşdığını eşidən Surxay xan cəld qərbə - türk qoşunlarının yerləşdiyi düşərgəyə çəkildi. Rus komandanlığının Surxay xanın əməlləri barədə Osmanlı nümayəndəliyinə şikayəti nəticəsiz qaldı. [4, s.335]

Surxay xan Rusiyaya və Səfəvilərə qarşı mübarizədə Osmanlı imperiyası və Krım xanlığına arxalanırdı. Nadir şahın qoşunları ilə ən qanlı döyüşlər 1734-1735-ci illərdə baş verdi. Bu döyüşlər Göyçaya yaxın olan Şamaxı-Gəncə-Qəbələ-Qazıqumux istiqamətində gedib. Bu döyüşlərdə bir sıra qalaların, Gəncə, Qüreyş və s. qalaların adı tarixi sənədlərdə çəkilir. A.Bakıxanov bu döyüşlər haqqında yazır: "Nadirin ordusu Ərdəbilə gəldi.

Şirvan hakimi Surxay xana yazılan fərmanı, Astara hakimi Musa xan öz adamı ilə Surxay xana göndərdi. O, fərman gətirən adamı öldürüb, Musa xana nalayiq sözlər yazdı... Buna görə əlahəzrət Nadir bu məğrur adamı cəzalandırmağı lazım bildi. Şirvanı fəth etməyi başqa qalaların alınması üçün açar saydı. Lakin o, Kür çayının kənarına çatanda, Surxay xan Şamaxını buraxıb Dağıstana getdi. Nadir hicri 1147-ci (miladi 1734-cü) ildə, aqustos (avqust) ayının 17-də Şamaxıya girib, Ərdəbil hakimi Məhəmmədqulu xan Səidlini Şirvana hakim təyin etdi." [7]

Nadir şah Şamaxıda olanda Surxay xanın Qəbələdə müharibəyə tədarük gördüyünü eşidib, 1734-cü il sentyabr ayının 6-da yüngül topxana və 12 000 süvari ilə Surxay xanın sığınağı və qərargahı olan Qazıqumuxu almaq üçün hərəkət etdi. Burada eşitdi ki, Car və Tala ləzgiləri, Mustafa paşa, Nur paşa və Fəth Gəray sultan səkkiz min rumlu (osmanlı) və tatarla Gəncə valisi Əli paşanın əmri ilə Qəbələdə olan Surxay xanın köməyinə gəlmişlər. Ümumiyyətlə, Surxay xanın başına 20 000 qoşun toplanmışdır. [7, s.62]

Surxay xanın Səfəvilərə və sonradan Nadir şah Əfşara qarşı baş verən üsyanın başçısı kimi Osmanlı dövləti ilə müttəfiq olması tariximizin izahata ehtiyacı olan, diqqət çəkən ziddiyətli məqamlarını özündə əks etdirir.

Azərbaycan tarixinin ən mürəkkəb və ziddiyyətli problemlərindən biri Səfəvilər dövlətinin Osmanlı imperiyası və Krım xanlığı ilə münasibətləri, bunlar arasında baş verən ziddiyyətlər və müharibələrdir. Ziddiyyətlərlə dolu olan bu probleme çox böyük həssaslıqla yanaşılmasına ehtiyac var. Osmanlı-Səfəvi müharibələri dövründə Osmanlı qoşunlarının və onların müttəfiqlərinin Azərbaycan ərazisinə gəlməsinə necə münasibət bəsləmək lazımdır? Müxtəlif tarixi dövrlərdə Səfəvi və Osmanlı qoşunlarının Azərbaycan ərazisində bir-birini əvəz

etməsinə müasir dövrdə münasibət necə olmalıdır?

Bir tərəfdə müasir dövrdə "Bir millət, iki dövlət" şüarı ilə iki qardaş xalqın tarixi... XX əsrin əvvəllərində (1918-ci ilin iyun-oktyabr ayları) Azərbaycan xalqını soyqırımdan xilas edən, Azərbaycan Xalq Cümhuriyyətinin beşikdəcə boğulmasının qarşısını alan Qafqaz İslam Ordusu, bunun davamı olaraq qəhrəman Azərbaycan Milli Ordusunun 44 günlük Vətən müharibəsindəki möhtəşəm qələbəsinə dəstək verən qardaş Türkiyə Cümhuriyyəti, digər tərəfdə isə Səfəvilərə və Nadir şah Əfşara qarşı vuruşan, Azərbaycana gələn Osmanlı qoşunları və onun müttəfiqi olan Surxay xan kimi qəhrəmanlar. Bunlara necə münasibət bəsləməli?

Fikrimizcə, M.Ə.Rəsulzadənin 1918-ci ilin noyabrında "Qafqaz İslam Ordusu"nun şərəfinə verilən ziyafətdəki çıxışı bu suallara cavab verməkdə yardımçı ola bilər. M.Ə.Rəsulzadə deyir: "Türklər Bakıda ilk dəfə degildirlər. Böylə bir vəziyyəti-siyasiyyəyi Bakı bundan 350 sənə əvvəl dəxi keçirmişdir. O vəqt Özdəmiroğlu Osman paşa bir miqdar əskərlə bu tərəflərə gəlmiş, Şamaxı, Quba, Dərbənd və Bakıyı almışdı. Bir az sonra Hökuməti-Mərkəziyyə əqdi-sülh edərək Özdəmiroğlu yalnız qalmış, İstanbul tərəfindən tərk olunmuşdu. Fəqət o cəsur komandan məyus olmamış, əzminə xələl gətirməmişdi. Hər növ hücumları müdafiə elmək lazım idi. Osman Paşa Bakı neftini inhisar altına almış, ipəgə külli maliyyat vəz eləmiş, bu surətlə büdcəsini yoluna qoymuş, Bakı qalasını təmir edərək müdafiəsini Əhməd bəy namında bir komandana tapşırmış, kəndisi Dəmir Qapıya - Dərbəndə çəkilmişdi. Bu surətlə Bakı altı ay tamam mühasirəyə dayanmış, nəhayət düşməni dəf edə bilmişdi. Tarix yenə təkrar edə bilər, həm etməlidir!... Dağları, dərələri, susuz səhraları aşıb gələn qardaşlarımızla bərabər şu doğma topraqlarımız üzərində qayalaşdıq, yenidən qardaş olduq. Topraqlarımız əsrlərdən bəri

yekdigərini qaib etmiş qardaşların əməl yolunda verdikləri qurban qanları ilə islandı; Turan toxumu əkildi”. [9, s.75-76]

M.Ə.Rəsulzadənin qardaş türk ordusu barədə dediyi bu fikirlər Osmanlıların müttəfiqi olan Surxay xanın üsyanından təxminən iki əsr əvvəl baş verib. O zaman Şirvan ərazisini, o cümlədən Göyçayı idarə etmiş türk sərkədəsi kim olmuşdur?

Özdəmiroğlu Osman paşa 1573-cü ildə Diyarbəkirə bəylərbəyi təyin olundu. Bu vəzifədə ikən Səfəvi cəbhəsi sərdarı Lələ Mustafa Paşanın ordusuna qatılaraq səfərə çıxdı. Çıldır müharibəsində göstərdiyi rəşadət səbəbilə 1578-ci ildə Şirvan bəylərbəyliyinə gətirildi. 5 il boyunca burada fəaliyyət göstərən Özdəmiroğlu Osman Paşa bu illər ərzində Şirvan, Azərbaycan, Dağıstan və Gürcüstan torpaqlarında Osmanlı hakimiyyətini qoruyub saxladı. 9 sentyabr 1578-ci il tarixində Səfəvi orduları ilə Qanıx çayı sahilində qarşılaşdı və qalib gəldi. Krım xanı II Mehmed Gərayın köməyilə Qarabağ, Muğan və Qızılağaca qədər bütün Azərbaycan torpaqları ələ keçirildi. Bu illərdə müvəqqəti olaraq Şirvan Səfəvilərin əlinə keçsə də, Kəfə (indiki Feodosiya) bəylərbəyi Cəfər Paşanın göndərdiyi qoşunla 8 may 1583-cü il tarixində baş tutan Məşəl savaşında qələbə qazanıldı və Şirvan yenidən Osmanlı hakimiyyətinə keçdi. 27 oktyabr 1585-ci il tarixində xəstəliyi səbəbilə Təbrizdən ayrıldı, Şənbi-Qazan istiqamətində irəliləməyə başladı. Osman Paşa 59 yaşında vəfat etdi və vəsiyyətinə uyğun olaraq Diyarbəkirə gətirilərək burada inşa etdirdiyi türbəsində dəfn olundu. [24; 25]

Fikrimizcə, Surxay xan, zəifləyən dövlətin yerli məmurlarının özbaşınalığına qarşı və çar Rusiyasının müstəmləkə siyasətinə qarşı Osmanlı dövlətinin müttəfiqi kimi qətiyyətli mübarizə aparan qəhrəman bir sərkədə kimi yad edilməlidir. Onun mübarizəsi şəkili Hacı Cələbinin və digər şəxsiyyətlərin həmin dövrdə apardığı mübarizə ilə eyni mahiyyət daşıyıb.

## İstifadə olunan ədəbiyyat


1. Azərbaycan tarixi, Z.M.Bünyadov və Y.B.Yusifovun redaktəsi ilə, Azərbaycan tarixi, 1-ci cild, Bakı, 1994, 496 s

2. "Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci ilə qədər", Bakı, 1996

3. "Azərbaycan tarixi. Yeddi cilddə. II cild (III-XIII əsrin I rübü)", Bakı, 2007, 608 səh. - 24 səh. illüstrasiya

4. "Azərbaycan tarixi. Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər)", Bakı, 2007

5. "Azərbaycan Milli Ensklopediyası. 25 cilddə. "Azərbaycan" xüsusi cildi", Bakı, 2007

6. Aşurbəyli S., "Şirvanşahlar dövləti", Bakı, 2006, 416 s.

7. Bakıxanov A., "Gülüstani-İrəm" (Tərcumə edeni M. Əskərli), Bakı, 2000, 224 s.

8. Bünyadov Z., "Azərbaycan VII-IX əsrlərdə", Bakı, 2007, 424 s.

9. Rəsulzadə M.Ə., "Əsərləri. V cild", Bakı, 2014, 564 s. ("Azərbaycan", 14 təşrini-sani (noyabr) 1918, №39)

10. Süleymanov E.S., Nəsirov B.M., "Hacı Rəhim Əfəndi", Bakı, 1993, 104 s.

11. Şıxalıyev H., "Qaramanlı tayfası", "Tarix və onun problemləri", №2, 2014

12. Tural Həmid, "Azərbaycan Ərəbləri", 23.08.2020 - https://azlogos.eu/

13. Tural Həmid, "Azərbaycan dilinin Dağıstan ictimai-siyasi həyatına təsiri (19-cu əsrdən bugünə kimi)", 12.08.2019 - https://azlogos.eu/ /dagistanda-azərbaycan-dili/

14. Vəlixanlı Nailə Məmmədəli qızı, "Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər", Bakı, 2016, 480 s.

15. Zülfüqarlı N.P., "Azərbaycan tarixi. Tarixşünaslıq (1920-1991-ci illər)", Dərslik, Bakı, 2017, 498 s.

16. “Ədalət” qəz., 17.06.2011

17. http://goychay-ih.gov.az/page/11.html

18. http://medeniyyet.az/site/?name=content&content=5081

19. http://m.gomap.az/info/PoiList.aspx?lvo=4&idlo=23&pageidx=9

20. http://az.baku-art.com/az/virtual-seyahetimizin-novb-ti-m-kani-g-ychay-rayonu

21. https://www.unikal.org/news/187720/surxay-qalasi-ve-mese-sahesi-yanir-son-deqiqe

22. http://mdtf.az/xeberler/758-cbrayil-rayonu-haci-qaraman-ziyartgahi.html

23. https://elminisayev.wordpress.com/2011/03/26/cəbrayil-rayonu/

### *Türk dilində*

24. Uzunçarşılı, İsmail Hakkı, (1954) “Osmanlı Tarihi III Cilt”, 2. Kısım , XVI

25. “Yüzyıl Ortalarından XVII. Yüzyıl Sonuna kadar”, Ankara: Türk Tarih Kurumu, 2011, say. 341

26. https://tarihinburada.blogspot.com/2017/01/karamanogullari-beyligi-1256-1487.html

27. https://www.tarihiolaylar.com//tarihi-olaylar/karamanogullari-1256-1487-757

### *Rus dilində*

28. Бакиханов А.К., «Гюлистан-и Ирам», Баку, 1991,

29. Джонс В., «История Надир шаха», Лондон, 1770 г. с.196

30. Волкова Н., (1967), «Вопросы двуязычия на Северном Кавказе», «Советская этнография», № 1

31. Волкова Н., (1983), «Арабы на Кавказе», «Советская этнография», 1983, № 2.

32. Генко А., (1941), «Арабский язык и кавказоведение», «Труды второй сессии ассоциации арабистов»

33. Гейбуллаев Г., (1991), «К этногенезу азербайджанцев», Том 1.

34. Комаров А.В. «Казикумухские и кюринские ханы», ССКТ, Тифлис. 1869. вып.

35. Лавров Л., (1982), «Этнография Кавказа: по полевым материалам 1924-1978 гг.»

36. Петрушевский И.П, «Государства Азербайджана в XV в. Сб. статей по истории Азербайджана», Вып. 1, Баку, l949

37. Попов А., (1954), «Лермонтов на Кавказе»

38. Оразаев Г., (2003), «Исторические сочинения Дагестана»

39. Шихсаидов А., (2001), «Арабская рукописная книга в Дагестане»

***İngilis dilində***

40. Grenoble, (2003), "Language Policy in the Former Soviet Union"

## Göyçay XIX-XX əsrin əvvəllərində

XIX əsrin əvvəllərində Göyçaya yaxın ərazilərdə çox ciddi hadisələr baş verib. Rus qoşunlarının 1803-cü ildə Çar-Balakən, 1804-cü ildə Gəncə, 1805-ci ildə isə Qarabağ, Şəki, Şirvan xanlıqlarını tutmasından sonra, 1830-cu ildə çar Rusiyasına qarşı Çar-Balakən, 1838-cu ildə isə Şəki üsyanlarını bura aid etmək olar. Hələlik tarixi mənbələrdə bu dövrdə Göyçayda baş verən hadisələr haqqında məlumat əldə etmək mümkün olmayıb. Gələcəkdə tədqiqatlar genişləndinkcə çox güman ki, XIX əsrin əvvəllərinə aid Göyçayda baş verən hadisələrin üzərinə işıq salmaq mümkün olacaq.

Göyçay haqqında məlumatlara, əsasən XIX əsrin ikinci yarısından başlayaraq rast gəlmək olur. [24] Həmin dövrdə Rusiyda toxuculuq sənayesinin sürətlə inkişafı, onun xammala - pambığa olan təlabatının artması Azərbaycanda pambıqçılığın inkişafına təkan verdi. Tezliklə Azərbaycana rus şirkətlərinin nümayəndələri gəldilər. Pambıqçılığın əsas rayonları Göyçay və Cavad qəzaları idi. Pambığı suvarmasız yetişdirməyin mümkün olmaması Kür-Araz vadisində süni suvarmanın genişlənməsinə şərait yaratdı. Pambığa maraq o qədər artmışdı ki, adətən təsərrüfatla məşğul olmayan bəylərin bir qismi də pambıq becərməyə başlamışdılar. Onlar öz təsərrüfatlarında bütün işləri muzdlu əmək tətbiq etməklə görürdülər. Beləliklə, pambıqçılıq kənd təsərrüfatında kapitalist istehsal münasibətlərinin inkişafına güclü təkan verdi. Pambıqçılıqla yanaşı bağçılıq da Göyçayda çox yayılmışdı. [1, s.600-601]

Çar Rusiyasının Qafqazda apardığı inzibati islahatlar çərçivəsində 1867-ci ilin 9 dekabrında Bakı quberniyasının tərkibində Göyçay qəzası yaradılıb. Rus tarixşünaslığının verdiyi məlumata görə, XIX əsrin ortalarında Bakı quberniyasının Göyçay

qəzasında 9 990 həyət mövcud idi, 50 053 nəfər əhali (onlardan 27 509 nəfəri kişi, 22 544 nəfəri isə qadın idi) yaşayırdı. Göyçay qəzasında (şəhərsiz) 1 həyətə orta hesabla 5 nəfər düşürdü. Qəzanın sahəsi 4,156 kvadrat verst və ya 86 kvadrat mil idi ki, bu da bütün quberniyanın 12,22%-ni təşkil edirdi. [6, s.68; 15, s.11]

1894-cü ildə Kürdəmir məntəqəsi Şamaxı qəzasından alınaraq Göyçay qəzasına birləşdirildi.

İ.Mədətov və M.Zülfüqarlının 2018-ci ildə nəşr olunan "Azərbaycan tarixi. Dərslik" kitabının 292-ci səhifəsində Göyçay qəzasında kapitalizmin inkişafına aid maraqlı məlumat verilib. Bu məlumatda Göyçay qəzasında biyan kökü istehsalının geniş yayıldığı bildirilir: "Kür çayının axarı boyu geniş yayılmış biyan kökündən hazırlanan lakritsa maddəsi texniki və müalicəvi (sinə xəstəliklərinin müalicəsində istifadə olunurdu) əhəmiyyətə malik idi. Dəmir yolu çəkiləndən sonra ona tələbat və maraq artdı. Yunan təbəələri Xrussaki və Gizi qardaşları 1886-cı ildə Ləkidə zavod tikdilər. Biyan kökü zavodda qurudulur, preslənir və xaricə ixrac edilirdi. 1890-cı ildə Urkard tərəfindən Göyçay qəzasının Ucar stansiyasında, 1894-cü ildə isə ingilis təbəəsi İosif Bliss tərəfindən Kürdəmirdə biyan zavodları tikildi. İ.Bliss həmin il Gəncə stansiyasında da belə bir zavod tikdirdi. Dəmir yolu boyu tikilən bu kapitalist müəssisələrində 280-300 nəfər fəhlə çalışırdı. İldə orta hesabla 650-700 min manat xalis gəlir götürülürdü. Lakin 1890-cı illərin ortalarında Suriyada zəngin biyan kökü bitkisi aşkar edildikdən sonra, xarici kapital öz fəaliyyətini oraya yönəltdi. Azərbaycanda onun istehsalı dayandı."

XIX əsrin 80-ci illərinin məlumatına görə, Göyçay qəzasındakı torpaqların 87%-i (343 073 desyatin), 1916-1917-ci illərdə isə 82,7%-i (334 463 desyatin) dövlət xəzinə torpaqları idi. Əhalinin əksəriyyətini azərbaycanlılar təşkil edirdi. XIX əsrin 80-ci illərinin ortalarında Göyçay qəzası əhalisinin 76,76%-ni azər-

baycanlılar, 19,38%-ni ermənilər, 2,36%-ni ruslar, 1,5%-ni yəhudilər təşkil edirdi. [19] Rusiya imperiyasında ilk dəfə keçirilən 1897-ci il əhalinin siyahıya alınmasının nəticələrinə görə, qəza mərkəzi olan Göyçay qəsəbəsində 2.201 nəfər əhali yaşayırdı ki, bunların da 1 507 nəfəri (68,5 %) azərbaycanlı, 296 nəfəri (13,4 %) erməni, 190 nəfəri (8,6 %) avar, 129 nəfəri (5,9 %) rus, 24 nəfəri (1 %) ləzgi, 15 nəfəri (0,7 %) gürcü, 9 nəfəri (0,4 %) ukraynalı, 7 nəfəri (0,3 %) fars, 6 nəfəri (0,3 %) qazı-kumuk, 6 nəfəri (0,3 %) polyak, 5 nəfəri (0,2 %) alman, 2 nəfəri (0,09 %) tat, 1 nəfəri (0,05 %) isə yəhudi idi. [23]

### *1. Göyçay yəhudilərinin mənşəyi*

Ermənilər Azərbaycana, o cümlədən Şirvana çar Rusiyası tərəfindən Türkmənçay müqaviləsi ilə, 1828-ci ildən sonra köçürülüb. Göyçay qəzasına yəhudilərin gəlişi isə XVIII əsrə təsadüf edir. Onlar, əsasən Göyşay qəzasının Mücü və Mücühəftəran kəndlərində yaşayıblar. Göyçay şəhərinə yəhudilər həmin kəndlərdən köçüblər.

Mücühəftəran kəndi dağətəyi ərazidə yerləşir. Yaşayış məntəqəsi XIX əsrin 60-70-ci illərində Mücü kəndindən bir qrup ailənin Həftəran dərəsinə köçərək məskunlaşması nəticəsində yaranıb.

Mücü kəndində yəhudi icması XVIII əsrin axırlarında meydana çıxıb. XIX əsrin axırı - XX əsrin əvvəllərinə qədər kəndin adı Haftaran-Mücü adlanırdı. Mücü kəndi 1859-cu ildə baş verən zəlzələyə qədər Şamaxı xanlığının paytaxtı olan Şamaxı şəhərinin yaxınlığında yerləşirdi. Zəlzələdən sonra insanlar şimala köçməyə və bir çox yəhudi hazırkı İsmayıllı rayonunda məskunlaşmağa başladı. XVIII əsrin sonlarında Mücühəftəranda 3 000 yəhudi, bir sinaqoq və iki yəhudi məktəbi var idi.

İ.Çernov İsmayıllının Basqal kəndindən cənub-şərqdə yerləşən Kürdovan kəndində də əvvəllər yəhudilər yaşadığını, [27, s.106-107] İ.Ş.Anisimov isə 1886-cı ildə bu kənddə yəhudi qəbiristanlığının olduğunu və kəndin yaxılığında olan Gavur qalasının yəhudi qalası olduğunu iddia edir. [26, s.13]

Mücü kəndində araşdırmalar zamanı məlum olmuşdur ki, kəndin dörd bir tərəfində maraqlı yaşayış məskənləri, qalaların qalıqları vardır. Mücü kəndindən şərq tərəfdə Fitdağ şəhərinin qalıqları, qərb tərəfdə Niyal qalasının qalıqları, şimalda isə Şirvanşahların zindanı yerləşən qalanın qalıqları vardır.

Sonuncu Şirvan xanı Mustafa xanın məskən saldığı Fit qalasının, Fit dağının ətəklərində yerləşən Mücü kəndi xalq sənətkarlığı, ticarət, xüsusilə Qanovuz ipək parçası toxuculuğu ilə tanınıb. Yalnız Mücüyə aid olan Qanovuzu (daha çox qövsi-quzeh formasında) indi muzeylərdə görmək mümkün olar.

Hazırda Mücu kəndində abidələr üzərində qədim yazılar, yəhudi qəbiristanlığı mövcuddur. Heydər Əliyev Fondunun vəsaiti hesabına kənddə olan qədim yəhudi qəbiristanlığında təmir və bərpa işləri aparılıb. Qəbiristanlığın qarşısında II Dünya müharibəsi zamanı həlak olan kəndin yəhudi nümayəndələrinin siyahısı həkk olunan  memorial lövhə qoyulub.

2019-cu ildə əslən mücülü olan Həsən Həsənovun "Mücü - əsrlərin yadigarı"adlı kitabı nəşr olunub. Əvvəllər Göyçay qəzasının ərazisində yerləşən Mücü kəndi, hazırda  İsmayıllı rayonu ərazisinə aiddir. İsmayıllı rayonu ilə İsrailin Kiryat Bialik şəhərinin qardaşlaşmasında bu kənddə yaşayan yəhudilərin böyük rolu olub.

Göyçay şəhərinin əsas məhəllələrindən biri olan Cuhudlar məhəlləsinin yaranması da məhz Mücü və Mücühəftəran kəndlərindən Göyçaya köçüb gələn və burada məskunlaşan yəhudilərlə əlaqədardır.

## *2. Göyçay qəzasının kəndləri*

Göyçay qəzasına daxil olan kəndlərin əksəriyyətinin adları Azərbaycan tarixi ilə bağı olan qədim türk tayfaları ilə bağlıdır: Qaraman kəndi ilə yanaşı, Göyçay qəzasında Əlicanlı, İlxıçı Əlicanlı, Qaravəlli Ağa Məhəmməd, Alpı, Bağırbəyli, Bərgüşatlar, Bağman, Binaslı, Boyat, Məlik Ümid, Cırqurd, Hacı Ağabəyli, Yeniarx, Ucar, Gəraybəyli, Zərdab, Zərdab Qəndəbil, İlxıçı, Naxırçı, Qelanlar//Kelanlar, Qazyan, Hacı Əlikənd, Qarabörk, Qaracallı, Pirkənd, Qoyunlu Şıxlı, Qulabənd, Küçəqədi, Lək, Lələ Əhmədli, Qaravəlli Xanlıq, Küramiç, Müskürlü Kirli, Müskürlü Molla Qədim, Müsüslü, Yeni Şilyan, Əhmədli, Kürd, Qarabağlar, Potu, Rəstəcə, Ulaşlı Şıxlı (Umudlu Şıxlı), Qaravəlli Tantux, Çallı, Danabasan, Türkəcə, Çiyni, Yuxarı Şilyan, Aşağı Şilyan. Qeyd edilən kəndlərin bir qismi hazırda başqa rayonların tərkibinə daxildir.

Göyçay rayonunda Beşqardaş dağı, Bozdağ, Çayarxı dağı, Çörmə dağı, Ərəbcəbirli dağı, Gəlinqaya (dağ), Gözəlcə dağı, Qaraquş dağı, Qarğılı//Qarqılı dağ, Qaratikanlı dağ, Qar daşlar dağı, Mirzəhüseynli dağı, Mirzəmehdili dağı, Pələngtullanan dağ, Şahsoltanlı dağı, Şıx dağı, Təpə dağ, Topatılan dağ, Törə//Torə dağı, Yanardağ, Yekəxana dağı və s. dağ adları mövcuddur.

Rayon ərazisində tayfa adlarını əks etdirən yer adları da var. Məsələn: Alpout qobusu, Arvan dərəsi, Arvan dağı, Qarabağlar ərazisi, Türk dağı, Ləzgi dağı, Kürd yeri və s. [11]

İndiki Göyçay şəhərinin yerində əvvəllər **Potu** kəndinə məxsus bağlar olub. Keçmişdə Aran rayonlarına yol buradan keçdiyinə görə Potu bağları ərazisində karvansara salınıb və mal bazarı olub. Bazara mallar Potu kəndindən gətirildiyindən, ona Potubazar deyilirdi. Bazar dağıldıqdan sonra, onun adı bir müddət də qaldı, sonralar isə bu ad istifadədən çıxdı. Bir cəhəti

də qeyd edək ki, Azərbaycan dilində Potu sözünün şəxs adı kimi işləndiyi məlumdur. Azərbaycanın Saatlı rayonunda Potubəyli yaşayış məntəqəsi vardır. Kənd XIX əsrin birinci yarısında Mollaavazlı kəndindən köçüb gələn Potu bəyə məxsus ailələrin məskunlaşması nəticəsində salınıb. Toponim "potubəylilər" mənasındadır. Göründüyü kimi, Potu şəxs adı kimi işlənib. "İri, yekə" anlamlı metaforik Potu antroponimi əsasında formalaşan Potu toponimi antropotoponimdir. İndiki Göyçay ərazisində sonralar poçt məntəqəsi yaradılıb. 1851-ci ildə məntəqə ətrafında cəmi 5 evin olduğu bildirilir. [11]

1867-ci ilin dekabrında indiki Göyçay şəhəri ərazisində poçt məntəqəsi yanında qəza inzibati mərkəzi və məhkəmə idarəsi təsis edilib. 1872-76-cı illərdə Göyçay çayının sahilində 15 desyatinlik yerdə planlı şəkildə şəhərsalma işləri aparılıb. 1916-cı ildən Göyçay yaşayış məntəqəsinə şəhər statusu verilmiş, Göyçay şəhərinin və rayonun inkişafı da bu vaxtdan başlanmışdır. [18]

Qaraman kəndi kimi **Alpout** kəndi də qədim türk tayfalarından birinin adını daşıyır. 1914-cü ilə aid mənbədə Azərbaycanda Alpout adlı 11 kəndin mövcud olması haqda məlumat verilib. Vaxtilə Göyçay qəzasında Alpı, Alpout-Mərdan, Alpout-Mehdibəy adlarında kəndlər mövcud olub. Hazırda Azərbaycanda Alpout adlı 6 kənd (Laçın, Bərdə, Goranboy, Göyçay, Ucar, Qazax rayonlarında) vardır. Azərbaycan ərazisində yaşamış Alpout//Alpavut/ /Alpağut türkdilli tayfasının adı türk mənbələrində VIII əsrdən etibarən çəkilir. Tayfanın adı "Alp" sözü əsasında yaranıb ki, insana aid olduqda cəsarətli, igid, əraziyə aid olduqda isə yüksəklik, ucalıq mənasını verir. Bu tayfa XI-XII əsrlərdə Səlcuq oğuzlarının, XIV-XV əsrlərdə qaraqoyunluların, sonra isə ağqoyunluların tərkibinə daxil olub. Səfəvilər dövründə isə onların Çuxursəd və Şirvanda ya-

şadıqları məlumdur. [3, s.275; 11]

"Kitabi-Dədə Qorqud" dastanında "igid, cəsur" mənalarında alp//alb və alpan sözləri işlənib. "Alban" sözü də alp sözündən əmələ gəlib.

Göyçayın ən böyük kəndlərindən biri **Bığır** kəndidir. Bəzi tədqiqatçılara görə, Şamaxı rayonundakı Niyal dağının ətəyində yerləşən Buğurt qalası 1537-ci ildə Səfəvi hökmdarı I Təhmasib tərəfindən dağıdıldıqdan sonra, əhalisi köçüb indiki ərazidə, yəni Göyçayda məskunlaşıb. Kəndin adının Şamaxı rayonunda XII əsr mənbələrində adı çəkilən, lakin arxeoloji qazıntılara görə XI əsrdən mövcud olan Qalaybuğurt qalasının adından götürüldüyü ehtimal olunur. Bəzi müəlliflər qalanın adının türk dillərindəki "berkut" – qartal quşunun adından, bəziləri türk dillərindəki "buxur", "bokur" sözündən (dağ çıxıntısı deməkdir) götürüldüyünü ehtimal edirlər. Bığır toponiminin "dağ ətəyində, çay vadisində yerləşən, salınan kənd" mənası verdiyini ehtimal edən mütəxəssislər də var. [4, 89-118; 11]

Göyçayın Bığır kəndindən çıxmış adlı-sanlı nəsillər var ki, onlardan biri - Şəriflilər haqqında ayrıca kitab yazılmışdır. [25]

Tədqiqatçı Paşa Yaqubun 2015-ci ildə nəşr olunan "Cəlil bəy" kitabında "Yelizavetpol quberniyasının məlumat kitabı"-na (nəşr tarixi - 1904-cü il) istinad edilərək Göyçay qəzasının Cəyirli və Qubadlı Şıxlı kəndlər birliyinin 1904-cü ilə olan statistik təsviri verilib:

Təsərrüfatların sayı - 202;
Əhalinin sayı - 751;
Kişilərin sayı - 411;
Qadınların sayı - 340;
Dəmyə sahə - 622 desyatin;
Su tutan sahə - 680 desyatin;
Kanal - 1;

At - 20;

Camış - 100;

İnək - 60;

Kəl - 105;

Buzov - 45;

Qoyun - 150;

Quzu - 150;

Keçi - 100;

Törədici at - 5.

Heyvanların hamısı yerli cins olub.

Dövlətə vergi şəklində ödənmiş məhsullar:

Yun - 8 pud (1 pud - 16,4 kq və yaxud 2 batman, 40 girvənkə);

Yağ - 2 pud;

Pendir - 3 pud.

Sahəyə 1 600 pud taxıl əkilib, 8.400 pud məhsul götürülüb. 80 pud çəltik əkilib, 450 pud məhsul əldə edilib. 150 pud barama istehsal olunub. Kənddə 2 mağaza, 2 dəyirman vardır.

Kitabda həmçinin 1846-cı ildə Köçəri Şıxlı (indiki Qubadlı Şıxlı) kəndində 16 ailə, 42 nəfər kişi qeydə alındığı haqqında da məlumat var.

## 3. Ucar-Göyçay-Şəki dəmir yolu layihəsi

XIX əsrdə Bakı-Tiflis yolu iqtisadi, hərbi, strateji əhəmiyyətə malik idi. Çar Rusiyasının mütəxəssisləri imperiyanın siyasətinə uyğun olaraq Kür çayı vasitəsilə Xəzər dənizindən Tiflisə qədər su yolunun istifadəyə verilməsi üçün XIX əsrdə layihələr irəli sürüblər. Kür çayında gəmiçiliyin inkişafı ilə bağlı layihəni Qafqaz çanışini Mixail Vorontsov irəli sürüb. Onun 27 dekabr 1844 - 1 mart 1854-ci il tarixlərində Qafqaz çanışini

olduğunu nəzərə alsaq, məlum olur ki, Kür çayında gəmiçiliyin inkişafı ilə bağlı layihənin irəli sürülməsi Bakıda neft sənayesinin inkişafının ilkin mərhələsinə düşür.

Bu layihənin reallaşması üçün müəyyən hazırlıq işləri də görülüb. Lakin sonradan obyektiv və subyektiv səbəblərə görə layihə həyata keçirilmədi. Kür çayında su nəqliyyatına uzun illər çayın dibində yığılıb qalan iri ağac kötükləri mane olurdu. Buna görə də Kürün ağac kötüklərindən təmizlənilməsi işinə başlanıldı. Artıq 1852-ci ilin axırlarına yaxın böyük zəhmət hesabına Mingəçevirə qədər Kürün gəmi keçəcək bütün yerləri eni 15-20 sajenə qədər təmizlənir, çaydan 500-dən çox ağac çıxarılır. [8, s.11; 16]

Kürdəki maneələr barədə H.B.Zərdabi yazır: “Məlum oldu ki, Kür daşan vaxt çayda üzən ağacları Yevlax körpüsünün yanında tutmağı yaddan çıxarıblar, hansı ki, bu çayın dibinə bataraq yeni çıxıntılar əmələ gətiribdir... Onda qərara gəldilər ki, işi aşağıdan yuxarı, məhz Salyandan başlamaq lazımdır... Beləliklə, çay Körpükənd kəndinə qədər təmizləndi... Nəticədə qeyd edək ki, bakılı Vəliyevin, bir neçə iri balıq sənayeçisinin və Balıqçılıq İdarəsinin gəmiləri artıq Kür çayında işləyir, lakin təcili hərəkət heç bir yerdə yoxdur”. [7; 10; 17, s.329]

M.Vorontsovun irəli sürdüyü təklif imperator tərəfindən qəbul olunur və nəzərdə tutulan gəmiçilik xidmətinin yaradılması məqsədilə baron Meyendorfun rəhbərliyi altında komitə yaradılır. Knyaz M.Vorontsovun əlahəzrət İmperatora təqdim etdiyi başqa bir hesabatda Xəzər dənizində və Kür çayında gəmiçiliyin inkişafı ilə bağlı maraqlı məlumatlar var. Canişinin yazdığına görə, 1850-ci ildə mütəxəssislər tərəfindən müəyyən edilib ki, Zərdabdan Mingəçevirə qədər olan ərazidə təmizlik işləri aparmaqla gəmilərin bu çayda rahat üzməsinə imkan yaratmaq olar... Xəzərdə gəmiçiliyin təşkili həm də Novqorod yarmarka-

sı ilə Qafqaz və İran arasında ticarət əlaqələrinin artırılmasına səbəb ola bilərdi. Rusiya imperatorunun, dövlət məmurlarının, o cümlədən knyaz Vorontsovun, nəinki Xəzər dənizində, eyni zamanda Kür çayında gəmiçiliyin təşkilinə böyük maraq göstərməsinin səbəbləri sırasında bu amil də var idi. [8, s.9]

Bu məsələ Azərbaycanın XIX əsrdə görkəmli şəxsiyyətlərinin də diqqət mərkəzində olub. Azərbaycanda milli şüurun oyanışında müstəsna xidmətləri olan görkəmli şəxsiyyət Həsən bəy Zərdabinin "Kaspi" qəzetinin 3 oktyabr 1899-cu il tarixli sayında, rus dilində dərc olunan "Kür çayında gəmiçilik" adlı məqaləsində bu layihələr haqqında ətraflı məlumat verilir. Görkəmli filosof Heydər Hüseynovun rus dilində nəşr olunan "Azərbaycanın XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" əsərində H.B.Zərdabinin bu məqaləsi geniş şərh edilib. [16] Məqalədə layihə barədə aşağıdakı fikirlər göstərilib: "Heç bir düz-əməlli ölkədə Kürlə müqayisədə böyük bir çay tapmazsan ki, orada gəmiçilik olmasın... Hələ keçmiş canişin knyaz Vorontsov Kürün mənsəbi ilə Tiflis şəhərini birləşdirmək istəyirdi, ancaq mühəndis araşdırmalarına görə, Tiflisdən aşağı hissədə çayın yatağında olan astanaya görə bu mümkün olmamışdı. Buna görə də o vaxt Salyanı Zərdab kəndi ilə birləşdirən kiçik bir gəmi ilə kifayətləndilər. Sonra gəmiçilik haqqında düşünmədilər." [7; 10; 11, s.329]

Məqalədən məlum olur ki, neft sənayesinin sürətlə inkişaf etdiyi XIX əsrin ikinci yarısında layihəyə yenidən maraq artır: "Bakı və onunla birlikdə Xəzərsahili ərazilər rəhbərliyin gözü qarşısında dirçəldi, elə buna görə dəmir yolunun açılışından sonra Kürdə gəmiçilik haqqında düşünməyə başladılar, bu dəfə onun mənsəbindən Yevlax stansiyasına qədər. Nəqliyyat mühəndisləri tapdılar, sualtı əyriləri təmizləyən bütöv suölçən ştatı yaratdılar; rəhbərlik üçün kayutalı gəmilər qurdular və su

hövzəsini təmizləyən donanma Kür ilə irəliləyərək ildə 25 min dövlət pulunu udmağa başladı.” [7; 10; 16; 17, s.329]

Fikrimizcə, çar hökuməti çayda nəqiliyyata mane olan amilləri nəzərə alaraq, sonradan bu layihədən imtina edərək Bakı-Tiflis dəmir yolunun çəkilişinə üstünlük verib. Bu yolun böyük bir hissəsinin Göyçay qəzasının ərazisindən keçməsi buranın sonrakı inkişafında mühüm rol oynadı.

Bakı-Tiflis dəmir yolunun çəklişi üçün 1873-cü ilin sonu və 1874-cü ilin başlanğıcında mühəndislər Malevski və Behbudovun rəhbərlik etdiyi hökumət komissiyası dəmir yolu çəkilməsi təklif edilən 662 verstlik məsafədə sonuncu kəşfiyyat işlərini apardı. İlk azərbaycanlı yol mühəndisi İsax Mehmandarovun 1882-ci ildə Peterburq Yol Mühəndisləri İnstitutunun bir qrup tələbəsi ilə birlikdə Ucar və Müsüslü stansiyaları arasında dəmir yolu tikintisində istehsalat təcrübəsi keçməsi barədə tarixi mənbələrdə məlumatlar var. [5, s.63; 22] Bu dövrdə baş verən təbii hadisələr yolun çəkilişinə mane olurdu. Məsələn, 1882-ci ilin sentyabr ayında güclü yağış Ucar stansiyasında 10 verstlik məsafədə yolun yatağını yuyub aparmışdı. [5, s.61; 20]

Maraqlı faktlardan biri odur ki, Bakı-Tiflis dəmir yolundan Ucar-Göyçay-Şəki dəmir yol xəttinin çəkilməsi ilə bağlı dövlət komissiyası razılıq verib. 1903-cü ildə Yeni Dəmir Yolları Komissiyası Yevlax-Xan bağı və Ucar-Göyçay dəmir yolu xətlərinin çəkilməsinə prinsipcə razılılaşdı. Uzun sürən müzakirələrdən sonra, 1908-ci ilin yanvar ayında çarın göstərişi ilə B.Q. Krasnayarski və M.Y.Rozenfeldə icazə verildi ki, Göyçaydan Şəkiyə və Zaqatalaya qədər (210 verst uzunluğunda) dəmir yolunun çəkilməsi üçün texniki-axtarış işlərinə başlasınlar və həmin rayonların iqtisdi imkanları haqqında məlumat toplasınlar. Tezliklə bu işlər görüldü və araşdırmaların nəticələri ilə bağlı 1911-ci ildə rus dilində kitab nəşr edildi. [5, s.87; 21]

Bakı-Tiflis dəmir yolu üzərində Göyçay qəzası ərazisində əvvəl Ucar, Müsüslü, Kürdəmir, 1888-1890-cı illərdə isə Padar, Karrar, Bərgüşad yarımstansiyaları tikildi. [5, s.77]

Bakı ilə Tiflis arasında dəmir yolunun istifadəyə verilməsi yeni istiqamətlərdə şose yollarının çəkilməsini zəruri edirdi. 1882-ci il fevralın 12-də Qafqaz poçt dairəsi idarəsi dəmir yolu stansiyalarından qəza mərkəzlərinə poçt yolları çəkilməsi məsələsini qaldırdı. Belə yollardan biri Göyçaydan Ucara çəkilməli idi. Bakı quberniyasının 1886-cı il üzrə icmalında Göyçaydan Ucara 16.5 verst uzunluğunda olan yolun artıq şoseləşdirilməsi qeyd olunur. Bu yol Göyçay qəzası ilə yanaşı, Şəki qəzasının da şərq hissəsinə xidmət edirdi.

XX əsrin başlanğıcı Ağsu-Göyçay (55 verst), Göyçay-İvanovka kəndi (18,5 verst) poçt yolu, Göyçay-Ucar (16.5 verst) şose yolu, Şamaxı-Kürdəmir (68,8 verst) şose yolu yük daşımalarında fəal iştirak edirdi. Bundan əlavə Ucar-Zərdab (40 verst) torpaq yolu da mövcud idi. [5, s.100, 105]

Dəmir yolu və şose yollarının çəkilişi Göyçay qəzasında kapitalizmin inkişafına və muzdlu işçilərin sayının artmasına səbəb oldu.

1901-ci ildə Bakı-Tiflis və "Neft sahəsi" dəmir yolu xətlərində 7.3 min nəfər çalışırdısa, 1913-cü ildə dəmiryolçuların sayı 16 min nəfərdən artıq oldu. Əvvəllər o qədər də nəzərə çarpmayan Kürdəmir, Ucar və digər yaşayış məntəqələri dəmir yolunun üzərində yerləşdikləri üçün, XX əsrin əvvəllərində Azərbaycanın iqtisdi həyatının mühüm mərkəzlərinə çevrilməkdə idilər. [5, s.112]

1911-ci ildə Azərbaycanda 40 pambıq emalı zavodu var idi. Əsas pambıqçılıq rayonları Cavad, Şamaxı, Göyçay, Şuşa, Yelizavetpol və İrəvan qəzaları idi. [2, s.270]

### *4. Göyçayda Fərhad Mirzə Qacar adına küçə*

Göyçayın tarixinə aid maraqlı faktlardan biri nüfuzlu Azərbaycan türk tayfalarından olan Qacarların yaratdığı dövlətin (1796-1925-ci illər) şahzadəsi olan Fərhad Mirzə Qacarın Göyçayda olması ilə bağlıdır. Fətəli şahın nəvəsi, görkəmli sərkərdə, vəliəhd Abbas Mirzənin oğlu, dövrünün görkəmli ziyalısı olan Fərhad Mirzə Qacar (1818-1888) 1875-1876-cı illərdə Şimali Azərbaycana gələrək buradan Həcc ziyarətinə gedib. Abbas Mirzənin oğlu Fərhad Mirzə Qafqaz Azərbaycanına qədəm qoyan ilk şahzadə olduğundan, ona dövlət səviyyəsində, çox yüksək hörmət edirdilər. 1875-ci ilin 8 sentyabrında başlayan səfər 1876-cı ilin martın 29-u başa çatıb. 233 gün çəkən səyahətin 117 günü dayandıqları yerlərdə, 116 günü isə bilavasitə quru və su yollarında keçmişdir. Bu səfər zamanı olduğu yerlər haqqında təəssüratını və qarşılaşdığı hadisələr barədə Fərhad Mirzə sonradan "Səfərnamə" əsərini yazıb. [12 ]

Səfərin Şimali Azərbaycana aid hissəsi Fərhad Mirzə və heyətinin Bakıya gəmi ilə daxil olması ilə başlanır. Fərhad Mirzəni Bakıda "Əkinçi" qəzetinin çıxmasına yaxından kömək edən, qubernator Staroselski qarşılayıb. Bakıdan sonra, 20-24 oktyabr 1875-ci il tarixində Şamaxı-Ağsu-Göyçay-Ağdaş-Mingəçevir istiqamətində hərəkət edən Fərhad Mirzə qubernator Staroselski ilə birlikdə Göyçaya gəlir və burada təntənəli şəkildə qarşılanır. Onun şərəfinə Göyçayda atəşfəşanlıq təşkil edilir və şəhərin mərkəzi küçələrindən birinə Fərhad Mirzə Qacarın adı verilir. Şahzadəyə Göyçay şəhərinin xəritəsini də verirlər ki, öz adını daşıyan küçəni xəritədə də görə bilsin. [9] Şahzadə Şirvan ərazisini seyr etdikdən sonra, şeirlə "Şirvana Şərvan deyirlərmiş, yəni şər ocağı. Amma bura xeyrəvandır" deyir.

Mirzə Fətəli Axundov Qafqaz canişininin tərcüməçisi olduğundan, Fərhad Mirzə Qacarı səfər boyu müşayiət edib və görüşlərdə onun tərcüməçisi olub. Bir faktı da qeyd etmək lazımdır ki, Mirzə Fətəlinin qızı Fərhad Mirzənin qardaşı Bəhmən Mirzənin oğlunun həyat yoldaşı idi. Fərhad Mirzə Qacarla görüşə "Bəhmən Mirzənin oğlu Xanbaba xan öz oğlu, Mirzə Fətəli Axundovun yeddi yaşlı nəvəsi Mənsur Mirzə ilə gəlmişdi. Həmin görüşdə şahzadə Fərhad Mirzə onda Axundovun zəkasının təsiri göründüyünü bildirmişdir". [12; 14]

Fərhad Mirzə Məkkə ziyarətindən sonra geri qayıdarkən 1876-cı il martın 26-da "Əkinçi" qəzetinin naşiri, milli şüurun oyanışında mühüm rol oynayan Həsən bəy Zərdabi ilə Bakıda görüşü zamanı deyib: "Qəzet sadə xalq təbəqəsi üçündür, əgər onun bir tərəfi fars dilində olsaydı, İranda da xeyli oxucusu tapılardı". Həsən bəy də burada farsdilli əhalinin az olduğunu söyləyib. Şahzadə bir də deyib ki, Zərdabi ifadəsi heç məlum deyil və Zərdabın harada yerləşdiyi məlum olmur... Şirvani təxəllüsü yazsaydın, bu, məlum, məşhur ərazidir. Həsən bəy bildirir ki, bu vaxtadək belə tanınmışam və Şirvani olmaq xanzadələrin haqqıdır... Əgər dəyişdirməli olsaq, gərək dövlətdən izin alaq və çətin ki izin verələr. Daha sonra şahzadə qeyd edib ki, Zərdab Göyçay qəzasında bir kənddir və Həsən bəyin əsli ordandır..." [12; 14 ]

## *5. Görkəmli din xadimi, ziyalı və xeyriyyəçi Hacı Rəhim Əfəndi (1862-1924)*

XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycanda kapitalizmin inkişafı ilə əlaqədar elm, mədəniyyət və təhsil də inkişaf etməyə başlayıb, bununla yanaşı, milli şüurun inkişafı üçün münbit şərait yaranıb. Göyçay qəzasının Zərdab kəndində ana-

dan olan Həsən bəy Zərdabinin 1875-ci ildə nəşr etdirməyə başladığı "Əkinçi" qəzeti Azərbaycanda milli şüurun yaranmasının əsasını qoyub. Bu dövrdə digər mərkəzi şəhərlər kimi, qəza mərkəzi olan Göyçayda da mədəniyyət və təhsil inkişaf etməyə başladı. 1858-ci ildə Göyçay qəzası ilə qonşu olan Şamaxı quberniyasında 4 700 nəfərin təhsil aldığı 299 məktəb və mədrəsə var idi ki, onlardan kənddə 262, şəhərdə isə 37 məktəb və mədrəsə fəaliyyət göstərirdi. [1, s.590-591] Bu dövrdə Göyçayda məhəlli məktəblər deyilən məktəblər fəaliyyət göstərirdi. 1877-ci ildə göyçaylılar məktəb açmaq üçün Bakı qubernatoruna ərizə ilə müraciət edirlər. Bir ildən sonra müraciətə müsbət cavab verilir və 1878-ci ildə Göyçayda məktəbin təntənəli açılışı olur. Göyçayda müəllim kadrlar olmadığından, məktəbə Şamaxı və Bakıdan müəllimlər dəvət olundu. [13, s.16, 17]

Belə bir mühitdə Göyçayda bir neçə dil bilən, yüksək savada malik ziyalılar formalaşmağa başladı. Təəssüf ki, bunların əksəriyyəti haqqında hələlik məlumat əldə etmək mümkün olmayıb. Lakin belə ziyalılardan biri, məşhur xeyriyyəçi, Göyçayın Qaraman kəndində öz vəsaiti hesabına məscid inşa etdirən Hacı Rəhim Əfəndi haqqında tarixi mənbələrdə az da olsa məlumatlar əldə etmək mümkün olub. Hətta onun haqqında 1993-cü ildə "Hacı Rəhim Əfəndi (sənədli monoqrafiya)" adlı kitab da nəşr olunub. [13] Onun tərcümeyi-halı ilə tanışlıq XIX əsrin sonu - XX əsrin əvvəllərində Göyçayda təhsilin vəziyyəti ilə bağlı dolğun məlumat əldə etməyə imkan verir.

***Rəhim Məhəmməd oğlu Əfəndiyev 1862-ci ildə Göyçay qəzasının Qaraman kəndində anadan olub. Onun həyat və fəaliyyəti haqqında Azərbaycan, Rusiya və Gürcüstan arxivlərində məlumatlar toplanıb. [Azərbaycan MDTA, f.309, c.4, iş 717, v. 36; Rusiya MDTA, f.734, c.5, iş 29.v.17; Gürcüstan MDA, f.422, c.1, iş 29, v.7] Onun atası Məhəmməd kişi Göyçayın ziyalı, ad-***

*lı-sanlı şəxsiyyətlərindən biri olub. O, ərəb və fars dillərində mükəmməl mədrəsə təhsili alıb. Rəhim atasından yazıb-oxumağı öyrəndikdən sonra, məhəlli məktəbinə gedib. Onun ərəb və fars dillərində təhsil aldığı məhəlli məktəbində tanınmış din xadimi, əslən Kürdəmirdən olan Molla Cəbrayıl Əfəndi dərs keçirdi. 1874-cü ildə Rəhim Əfəndiyev təhsilini başa vurur. O, öz qeydlərində müəllimi, Molla Cəbrayıl Əfəndiyə böyük hörmət bəslədiyini və 1884-cü ildə müəlliminin vəfatından son dərəcə kədərləndiyini bildirir.*

*XIX əsrin ikinci yarısında Göyçayda yalnız məhəlli məktəbləri fəaliyyət göstərmişdir ki, burada da molla və axundlar dini təhsil verirdi.*

*Rəhim Əfəndiyev təhsilini yeni açılmış məktəbdə davam etdirir. Burada rus, fars, ərəb dilləri, hesab, ana dili fənləri tədris olunurdu. Göyçay məktəbində təhsilini müvəffəqiyyətlə davam etdirən R.Əfəndiyev tədricən elmlərin sirlərinə yiyələnir, fasiləsiz olaraq öz biliyini artırırdı. Yay tətili zamanı kəndlərinə qayıdan Rəhim kiçik uşaqları başına toplayaraq onlara müxtəlif elmlərdən məlumat verir və oxumağa olan həvəslərini daha da artırırdı. O, Göyçay məktəbində təhsil aldığı müddətdə ərəb, fars və rus dillərinə yiyələndi, ana dilinin ilkin qrammatik qaydalarını öyrəndi. Arxiv sənədlərində Rəhim Əfəndiyev Göyçay məktəbində təhsil aldığı illərdə keçirilən fənlərdən, hesab, ana dili, ilahiyyatdan yüksək qiymət alması haqqında məlumatlar var. [Gürcüstan MDA f.422, c.1., iş 2290, v.2] 1883-cü ildə Göyçay məktəbində təhsilini başa vurub, onun ilk məzunlarından biri oldu.*

*1879-cu ildə Gürcüstanın Qori şəhərindəki seminariyanın nəzdində Azərbaycan şöbəsi fəaliyyətə başlayan zaman, onun sorağı Azərbaycanın hər yerinə yayıldığı kimi Göyçaya da gəlib çatır. 1883-cü ildə Göyçay məktəbinin hörmətli müəllimlərin-*

*dən biri olan Hacı Əhməd Əfəndi Rəhim Əfəndiyevə təhsilini Qori seminariyasında davam etdirməyi məsləhət görür. Lakin məlum olmayan səbəblərdən o, Qoriyə gedə bilmir. Bundan sonra, 1883-1889-cu illərdə Göyçayın Alpout kəndində müəllimlik edir. 1889-cu ildə atası Məhəmmədin məsləhəti və xeyir-duası ilə türk tarixi və ədəbiyyatı ilə yaxından tanış olmaq, qabaqcıl din xadimləri ilə görüşmək məqsədilə Türkiyəyə səfər edir. Bir müddət Türkiyədə qaldıqdan sonra, 1890-cı ildə Məkkyə ziyarətə gedir. 1891-ci ildə ziyarətdən doğma kəndi Qaramana qayıdan Hacı Rəhim Əfəndi kənd əhalisinin yaxından köməkliyi ilə məscidin tikintisinə başlayır. 26 avqust 1891-ci ildə onun və kənd camaatının iştirakı ilə məscidin təntənəli açılışı olur. [Gürcüstan MDA f.422, c.1., iş 29, v.7] Qaraman məscidi yerli əhalinin ibadət yeri sayılırdı. Lakin Hacı Rəhim Əfəndi burada həm də kənd uşaqlarına ilahiyyatdan dərs deyirdi. 1891-ci ilin oktyabr ayında Hacı Rəhim Əfəndinin həyatında əlamətdar hadisə baş verdi. Göyçayda müasir tipli ikisinifli məktəbin direktoru N.Kalaşovun müraciətinə Qafqaz Təhsil İdarəsi müsbət cavab verərək, onu həmin məktəbə ilahiyyat müəllimi təyin edir. [Gürcüstan MDA f.422, c.1., iş 2292, v.10] Hacı Rəhim Əfəndi ilə eyni vaxtda Göyçay ikisinifli məktəbinə daha bir tanınmış pedaqoq, Qori seminariyasının məzunu M.Mahmudbəyov da müəllim təyin edilir. Hər iki şəxsiyyətin birgə səyi ilə tədris prosesindəki qüsurlar qısa zamanda aradan qaldırıldı, təlimin səmərəli prinsip və üsulları tətbiq olunmağa başlanıldı.*

*Hacı Rəhim Əfəndi Şamaxı, İsmayıllı, Ağsu, Kürdəmir və digər əraziləri gəzərək Azərbaycan xalqının etnoqrafiyasına, folkloruna aid çoxlu sayda material toplayıb. O, xalqımızın gözəl dilinin ən etibarlı xəzinəsi olan milli Azərbaycan folklorunu, xalq ədəbiyyatı nümunələrini toplayaraq mətbuat vasitəsilə təbliğ edib. O, qədim xalq nağılları, dastanları və atalar sözləri*

*toplayaraq tədrisdə istifadə edir və ibtidai siniflər üçün dərslik tərtib edirdi. Hacı Rəhim Əfəndi "Qafqaz yerlərini və xalqlarını təsvir edən materiallar məcmuəsi"nin (SMOMPK) 1897-ci ildə çıxan 16-cı sayında 500 Azərbaycan atalar sözünü və məsəlini çap etdirib. Bunların Azərbaycan və rusca tərcüməsi, izahı verilib. Tərcümənin də müəllifi özü olub. Bu dövrdə 2 000 atalar sözünü toplayıb çap edən N.Kalaşov bu işdə ona yaxından kömək edən azərbaycanlı ziyalıların içərisində S.M.Qənizadə, M.Mahmudbəyovla yanaşı, Hacı Rəhim Əfəndinin də adını çəkib. Onun yaxından köməkliyi ilə N. Kalaşov və M. Mahmudbəyovun "Şirvan atalar sözləri" kitabı nəşr olunub. Hazırda bu kitab AMEA-nın Əlyazmalar İnstitutunda saxlanılır.*

*Dövrünün qabaqcıl maarifpərvər şəxsiyyətlərindən olan Hacı Rəhim Əfəndi tərəfindən 1893-cü ildə Göyçay qəzasının Alpout və Qaraman kəndlərində "Rus-tatar", Bığır kəndində "Rus-müsəlman"məktəbləri açıldı. O, öz vəsaiti hesabına məktəb binaları tikdirib, ətraf kəndlərin uşaqlarını da təhsilə cəlb edərək, onların təlim-tərbiyəsi ilə məşğul olub, əhalinin savadlanmasında əvəzsiz xidmətlər göstərib. Hacı Rəhim Əfəndi həmçinin şagirdlərin oxuması üçün Azərbaycan dilində dərslikləri, proqram və əyani vəsaitləri vaxtında hazırlamaq, tərtib etmək və şagirdlərə çatdırmaq sahəsində də mühüm işlər görüb. Şagirdlərə kömək məqsədilə M.Mahmudbəyovla birlikdə əlyazma şəklində dərsliklər hazırlayıb. M.Mahmudbəyov 1907-ci ildən başlayaraq nəşr etdirdiyi ibtidai siniflər üçün dərsliklərin müəlliflərindən birinin Hacı Rəhim Əfəndi olduğunu qeyd edib.*

*XIX əsrin axırlarında pedaqoji təhsili olmayan, lakin pedaqoji sahədə uzun illər uğurla çalışan bəzi müəllimlərə istisna hal kimi Qafqaz Təhsil İdarəsi tərəfindən yüksək rütbəli sinif müəllimi hüququ verən rəsmi sənəd təqdim edilirdi. M.Mahmudbəyov və N.Kalaşov 1894-cü ildə Qafqaz Təhsil İdarəsinə*

*məktubla müraciət edərək Hacı Rəhim Əfəndiyə yüksək rütbəli sinif müəllimi vəzifəsi verilməsini xahiş etmişlər. Həmin məktuba əsasən Qafqaz Təhsil İdarəsi tərəfindən ona yüksək rütbəli ibtidai sinif müəllimi hüququ verən rəsmi sənəd təqdim olunub. [Azərbaycan MDTA, f.309, c.4, iş 717, v. 4]*

*1896-cı ilin yanvarında M.Mahmudbəyov işləmək üçün Göyçaydan Lənkərana göndərildikdən sonra, Hacı Rəhim Əfəndi ilahiyyatla bərabər ana dili, hesab, rəsm, ərəb və fars dillərindən də dərs deməyə başlayıb.*

*Onun 1901-ci ilin yanvarında Bığır kəndində "Rus-Azərbaycan" məktəbi açmaqla bağlı müraciətinə həmin ilin fevralında müsbət cavab verilməsi görkəmli pedaqoqun növbəti uğuru idi.*

*Bu dövrdə aparıcı məktəblər olan "Rus-Azərbaycan" məktəblərində ana dilinin tədrisi sahəsində ciddi problemlər var idi. 1907-ci ilin oktyabrında "Rus-Azərbaycan" məktəblərini bacarıqlı ana dili müəllimləri ilə təmin etmək məqsədilə xüsusi kurs təşkil edildi. Bu işi yoxlamaq üçün yaradılan komissiyaya Hacı Rəhim Əfəndinin yaxın dostu M.Mahmudbəyov rəhbərlik edirdi. O, Bakıda komissiyanın sədri ilə görüşür və ana dilinin tədrisinin vəziyyəti, mövcud problemlərlə bağlı fikir mübadiləsi edir. [Rusiya MDTA, f.733, c.5, iş 27. v.6] Komissiyanın işi ilə əlaqədar M.Mahmudbəyov tərəfindən məktəblər idarəsinə yazılan məktubda göstərilirdi ki, müəllim hazırlayan pedaqoji məktəblərdə Azərbaycan dili ya tamamilə keçirilmir, ya da qeyri-əsas fənn kimi tədris edilir ki, bu da olduqca pis nəticə verir. Hacı Rəhim Əfəndinin fikrincə, bunun əsas səbəbi çar Rusiyasının yerlərdəki məmurları və onların ana dilimizə ögey münasibəti idi.*

*XX əsrin birinci onilliyində Hacı Rəhim Əfəndinin müdir və əsas müəllim olduğu Bığır "Rus-Azərbaycan məktəbi" əslində ibtidai xalq məktəbi idi. Lakin o zaman çar Rusiyasının yeritdiyi müstəmləkə siyasətinə uyğun olaraq xalq məktəblərinə*

*deyil, "Rus-Azərbaycan" məktəblərinin açılmasına tez razılıq verilirdi. Məhz buna görə uzaqgörən təhsil işçisi olan Hacı Rəhim Əfəndi məktəbin tez açılmasına nail olmaq üçün müraciətində məktəbin adını bu cür göstərir.*

*Bığır məktəbinə bütün təbəqələrdən 8 yaşlı oğlan uşaqları qəbul olunurdu. Qızların da məktəbə qəbul olunması üçün heç bir qadağa yox idi. Lakin həmin dövrdə heç kim qızını məktəbə qoymaq istəmirdi. Qəbul olunanlardan təhsil haqqı və təxmini bilik tələb olunmurdu. Tədris olunan fənlərin siyahısına şəriət, rus dilində oxu, Azərbaycan dilində oxu və yazı, hesabdan dörd əməliyyat daxil idi. Demək olar ki, bütün fənlərin əksəriyyətini, o cümlədən rus dili fənnini də Hacı Rəhim Əfəndi özü tədris edirdi. O, şagirdlərin təlim müvəffəqiyyətlərinin yüksəldilməsi və onların qiraətə olan maraq və tələbini nəzərə alaraq məktəbin nəzdində kiçik kitabxana da təşkil etmişdi. [Rusiya MDTA, f.735, c.5, iş 16. v.17] Bu kitabxanadakı ədəbiyyatın əksəriyyəti əlyazma şəklində idi. Kitabxanadakı ədəbiyyatı Hacı Rəhim Əfəndi özü tərtib edib və hüsni-xətlə həmin ədəbiyyatın hər birini bir neçə nüsxə yazaraq şagirdlərə paylayırdı.*

*Hacı Rəhim Əfəndinin Qafqaz təhsil idarəsinə verdiyi rəsmi məlumata əsasən, 1902-ci ildə Bığır məktəbində 78 şagird təhsil alıb. Qafqaz Təhsil İdarəsi müdirinin 1902-ci ilə dair hesabatında təlim müvəffəqiyyətinə və şagirdlərin sırf azərbaycanlılardan olmasına görə, Bığır kənd məktəbində vəziyyət qənaətbəxş hesab olunub. [Rusiya MDTA, f.733, c.4, iş 21. v.7]*

*Hacı Rəhim Əfəndi 1902-ci ilin oktyabrına kimi Bığır kəndində müəllimlik etdi. Bundan sonra isə qonşuluqda olan doğma kəndi Qaramana qayıtdı. O, burada 1891-ci ildə tikdirdiyi məscidin fəaliyyətini canlandırmaqla yanaşı, kənd uşaqlarına dini təhsil verirdi. Məsciddə təşkil olunan məktəbə gələnlərin sayı günü-gündən artdığına görə, məscidin yanında kənd sakin-*

lərinin köməkliyi ilə bir neçə yeni sinif otaqları inşa etdirdi. Bu siniflərin tikintisində kənd sakinlərindən Mahmud Qədirovun, Veysəl Nəsirovun və Qafur Abdullayevin böyük köməyi oldu. Qaraman məktəbi üçün tikilən bir neçə sinif otağında dərs keçməklə yanaşı, qonşu kəndlərdən gələn və evlərinə getməkdə çətinlik çəkən uşaqların qalmasına da şərait yaradıldı.

Hacı Rəhim Əfəndi Qaraman məktəbində dini təhsillə yanaşı, şagirdlərə dünyəvi təhsil də veririd. Şagirdlər burada ərəb əlifbasını öyrənərək Quranı oxuyur, Azərbaycan dilinin qrammatikası ilə yaxından tanış olurdular. Sonrakı mərhələdə isə fars dili tədris olunurdu. Şagirdlər yaşa görə siniflərə bölünürdülər.Tədris vəsaiti kimi Hafizin poemaları, Sədinin "Gülüstan", "Büstan", Füzulinin "Leyli və Məcnun" poeması, "Tarixi-Nadir", "Çıngiz xanın tarixi", "Rövzət əs Səfa", "Əbvaul-cinan" və başqa əsərlərdən istifadə olunurdu. Bu əsərlərin çoxunu Hacı Rəhim Əfəndi Türkiyəyə səfəri zamanı əldə edib.

Məktəbdə üçüncü sinfin proqramı daha əhatəli idi. Burada ərəb dilinin qrammatikası əsasında tapşırıqlar həll edilir və ərəb dilində olan kitablar üzrə məntiq, ritorika, şəriət qanunları, Quranın təfsiri, şəriət və digər elmlər öyrədilirdi. Hacı Rəhim Əfəndi Qaraman kəndində yeni tipli məktəb açmaq üçün çox böyük işlər gördü ki, sonda da bu işlər öz müsbət nəticəsini verdi. Onun rəsmi məktubla 1903-cü ilin aprelində Bakı quberniyasına və Dağıstan məktəbləri direktorluğuna Qaraman kəndində ibtidai məktəb açılması ilə bağlı xahişinə iyun ayında müsbət cavab gəldi. Qaramanda açılan yeni tipli məktəb Hacı Rəhim Əfəndinin təşəbbüsü ilə Göyçayda fəaliyyətə başlayan üçüncü məktəb idi.

Qafqaz Təhsil İdarəsi digər məktəblərdən fərqli olaraq ibtidai məktəbləri öz tabeliyində saxlamaq, onları dövlət vəsaiti və müəllim kadrları ilə təmin etməkdə aciz idi. Bu tip məktəblər adətən birsinifli və ya ikisinifli olurdu. Birsinifli məktəb-

*lərdə təhsil 3 il, ikisinifli məktəblərdə isə 5 il, tədris planına isə şəriət, ana dili, rus dili, hesab və hüsnxət daxil idi.*

*Hacı Rəhim Əfəndinin Qaraman kəndində təşkil etdiyi yeni tipli məktəb ikisinifli, 5 il təhsil verən məktəb idi. Bu məktəbin illik xərci 1 300 manat idi ki, bunun da əsas hissəsi kənd camaatı tərəfindən könüllü olaraq toplanılırdı. Bu vəsaitin bir hissəsini məktəb vergisi adı ilə maarif məmurları mənimsəyirdilər. Yaxud da belə məktəbi olan kəndlərə ayrıca məktəb vergisi tətbiq olunurdu. Bu da əhalinin vəziyyətinə çox pis təsir edirdi. Çar məmurlarının yaratdığı problemlər və yerli əhalinin uşaqlarını ancaq dini məktəblərə qoymaq istəyi kənddə dünyəvi məktəbin inkişafına mane olurdu. Hacı Rəhim Əfəndi çətinliklə də olsa bu problemləri həll edirdi. O, kənd əhalisinin vəziyyətini yüngülləşdirmək məqsədilə məktəbin ərazisinə daxil olan torpaq sahəsində şagirdlərin gücü ilə baramaçılığı inkişaf etdirmək qərarına gəldi. Lakin bunun üçün dövlət qurumlarının icazəsi lazım idi. O, bir neçə müvafiq dövlət qurumlarına rəsmi məktubla müraciət etdikdən sonra, nəhayət buna icazə ala bildi. [Gürcüstan MDA f.422, c.1., iş 3543, v.32] Bundan sonra məktəbin kollektivinin səyi ilə baramaçılıq xeyli inkişaf etdirildi və əldə olunan vəsait tədrisə və məktəbin abadlıq işlərinə sərf olundu. Bundan başqa, məktəb ərazisində baramaçılıqla yanaşı arıçılıq da inkişaf etdirildi ki, hər iki sahədən əldə edilən gəlirlər kənd camaatını məktəbə maddi köməklik göstərməkdən tam azad etdi. Qaraman kəndində tətbiq olunan bu təcrübə sürətlə digər kəndlərdəki məktəblərə də yayıldı. Bu məqsədlə Qafqaz Təhsil İdarəsinə çoxlu sayda məktublar daxil olmağa başladı. [Gürcüstan MDA f.422, c.1., iş 3543, v.53-56]*

*Qaraman məktəbində təsərrüfata cəlb olunan uşaqlar gün ərzində cəmi 3-4 saat bu işlərlə məşğul olurdu. Onlara əlavə olaraq təsərrüfatın əsaslarından, əmək tərbiyəsindən*

*vacib məlumatlar verilirdi. Hacı Rəhim Əfəndi bu işdə böyük xidmətləri olan T.Bayraməlibəyovun təcrübəsindən istifadə edirdi. T. Bayraməlibəyovun "Bakı quberniyasının müsəlman kəndlərində ipəkçiliyin vəziyyətinə dair" adlı məqaləsi Qaraman məktəbində diqqətlə öyrənilirdi.*

*Hacı Rəhim Əfəndinin maarifçilik sahəsində fəaliyyətini iki dövrə bölmək olar. Birinci dövr, Alpout kəndində və Göyçay qəsəbəsində ikisinifli məktəblərdə dərs dediyi dövrdür ki, bu da 1883-1901-ci illəri əhatə edir. İkinci dövr, onun pedaqoji fəaliyyətinin Bığır və Qaraman dövrüdür ki, bu dövr 1901-ci ildən 1920-ci ilə qədər, yəni Azərbaycan Xalq Cümhuriyyətinin sovet Rusiyası tərəfindən işğalına qədərki dövrdür.*

*1904-1905-ci illərdə Rusiyanın mərkəzi şəhərlərində, o cümlədən Bakıda baş verən hadisələr çar hakimiyyətini bəzi güzəştlərə getməyə məcbur etdi. 1905-1907-ci illərdə azərbaycanlı müəllimlərin çar hökümətinə verdikləri kollektiv ərizələrdə təlimin ana dilində aparılmasını, müsəlman uşaqları üçün ümumi icbari pulsuz ibtidai təhsil, azərbaycanlı müəllimlərin hüququnun başqa millətlərdən olan müəllimlərin hüququ ilə bərabər olmasını, ana dili müəllimləri hazırlamaq üçün xüsusi müəllimlər seminariyasının açılmasını və sair məsələləri tələb edirdilər. Bu tələblərin yerinə yetirilməsində "Nicat" cəmiyyətinin və bu cəmiyyətin fəal üzvü olan Hacı Rəhim Əfəndinin böyük rolu olub. Belə bir şəraitdə 1906-cı il avqustun 15-də Bakıda Qafqaz Müsəlman Müəllimlərinin I qurultayının keçirilməsinə icazə verildi. Qurultaya Hacı Rəhim Əfəndi də dəvət olundu. O qurultayda qəbul edilən demokratik ruhlu qərarlardan ruhlanaraq Göyçayda maarifçilik işlərini daha da genişləndirməyə başladı. Onun dünyagörüşünün inkişafında dostu M.Mahmudbəyovla yanaşı, Ü.Hacıbəyov, S.M.Qənizadə, Q.Rəşad, T.Bayraməlibəyov kimi həmfikirlərinin rolu böyük olub.*

*Hacı Rəhim Əfəndi yaxın dostu M.Mahmudbəyovun nəşr etdirdiyi maarifçiliyi təbliğ edən "Rəhbər" jurnalı ilə sıx əməkdaşlıq edib. O, həmin jurnalda nəşr olunan "Nidayi millət, yaxud amalı vətənpərvər" şeirini yüksək qiymətləndirib. Bu şeir təhsilin insan həyatında mühüm rol oynaması və bu fikirlərin xalqa çatdırılmasından bəhs edirdi. Hacı Rəhim Əfəndi vətənpərvər bir ziyalı kimi vətənə, anaya məhəbbət hissinin təbliğinə böyük fikir verirdi. O qeyd edirdi ki, "qadına hörmət edilməyən yerdə vətənpərvərlik tərbiyəsindən danışmağa dəyməz, hansı ölkədə qadına hörmət yüksəkdirsə, həmin ölkədə vətənə məhəbbət qat-qat güclü olur". "Rəhbər" jurnalının təbliğ etdiyi "əsl xeyirxahlıq kasıb uşaqlara elm öyrətməkdir" fikrini də Hacı Rəhim Əfəndi yüksək dəyərləndirib.*

*Hacı Rəhim Əfəndi 1907-ci ildə keçirilən Azərbaycan müəllimlərinin II qurultayının işində də fəal iştirak edib. O, "Tərəqqi" qəzetinin 1909-cu il tarixli 24-cü sayında çap edilən "Məktəb qabağa getmir" adlı məqaləsində yazırdı: "Sualsız, cavabsız, əməliyyatsız təhsil. Dəftər yazılmır, jurnal tutulmur, qiymət və yer verilmir. Bilənin bilməyəndən fərqi olmur." Bu baxımdan, o, təlimdə qiymətləndirməni müvəffəqiyyətin əsas şərti hesab edirdi. Bundan başqa, müəllimlərin öz davranışı, mədəniyyəti, hərəkəti ilə başqalarına nümunə olmasını vacib sayırdı.*

*Hacı Rəhim Əfəndi Göyçayda fəaliyyət göstərən məktəblərin problemlərinin həllində fəal iştirak edib. O, 1912-ci il aprelin 14-də müvafiq maarif orqanlarına raport yazaraq, onun tərəfindən 1901-ci ildə açılan Bığır məktəbinin vəsait çatışmazlığından bağlanmaq təhlükəsi ilə üzləşdiyini onların diqqətinə çatdırdı. [Rusiya MDTA, f.733, c.5, iş 19. v.5]*

*O, 1913-1914-cü illərdə Göyçay qəzasının mövcud vəziyyətini öyrənmək üçün təşkil olunan komissiyanın işində fəal iştirak edib.*

*Hacı Rəhim Əfəndi qadın azadlığı və təhsilinə xüsusi fikir verir, qadının ictimai həyatda mühüm rol oynaması üçün mühitin yaradılmasını təbliğ edirdi. O, həmvətənləri ilə bərabər Göyçayda müsəlman-qız məktəbinin açılması üçün dövlət orqanlarına xahiş edir. Onun bu təşəbbüsü yaxşı nəticə verir və Müəllimlər ittifaqı 1917-ci ilin avqustunda Göyçay şəhərində bir müsəlman-qız məktəbinin açılması barədə qərar qəbul edir. 1917-ci il sentyabrın 30-da Göyçay şəhərində müsəlman-qız məktəbi açıldı. [13]*

*1918-ci ilin mart qırğınları zamanı Şamaxı və Ağsudan Göyçaya pənah gətirən köçkünlərin və Qafqaz İslam Ordusu əsgərlərinin Göyçay döyüşlərində üzləşdiyi problemlərin həllində Hacı Rəhim Əfəndi fəal iştirak edir. Göyçay döyüşləri ərəfəsində və qanlı döyüşlərin getdiyi vaxt, yerli əhalidən könüllülərin toplanmasında, döyüşlərin təşkilində, ordunun ərzaq və su ilə təchizatında mühüm rol oynayır. O, Göyçayın nüfuzlu şəxsiyyətlərindən olan Sadıq ağa, Həzrət bəy kimi şəxsiyyətlərlə birlikdə yaralıların müalicəsi və Ucar stansiyası vasitəsilə Gəncəyə daşınmasında, şəhidlərin dəfnində bir din xadimi kimi iştirak edir. Onun Qaraman kəndində öz hesabına, 1891-ci ildə tikdirdiyi məsciddə yerli əhali ilə yanaşı, 1918-ci ilin iyununda Göyçayda olan Qafqaz İslam Ordusunun əsgərləri də ibadətlə məşğul olurlar. [15, s.61-62]*

*Ömrünün 40 ildən çoxunu xalqının maariflənməsinə həsr edən Azərbaycanın görkəmli pedaqoqu və xeyriyyəçisi Hacı Rəhim Əfəndi 1924-cü ildə vəfat edib. Qaraman kəndi ilə yanaşı, Alpout və Bığır kəndlərində də məktəb tikdirən, əhaliyə böyük yardımlar edən, gənclərə savad verən Hacı Rəhim Əfəndinin xatirəsinə ehtiram əlaməti olaraq, Bığır əhalisi bu kəndin qəbiristanlığının ən hündür yerində əslində Qaraman kəndində yaşayan Əfəndiyevlər nəsli üçün xüsusi məzarlıq yeri ayırıb və*

*maarifçi ziyalı Hacı Rəhim Əfəndi həmin yerdə dəfn olunub.*

*Görkəmli maarifçi, pedaqoq, xeyriyyəçi Hacı Rəhim Əfəndinin övladları, nəvələri, nəticələri onun işini şərəflə davam etdirirlər. Onun övladlarından Abdulla Əfəndiyev, Əhməd Əfəndiyev, Ziya Məmmədov və Sirac Əfəndiyev müəllimlik sənətinə yiyələnərək, Azərbaycan Xalq Cümhuriyyəti dövründə və 1920-1930-cu illərdə savadsızlığın ləğvində, gənc nəslin təlim və tərbiyəsində mühüm rol oynamışlar. Azərbaycan Xalq Cümhuriyyəti Maarif Nazirliyinin məktəbləri dərs vəsaitləri ilə təmin etmək məqsədilə yaratdığı xüsusi komissiyasında Hacı Rəhim Əfəndinin oğlu Abdulla bəy Əfəndizadə mühüm rol oynayıb. Həmin komissiyanın tərkibinə o dövrün görkəmli pedaqoqları Hüseyn Cavid, Mahmud bəy Mahmudbəyov, Abdulla Şaiq, Cəmo Cəbrayılbəyli, Səməd bəy Acalov, Fərhad Ağazadə ilə yanaşı, Abdulla bəy Əfəndizadə daxil edilib. Onların gərgin fəaliyyəti nəticəsində 1919-cu ildə "Türk əlifbası", "Təzə elmi-hesab", "İkinci il", "Yeni məktəb", "Ədəbiyyat dərsləri", "Müntəxəbat", "Türk çələngi", "Tarixi-təbii", "Rəhbər cəbr" dərslikləri nəşr olundu. ["Azərbaycan müəllimi" qəz., 6 iyul 2018-ci il]*

*Obyektiv və subyektiv səbəblərdən görkəmli şəxsiyyətin nəslindən olan tanınmış adamların bir hissəsi Əfəndiyev soyadı daşımasalar da, onun xalq üçün gördüyü xeyirxah işləri şərəflə davam etdirirlər.*

*Onun nəvələrindən hazırda Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynayan, Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının Prezidenti, millət vəkili Elxan Sirac oğlu Süleymanov və geologiya-mineralogiya üzrə elmlər doktoru, akademik Pərviz Ziya oğlu Məmmədovun fəaliyyəti tək Hacı Rəhim Əfəndinin nəslindən olan gənclər üçün deyil, bütün vətəndaşlar üçün bir nümunədir.*

**Süleymanov Elxan Sirac oğlu** - 1941-cı ildə Göyçay rayonunun Hacalı kəndində anadan olub. O, 1953-cü ildə 7 illik təhsilini başa vurduqdan sonra Göyçay Pedaqoji Texnikumunun ibtidai məktəb müəllimliyi fakültəsinə daxil olaraq, 1958-ci ildə həmin texnikumda təhsilini başa vurur. 1961-1966-cı illərdə Azərbaycan Dövlət Teatr İnstitutunun mədəni-maarif fakültəsində təhsilini davam etdirir. Elxan Süleymanov ali təhsil aldığı dövrdə eyni zamanda pedaqoji fəaliyyətlə məşğul olur, Bakının 7 və 25 saylı orta məktəblərində müəllim işləyir.



*Elxan Sirac oğlu Süleymanov*

E.Süleymanov 1966-cı ildə Respublika Həmkarlar İttifaqı Yeyinti Sənayesi İşçilərinin Həmkarlar Komitəsinin Fioletov adına klubuna direktor təyin edilir və 1979-cu ilə qədər həmin vəzifədə çalışır.

O, 1981-1982-ci illərdə Yazıçılar İttifaqının Şüvəlandakı Yazıçılar Evinin direktoru, 1982-1985-ci illərdə Mədəniyyət Nazirliyi nəzdində "Azərattraksion"un baş direktoru işləyir, 1985-1989-cu illərdə isə "Nizami" kinoteatrının direktoru vəzifəsində fəaliyyətini davam etdirir.

Elxan Süleymanov 1990-1998-ci illər ərzində Rusiya-Amerika Universitetinin Azərbaycan bölməsinin baş direktoru vəzifəsini icra edir.

E.Süleymanov 2004-cü ildə Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasını (AVCİYA) təsis edir və onun rəhbərliyi ilə bir sıra böyük layihələr həyata keçirilir. Xocalı soyqırımına həsr edilən "Xocalı soyqırımı", "Xocalı soyqırımı: milyon imza-bir tələb", eləcə də "Şuşa – qədim Azərbaycan diyarı", "Bir faciə haqqında iki foto-söhbət", "Tarixi faktlar erməni miflərinə qarşı" topluları nəşr edilərək, ABŞ və Avropa dövlətlərinin parlamentlərinə, dünyanın məşhur kitabxanalarına göndərilir.

"Xocalı soyqırımı: milyon imza-bir tələb" layihəsi çərçivəsində bir milyon Azərbaycan vətəndaşının imzası toplanaraq kitab halında nəşr edilir və böyük dövlətlərin parlamentlərinə təqdim olunur. Burada Xocalı faciəsi şahidlərinin ifadələri toplanıb və kitab Azərbaycan, ingilis, rus dillərində dərc edilib.

Faşizm üzərində qələbənin 60 illiyi ərəfəsində keçirilən "Bakı-qəhrəman şəhər" layihəsi çərçivəsində isə II Dünya müharibəsi dövründə Azərbaycan paytaxtının xidmətləri növbəti dəfə dünya ictimaiyyətinə çatdırılır.

Azərbaycanda keçirilən seçkilərdə və referendumda müşahidəçilik və "exit-poll" fəaliyyətini də həyata keçirən bu təşkilat insan hüquqları, söz azadlığı, iqtisadiyyat, ekologiya, Xəzərin problemləri ilə bağlı bir çox irimiqyaslı layihələr həyata keçirib, beynəlxalq konfranslar təşkil edib. Beləliklə, AVCİYA

çoxşaxəli fəaliyyəti ilə ölkəmizin beynəlxalq aləmdə müsbət imicinin formalaşmasında və Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı istiqamətində inamla irəliləyir.

Elxan Süleymanov 2010 və 2015-ci illərdə IV və V çağırış Azərbaycan Respublikası Milli Məclisinə Şamaxıdan deputat seçilib. Şamaxının millət vəkili kimi Məlcək və Ərçiman kəndində öz hesabına məktəb tikdirib, Azərbaycanın görkəmli şairi S.Ə.Şirvaninin qəbirüstü abidəsini bərpa etdirib, suya ehtiyacı olan 10 kəndə su çəkdirib. E.Süleymanovun təşəbbüsü ilə 9 il Sabir qiraət müsabiqəsi keçirilib və qalib gələn 100-dən artıq şagirdə təqaüd verilib. Bundan başqa, 600-dən artıq bal toplayan 60-dan artıq tələbəni ali məktəbi bitirənə qədər təqaüdlə təmin edib. Onun rəhbərliyi altında "Şamaxı soyqırımı", "Şamaxı qırmızı terrorun hədəfində" kitabları Azərbaycan və ingilis dillərində nəşr olunub, ilk dəfə olaraq "Şamaxı ensiklopediyası" işıq üzü görüb.

Millət vəkili kimi dövlətçilik üçün gördüyü çoxcəhətli fəaliyyətinə Azərbaycan Respublikası Prezidenti tərəfindən yüksək qiymət verilib, dövlət başçısının fərmanı ilə Elxan Süleymanov "Şərəf" ordeni və Prezidentin Fəxri Diplomu ilə təltif edilib.

AVCİYA prezidenti Elxan Süleymanovun Sərsəng su anbarı ilə bağlı hazırladığı "Azərbaycanın cəbhəyanı rayonlarında mülki əhalinin qəsdən sudan məhrum edilməsinə dair" sənəd əsasında 2016-cı il yanvarın 26-da AŞPA "2085 saylı" qətnamə qəbul edib. Daha sonra onun rəhbərlik etdiyi assosiasiya 2016-cı il aprelin 6-da E.Süleymanovun imzası ilə Obama Administrasiyasına "Ədalətin bərqərar olunması və böyük fəlakətin qarşısının alınması naminə" adlı petisiya ilə müraciət ünvanlayıb. Petisiyada 100 min səsə ehtiyac olduğu halda, 300 mindən çox səs toplanıb. Bu möhtəşəm aksiyaya qardaş Türkiyə əhalisi də yaxından dəstək verib.

E.Süleymanov 2010-2020-ci illərdə Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikasını təmsil edib, həmçinin Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramında parlament nümayəndələrinin təmsil olunduğu Avronest PA-nın Azərbaycan nümayəndə heyətinin sədri olub.

**Elxan Süleymanovun babası haqqında xatirələri:** "Hacı Rəhim Əfəndi tək Şirvanın yox, Azərbaycanın mühüm şəxsiyyətlərindən biri olub. Belə ki, Hacı Rəhim Əfəndi müəllimlərin ilk respublika qurultayının təsisçilərindən, Göyçayda qızlar məktəbinin açılmasının təşəbbüskarları və təşkilatçılarından biri olub, özü əlifba tərtib edib və bu əlifba əsasında Qaraman kənd orta məktəbində dərs deyib.

Hacı Rəhim Əfəndi böyük bir xeyriyyəçı olub; Bığır, Qaraman və Alpout kəndlərində məktəb tikdirib. Bundan başqa, babam 3 məscid də tikdirib.

Əmilərimdən, digər şəxslərdən eşitdiyim xatirələri demək istərdim. Hacı Rəhim Əfəndi Bığır kəndində məktəb binası tikdirib. Həmin zaman o, payız aylarında məktəb tikintisi üçün lazım olan bütün ləvazimatları İsmayıllıdan alıb kəndə yığıb ki, yazda tikintiyə başlasın. Yazda tikintini başlamaq üçün kəndə gedən babam görür ki, kənd sakinləri qış aylarında isinmək üçün bütün materiallarını yandırıblar. Babam məyus olmayıb, o materialları öz vəsaiti ilə yenidən alıb və məktəb binasını tikib başa çatdırıb. Həmin məktəb binası 2010-cu illərə kimi fəaliyyət göstərirdi. Orada Bığır kənd tam orta məktəbi yerləşirdi. Bığır kəndinin o vaxt 8 000 əhalisi var idi və onların uşaqları həmin məktəbdə təhsil alırdı. Həmin məktəb binasının yerində yeni binanın tikintisi mənim çox yaxşı tanıdığım Bürhan adlı bir tikinti şirkəti rəhbərinə tapşırıldı. O mənə söylədi ki, bu binanı sökəndə bizim ürəyimiz ağrıyırdı, bu bina hələ bir əsr də fəaliyyət göstərərdi.

Onun tələbələrindən biri, yaxın qohumum mənə belə bir

hadisə danışıb. Hacı Rəhim Əfəndi hər Cümə namazından sonra bizi öz evinə çay süfrəsinə dəvət edirdi. Bir gün Hacı Rəhim Əfəndiyə dedim ki, Hacı, sizin qohumlarınızdan biri özünü yaxşı aparmır, hər kəs də bunu sizə deməyə çəkinir, bunu da mənə həvalə ediblər. Hacı çox müdrik bir insan kimi dediklərimi dinlədi və dedi: "Siz bilirsiz ki, Əfəndi fitrə və zəkatla dolanır. Görünür mənə verilən fitrə və zəkatların içində haram olub. Həmin o haramı da bu uşaq yeyib, ona görə onun mənəviyyatında belə zəiflik var". Bu sözləri mən zamanında anlamırdım, ancaq zamanla, yaşa dolduqca bu sözlərin dərinliyini anladım.

Hacı Rəhim Əfəndi 3 dəfə Məkkəyə Həcc ziyarətinə gedib. O, qaydalara əsasən Məkkəyə getməzdən əvvəl ailəsinin 6 aylıq ruzisini hazırlayıb evdə qoyurdu. Gedəndə evdə 60 günlük çörək bişirtdirirdi. Evdə tapşırırdı ki, hər gün bu çörəklərə fikir versinlər. Hansı gün çörəklərin birində saralma hiss etdilərsə, demək, həmin gün Hacı Rəhim Əfəndi xəstələnib, kiflənsə isə, demək, o, rəhmətə gedib. Geri döndükdə o, evdəkilərdən soruşurdu, çörəklərə fikir veriblər, nəsə bir dəyişiklik olub? O zaman ona hansı günlərdə çörəklərdə saralma olduğunu deyirlər. O, həmin günlərdə həqiqətən yüngül xəstələndiyini, müalicədən sonra sağaldığını təsdiqləyir.

Din xadimi olması ilə yanaşı, o, çox maarifpərvər insan olub. Belə ki, artıq sovet quruluşunun gəlişinə yaxın onun 6 oğlundan 4-ü təhsil almaq üçün Qori seminariyasına göndərilib. Həmin dövrdə Qori seminariyası elə universitetə bərabər bir təhsil ocağı sayılırdı. O zaman mənin Abdulla əmim, Əhməd əmim və digər əmilərim hərəsi bir kəndin mollası olduğu dövrdə, eyni zamanda Qori seminariyasını bitiriblər. Azərbaycan Xalq Cümhuriyyəti dövründə M.Ə.Rəsulzadənin tapşırığı ilə Hacı Rəhim Əfəndinin oğlu Abdulla Əfəndiyev ərəb və fars dillərindən dərs



*Abdulla Əfəndiyev*

demək üçün Azərbaycan Dövlət Universitetinə dəvət edilsə də, obyektiv və subyektiv səbəblərdən bu təklifdən imtina edib.

Sovet hakimiyyətinin ilk illərindən Hacı Rəhim Əfəndinin oğlanları müəllimlik fəaliyyətinə başlayıblar. Mənim əmilərim ərəb və fars dillərini mükəmməl bilən insanlar olub. Xatırlayıram ki, 50-ci illərdə, mən uşaq olarkən, onlar axşam yeməyindən sonra gecə saatlarına kimi Füzulinin, Xaqaninin, Nəsiminin şeirlərini təhlil edərdilər, ərəb, fars dillərindən tərcümə edərdilər, öz aralarında elmi mübahisələri olardı. Abdulla əmim Lenin ordenli müəllim idi. O, ömrünün sonuna kimi Qaraman kənd məktəbində işləyib. Onu Qonaqkənd rayon təhsil şöbəsinin müdiri təyin etsələr də, həmin rayona gedib bir neçə gün işlədikdən sonra, anası Sona xanımı tək qoya bilmədiyi üçün Qaraman kəndinə geri qayıdıb. Hacı Rəhim Əfəndi-

nin övladları mənəvi cəhətdən zəngin olub. O, anasına qulluq etmək üçün təhsil şöbəsinin müdiri vəzifəsindən imtina edib və öz kəndində işləməyi üstün tutub. Çox heyif ki, sovet dövründə Əfəndiyevlərə qarşı çoxlu təzyiq və təqib kampaniyaları təşkil olunub. Bunun nəticəsində də mənim əmilərim ziyalı olmalarına, daha böyük imkanlara malik olmalarına baxmayaraq, inkişaf etmələrinə imkan verilməyib. Onlar axıra qədər kənd müəllimi olaraq qalıblar.

Babam xeyriyyəçi olmaqla yanaşı, həm də çox böyük humanist insan olub. 50-ci illərdə mənim qardaşım sürücü işləyirdi. O, Mərəzə rayonunun kəndindən kələmi yükləyib səhər Bakı bazarına satmağa aparmaq üçün gecə yola çıxırdı. Bir gün kəndin yaxınlığında avtomobili sınır. Bu zaman bir avtomobil gəlir və sürücü qardaşıma yaxınlaşır, onun kim olduğu, haradan gəldiyi ilə maraqlanır. Qardaşım vəziyyəti başa salır, Qaraman kəndindən olduğunu deyir. Qaraman kəndinin adı çəkildikdə həmin adam Hacı Rəhim Əfəndinin nəslindən kimisə tanıyıb, tanımadığını soruşur. Qarşısındakının Hacı Rəhim Əfəndinin nəvəsi olduğunu eşidəndə, həmin adam qardaşımı qucaqlayır, ağlamağa başlayır və onu öz evinə aparır. O, oğlunun əvvəllər Hacı Rəhim Əfəndinin həyətində, evində işlədiyini söyləyib. Evlənmək zamanı gələndə, ailəsi gəlməyini tələb edəndə, bu 24 yaşında cavan adam Hacı Rəhim Əfəndiyə müraciət edir, ondan getmək üçün icazə istəyir. Hacı Rəhim Əfəndi ona bir ay gözləməyi söyləyir. Bir ay sonra, babam iki araba ilə onun biçindən məhsul payını gətirir, xeyir-dua verib həmin gənci yola salır.

Elxan Süleymanov deyəndə dərhal soruşurlar ki, Əfəndiyevlər nəslindən olduğum halda niyə soyadım Süleymanovdur. Tək mən Süleymanov deyiləm. Mənim Bakıda kifayət qədər tanınmış müəllim olan Ziya əmim də Məmmədovdur. Bunun

səbəbi isə odur ki, o zaman Əfəndilər təqib edilirdi, Əfəndiyev soyadında olan heç bir kəsə perspektivlər olmurdu, o da Bakıya instituta qəbul olmaq üçün gəldikdə, məcbur olub Hacı Rəhim Əfəndinin babasının adını soyad kimi götürüb.

Hacı Rəhim Əfəndi haqqında bizə nə əmilərimiz, nə atamız heç bir şey danışmazdı. Onlar sovet rejiminin təqiblərindən qorxduqları üçün belə edirdilər. Buna görə də onun irsi, gördüyü işlər barədə biz çox az məlumatlıyıq. Babamın anbarda böyük kitabxanası var idi. O kitabxana darmadağın edilib.

Demək olar ki, Hacı Rəhim Əfəndi öz əcəli ilə ölməyib. 20-ci illərin axırlarında sovet rejimi dinə qarşı total hücuma keçir. "Allahsızlar İttifaqı" adlı təşkilat yaradaraq gəncləri bura cəlb edərək, dindarlara qarşı onlardan istifadə edirdilər. Göyçayda da bu dövrdə artıq din xadimlərinə ciddi divan tutulur, məscidlər dağıdılırdı. 1927-ci ildə H.R.Əfəndinin şagirdlərindən olan Qaraman sakini komsomolçu Əli, babamın məscidinə gələrək minarəsini sökür. Bu hadisə ona çox pis təsir edir. Onun böyüdüb boya-başa çatdırdığı tələbəsinin komsomolçu olandan sonra belə bir addım atmasına dözə bilmir. Bundan sonra xəstələnən babam bir daha ayağa dura bilmir.

Qaraman kəndinin qəbiristanlığı Qaraman kəndinə bitişik Bığır kəndinin ərazisində, Bığır kənd qəbiristanlığı isə dağlıq hissədə yerləşir. Bığır camaatı babamın kənd üçün etdiyi xeyirxah işlərə böyük dəyər verib, Bığır qəbiristanlığının ən yüksək nöqtəsində geniş bir sahəni Hacı Rəhim Əfəndiyə, Əfəndiyevlər nəslinə ayırıb. Arxeoloqların dediyinə görə, həmin ərazidə basdırılan meyitlər əsrlər keçsə də, mumiyalanan meyitlər kimi sanki yeni dəfn olunmuş kimi qalır. Bugün də bizim nəsildə rəhmətə gedən insanlar həmin ərazidə dəfn edilir. Bu, böyük hörmət və ehtiramdır. Buna görə də mən Bığır sakinləri qarşısında baş əyirəm.

Həm Qaraman sakinləri, həm ətraf kəndlərin sakinləri Hacı Rəhim Əfəndinin məscidinin yanındakı bir iydə ağacını, həm də onun qəbrini müqəddəs yer kimi daima ziyarət edir, orada arzularının həyata keçməsi üçün niyyət edirlər.

Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən babamın tikdirdiyi məscid mədəniyyət abidəsi kimi qeydə alınsa da, uzun müddət zirzəmi, sonra isə anbar kimi istifadə edilib. Mən çox xoşbəxtəm ki, 90-cı illərdə bu məscidi bərpa etmək nəvəsi kimi mənə qismət oldu.

**Pərviz Ziya oğlu Məmmədov** - 1937-ci il yanvarın 12-də Bakı şəhərində anadan olub. P.Məmmədov 1959-cu ildə Azərbaycan Neft və Kimya İnstitutunu (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) mühəndis-geofizik ixtisası üzrə



*Pərviz Ziya oğlu Məmmədov*

fərqlənmə diplomu ilə bitirib. 1967-ci ildə geologiya-mineralogiya üzrə fəlsəfə doktoru, 1992-ci ildə geologiya-mineralogiya üzrə elmlər doktoru elmi dərəcələrini, 1993-cü ildə professor elmi adını alıb. 2001-ci ildə AMEA-nın müxbir üzvü, 2014-cü ildə isə AMEA-nın həqiqi üzvü seçilib.

Akademik Pərviz Məmmədov əmək fəaliyyətinə 1959-cu ildə Azərbaycan Neftçıxarma üzrə Elmi Tədqiqat İnstitutunda texnik-operator vəzifəsindən başlayaraq 1965-ci ilə qədər ardıcıl olaraq böyük radiotexnik, mühəndis-geofizik, böyük mühəndis vəzifələrində işləyib. P.Məmmədov 1958-1966-cı illərdə keçmiş ÜİET Geofizika İnstitutunun Azərbaycan filialında böyük mühəndis, elmi işçi vəzifələrində çalışıb. O, 1968-ci ildən Azərbaycan Dövlət Neft Akademiyasının Geofiziki kəşfiyyat üsulları kafedrasında assistent, dosent, professor, kafedra müdiri, elmi işlər üzrə prorektor, 1993-1997-ci illərdə rektor işləyib. Hazırda Universitetdə kafedra müdiri vəzifəsində çalışır.

P.Məmmədov beynəlxalq aləmdə tanınan geofizika alimidir. O, geofizikada ilk dəfə seysmik dalğaların spektral analizinin geoloji effektliyini tədqiq edib, keçmiş SSRİ-də dalğaların dinamik xassələrinin geofiziki interpretasiyada səmərəsini əsaslandıran ilk tədqiqatçılardan olub. 1980-1990-cı illərdə neftli-qazlı çöküntüləri aşkarlamaq imkanı verən "Seysmostratiqrafiya" üsulunun inkişafında və Cənubi Xəzərin dibinin və çöküntü qatının öyrənilməsində onun elmi nailiyyətləri istər keçmiş SSRİ məkanında, istərsə də ABŞ və Avropa geofizikləri tərəfindən yüksək qiymətləndirilib. O, Cənubi Xəzər meqaçökəkliyinin iyerarxiyasını öyrənib, dənizdə bir neçə qeyri-antiklinal tipli neft-qaz yatağı aşkarlayıb və istehsalata tövsiyə edib, bir sıra xarici şirkətlərin sifarişilə elmi tədqiqatlar aparıbdır. Beynəlxalq elmi layihələr üzrə (INTAS, CRDF, MEBE-Orta Şərq hövzələrinin evolyusiyası və DARIUS) elmi tədqiqatların rəh-

bəri və icraçısı olub.

P.Məmmədov elmi-pedaqoji fəaliyyətlə yanaşı, elmi-təşkilati və ictimai işlərlə də fəal məşğul olur, hazırda 4 elmi jurnalın redaksiya heyətinin üzvüdür. Amerika-Azərbaycan Elmin İnkişafı Fondunun (CRDF), ARDNŞ-in Elm Fondunun eksperti, AMEA Yer Elmləri Bölməsinin akademik-katibinin müavini, AMEA-nın Geologiya və Geofizika İnstitutu nəzdindəki dissertasiya şurasının sədr müavini, ADNA-da Magistr İxtisaslaşmış Şurasının sədridir.

P.Məmmədov Beynəlxalq Geofizika Cəmiyyətinin (SEG), Amerika Neftçi-Geoloqlar Assosiasiyasının (AAPG) və Avropa Geoelmləri Mühəndisləri Assosiasiyasınm (EAGE) üzvü, eləcə də Beynəlxalq Mühəndislər Akademiyasının (Rusiya) müxbir üzvüdür.

P.Məmmədov 240-dan artıq elmi əsərin müəllifidir. Onun əsərlərinə xarici jurnallarda istinad olunur. P.Məmmədovun rəhbərliyi ilə 3 elmlər doktoru və 10 fəlsəfə doktoru hazırlanıb.

P.Məmmədov səmərəli elmi-pedaqoji fəaliyyətinə görə Azərbaycan Respublikası Təhsil Nazirliyinin və AMEA Rəyasət Heyətinin Fəxri fərmanları ilə təltif olunub. 2005-ci ildə Avrasiya Geofizika Assosiasiyasının qərarı ilə geofizika elminin inkişafında nailiyyətlərinə görə onun adı "Rusiyanın görkəmli geofizikləri" ensiklopediyasına salınıb. 2010-cu ildə "Görkəmli geofizik S.Q.Komarov" adına medalla təltif olunan ilk azərbaycanlı alimdir.

## İstifadə olunan ədəbiyyat

1. "Azərbaycan tarixi. 1-ci cild. Z.M.Bünyadov və Y.B.Yusifovun redaktəsi ilə, Bakı, 1994, 496 s.

2. "Azərbaycan Milli Ensklopediyası. 25 cilddə. Azərbaycan cil-

di", Bakı, 2007, 884 s.

3. "Azərbaycan Sovet Ensiklopediyası. I cild", Bakı, 1976, 592 s.

4. "Azərbaycan toponimləri. Ensiklopedik lüğət", Bakı, 1999, s.89-118

5. Əliyev Q.Ə., "XIX-XX yüzilliyin başlağıncında Şimali Azərbaycanda nəqliyyatın inkişafı", Bakı, 1995

6. Əsədli K., "XVIII-XIX əsrlərdə Rusiya tarixşünaslığında Şirvan bölgəsinin etnoqrafik cəhətdən öyrənilməsi" - http://agsunews.az/index.php?lang=az&sectionid=news&id=1128

7. Həsənov E., "Həsən bəy Zərdabinin Kür çayında gəmiçiliklə bağlı təklifləri", - http://www.zerdab.com/?p=5081

8. Həsənov M., "Azərbaycanda gəmiçilik: sənədli tarix. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyinə həsr edilir", Bakı, 2018

9. Kərimiov Paşa. "Fərhad Mirzənin səfərnaməsi", "Azərbaycan tarixi" verlişi", AzTv, 2017

10. "Kürdə sərnişin daşınmasına start verilir" - https://lent.az/news/45928

11. Kərimova İ.M. "Göyçay rayonu toponimlərinin linqvistik təhlili", "Azərbaycan dili Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı", Bakı, 2013

12. Qacar Fərhad Mirzə, "Səfərnamə", Bakı, 2017 418 s.

13. Süleymanov E.S., Nəsirov B.M., "Hacı Rəhim Əfəndi", Bakı, 1993, 104 s.

14. Şahzadə Fərhad Mirzə Qacar, "Bakı - Asiyada bir neft çayıdır", - https://www.azadliq.org › baki-asiyada-bir-neft-cayid

15. Zülfüqarlı M., "Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi. Göyçay döyüşləri (iyun-iyul 1918-ci il)", Bakı, 2017

16. Zülfüqarlı M., "XIX əsrdən yarımçıq qalmış layihələr: Salyan-Cavad, Cavad-Yevlax, Yevlax-Tiflis marşrutları", "Turizm və qonaqpərvərlik tədqiqatları" jurnalı, № 1, 2021, s.99-106

### *Rus dilində*


17. Гусейнов Гейдар, «Из истории общественной и философской мысли в Азербайджане XIX века», Баку, 1958 г., 429 с.

18. «Кавказский календарь на 1917. Тифлис: Типографии канцелярии его императорского Величества Кавказа», 1916 г., стр. 2-5

19. Садыхова Г.Н., «Из истории социально-экономической жизни Геокчайского региона в конце XIX – в начале XX вв», «Вчені записки ТНУ імені В.І. Вернадського» Серія: Історичні науки», Том 30 (69), № 3, 2019, с.138-141

20. «Kavkaz» № 242, 14.09.1882 г.

21. Краснаярски Б.Г., «Комерческое овладование района Евлахской ширококоленной железной дороги», Тифлис, 1911 г.

22. «Вышка», газ., 06.08.1970 г.

23. «Первая Всеобщая перепись населения Российской империи 1897 г.», т.61.:/Санкт-Петербург, 1899-1905, Бакинская губерния, с. 1-3

24. Массальский В. «Геок-чай или Гёк-чай, город», «Энциклопедический словарь Брокгауза и Ефрона»: в 86 т. (82 т. и 4 доп.), СПб., 1892. Т. VIII, с. 404

25. Каграманзаде (Шарифли) Абдул Гамидулла оглы, «Один из династии Шарифли», Баку, 2016 г., 584 с

26. Анисимов И.Ш., «Кавказские евреи-горцы», М., 1888 г.

27. Черный И.И., «Книга путешествий по Кавказу», СПб., 1884 г. (на иврите)

# Göyçay qəzası 1918-1920-ci illərdə




### *1. Göyçay qəzası ərazisində yerli əhaliyə qarşı bolşevik-erməni soyqırımı*

Azərbaycan tarixinin ən qanlı səhifələrindən biri olan, erməni-bolşevik qüvvələri tərəfindən müsəlman əhaliyə qarşı törədilən 1918-ci il mart qırğınları haqqında son illər çoxlu sayda kitab və məqalələr nəşr olunub. Bu işdə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" fərmanı (26 mart 1998-ci il) mühüm rol oynayıb. 1918-ci ilin mart qırğınları daha geniş tədqiq olunsa da, erməni quldurlarının 1918-ci ilin iyununda Çöyçay qəzası və digər ərazilərdə törətdikləri soyqırımların tədqiqi, çox təəssüf ki, diqqətdən kənarda qalıb. Fikrimizcə, bu ərazilərdə ermənilərin törətdikləri vəhşiliklərin 1918-ci ilin mart qırğınlarının davamı kimi, iyun

qırğınları adlandırılması daha düzgün olar.

Göyçay qəzasında baş verən soyqırım haqqında son illər bir sıra kitab və məqalələr [1, 8, 13, 15, 16] nəşr olunsa da, bu sahədə görülməli işlər həddindən artıq çoxdur.

Bolşevik-daşnak qüvvələri 12 iyun 1918-ci il tarixində Kürdəmiri və onun qərbindəki bir neçə kəndi, o cümlədən Qarabucaq stansiyasını işğal edərək yandırırlar. Nəticədə, Kürdəmir kəndində 56 ev və dükan, 127 mülk, 2 məscid binası tamamilə yandırılır, qalan bütün ev və mülklər dağıdılır, talan və qarət edilir. Kürdəmirdən başqa, Göyçay qəzasının Çaylı, Qaravəlli, Qarabucaq, Mustafalı, Xəlil-Qasımbəy, Ərəb-Mehdibəyli, Dədəli və digər kəndləri də erməni hücumlarına məruz qalır və insan tələfatı ilə üzləşir. Məsələn, Ərəb-Mehdibəyli kəndində 84 ev dağıdılıb yandırılır, kəndin 83 sakini, o cümlədən 78 kişi, 4 qadın və 1 oğlan uşağı qətlə yetirilir. [17] 1918-ci ilin iyun-iyul aylarında Göyçay qəzasının Kürdəmir və ətraf kəndlərində düşmənlər 4 017 nəfər soydaşımızı qətlə yetirib, 35 kənd yerlə-yeksan olunub. [13, s.12; 15, s.39]

Digər məlumatda qeyd olunur ki, 1-12 iyun 1918-ci il tarixlərində S.Lalayanın və T.Əmiryanın başçılıq etdikləri daşnak-terrorçu qrupları Hacıqabul-Kürdəmir, Göyçay ərazilərinə soxularaq yeddi min əliyalın, dinc sakini qətlə yetiriblər. 11-20 iyun 1918-ci il tarixlərində Göyçay ərazisinə daxil olan daşnak terror qruplaşmaları Cəngi kəndində 5 mülkü yandıraraq, burun-qulaqlarını kəsib, kəllə sümüklərini əzərək 20 nəfəri, Qaravəlli kəndində 30 evi yandıraraq 2 nəfəri, Qarabucaq kəndində 121 evə od vuraraq 7 nəfəri, Ərəb-Mehdibəyli kəndində 84 mülkü yandıraraq 83 nəfəri qəddarcasına qətlə yetirmiş, Mustafalı, Sadalı kəndlərini talan etmişlər. [7, s.24; 15, s.39-40]

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən yaradılan Fövqəladə Təhqiqat Komissiyasının üzvü N.M.

Mixaylov 1918-ci il oktyabrın 26-da həmin ilin sentyabrın 22-dən oktyabrın 23-nə qədər olan müddətdə Göyçay qəzasında aparılan təhqiqat işləri haqqında məlumat verib. O, məlumatında göstərirdi ki, bu müddət ərzində 500 nəfərdən çox şahid dindirilib, Kürdəmir dəmir yolu vağzalına və Kürdəmir polis sahəsinə aid 7 kəndə (Kürdəmir, Qarabucaq, Mustafalı, Xəlilli, Qasım bəy, Ərəb-Mehdibəyli, Dadalı) baxış keçirilib. Göyçay qəzasının Ərəb-Mehdibəyli kəndində 84 mülk darmadağın edilib, yandırılıb, 83 nəfər, o cümlədən 78 kişi, 4 qadın və 1 oğlan uşağı qətlə yetirilmişdi. [1] 1918-ci il noyabr ayının 22-də Fövqəladə Təhqiqat Komissiyasının sədri Ə.Xasməmmədov Azərbaycan Cümhuriyyəti Ədliyyə Nazirliyinə yazdığı məruzələrdə Bakı quberniyası, Göyçay qəzasının Kürdəmir, Qarabucaq, Ərəb-Mehdibəyli və b. kəndlərində azərbaycanlılara qarşı törədilmiş zorakılıqların təhqiqinin ilkin vəziyyəti haqqında ətraflı məlumat vermişdi. Ə.Xasməmmədov 1919-cu il iyunun 4-də ədliyyə nazirinə yazdığı məktubunda xəbər verirdi ki, müsəlmanlara qarşı törədilən cinayətlərin iştirakçılarını məsuliyyətə cəlb etmək məqsədilə 128 qərar layihəsi hazırlanıb ki, bunlardan da 18-i Göyçay qəzasına aiddir. 1919-cu il avqustun 27-də Fövqəladə Təhqiqat Komissiyasının üzvü Ç.Klassovski tərəfindən komissiyanın fəaliyyəti ilə əlaqədar tərtib edilən arayışda göstərilirdi ki, komissiya tərəfindən toplanan materiallar 36 cild və 3 500 vərəqdən ibarətdir. Göyçay qəzasının Kürdəmir və başqa kəndləri üzrə 4 cild 340 vərəq material toplanıb. [15, s.21; 19; 21, s.21]

1918-ci ildə Azərbaycanın müxtəlif bölgələrində nə qədər əhali soyqırımın qurbanı olub? Soyqırıma məruz qalanların dəqiq sayı barədə məlumatlar varmı? Britaniya briqada generalı R.Qortonun 8 dekabr 1918-ci ildə Londona göndərdiyi sənəddə 20 min, R.Mustafazadənin kitabında 20 min, A.Balayevin kita-

bında 30 min, Fövqəladə İstintaq Komissiyasının sənədlərində 30 min, Azərbaycan Respublikası Milli Məclisinin nəşr etdiyi kitabda isə 50 mindən çox müsəlmanın 1918-ci ildə soyqırıma məruz qaldığı göstərilir. [14, s.28] Lakin faktlar sübut edir ki, gələcəkdə tədqiqatları davam etdirməklə daha çox insanın soyqırıma məruz qaldığını üzə çıxarmaq olar.

Tədqiqatlardan görünür ki, 1918-ci ildə Azərbaycanın demək olar ki, əksər bölgələrində ermənilər qırğınlar törədiblər. Həmin qırğınların bir hissəsi araşdırılsa da, bir çoxu hələ də öyrənilməyib. Buna görə də, gələcəkdə Bakı, Şamaxı, Quba, Zəngəzur, Qarabağ, Naxçıvanla yanaşı, Göyçay, Kürdəmir, Hacıqabul, Salyan, Neftçala kimi soyqırım hadisəsinin nisbətən az tədqiq olunan və ümumiyyətlə tədqiq olunmayan ərazilərdə erməni və bolşeviklərin törətdikləri cinayətlərin araşdırılmasına ciddi ehtiyac var. Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılan Fövqəladə Təhqiqat Komissiyası Göyçay qəzasının yalnız bir neçə yaşayış məntəqəsi üzrə təhqiqat apararaq qırğınlara məruz qalan müsəlman kəndlərinin yalnız bir hissəsinin adlarını müəyyənləşdirə bilib. Buna görə də Göyçay qəzasının digər ərazilərində də ermənilərin törətdikləri vəhşiliklərin tədqiqi aktual olaraq qalır. [15, s.22-23]

## *2. Göyçaya sığınan Ağsu köçkünləri*

Erməni-bolşevik qüvvələrinin 1918-ci ildə törətdiyi mart soyqırımı və vəhşilikləri haqqında çox yazılsa da, soyqırımı törədən cinayətkarlara qarşı əhalinin müqaviməti, göstərdiyi qəhrəmanlıqlar tədqiqiata çox az cəlb edilib. Göyçay döyüşlərinə qədər erməni quldurlarına qarşı müqavimətin nümunəsi kimi Ağsu yaxınlığında erməni quldurlarından müdafiə məqsədilə baş verən Pirəmşaq döyüşünü göstərmək olar. Pirəmşaq döyü-

şünü 1918-ci ildə erməni soyqırımına qarşı təşkil edilən ilk ən böyük müdafiə döyüşü adlandırmaq olar. Çünki Şamaxıda, Bakıda, Qubada və s. yerlərdə erməni soyqırımı baş verməzdən əvvəl, erməni vəhşiliklərini qabaqcadan görən qeyrətli insanlar müdafiə döyüşünü təşkil ediblər. Pirəmşaq döyüşünə səbəb 1918-ci il martın əvvəllərində rus-türk cəbhəsindən geri dönən 400 nəfər erməni əsgərinin Kürdəmirdən Ağsu istiqamətində Şamaxıya qayıdarkən törətdikləri vəhşiliklər olub.

1918-ci ildə digər müsəlman kəndləri kimi Bico kəndi də taleyin ümidinə buraxıldı. O zaman Şamaxıda yaşayan, nüfuz sahibi Babaş əfəndi Mikayılzadənin məsləhəti ilə Şahalı yüzbaşı Biconun müdafiəsi üçün qadınları və uşaqları dərələrdə gizlədir. Erməni quldurlar Bağırlı, Ləngəbiz və Qəşəd kəndlərini viran qoyub Bicoya yaxınlaşdıqda, Şahalı yüzbaşı quldur dəstəsinin qarşısına çıxır, kəndə girməyəcəkləri təqdirdə onlara mal-qara, qızıl təklif edir. Ermənilər razılaşmayıb onsuz da kəndi ələ keçirib talan edəcəklərini bildirirlər. Balta, yaba, xəncər, dəryaz və bir neçə tüfənglə silahlanan bicolular Pirəmşaq deyilən ərazidə təxminən 400 nəfərdən ibarət erməni hərbi dəstəsinin qarşısına çıxır. Kəndin yaşlı insanlarının söylədiklərinə görə, bu döyüşdə tüfəngdən açılan ilk atəşlə erməni hərbi dəstəsinin başçısı öldürülür, düşmənin çaşbaş düşdüyünü görən bicolular hücuma keçirlər. Özləri də tələfat vermələrinə baxmayaraq, onlar erməni silahlı dəstəsini darmadağın edir, bununla da kənd əhalisini soyqırımdan xilas edirlər. Pirəmşaq döyüşündə ermənilərdən cəmi altı nəfər sağ qalsa da, dördü Bico kəndinin yaxınlığında öldürülür, ikisi isə Şamaxıya gələrək, Bakıdan kömək istəyir. [8; 15, s.32]

Bu hadisədən daha da azğınlaşan ermənilər dərhal Bakıdakı ermənilərdən kömək istəyir. Bakıdan S.Lalayanın rəhbərliyi ilə az müddət ərzində müxtəlif silahlarla təhciz edilən 3 min

erməni yerli əhalini tamamilə məhv etmək üçün Şamaxıya göndərilir. Ermənilər Bico əhalisindən qisas ala bilmədikləri üçün buradakı məğlubiyyətin səbəbkarlarından biri hesab etdikləri Babaş əfəndi Mikayılzadənin hər iki qaynını Şamaxıda ailə üzvləri ilə birlikdə işgəncə ilə öldürürlər. O zaman Babaş Əfəndinin qaynının iki övladı dağ yolu ilə qaçıb Bicoya gəlməyi bacarırlar. Çox keçmədən Babaş Əfəndi bu vəhşiliyi törədən üç daşnak qatilinin hər birini yaxalayaraq onlardan qisasını ala bilir. Ermənilər Səndələn (Bico) zirvəsində iki döyüş topu yerləşdirərək Bico kəndini atəşə tutur, nəticədə, kənddəki bir neçə tikili ilə yanaşı, XII əsrə məxsus məscid də dağıdılır. Bicolular kənd əhalisini qırğına verməmək üçün onları Ağsu, sonra da Göyçay istiqamətinə köçürür və bununla da kənd əhalisinin soyqırıma məruz qalmasına imkan vermirlər. Buna görə də Fövqəladə İstintaq Komissiyasının sənədlərində soyqırıma malik kəndlər içərisində Biconun adına rast gəlinmir.

Son illər 1918-ci il soyqırımı ilə bağlı yeni faktlar üzə çıxarılmağa başlanılıb. 1919-cu ildə Azərbaycan Xarici İşlər Nazirliyi Göyçay və Cavad qəzalarının sənədlərini Fransaya, Paris sülh konfransındakı Azərbaycan nümayəndə heyətinin başçısı Əlimərdan bəy Topçubaşova göndərib. Həmin sənədlər tədqiqatçılar tərəfindən aşkara çıxarılaraq vətənə qaytarılıb. [21] Bu sənədlərdə Bico kənd sakinlərinin ermənilərə qarşı müqaviməti haqqında Azərbaycan Xalq Cümhuriyyətinin Fövqəladə İstintaq Komissiyasının 1918-ci il 11-12 noyabr tarixli Sorğu Protokolunda qısa da olsa məlumat verilir.

Əslən Ağsunun Bico kəndindən olan Zəka Mirzəyev "Pirəmşaq döyüşü" adlı məqaləsində [8] qeyd edir ki, kəndimizin əhalisi məcburi köçkün həyatı yaşadıqları dönəmlərdə onlara sığınacaq verərək evlərində qaldıqları göyçaylılarla bicolular arasındakı münasibətlər uzun müddət qorunub. Hətta ötən əsrin

sonlarında da "köç dövründə ata-anamız filankəsin evində yaşamışdır" deyə gediş-gəliş saxlanılırdı. Əhalinin tərk etdiyi kənd daşnakların hücumuna məruz qalaraq dağıdılmışdı. [15, s.33]

Yerli müsəlman əhaliyə qarşı baş verən soyqırımların qarşısını almaq üçün Zaqafqaziya Seyminin Azərbaycan fraksiyası 2 aprel (yeni stillə) 1918-ci ildə Seymdən müsəlman əhalini qorumaq üçün qoşun göndərilməsini tələb etdi. 1918-ci il aprelin əvvəllərində knyaz Maqalovun komandanlığı ilə 2 minə yaxın silahlı dəstə Tiflis və Gəncə tərəfdən irəliləyərək, Hacıqabul stansiyasını tutdu. Eyni zamanda şimaldan, Dağıstan tərəfdən, Bakı istiqamətində Nəcməddin Qotsinskinin qüvvələri hücuma keçdi. [4, s.253] Bolşevik-daşnak qüvvələrindən yerli müsəlman əhalini qorumaq üçün knyaz Maqalovun rəhbərliyi ilə Müsəlman korpusu Ucar, Müsüslü, Kürdəmir istiqamətində hərəkət etdi. Hacıqabula daxil olmasına, N.Qotsinskinin dağlılardan ibarət dəstələrinin qubalı Əli bəy Zizinskinin döyüşçüləri ilə birlikdə Xırdalana kimi gəlməsinə baxmayaraq, qüvvələr nisbətinin qeyri-bərabər olması onları geri çəkilməyə məcbur etdi. Bu dövrdə Göyçay-Şamaxı istiqamətində İsmayıl xan Ziyadxanovun kiçik bir dəstəsinin irəliləməsi ermənilərin Şamaxının Qozluçay kəndi istiqamətində geri çəkilməsinə səbəb oldu. İsmayıl xan Qozluçay kəndində toplaşan ermənilərin təslim olmasını tələb edərək onlara iki gün vaxt verdi. Bundan sonra ermənilərə əlavə kömək gəldiyindən onlar təslim olmaqdan imtina etdi və İ.Ziyadxanovun dəstəsi də qüvvələr nisbəti qeyri-bərabər olduğundan geri çəkilməyə və elə həmin gün axşamüstü Şamaxını tərk etməyə məcbur oldu. Bundan altı gün sonra yenidən Şamaxıya daxil olan ermənilər əvvəlki vəhşiliklərini davam etdirdilər. [14, s.21; 15, s.21]

Azərbaycan Xalq Cümhuriyyəti dövründə erməni-bolşevik quldurlarının törətdiyi vəhşiliklərin fəsadlarını aradan qaldır-

maq, soyqırımdan canını qurtaran vətəndaşlara yardım etmək, əhali arasında yayılan yolxucu xəstəliklərdən onları xilas etmək üçün tədbirlər həyata keçirilib. Şamaxıda böyüklər üçün 30 yerlik, uşaqlar üçün 80 yerlik qida qəbuletmə, xəstəxana məntəqəsi açıldı. Bu dövrdə bəzi ərazilərdə səpgili yatalaq xəstəliyindən gündə 10-15 adam həyatını itirirdi. Göyçayda da vəziyyət ağır olaraq qalırdı. Səhiyyə Nazirliyi epidemiyaya qarşı mübarizə üçün Şamaxı, Göyçay, Gəncə quberniyasının Şuşa və Cavanşir qəzalarına həkimlərin başçılığı ilə 15 epidemoloji-müalicə dəstəsi göndərdi. [26]

Azərbaycan Xalq Cümhuriyyəti dövründə iqtisadi çətinliklərə baxmayaraq, mart qırğınları nəticəsində evindən-eşiyindən didərgin düşən 26 877 Şamaxı qaçqınına 18,244 pud taxıl məhsulları (arpa, buğda, düyü, bulğur) ilə yardım edildi. Şamaxıda olduğu kimi Göyçayda da uşaqlar üçün 100 yerlik qida qəbuletmə, xəstəxana məntəqəsi açıldı. [25; 26]

### *3. Göyçay döyüşləri*
### *(18 iyun - 2 iyul 1918-ci il)*

Azərbaycan xalqı daim yadelli işğalçılara qarşı şərəflə mübarizə aparıb. Bu şərəfli mübarizədə göstərilən qəhrəmanlıqlara aid tarixdə çoxlu sayda faktlar mövcuddur. XX əsrin əvvəllərində baş verən belə qəhrəmanlıqlardan biri Göyçay döyüşləridir. Azərbaycan tarixinin qəhrəmanlıq səhifələrindən olan "Göyçay döyüşləri" mövzusu bu gün öz aktuallığı ilə diqqəti cəlb edir. Göyçay döyüşləri haqqında sovet dövründə obyektiv kitab və məqalələr yazmaq qadağan olunduğundan, yalnız Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra bu mümkün oldu. İki cilddə nəşr olunan "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"nın ikinci cildində [5] Göyçay və Qaraməryəm döyüşləri

haqqında qısa da olsa məlumatların verilməsi müsbət qiymətləndirilməlidir. Yeddicildlik "Azərbaycan tarixi" kitabının beşinci cildində [4] verilən materiallar mövzunun tədqiqinə yaxından kömək edə bilər. Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının Göyçay döyüşlərinə aid 2017 və 2018-ci illərdə nəşr etdiyi – "Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi Göyçay döyüşləri (iyun-iyul 1918-ci il)" və "Göyçay döyüşləri – Türkiyə tarixşünaslığında" kitabları [15; 16] isə problemin elmi şəkildə hərtərəfli araşıdırılmasına həsr olunan fundamental əsərlər hesab oluna bilər. Göyçay döyüşləri dedikdə, 1918-ci ilin iyun-iyul aylarında Göyçay qəzasının müxtəlif ərazilərində erməni-bolşevik quldurlarına qarşı baş verən ölüm-dirim savaşı nəzərdə tutulur. Göyçay döyüşləri içərisində I və II Qaraməryəm döyüşləri və Göyçay şəhəri uğrunda döyüşlər mühüm əhəmiyyət kəsb etdiyindən, kitabda əsas diqqət bu döyüşlərə verilib. Lakin Göyçay qəzasının Sığırlı, Karrar, Kürdəmir, Müsüslü və digər ərazilərində baş vermiş qanlı döyüşlər barədə də məlumatlara kitabda yer verilib.

### *4. Döyüşlər ərəfəsi və döyüşlər zamanı Göyçay ətrafında baş verən hadisələr*

Bakıda anti-Azərbaycan mövqeyində olan S.Şaumyanın rəhbərlik etdiyi Bakı Kommunası Tiflisdə azərbaycanlı, erməni və gürcü deputatlarından təşkil olunan Zaqafqaziya Seyminə düşmən münasibət bəsləyirdi. Bolşevik-daşnak qüvvələri Bakıdan Göyçaya, habelə Bakıdan şimal sərhədlərinə qədər olan əraziləri nəzarət altına ala bilmişdilər, amma Lənkəran bölgəsi ağqvardiyaçı rus qüvvələrinin nəzarəti altında idi. Zaqafqaziya Seymi dağıldıqdan sonra, 28 may 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyətini məhv etmək, Azərbaycanın digər

ərazilərini işğal etmək və yerli müsəlman əhaliyə qarşı növbəti soyqırımı həyata keçirmək məqsədilə bolşevik-daşnak qüvvələri 1918-ci ilin iyun ayında Göyçay istiqamətində hücuma keçdilər. Osmanlı dövləti ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında 4 iyun 1918-ci il tarixində bağlanan Batum müqaviləsinə əsasən, Qafqaz İslam Ordusu Azərbaycana köməyə gəldi. Qafqaz İslam Ordusuna Nuru paşa, Ənvər paşa, Nazim paşa, Mürsəl paşa və başqa komandanlar rəhbərlik edirdi. Azərbaycan Xalq Cümhuriyyətinin baş naziri Fətəli xan Xoyski 23 iyun 1918-ci ildə Respublikanın butun ərazisində hərbi vəziyyət elan etdi və qardaş Osmanlı dövlətinin Azərbaycana köməyinin əhəmiyyətini xalqa izah etdi. Baxmayaraq ki, Gəncə milli qüvvələrin əlində idi, burada da erməni təxribatları baş verirdi. Türk hərbçiləri Gəncədə olan erməniləri tərkisilah edərkən, 11 iyun 1918-ci il tarixdə 18 türk əsgəri şəhid oldu. Ertəsi gün Qafqaz İslam Ordusunun komandanı Gəncə qəsəbəsində olan erməni taburunun komandirinə göndərdiyi məktubunda Osmanlı ordusunun gəlməsiylə ümumi təhlükəsizliyin qorunması, habelə Osmanlı hökuməti ilə ermənilər arasında sülh əldə edilməsi ilə əlaqədar olaraq erməni əhalisinin öz silahlarını təhvil verməl期ərinin lazım olduğunu bildirdi. 11 iyun gecəsi Ağstafadan qatarla hərəkət edən 28-ci tabur və bir Şnayder dağ topçu dəstəsi, 27-ci taburdan bir piyada bölüyü 12 iyun saat 13-də Gəncəyə daxil oldu. Nuru paşa yerli əhalinin hesabına canlı qüvvələri artırmaq üçün Azərbaycan hökuməti tərəfindən ona verilən səlahiyyətdən istifadə edərək, 11 iyun 1918-ci ildə 1894-1899-cu illərdə anadan olan gənclərin orduya səfərbər edilməsi haqqında əmr verdi. Nuru paşa və Əliağa Şıxlınski şəxsən qərb qəzalarının yaşayış məntəqələrinə gedərək əhalini vətəni düşməndən müdafiə etməyə çağırırdılar. Onların çağırışına əhali böyük ruh yüksəkliyi ilə cavab verdi. Tezliklə toplanan 7 min nəfərlik

Azərbaycan korpusu Qafqaz İslam Ordusunun tərkibində döyüşlərdə qəhrəmanlıqlar göstərməyə başladı. [15, s.24-26]

Göyçay döyüşü barədə əksəriyyətin fikri belədir ki, bolşevik-daşnak ordusu Bakıdan çıxaraq Bakı-Tiflis dəmiryolu xətti ilə Bakı-Hacıqabul-Sığırlı-Kürdəmir-Müsüslü-Ucar istiqamətində və ona paralel torpaq yolla Bakı-Şamaxı-Ağsu-İsmayıllı-Qaraməryəm-Göyçay istiqamətində irəliləyib. Gəncəyə gələn Qafqaz İslam Ordusu isə dəmiryolu vasitəsi ilə Ucara öz hərbi hissələrini göndərib, oradan da həmin hissələr Göyçaya gələrək düşmənlə ölüm-dirim savaşına başlayıb. İlk baxışdan döyüş haqqında təəssürat bundan ibarətdir. Lakin nəzərə almaq lazımdır ki, bu istiqamətdə döyüşlər gedərkən, Gəncədə, Qəbələdə (o zaman Qutqaşen), Oğuzda (o zaman Vartaşen), Şamaxıda, İsmayıllıda olan erməni və rus kəndlilərinin bolşevik-erməni daşnakların təhriki ilə arxada təxribatlar törətməsi vəziyyəti daha da gərginləşdirirdi. Məsələn, 1-12 iyun 1918-ci il tarixdə S.Lalayanın və T.Əmiryanın başçılıq etdiyi daşnak terror qruplarının Hacıqabul-Kürdəmir, Göyçay ərazilərinə soxulduğu, yeddi min dinc sakini qətlə yetirdiyi bir vaxtda, 11 iyun 1918-ci il tarixdə Gəncədə yuva salan daşnak terror qrupu 15 nəfər süvarini, Milli Ordu əsgərini girov götürərək tikə-tikə doğramışdır. [12, s.24] Bundan başqa, iyunun 16-da Kürdəmir, Müsüslü və Qaraməryəmdə qanlı döyüşlərin qızğın çağında, şimal-qərbdəki erməni kəndləri olan Sultankənd, Mollaishaqlı, Kalakert kəndlərindəki erməni quldurlarının Qaraməryəm-Göyçay yolunu kəsərək müqavimət göstərməsi, 19 iyunda arxa cəbhə hesab olunan Qəbələ ərazisində ermənilərin 20-dən artıq müsəlman kəndini yandırmaları haqqında faktlar var. [12, s.15] Bundan əlavə, 24 iyun 1918-ci ildə Azərbaycanı ələ keçirmək üçün Almaniya Gürcüstanda yerləşdirdiyi qoşunlarını Azərbaycanın Qazax və Zaqatala bölgələrinə yeritməyə hazırlaşırdı. Lakin Vehib pa-

şanın, Azərbaycan ərazisinə yeridilən istənilən qoşunun məhv edilməsi barəsində əmr verməsi və kiçik toqquşmalardan sonra almanların məğlub olması, onları öz planlarından əl çəkməyə məcbur etdi. [2, s.18]

Göyçay döyüşü ərəfəsində bolşevik-daşnak qoşunlarının amansız qırğın və qarətlər törətdikləri kəndlərdən biri də Hacıhətəmli kəndidir. Göyçay istiqamətində döyüşlər ərəfəsində bolşevik-daşnak qoşunları əlverişli şərait yaratmaq məqsədilə Hacıhətəmli kəndini hədəf seçirlər. Çünki bu kənd ermənilərin yaşadıqları kəndlərin əhatəsində, coğrafi mövqeyinə görə Göyçaya yaxın olmaqla yanaşı, yüksəklikdə yerləşirdi. Kəndin alınması Göyçaya hücum üçün əlverişli şərait yaradırdı. Kəndə hücum ərəfəsində ermənilər kəndin yüzbaşısı Zülfüqar bəyi və bir neçə sakini qəddarlıqla qətlə yetirdilər. Müsəlman əhali orduya çağırılmadığından silah atmağı bacarmayan kənd cavanları çar ordusunda xidmət edib, döyüşməyi öyrənən ermənilərlə müqayisədə çox zəif idilər. Gecə ikən ermənilər kəndə hücum edərək əhalini amansızlıqla qətlə yetirdilər. Bu ağır günlərdə türk ordusunun əsgərləri kəndin köməyinə gəldilər. Onlar topların köməyi ilə hücuma keçərkən kənd cavanları da onlara qoşuldular. Mollaishaqlı kəndinin yaxınlığında "İrəmə" deyilən yerdə erməni hücumu zamanı bir türk çavuşu həlak olur, elə oradaca dəfn edilir. Türklər kəndi azad etdikdən sonra, Göyçaya qaçan camaat doğma yurda gerı dönəndə, görürlər ki, kənddə salamat bina qalmayıb. Ermənilər kəndi talan edib, apara bilmədiklərinə od vurub, hətta kənd məscidini də yandırıblar.

Ermənilərin vəhşilikləri Diyallı kəndindən də yan keçməyib. 1918-ci ildə kəndə hücum edən ermənilər qoşunun bir hissəsini Qaraquş dağında yerləşdirərək kəndi atəşə tutur. Diyallı camaatı türk əsgərləri ilə birgə Qardurmaz dağının ətəklərində mövqe seçərək onları məhv edirlər. Ermənilər Yası dağı deyilən

kəndi də atəşə tutublar. 1918-ci ildə ermənilər Keyvəndi, Pirəliqasım kəndlərinə basqınlar ediblər. Pirəliqasım ilə Keyvəndi arasında Qanlıdərə deylən bir dərə var. Pirəliqasım kəndinə hücum edən ermənilər bu dərədə dəhşətli qırğın törədib; dinc və günahsız insanları bura gətirərək, bu dərədəki iri bir daşın üstündə onların başlarını kəsiblər. Həmin insanlar elə o dərədə basdırılıb. Dərədəki həmin daş isə indi də durur. O zamandan indiyə kimi bu dərənin adı Qanlıdərə qalıb. İsmayıllı ərazisində müqəddəs yer olan Həzrə, rayonun mərkəzinə yaxın olan Aşağıbaşda yerləşir. Erməni quldur dəstələrindən biri də bu qəbiristanlıq ərazisində yerləşərək Aşağıbaş əhalisinin evlərini, mal-qarasını talan edirlər. Taladıqları mal-qaranı kəsib Həzrə ərazisində yeyib-içən ermənilər səhər gec oyandıqlarından, köməyə yetən türk ordusu onların səhərə planlaşdırdıqları qırğının qarşısını alır. Daşnaklar Quencə kəndində də ağlasığmaz qətliam törədiblər. Ermənilər kəndə silahlı rus zabitlərinin köməyi ilə hücum ediblər. Kənd əhalisi yaşlıların köməyi ilə meşəyə aparılır və bir müddət orada saxlanılır. Ermənilərə qarşı döyüşdə müdrik kənd ağsaqqalı Sirac əfəndi var qüvvəsini camaatın xilas olmasına sərf edib. Ermənilər kəndə top mərmisi atmağa başladıqda, Sirac əfəndi bir dəstə adamı təhlükəsiz "Dönən yerə" aparır, yenidən kəndə qayıdaraq başqalarını xilas etməyə çalışır. Türk ordusu hücuma keçib ağır vəziyyətdə olan kəndi xilas edir. Ermənilərin əhalidən aldığı silahlar yenidən kəndlilərə paylanır və kənd cavanlarına silahdan istifadə qaydaları öyrədilir. Həmin cavanlar sonralar türklərlə birlikdə erməni daşnaklarına qarşı döyüşlərdə iştirak ediblər. [8]

1918-ci ilin iyununda bolşevik-daşnak qüvvələrinin hədəflərindən biri Göyçay qəzasının Kürdəmir qəsəbəsi olub. Kürdəmirin işğalı düşmən üçün mühüm strateji əhəmiyyət kəsb edirdi. Həmin dövrdə iri dəmiryol qovşağı olan Kürdə-

mir stansiyasının yanında 200 evdən ibarət böyük ticarət qəsəbəsi salınıb və burada Şamaxı, Göyçay, Kürdəmir və Bakının tanınmış tacirlərinin evləri və iri ticarət tikililəri – mağazalar, anbarlar, dükanlar və s. var idi. Stansiyadan 3 kilometr aralıda yerləşən, Göyçay qəzasının ən böyük və zəngin müsəlman yaşayış məntəqəsi sayılan 2 min evlik Kürdəmir kəndinin əhalisi isə əsasən üzümçülük, bağçılıq və pambıqçılıqla məşğul idi. İstər ticarət mərkəzi kimi Kürdəmir qəsəbəsinin, istərsə də Kürdəmir kəndinin iqtisadi baxımdan vəziyyəti olduqca yüksək, əhalinin həyat tərzi isə çox firavan idi. [15, s.35; 17]

On iki minlik bolşevik-daşnak ordusu 10 iyun 1918-ci il tarixdə Hacıqabulu işğal etdikdən sonra, 11 iyunda Sığırlı stansiyasında olan milli qoşun bölmələri üzərinə hücum etdilər. Bu hücum zamanı ciddi bir müqavimətə rast gəlməyən düşmən hissələri axşam çağı Sığırlı stansiyasını işğal etdilər. [15, s.36] Sığırlıdan sonra düşmən Karrar istiqamətində hücuma keçdi. Karrar, Qarabucaq işğal olunduqdan sonra, Müsüslü istiqamətində qanlı döyüşlər baş verdi.

1918-ci ilin 10 iyununda bolşevik-daşnak qüvvələri Hacıqabul stansiyası istiqamətində hücuma keçən zaman, onların qarşısında polkovnik Maqalovun komandirlik etdiyi müsəlman və gürcü korpuslarının müştərək qüvvəsi dayanmışdı. O zaman polkovnik Maqalovun komandirlik etdiyi müsəlman və gürcü korpuslarının müştərək qərargahı Ucarda yerləşirdi. 14 iyun 1918-ci il tarixdə Nazim bəy Kürdəmir yaxınlığında yerləşən Müsüslü stansiyasına gələrək burada olan Qafqaz İslam Ordusu hissələrinə rəhbərlik etməyə başladı. Həmin gün düşmənə qarşı mübarizəni gücləndirmək üçün bir qüdrətli dağ batareyası ilə 38-ci alay, ləzgi süvari alayı, 250 sandıq piyada mərmisi və 600 atım top sursatı Yevlaxdan Kürdəmirə göndərildi. [12, s.14] Mənbələrdə Azərbaycan korpusunun Müsüs-

lüdəki rus və gürcü teleqrafçılarının 15 iyun gecəsi fərarilik edərək mövqelərini özbaşına tərk etmələri haqqında məlumat verilir. Bəzi mənbələrdə buna aclığın səbəb olduğu göstərilir. Polkovnik Maqalovun komandirlik etdiyi Müsəlman korpusu qüvvələr nisbəti qeyri-bərabər olduğundan Ucara doğru geri çəkilməyə məcbur oldu. [15, s.40-41]

Qəza mərkəzi olan Göyçaydan 18 km məsafədə Bakı-Tiflis dəmir yolunun üstündə yerləşən Ucar stansiyasının döyüşlər baş verən zaman böyük strateji əhəmiyyəti var idi. Bu stansiya 1867-ci ilin dekabrında Bakı quberniyasının tərkibində yaradılan Göyçay qəzasının tərkibində olub. Qafqaz İslam Ordusunun Göyçaya gəlməsində və düşmənə sarsıdıcı zərbələr vurulmasında Ucar stansiyası mühüm rol oynayıb. Bundan başqa, Göyçay döyüşündə yaralananların əksəriyyəti Ucar stansiyası vasitəsilə Gəncəyə aparılırdı. Bolşevik-daşnak hərbi qüvvələrinin qarşısının alınmasında, Müsüslü, Kürdəmir, Göyçay, Qaraməryəm döyüşlərində düşmənə sarsıdıcı zərbələr vurulmasında Ucar stansiyasının böyük rolu olub. Gəncəyə doğru hərəkət edən bolşevik qoşunlarının dəmir yoluna hakim olmalarının qarşısı məhz Ucarda alınıb. Göyçay döyüşü ərəfəsində Qafqaz İslam Ordusunun baş komandanı Nuru paşanın yenicə Qazax bölgəsinə daxil olan türk alayını, uzun bir yol gələn əsgər və zabitlərə dincəlmək imkanı belə vermədən Ağstafadan qatarla birbaşa Ucara göndərməsi, onun Göyçay döyüşündə oynadığı strateji əhəmiyyəti əyani şəkildə sübut edir.

Bəzi kitablarda "Qafqaz İslam Ordusu komandanı Nuri paşa, Əliağa Şıxlinski və Ərkani-hərb rəisinin səhər tezdən Müsüslü cəbhəsinin arxasında qatardan enərək Çöyçaya getməsi" kimi cümlələr işlədilir və bu məkanın adı qeyd olunmur. [12, s.16-17] Yadda saxlamaq lazımdır ki, Müsülü stansiyası hazırda Ucar rayonunun ərazisinə daxildir. 1918-ci ilin 17 iyununda

Müsüslüdə döyüşlər gedərkən, bu cəbhənin arxası Ucar stansiyası hesab olunurdu. Fikrimizcə, gələcəkdə tədqiqatçılar bu kimi faktlardan istifadə edərkən, Qafqaz İslam Ordusu komandanı Nuri paşa, Əliağa Şıxlinski və Ərkani-hərb rəisinin məhz Ucar stansiyasına gələrək, oradan Göyçaya getməsini qeyd etsələr daha düzgün olar. [15,s.45]

Bakı neftinin Qara dəniz limanlarına çatdırılması üçün 1883-cü ildə Bakı-Tiflis dəmir yolu çəkilərkən, Göyçay qəzasının ərazisinə daxil olan Hacıqabul, Qarasu, Sığırlı, Karrar, Kürdəmir, Qarabucaq, Müsüslü, Bərgüşad, Ucar və s. dəmir yol stansiyaları da yaradıldı. 1918-ci ilin iyun-iyul aylarında Göyçay, Qaraməryəm, Ağsu istiqamətində gedən əsas hərbi əməliyyatlarla yanaşı, bu stansiyalar da döyüşlərin getdiyi əsas ərazilər olub.

Mövzu ilə bağlı tədqiqat işləri nəticəsində məlum olub ki, döyüşlər əsasən qəza mərkəzi olan Göyçayla yanaşı, Bığır, Qaraman, Hacalı, Qaraməryəm, Müsüslü, Cəyirli, Potu, Qarabaqqal, Mollaishaqlı, Soltankənd, Ləkçılpaq, Qaraxıdır, Veysəlli, Alxasov, Kürdəmir, Sığırlı, Karrar, Qarabucaq, Müsüslü, Mustafalı, Xəlilli, Qasımbəy, Ərəb-Mehdibəyli, Dadalı, Ağsu, Hacıhətəmli, İsmayıllı, İvanovka, Kürdmaşı, Diyallı, Keyvəndi, Pirəliqasım, Minkə Cəngi, Kəlvənd, Qalagah, Ruşan, Tubukənd, Keşqurd, Gənzə, Qaravəlli, Qarabulaq, Mustafalı, Xəlil-Qasımbəy, Sadalı, Aşağıbaş və digər ərzilərdə baş verib. Göyçay döyüşlərində iştirak edən qəhrəmanların əksəriyyətinin adlarını aşkara çıxarmaq, xalqa tanıtmaq hələlik mümkün olmasa da, bu qəhrəmanlardan bir neçəsinin adları məlumdur. Nuru paşa, Mürsəl paşa, Cemal Cahid Paşa, Xəlil Kut Paşa, Yaqub Şevki Subaşı, Cəmil Cahit Toydəmir, Süleyman İzzət Yeğin, Nazim Mehmet bəy, İsmayıl Haqqı bəy, Nazim bəy Ramazanov, Minbaşı Zihni bəy, yüzbaşı Zühdü əfəndi, Həbib bəy Səlimov, Əhməd Həmdi bəy, Həsən bəy, Albay Yusif Ziya Talıbzadə (Abdulla Şaiqin qardaşı)




*Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Paris Sülh konfransına təqdim edilən xəritə (1919-cu il)*

və başqalarının adlarını çəkmək olar. [15, s.12-13]

Türkiyə tarixşünaslığında Qafqaz İslam Ordusunun strukturu, onun tərkibində olan Azərbaycan Ordusu Hərbi korpusları, o cümlədən Müsüslü bölüyünün komandiri – polkovnik-leytenant Həbib Səlimov, Göyçay bölüyünün komandiri – mayor Rəcəb haqqında məlumat verilib. [16, s.33]

## *5. Birinci QaramərYəm döyüşü*

## *(16-18 iyun 1918-ci il)*

Kürdəmir və ətraf kəndlər işğal olunduqdan sonra, düşmən strateji cəhətdən mühüm əhəmiyyət kəsb edən Qaraməryəm istiqamətində hücuma keçməyə başladı. Onların məqsədi bu strateji məntəqəni ələ keçirib, bundan sonra qəza mərkəzi

Göyçay şəhərini tutmaq və Gəncəyə doğru irəliləyərək Azərbaycan Xalq Cümhuriyyətini beşikdəcə boğmaq idi. Qafqaz İslam Ordusu və Azərbaycan könüllülərinin birləşmiş qüvvələri ilə bolşevik-daşnak işğalçıları arasında ilk böyük hərbi əməliyyat iyunun 16-18-də Göyçaydan 20 verst şərqdə yerləşən Qaraməryəm kəndi yaxınlığında baş verdi. Bu döyüşü şərti olaraq I Qaraməryəm döyüşü də adlandırmaq olar. Qaraməryəm kəndi Qaraməryəm tirəsi üzərində yerləşdiyindən hər iki tərəf bu strateji əraziyə böyük əhəmiyyət verirdi. Çünki Qaraməryəmi tutan qüvvə ətraf düzən əraziləri nəzarət altında saxlaya bilərdi. 1918-ci il iyunun 16-da səhər saat 9-da başlayan döyüşdə bolşevik-daşnak quldur dəstələri azərbaycanlılardan, gürcü və dağıstanlılardan ibarət dəstənin üzərinə hücuma keçdi. Türk hərbi qüvvələri bölgəyə gəlib çatmadığından, Qaraməryəm ətrafında dayanan müdafiə dəstələri qeyri-bərabər döyüşdə geri çəkilmək məcburiyyətində qaldılar və bolşevik-daşnak qoşunları Qaraməryəmi ələ keçirdilər. [4; 5, s.137-138; 10] Sovet tarixşünaslığında bolşevik-daşnak hərbi birləşmələrinin iyunun 10-da Gəncə istiqamətində hücuma keçərək 11 iyunda Sığırlını, 12 iyunda Kürdəmiri işğal etməsi, 16 iyunda isə Qaraməryəm istiqamətində hücuma keçmələri haqqında məlumatlar var. [22, s.152] I Qaraməryəm döyüşündə müdafiə dəstələrinin qeyri-bərabər döyüşə girmələrinə baxmayaraq, 7 saat ərzində bolşevik-daşnak qoşunları ilə vuruşublar. Onlar Qaraməryəmə can atan düşmənin qarşısını almağa nə qədər səy göstərsələr də, geri çəkilmək məcburiyyətində qalıb və beləliklə, Qaraməryəm bolşevik-daşnak qoşunları tərəfindən işğal edilib. Lakin buna baxmayaraq, iyunun 18-də qanlı döyüşlər Qaraməryəm ətrafında davam etdi. Müsüslüdə olan Ərkani-hərb rəisi Nazim bəy və 10-cu Qafqaz alay komandiri Osman bəy firqə qərargahı və Qafqaz İslam Ordusu komandanlığı ilə razılaşdırılma-

dan iyun ayının 18-də düşmən üzərinə hücum etməyi qərara aldılar. Ciddi bir hazırlıq olmadan planlaşdırılan bu döyüşdə qalib gələcəklərinə hər iki komandirdə böyük inam var idi. İyunun 16-da 10-cu Qafqaz alayının 30-cu taborunun ətraf erməni kəndlərindəki silahlı quldur dəstələrini itki vermədən məğlub etməsi, bundan başqa, Müsüslü istiqamətində əldə edilən bəzi uğurlar onlarda ruh yüksəkliyi yaratdı. Düşmənin Qaraməryəmi tutması və Göyçaya doğru irəliləməsi xəbəri öz qüvvəsinə inanan hər iki türk zabitini təcili qərar verməyə məcbur etdi. Məhz buna görə də onlar özləri komandanlıqla razılaşdırmadan tələsik düşmən üzərinə hücuma keçməyə qərar verdilər ki, bu da faciə ilə nəticələndi. Düşmənin döyüşə əlavə qüvvə cəlb etməsi 10-cu alayın 28-ci taborunun üç bolşevik-daşnak taborunun zərbəsi altına düşməsi ilə nəticələndi. Belə olduqda tabor geri çəkilmək məcburiyyətində qaldı. Qaraməryəm cəbhəsindəki vəziyyəti Osman bəy Müsüslüyə, Nazim bəyə məruzə etdi. O da həmin istiqamətdə vəziyyəti dəyişmək üçün dərhal 29-cu tabora Qaraməryəm istiqamətində hücum əmri verdi. Nazim bəyin hazırladığı hücum planına əsasən bu tabor Qaraməryəmin qərb tərəfində döyüşə girərək düşmənin sol və arxa hissələrinə zərbə endirməli idi. Bu hücum nəticəsində düşmənin sol cinahı 20 verst uzunluğunda sıxışdırılaraq geri oturduldu. Belə olanda, bolşevik-daşnak ordu hissələri 28-ci türk taborunun təqibindən əl çəkdi və nəzarət altında olan yüksəkliklərdə əlverişli mövqelər seçərək açıq sahədə hücum edən 29-cu taborun qarşısını saxlamağa müvəffəq oldu. Bolşevik-daşnak qoşunları bütün qüvvələrini bu istiqamətə yeridərək, 29-cu taborun hücumunun qarşısını aldılar. Bundan sonra həmin taborun mühasirəyə düşmək təhlükəsi yarandı. Vəziyyətin dəyişdiyini görən 29-cu tabor Veysəlli kəndinə tərəf bir qədər geri çəkildi. Beləliklə, gün ərzində gedən döyüşlər güclü yağışlar səbəbi

ilə səngidi və türk qüvvələrinin ilk böyük hücumu gözlənilən nəticəni vermədi. 10-cu Qafqaz alayının hissə və bölmələri Qaraməryəmdən geri çəkilmək məcburiyyətində qaldılar. Hamazaspın komandir olduğu 3-cü briqadanın hissələri isə əksinə, Qaraməryəmdə daha da möhkəmləndilər və Göyçay şəhəri üzərinə hücum üçün əlverişli mövqeləri ələ keçirdilər. Türk tədqiqatçılarının fikrincə, Qaraməryəm ətrafında 10-cu Qafqaz alayı hissələrinin uğursuzluğa düçar olması ilk növbədə döyüşün hazırlanmasında taktiki səhvlərə yol verilməsi ilə bağlı idi. Düşmənin qüvvələri və mövqeləri barədə əldə kifayət qədər məlumat yox idi. Digər tərəfdən, döyüşün aparılması üçün lazımi ehtiyat qüvvə də yaradılmamışdı. Bütün bunlar, habelə döyüşçülərin psixoloji hazırlığının zəifliyi, ilk hücumdan yaranan çaşqınlıq, eləcə də cinah döyüşlərindən lazımınca istifadə edilməməsi və həm də cinah mühafizəsinin lazımi səviyyədə təmin olunmaması türk qoşun hissələrinin itkilərinə və geri çəkilməsinə yol açdı. Düşmən çaşqınlıq halında olan 10-cu alay bölmələrini təqib etsəydi, daha böyük faciə baş verə bilərdi. Onların Qaraməryəm ətrafında möhkəmlənməklə kifayətlənmələri, əslində 10-cu alayı daha böyük itkilərdən xilas etdi. I Qaraməryəm döyüşündə 122 nəfər şəhid oldu və ya itkin düşdü, 121 nəfər isə yaralandı. Bundan başqa, 28-ci taborda 75 mauzer tüfəngi və 101 ədəd süngü itirildi. Dağ topçu taqımında 2 ədəd top, 10 ədəd tüfəng və 41 mərmi düşmən əlinə keçdi. 29-cu taborda 18 mauzer tüfəngi və 19 süngü, 30-cu taborda isə 13 mauzer tüfəngi ilə 35 süngü sıradan çıxdı. [11, s.79-95] 13 türk əsiri işgəncə ilə öldürüldü. Döyüşlərdə iştirak edən Sivaslı Mehmet oğlu Turanın söylədiklərindən aydın olur ki, türklər rus və erməni əsirlərinə insanpərvər münasibət göstərib, öz əsirlərini dəyişdirdikdə isə, onların arabalara doldurulan və doğram-doğram edilən cəsədlərini götürə biliblər. Həlak olan-

lar Qaraməryəmdən Göyçaya gedən yolla Bığır və Mollaishaqlı kəndlərinə ayrılan yolun kəsişməsində, yoldan sağda dəfn ediliblər (hal-hazırda bura Göyçay şəhidliyi kimi tanınır). [2, s.113-114] Digər səbəblərlə yanaşı, I Qaraməryəm döyüşündə 5-ci Qafqaz diviziyasının komandanı Mürsəl bəyin öz qərargahı ilə Göyçayda deyil, Gəncədə yerləşməsi və ən vacib istiqamətdə baş verən hadisələrdən uzaq düşməsi, bir sıra hərbi hissələrin dərhal Müsüslü istiqamətinə göndərilməməsi də məğlubiyyətin əsas səbəblərindən idi. Qaraməryəmdəki uğursuzluqdan sonra, S.Şaumyan 18 iyun 1918-ci il tarixində Moskvaya Qafqaz İslam Ordusunun itkilərinin 500 nəfər olduğunu yazmışdı. Bu "qələbə" münasibətilə Korqanovun sərəncamına Moskvadan zirehli döyüş maşını göndərilmişdi. [12, s.15-16]

İyunun 17-dən 18-ə keçən gecə Gəncədən qatarla yola düşən Qafqaz İslam Ordusunun komandanı Nuru paşa, Əliağa Şıxlinski və Ərkani-hərb rəisi səhər tezdən Müsüslü cəbhəsinin arxasında düşərək, qəza mərkəzi olan Göyçaya gəldilər. Nuru paşa Mürsəl paşaya cəbhədə bilavasitə komandanlığı ələ alması, ordu və firqə (diviziya) qərargahının Gəncədən Göyçay şəhərinə daşınması barədə 18 iyun 1918-ci il tarixdə əmr verdi. İyunun 19-da Nuru paşa Şərq Ordular Qrupu qoşunlarının komandanına 5-ci diviziyanın rus qoşunlarının hücumunu xeyli itki bahasına dayandırdığı haqqında məlumat versə də, sonrakı günlərdə bolşevik-daşnak qoşunları yenidən Göyçay şəhərinə tərəf irəliləyə bildilər. Diviziya qərargahından ordu komandanlığına 22 iyun 1918-ci il tarixdə Qaraməryəmin qərb yamaclarında 400-ə qədər düşmən əsgərinin çadır qurmaqla məşğul olduğu xəbəri verildi. Cəbhədəki vəziyyətlə əlaqədar olaraq xarici işlər naziri M.H.Hacınski M.Ə.Rəsulzadəyə yazırdı: "Cəbhədə vəziyyətimiz yaxşı deyil. İrəli gedə bilmirik'". Bundan sonra o, Ənvər paşa qarşısında tez bir zamanda Türkiyədən daha bir

diviziya göndərilməsi barədə təkidlə məsələ qaldırmağı xahiş edirdi. Az sonra M.Ə.Rəsulzadə ona cavabında bildirdi ki, Ənvər paşanın sərəncamı ilə Azərbaycana yeni alaylar göndərilir və Nuru paşa artıq təsdiq edib ki, hücumu davam etdirmək üçün kifayət qədər qüvvə var. Qafqaz İslam Ordusu komandanlığının cəbhəyə göndərdiyi yeni qüvvələr - dağ-artilleriya diviziyası və türk piyada alayı iyunun 19-da döyüş zonasına gəldi. Bu çətin anda qızğın döyüşlərə atılan yeni qüvvələr arasında Azərbaycan xalqının övladlarından təşkil olunan bölmələr və könüllü dəstələr də var idi. Təkcə iyunun 19-da 600 nəfərdən ibarət Azərbaycan dəstəsi, onlardan sonra Dəllər və Zəyəmdən olan könüllülər cəbhəyə gəldi. Yeni qüvvələr aldıqdan sonra, Qafqaz İslam Ordusunun komandanlığı hücum planını hazırlamağa başladı. 5-ci Türk diviziyasının komandiri Mürsəl bəy bu barədə öz mülahizələrini Nuru paşaya bildirərək xahiş etdi ki, birbaşa cəbhəyə yollanmaq üçün ona əlavə olaraq 5 100 nəfər əsgər verilsin. Göyçay və Bərdədən olan dəstələr ilə o, düşmən cinahlarına zərbə endirməyi, Şəkidən olan hissələri isə 5-ci diviziyanın yerləşdiyi mövqenin arxasında təhlükəsizliyi təmin etmək üçün göndərməyi təklif edirdi. Nuru paşa bu planı bəyəndi. Əsas zərbənin endirilməsi ilə eyni zamanda o, Şuşaya doğru irəliləməyi qərara aldı. Bu şəhəri almaq üçün artilleriyalı piyada taburlarını yeritmək nəzərdə tutulurdu. Ancaq bu planı yalnız Bakı şəhəri azad edildikdən sonra həyata keçirmək mümkün oldu. Döyüşlər əsasən Qaraməryəm-Ağsu şose və Müsüslü-Kürdəmir dəmir yolları ətrafında gedirdi. [4, s.270-271; 6, s.103-109] I Qaraməryəm döyüşündə Qafqaz İslam Ordusu ilə Azərbaycan könüllüləri, göstərdikləri qəhrəmanlıqlara baxmayaraq, məğlubiyyətə uğradılar. Düşmənin qəza mərkəzi olan Göyçay istiqamətində hücuma keçməsinə şərait yarandı.

Ancaq I Qaraməryəm döyüşündəki məğlubiyyətə baxma-

yaraq, ilk dəfə olaraq bu döyüşdə müttəfiqlər azərbaycanlı döyüşçülərin müharibə aparmaq qabiliyyətini, vuruşmaq əzmini gördülər. Bu döyüşədək Qafqaz İslam Ordusu zabitləri azərbaycanlı döyüşçüləri əsasən strateji əhəmiyyət kəsb edən dəmir yollarının qorunmasına cəlb edirdilər. I Qaraməryəm döyüşündə azərbaycanlı döyüşçülərin qardaş türk əsgərləri ilə birlikdə göstərdikləri qəhrəmanlıqlar, qazandıqları döyüş təcrübəsi Göyçay şəhəri uğrunda döyüşdəki qələbədə mühüm rol oynadı.




*Mənbə: Mustafa Görüryılmaz, Qafqaz İslam Ordusu və ermənilər, Bakı, 2006*

### *6. Göyçay şəhəri uğrunda döyüşlər*
### *(27 iyun - 1 iyul 1918-ci il)*

Türk İslam Ordusu komandanının əmrindən sonra, 1918-ci ilin 20 iyun axşamı Göyçay şəhərində Sadıq ağa və qardaşı Həzrət bəyin evində Gəncədən köçürülən 5-ci Qafqaz firqəsinin qərargahı təşkil edildi. [12, s.16] I Qaraməryəm döyüşünün nəticələri Qafqaz İslam Ordusu komandanlığında ciddi təhlil olundu. Ordu komandanı Nuru paşa, Müsəlman korpusu komandanı Əliağa Şıxlinski, 5-ci Qafqaz firqəsinin qərargah rəisi Rüşdü bəy vəziyyətlə daha yaxşı tanış olmaq, qüvvələri yenidən qruplaşdırmaq və imkanları bütünlüklə səfərbər etmək məqsədilə cəbhə xəttinə gəldilər. Hər şeydən əvvəl, məhəlli komandanlıqlara azərbaycanlılardan ibarət silahlı dəstələrin təşkilini və Göyçay ətrafına göndərilməsini sürətləndirmək göstərişi verildi. Ağdaşdan 2 minlik silahlı dəstənin Göyçaya göndərilməsi qərara alındı. Bundan əlavə, Nuru paşa Gəncədən 46-cı və 26-cı taborun, istehkam bölüyünün, dağ toplarının, 9-cu alayın pulemyot bölüyünün və könüllülərin göndərilməsi barədə əmr verdi. Bu işlər iyun ayının 27-nə qədər davam etdirildi. Qafqaz İslam Ordusunun qoşunları iyun ayının 28-də bolşevik-daşnak qüvvələri üzərinə hücumla təşəbbüsü ələ almağı planlaşdırırdı. Lakin döyüşə hazırlıq planı iyunun 26-da bolşevik-daşnak qüvvələrinə məlum oldu. Düşmənin üç taboru ayın 27-də səhər saat 6-da Göyçay-Qaraməryəm şosesi boyunca, 2 bölük piyada qüvvəsi isə şimaldan hücuma keçdi. Bolşevik-daşnak qüvvələrinin Göyçayın şimalından hücuma keçib, Qafqaz İslam Ordusu hissələrini qəfildən mühasirəyə almaq və zərbə vurmaq niyyəti aydın olanda, köməyə gələn azərbaycanlı könüllü qüvvələrinə Veysəlli istiqamətində hücuma başlamaq, düşmənə cinahlardan və arxadan zərbə endirmək və Ağsu-Qaraməryəm yolunu kəsərək, onun geri çəkilməsinə mane olmaq əmri verildi. Saat

10-a yaxın bolşevik-daşnak qoşunlarının 10-cu alayın sol cinahına keçmək təhlükəsi güclənəndə, ehtiyatda saxlanan 25-ci tabor döyüşə qoşuldu. Göyçayın şimalından bir bölüyə qədər süvari dəstəsi, həmçinin Ağdaşdan gətirilən könüllülər, Müsüslü dəstəsindən qüvvələr də 13-cü alayın sağ cinahına köməyə göndərildi. Nəticədə, Bığır istiqamətində irəliləyən bolşevik-daşnak qoşunlarının hərəkəti təxminən saat $15.^{00}$-da dayandırıldı, hətta 10-cu Qafqaz alayı üçün yaxşı əks-hücum imkanı yarandı. 5-ci Qafqaz diviziyası komandanlığı bu imkandan istifadə edərək, saat $18.^{00}$-da hər iki alaya əks-hücum əmri verdi. 10-cu alay əks-hücumla düşmən qüvvələrini 3 km geriyə çəkilməyə məcbur etdi. Lakin qaranlıq düşdüyündən, alaya əvvəlki mövqelərinə qayıtmaq əmri verildi. İyunun 29-da səhər tezdən davam edən döyüş Qafqaz İslam Ordusu hissələrinin daha böyük uğuru ilə nəticələndi. Elə ilk anlardan təşəbbüsü ələ alan 10-cu və 13-cü alayın döyüşçüləri düşmənin müqavimətini tamamilə qırdılar. Bolşevik-daşnak hissələrinin məğlubiyyəti ilə başa çatan döyüşlərin sonunda Qaraməryəmin qərb hissəsi tamamilə, şərq hissəsi isə qismən Qafqaz İslam Ordusu hissələrinin nəzarəti altına keçdi. Həlledici döyüşlərin uğurla başa çatdırılması ordunun şəxsi heyətində qəti qələbəyə inamı daha da artırdı. [4; 5, s.137-138; 10]

Göyçay döyüşündə iştirak edən, Bığır kəndi uğrunda gedən döyüşlərdə həlak olan qəhrəman türk əsgərlərindən biri Qədir Əfəndi olub. Rumiyyənin "Şəhid olmuş türk əsgərin adını, silahını və məktubunu daşıyan tovuzlu kim olub?" məqaləsində [18] Göyçay döyüşündə qəhrəmanlıq göstərən bölük komandiri Qədir Əfəndi haqqında qısa məlumat var. Qafqaz İslam Ordusuna Tovuzda qoşulan gənclərdən biri 19 yaşlı Ələsgər Musayev olub. Onu öz bölüyünə qəbul edən Qədir Əfəndi Ələsgəri Çanaqqala qəhrəmanı, şəhid Şaynalıya bənzətdiyinə görə, ona Şay-

nalı Ələsgər adı verir. O, həmçinin Çanaqqala qazisi Əli Dəmirəlin iki tərəfində güzgü düzəltdiyi şəhid tüfəngini də Ələsgərə bağışlayır. Həmin tüfəngdən Göyçay döyüşündə düşmənə qarşı istifadə olunur. Çanaqqalada məğlub olmayan, Azərbaycanda zəfər qazanan Qədir Əfəndi Göyçay yaxınlığında Bığır kəndi ətrafında gedən döyüşdə şəhid olur. Göyçay döyüşlərində qəhrəmanlıqlar göstərən Şaynalı Ələsgəri isə Bakı azad edildikdən sonra Nuru paşa qızıl medalla mükafatlandırır. Sovet hakimiyyəti illərində xalqın qəhrəman oğlu Şaynalı Ələsgər həbs olunsa da, Qədir Əfəndinin ona verdiyi tüfəngi əziz bir yadigar kimi qoruyaraq düşmənə vermir. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra, Göyçay döyüşlərində istifadə olunan, 73 il göz bəbəyi kimi qorunub saxlanılan aynalı tüfəngi Şaynalı Ələsgərin qızı Leyla xanım 1991-ci ildə üzə çıxararaq evində atasının şəkli yanına asdı.

Göyçay döyüşündə ən böyük çətinliklərdən biri yayın istisində olan dəhşətli susuzluq idi. Tarixən Göyçay qəzasından Bakıya qədər ərazidə əhali əsasən Göyçay, Girdiman, Ağsu, Pirsaat çaylarının suyundan istifadə edirdi. Döyüşlərin getdiyi 1918-ci ilin iyun-iyul ayları həddindən artıq isti keçdiyindən bu çayların suyu da xeyli azalmış, əsgərlərin su ilə təminatında böyük çətinliklər yaranmışdı. Hətta hər iki tərəfdən susuzluqdan və acından əsgərlər arasında ölüm hallarının olmasına aid faktlar da var. Məsələn, Qafqaz İslam Ordusu komandanı Nuru paşa, iyunun 18-də Göyçayda meydanda toplaşan camaata deyir: "Azərbaycanı və azərbaycanlıları düşməndən qurtarmaq üçün Osmanlı ordusu məmləkətinizə gəldi. Bu orduya can-la-başla yardım etməniz lazımdır. Silahla yardım edə bilmirsinizsə, heç olmazsa, əsgərlərin ərzaq və sularını daşıyın. Bu qızmar istidə döyüşən zabit və əsgərlərdən bir çoxu susuzluqdan ölmüşlər." (12, s.16-17) Bu faktlar qəhrəman əsgərlərimizin han-

sı çətinliklərlə üzləşdiklərini əyani şəkildə göstərir. Əsgərlərin susuzluqdan əziyyət çəkməsi sovet tarixşünaslığında da öz əksini tapıb. Sovet tarixşünaslığında qeyd olunur ki, "... ərzaq çatışmırdı. Çörək və su yox idi. Əsgərlərin böyük hissəsinin silahı və paltarı da yox idi. Əsgərlərin gündəlik ərzağı quru üzüm qalıqlarından və 8-10 qozdan ibarət idi. [23, s.20] Bolşevik-daşnak dəstələrinin komandiri Q.Korqanov yazırdı: "Göyçay ətrafında iyunun 27-dən 30-na qədər davam edən dörd günlük döyüş başa çatdı... Döyüşlər çox dəhşətli, əlbəyaxa, süngü hücumu ilə baş verdi. Dözülməz istilər və əsgərləri su ilə təmin etməyin mümkün olmaması onların bayılma vəziyyətinə düşməsinə səbəb olurdu." [24]

Göyçay döyüşləri ərəfəsində və qanlı döyüşlərin getdiyi vaxt Qafqaz İslam Ordusunun və Azərbaycan könüllülərinin təchizatına yaxından köməklik edən Göyçayın adlı-sanlı şəxsiyyətlərindən biri, Qaramanlı kəndinin nüfuzlu şəxsiyyəti Hacı Rəhim Əfəndi (1862-1924) olub.

Görkəmli din xadimi, maarifçi və xeyriyyəçi kimi regionda məşhur olan Hacı Rəhim Əfəndi Qafqaz İslam Ordusu Göyçaya gələndə 56 yaşlı ağsaqqal kimi yerli əhalidən könüllülərin toplanmasında, döyüşlərin təşkilində, ordunun ərzaq və su ilə təchizatında mühüm rol oynayıb.

Qaramanlı Hacı Rəhim Əfəndinin Göyçayda həyata keçirdiyi çoxsaylı xeyriyyəçilik işlərini yerli əhali heç zaman unutmayıb, yaşlı nəsil yaddaşında qoruyub saxlayıb.

Göyçay şəhəri uğrunda döyüş Azərbaycan tarixinin şərəfli, qəhrəmanlıq səhifələrindən biridir. Bu döyüşdəki qələbə ilə düşmənin hücumu dayandırıldı, müharibənin gedişində əsaslı dönüşün başlanğıcı qoyuldu. Müəyyən mənada bu döyüşü dövlətin və millətin taleyində oynadığı rola görə II dünya müharibəsinin gedişində əsaslı dönüş olan Stalinqrad vuruş-




***Göyçay şəhərinin mərkəzində 104 il əvvəl düşmənin atdığı mərminin yaraladığı çinar ağacı  yenidən qol-budaq atıb***

ması ilə də müqayisə etmək olar. Miqyasına görə bu iki döyüş arasında çox böyük fərq olmasına baxmayaraq, əhəmiyyətinə görə çox böyük oxşarlıq var. Göyçay şəhəri uğrunda döyüşdəki qələbənin böyük strateji, siyasi və beynəlxalq əhəmiyyəti ondan ibarət idi ki, bu qələbə ilə xalqın yenidən soyqırıma məruz qalmasının, Cümhuriyyətin beşikdəcə boğulmasının qarşısı alındı. Bundan başqa, bu döyüşlə Bakının düşməndən azad olunmasının və Azərbaycan Xalq Cümhuriyyətinin dünya ölkələri tərəfindən tanınmasının əsası qoyuldu.

27-28 iyunda Göyçay istiqamətində gedən gərgin döyüşlər nəticəsində düşmən 3 km geri oturduldu. Bu istiqamətdə Əlikənd və Veysəlli azad edildi. Göyçay şəhəri uğrunda döyüş düşmən tərəfindən 16-18 iyun 1918-ci il tarixində işğal edilən Qaraməryəmin azad olunması üçün əlverişli şərait yaratdı.

### *7. İkinci Qaraməryəm döyüşü (29 iyun - 2 iyul 1918-ci il)*

Qəza mərkəzi Göyçaydan şərqə doğru 29 iyun 1918-ci il tarixdə, səhər tezdən Göyçay-Qaraməryəm cəbhəsində döyüş başlandı. Bu döyüşü şərti olaraq II Qaraməryəm döyüşü də adlandırmaq olar. II Qaraməryəm döyüşü Qafqaz İslam Ordusunun tam tərkibdə iştirak etdiyi ilk döyüş idi. 5-ci Qafqaz diviziyasının komandanı Mürsəl paşanın verdiyi raportda 10-cu və 13-cü alayların şiddətli hücumu ilə önündəki düşmənin hər tərəfdən geri çəkilməsi və dəstələrimiz tərəfindən təqib olunması qeyd olunurdu. Həmin gün səhər tezdən Qafqaz İslam Ordusunun 10-cu və 13-cü alayının döyüşçüləri Qaraməryəmdə möhkəmlənən düşmənin müqavimətini qıra bildilər. [12, s.18] İyunun 30-da düşmən qüvvələri Qaraməryəmdən şərqə doğru geri oturduldu. Qafqaz İslam Ordusu qüvvələrinin irəli hərəkətinə uyğun olaraq

5-ci firqə qərargahı 1 iyul 1918-ci il tarixdə Göyçaydan Qaraməryəmə doğru şose yolu üzərindəki Qarayazı kəndinə köçürüldü. Lakin həmin gün bolşevik-daşnak hərbi hissələrindən birinin Goyçaya soxulması vəziyyəti yenidən gərginləşdirdi. Bu barədə erməni Əmirov iyulun 1-i axşam Bakıya S.Şaumyana teleqram göndərdi. Lakin elə həmin gün Turk-Azərbaycan qoşunları yenidən Goyçay şəhərini azad etdi. Düşmən geri cəkilməyə məcbur oldu. [6, s.103-109; 12, s.19-20]

Digər mənbədə bu hadisə belə şərh edilir: "İyun ayının 30-da erməni Əmirovun rəhbərliyi altında olan 1 000 nəfərlik silahlı dəstə gözlənilmədən qoşunlarımızın arxasında olan Göyçaya daxil oldu və qəsəbənin şimal hissəsini işğal etdi. Hadisənin ciddi həyəcan doğuran səbəbi ondan ibarət idi ki, Qafqaz İslam Ordusunun bölgədə olan bütün qüvvələri Qaraməryəm ətrafında idi və heç kəs gözləmirdi ki, bolşevik-daşnak qüvvələri gecə ikən, çətin dağ yolları ilə bu qədər yolu qət edərək Göyçaya girə bilər. Digər həyəcan doğuran məsələ isə ondan ibarət idi ki, Qaraməryəmdən müəyyən qüvvələrin geri çəkilməsi cəbhənin boşaldılması demək olardı, bu isə xoşagəlməz fəsadlarla nəticələnərdi. Göyçayda vəziyyətin mürəkkəb olaraq qaldığı bir vaxtda Qazaxdan gələn süvarilərin Əmirovun qüvvələrinin müqavimətinə davam gətirməyərək dağıldığı barədə məlumat alındı. Çox güman ki, gecə ikən Göyçaya çatan və kifayət qədər istirahət edə bilməyən Qazax süvariləri çoxsaylı qoşunun qarşısını ala bilməyərək geri çəkilməli olub. Ancaq iyulun 2-də Nuru paşa Mürsəl bəyə göndərdiyi teleqramında Qazax süvarilərinin mübarizliyini və əzmkarlığını təqdir edirdi. Ola bilsin ki, Qazax süvariləri, sonradan 5-ci firqənin bölmələri və Göyçaya gələn Azərbaycan könüllüləri ilə birlikdə yenidən döyüşə girərək, nəyə qadir olduqlarını nümayiş etdirib.

Nuru paşa son günlər ərzində əldə edilən uğurların itirilməsinə yol verməmək üçün qətiyyətli tədbirlərə əl atdı. Cəbhə xətti ilə əlaqə saxlayaraq vəziyyəti ətraflı öyrəndi, sonra isə yaranmış təhlükənin aradan qaldırılması üçün Qafqaz İslam Ordusunun qərargah rəisi Nazim bəyi yenidən bölgəyə göndərdi. Nuru paşa bir daha yüksək çeviklik nümayiş etdirdi. Gəncə ətrafında toplanan Azərbaycan könüllülərini də Nazim bəylə təcili şəkildə Ləkiyə yola saldı. Nuxadakı miralay Yusif bəyə göstəriş verdi ki, orada topladığı çoxsaylı dəstəsi ilə Qumlax-Padar istiqamətində hərəkət etsin. Yusif bəy Nuxaya gələrək burada müdafiə dəstələrinin təşkilinə öz köməyini göstərdi. Sonra Gəncə ətrafında toplaşan könüllülərə də Göyçaya doğru hərəkət etmək tapşırıldı. Bu qüvvələr hamısı azərbaycanlılardan toplanan könüllü dəstələr idi. Nazim bəy qısa vaxtdan sonra Ləki stansiyasına gəlib həm Göyçayla, həm də Ucarla əlaqə yaratdı. Gəncədən gələn və Ucardakı könüllü dəstələrin Göyçaya göndərilməsini təşkil etdi. Sonra Ağdaşa yollanaraq orada mövcud olan könüllüləri faytonlarla Göyçaya göndərdi. Gördüyü bütün işlər barədə Nazim bəy dərhal Nuru paşaya məlumat verdi. Ağdaşda yerli əhalidən toplanan qüvvələrin, habelə Gəncədən Ucara gətirilən könüllü dəstələrin Göyçaya yola salınmasını təşkil edəndən sonra Nazim bəy Nuru paşaya ikinci bir raport göndərdi. Həmin raportda Nazim bəy Ağdaşdan faytonlar ilə, piyada və ayrıca olaraq süvari qüvvələrinin Göyçay istiqmətində göndərildiyini, yüzbaşı Haqqı Əfəndinin komandası altındakı atlıların da Ucardan Göyçaya hərəkət etdiklərini bildirdi. Gün ərzində elə bir çeviklik göstərildi ki, daşnak silahlılarının gözləmədiyi halda, qısa müddət ərzində Göyçaya kifayət qədər qüvvə cəmləşdirildi. Erməni Əmirov öz tör-töküntüləri ilə Göyçayı tərk etməyə və gəldikləri kimi də geri qaçmağa məcbur oldu. Beləliklə, iyunun 27-30-u arasında Göyçay və Qa-

ramәryәm әtrafında baş verәn döyüşlәr Qafqaz İslam Ordusu qüvvәlәrinin qәlәbәsi ilә başa çatdı vә bu döyüşlәrin nәticәlәri Nuru paşanı da ümumәn razı saldı. Bolşevik-daşnak qoşunları Ağsuya doğru sıxışdırıldı. Bolşevik-daşnak qüvvәlәri bu döyüşlәrdәn sonra bir daha hәrbi tәşәbbüsü әsaslı şәkildә әlә ala bilmәdilәr vә burada düçar olduqları uğursuzluq onların tam mәğlubiyyәtinә gәtirib çıxardı." [11, s.79-95]

Düşmәn Qaramәryәmdәn geri oturdulsa da, Göyçayın şimalındakı ermәni kәndlәrinә nәzarәt etmәdәn düşmәni bu mövqelәrdәn çox da uzaqlaşdırmaq olmazdı. Komandanlığın planına görә, Qaramәryәm-Qarayazı xәttinin әlә keçirilmәsindәn sonra düşmәnin Kürdәmirdәn geri çәkilәcәyi, Göyçayın vәziyyәtinin düzәldilәcәyi, Göyçayın şimalından şәrqә qaçan düşmәn qüvvәlәrinin geri çәkilmә xәttinin kәsilәrәk әsir alınacağı, vәziyyәt әlverişli olduğu tәqdirdә Müsüslü dәstәsinin hücuma keçәcәyi nәzәrdә tutulurdu.

1918 il iyulun 1-dә 4 günlük gәrgin, ölüm-dirim savaşında cәbhәnin taleyi hәll olundu. Göyçay altındakı döyüşdә bolşevik-daşnak qüvvәlәrinin Gәncәyә yürüşünün qarşısı alındı. Qafqaz İslam Ordusunun Bakı istiqamәtindә hәrәkәti başlandı. Әvvәlcәdәn İvanovka istiqamәtindә Kürdmaşı kәndindә yerlәşdirilmiş 10-cu Qafqaz alayından bir tabur piyada vә iki dağ topu 1918-ci ilin 2 iyulunda İvanovkaya doğru hәrәkәtә keçdi. Yol üzәrindәki düşmәn qüvvәlәrini әzәrәk irәlilәyәn dәstәni İvanovka әhalisi ağ bayraqla qarşıladı. Hәmin gün ermәnilәr yaşayan Bozavand vә Kirdadul kәndlәri tutulmuş, buradakı quldur dәstәlәri Әmirvan vә Bәylәrkәnd istiqamәtinә çәkilmişdi. [12, s.19-20; 15, s.63-67] Bu zaman rus kazakı polkovnik Biçeraxov 1918-ci il iyulun 2-dә 1 500 nәfәrlik hәrbi qüvvә ilә Әnzәlidәn gәmilәrlә Bakının cәnubundakı Әlәt qәsәbәsinә gәlәrәk bolşevik-daşnak qüvvәlәrinә rәhbәrlik etmәyә başlayır. Onun




*Göyçayda Türk məzarlığı*

gəlişi ilə cəbhədə vəziyyət daha da gərginləşdi. İyul ayının 7-də döyüşlər artıq Kürdəmir ətrafında aparılırdı. Qafqaz İslam Ordusunun hərbi gücü və texniki imkanları Biçeraxovun zirehli avtomobilləri ilə silahlanan bolşevik hissələrinin müqavimətini qırmağa kifayət etmədi. Üç gün aparılan çətin döyüş əməliyyatları tərəflərə böyük itkilər hesabına başa gəlsə də, Qafqaz İslam Ordusu daha əzmlə mübarizə aparırdı. İyul ayının 10-da azərbaycanlı podpolkovnik, Müsüslü dəstəsinin komandanı Həbib bəy Səlimovun komandanlığı altındakı hərbi hissənin də Kürdəmir istiqamətində hərəkətə keçməsi bolşevik qüvvələrinin müqavimətini qırdı və iyul ayının 11-nə keçən gecə Kürdəmir işğaldan azad edildi. Bu ağır döyüşdən sonra Biçeraxovun komandanlığı altında bolşevik qüvvələri zirehli avtomobillərin müşayiəti ilə Karrar stansiyasına doğru geri hərəkət edərək müdafiə mövqeyinə çəkildi. Qafqaz İslam Ordusu bu döyüşlərdə 28 min güllə və 87 mərmi işlədib. Əllərində yetərincə hərbi imkanları olmayan milli ordu döyüş sursatından qənaətlə istifadə edir, çox zaman isə əlbəyaxa hücumlardan yararlanırdı. Sursat yoxluğundan başqa, türk birliklərinin vahid mərkəzdən idarə olunmasında problemlər də var idi. Kürdəmirin azad olunması Qafqaz İslam Ordusunun möhkəmlənməsinə, döyüş əzminə kömək etdi və əsgərlərin qələbəyə ümidini artırdı. Ağsu istiqamətində gedən döyüşlərdə də düşmən məğlub edildi. Vəziyyətin gərginləşdiyini görən Şaumyan Leninə teleqram göndərərək cəbhədə durumun onlar üçün ağır olduğunu bildirdi, yeganə çıxış yolu kimi Moskvadan kömək göndərilməsini xahiş etdi. Karrar stansiyası uğrunda döyüşlər iyulun 12-də başladı və iki gün sonra Qafqaz İslam Ordusunun uğurlu hərbi əməliyyatı nəticəsində azad edildi. [4, s.23] Göyçaydan başlanan uğurlu hərbi əməliyyat sentyabrın 15-də Bakının düşməndən azad edilməsi ilə başa çatdı.

Qafqaz İslam Ordusunun hərbçilərindən Göyçayda qalanlar da olub. Onlardan biri - Osman Dədəoğlu yaralandığına görə Göyçayda qaldı. Daha sonra sovet rejimi tərəfindən Sibirə sürgün olundu. 15 il Sibirdə sürgün həyatı yaşadıqdan sonra, yenidən qayıdaraq Göyçayda yaşayıb. 1984-cü ildə vəfat edib və Göyçayın Cəyirli kəndində dəfn olunub. Ailə üzvləri də hazırda elə həmin kənddə yaşayır.

Nuru paşanın ordusunda vuruşan türk əsgərlərindən Osman Dədəoğlundan başqa, iki nəfər də Göyçayın Qarabaqqal kəndində qalıb. Onlardan biri Əli Çavuş, digəri isə Lazım adlı şəxslər olub. Onlar elə bu kənddə ailə qurub yaşayıblar. Əli Çavuşun məzarı hazırda Qarabaqqal kəndindədir". [27]

Azərbaycan uğrunda döyüşlərdə şəhid olan 4 mindən çox, o cümlədən Bakı uğrunda gedən döyüşlərdə şəhid olan 1 130 qəhrəmanın adlarının müəyyən edilib xalqa çatdırılması müqəddəs bir işdir. Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının müraciətinə əsasən Türkiyə Cümhuriyyətinin Azərbaycan Respublikasındakı Böyük Elçiliyi arxiv sənədlərinə istinadən 1 130 şəhiddən 938-i haqqında assosiasiyaya məlumat təqdim edib. Həmin siyahı assosiasiyanın nəşr etdiyi "Göyçay döyüşləri Türkiyə tarixşünaslığında" kitabında nəşr olunub. [16, s.86-133]

Həmin siyahıda olan şəhidlərin 765 nəfəri qardaş türk ordusuna, 173 nəfəri Azərbaycan Milli ordusuna aiddir. Bu siyahıda Göyçayda həlak olanlardan 4 nəfərin adı göstərilir:

1. Halit Zeki Əfəndi - Teğmen - Göyçay civarındakı müharibə

2. Yaqub İbrahim Əfəndi - yedek Subay - Göyçay civarındakı müharibə

3. İsmayıl Haqqı Əfəndi - Üstegmen - Göyçay civarındakı müharibə




***Bakıda Şəhidlər Xiyabanında 1999-cu ildə Qafqaz İslam Ordusunun şərəfinə ucaldılan abidə kompleksində şəhid türk əsgərlərinin adları yazılan lövhələr***

4. Musa Kazım Əfəndi - Teğmen - Göyçay civarındakı müharibə

Siyahıda, həmçinin Kürdəmirdə şəhid olan qəhrəmanlardan yalnız birinin, Türkiyənin Bursa vilayətindən olan Dərviş Hüseynin adı qeyd olunub. Qeyd etmək lazımdır ki, mənbələrdə Göyçay qəzasında şəhid olan türk əsgərlərinin sayının qat-qat çox olduğu bildirilir ki, onların da əksəriyyətinin adları bu siyahıda yoxdur. Göyçay döyüşlərindəki şəhidlərin sayı ilə bağlı mənbələrdə müxtəlif rəqəmlərə rast gəlmək olur. Mənbələrdə Göyçay döyüşlərində canlarını Azərbaycan uğrunda fəda edən şəhidlərin sayının 122, 248 və ya 500 nəfər olduğu haqda məlumatlar var. Buradan belə nəticə çıxarmaq olar ki, şəhidlərin sayının və onların adlarının dəqiqləşdirilməsi problemi aktual olaraq qalmaqdadır. Fikrimizcə, bu sahədə hələ çox işlərin görülməsinə, hər iki ölkənin tarixçilərinin bu sahədə tədqiqatlarını davam etdirməsinə ciddi ehtiyac var. [16, s.74-75]

Göyçay döyüşünün Azərbaycanın dövlətçilik tarixində

çox böyük tarixi əhəmiyyəti vardır. Bunlar, fikrimizcə, aşağıdakılardan ibarətdir:

- Göyçay döyüşündəki qələbə bolşevik, erməni-daşnak qüvvələrinin yerli müsəlman əhaliyə qarşı 1918-ci ilin martında başladığı və 1918-ci ilin 27 iyununa qədər davam edən soyqırımın qarşısını aldı;
- Göyçay döyüşündəki qələbə Şərqin ilk demokratik Respublikasının beşikdəcə boğulmasına imkan vermədi. (Göyçay döyüşündə düşmənə sarsıdıcı zərbə vurulmasaydı, 28 may 1918-ci ildə elan olunan Azərbaycan Xalq Cümhuriyyəti bir ay keçməmiş Gəncənin düşmən tərəfindən işğalı ilə süquta uğraya bilərdi);
- Göyçay döyüşündəki qələbə Azərbaycan Xalq Cümhuriyyətinin ömrünü uzatmaqla, onun dünya dövlətləri tərəfindən tanınmasına şərait yaratdı;
- Göyçaydakı qələbə Azərbaycanda marağı olan Rusiya, Böyük Britaniya, Fransa, Almaniya və s. dövlətlərin planlarını alt-üst etdi;
- Göyçaydakı qələbə Bakının azad edilməsinin əsasını qoydu;
- Göyçay döyüşündəki qələbə Türkiyə ilə Azərbaycan arasında mənəvi birliyi, qardaşlığı daha da möhkəmlətdi;
- Göyçay döyüşündəki qələbə xalqın mübarizlik, döyüş ruhunu özünə qaytardı, ordu quruculuğunda mühüm rol oynadı;
- Göyçaydakı qələbə xalqın vətənpərvərlik hissinin, milli şüurunun, milli birliyinin daha da inkişafına səbəb oldu;
- Göyçay döyüşündəki qələbə Çar Rusiyası dövründə Azərbaycan adının şüurlardan silinməsi prosesinin qarşısını aldı. Vətənin adının özünə qaytarılması prosesini möhkəmlətdi;
- Göyçay döyüşündəki qələbənin yaratdığı beynəlxalq əlverişli mühit 27 aprel 1920-ci il tarixində Azərbaycanı işğal edən




*AXC hökumətinin poçt markası*

Sovet Rusiyasının XI ordusunun Azərbaycan adının üstündən xətt çəkməsinə imkan vermədi. İşğalçı, saxta da olsa, "Müstəqil Sovet Azərbaycanı" şüarından istifadə etməyə məcbur oldu;

- 18 oktyabr 1991-ci il tarixində dövlətçiliyin bərpası ilə yaranan Azərbaycan Respublikasının adında da vətənin adının olması Göyçay döyüşündəki qələbənin nəticəsində mümkün olub. (Yəni bu qələbə olmasaydı, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü daha da qısa olar və Cümhuriyyət dünya dövlətləri tərəfindən tanınmaya bilərdi. Onda bolşeviklər 27 aprel 1920-ci il işğalından sonra, çar Rusiyasında olduğu kimi, Azərbaycan adını bütün sənədlərdən və şüurlardan silə bilərdi. [15, s.68-69]

Göyçaylılar Qafqaz İslam Ordusunun, Türkiyənin Azərbaycan xalqının çətin günündə göstərdiyi qardaşlıq köməyini heç zaman unutmayıb. Sovet dövrünün qadağalarına baxmayaraq, Göyçay ərazisində dəfn olunan türk əsgərlərinin məzarları

daim ziyarət olunub, hörmətlə yad edilib, dövlət müstəqilliyinin bərpasından sonra isə həmin ərazilərdə məzarüstü abidələr tikilibdir. Göyçay əhalisinin qardaş Türkiyəyə məhəbbəti küçələrə, məktəblərə qoyduğu adlarda da özünü büruzə verir. Göyçay rayonu Ləkçılpaq orta məktəbinə Müstafa Kamal Atatürkün adının verilməsi bunun əyani göstəricisidir.

## İstifadə olunan ədəbiyyat


1. Abdulla H., "1918-ci il qırğınlarının izi ilə. Göyçay qırğınları", 18.12.2014 - http:// www.qafqazinfo.az

2. Ağayev Y., Əhmədov S., "İstiqlal yürüşü 1918", Bakı, 2009, 416 s.

3. Aşırlı A., "Nargin adasında Türk əsirləri", Bakı, 2011, 112 s.

4. "Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900-1920-ci illər)", Bakı, 2008

5. "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild", Bakı, 2005

6. "Azərbaycan Cümhuriyyəti", Bakı, 1998, 336 s.

7. Əroğul Ə., "Azərbaycanda erməni-daşnaq terrorunun xronologiyası (bədii, tarixi publisistika)", Bakı, 2009, s.200

8. Mirzəyev Z., "Pirəmsaq döyüşü", "Azərbaycan" qəzeti, 02.04.2013

9. Süleymanov M., "Azərbaycan ordusu (1918-1920)", B., 1998

10. Süleymanov M., "Qafqaz İslam Ordusu və Azərbaycan", B., 1999

11. Süleymanov M., "Nuru paşa və silahdaşları", Bakı, 2014

12. Təkəli M., Rıhtım M., "Qafqaz İslam Ordusunun xronologiyası", Bakı, 2008, 104 s.

13. Zeynallı A.H., "Kürdəmir faciəsi və Qafqaz İslam Ordusunun qurtuluş savaşları: 1918", Bakı, 2010, 196 s.

14. Zülfüqarlı M., "Şamaxı soyqırımı 1918. Shamakhi genocide", Bakı, 2011, 78 s.

15. Zülfüqarlı M., "Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi. Göyçay döyüşləri (iyun-iyul 1918-ci il)", Bakı, 2017, 110 s.

16. Zülfüqarlı M., "Göyçay döyüşləri - Türkiyə tarixşünaslığında", Bakı, 2018, 150 s.

17. "Azərbaycan" qəzeti, 30-31 mart 2017

18. https://moderator.az/news/140325.html

19. http://milliarxiv.gov.az - "Fövqəladə Təhqiqat Komissiyası"

20. http://agsunews.az/

### *Rus dilində*

21. Абдулбагиева С., «Мартовский геноцид 1918 г.», «Бакинский рабочий» газ., 30 марта 2010

22. «История Азербайджана в трёх томах, 3 том, часть первая», Баку, 1963 г.

23. Мнацаканян А., «Об истории Кавказской Красной армии», «Изв. АН АрмССР. Общественные науки», №1 (296), 1968 г.

24. «Известия Баксовета», № 127 от 2 июля 1918 г.

25. «История Азербайджана по документам и публикациям», Баку, 1990, 384 с.

26. https://1918pogroms.com//shamaxi1.php

27. https://lent.az/ 27.05.2021

## Azərbaycan Xalq Cümhuriyyətinin göyçaylı qurucuları

Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı Gəncədən Bakıya köçəndən sonra Göyçay qəzasının sosial inkişafına diqqət artırıldı. Azərbaycan Parlamenti 1919-cu il noyabrın 3-də Göyçay şəhərində realnı məktəb açmaq üçün qanun qəbul etdi. Bu məqsədlə müvafiq maliyyə vəsaiti də ayrıldı. 1920-ci il martın 4-də Göyçay şəhərinin seldən qorunması üçün qanun layihəsi hazırlandı. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu nəzərdə tutulan bütün bu tədbirləri həyata keçirməyə imkan vermədi. [3, s.427-429; 25]

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və inkişafında göyçaylı ictimai-siyasi xadimlərin, ziyalıların da mühüm rolu olub.

AXC parlamentinin əsas özəyini keçmiş Milli Şuranın 44 üzvü təşkil edirdi. Daha 36 müsəlman deputat isə keçmiş milli komitələrin xətti ilə şəhər və qəzalardan seçilmişdi. Şəhər özünüidarəsi və milli komitələri olmayan qəzalarda deputatlar kənd icmaları nümayəndələrinin qurultayı tərəfindən seçilə bilərdilər. Qanunda ərazi proporsiyası müəyyənləşdirilirdi: a) Türk-müsəlman əhalisindən Bakı - 5, Göyçay qəzası - 2, Cavad qəzası - 2, Quba qəzası - 2, Lənkəran qəzası - 2, Şamaxı qəzası - 2, Gəncə qəzası - 2, Ərəş qəzası - 2, Cavanşir qəzası - 1, Zəngəzur qəzası - 2, Qazax qəzası - 1, Cəbrayıl qəzası - 1, Nuxa qəzası - 2, Şuşa qəzası - 2, Zaqatala qəzası - 2, İrəvan quberniyasının türk-müsəlman hissəsi - 3 və Tiflis quberniyasının türk-müsəlman hissəsindən - 1 nəfər. [1, s.377]

Cümhuriyyətin parlamentində təmsilçilik üçün ayrılan kvotaya görə, Göyçay qəzasından biri şəhərdən, biri isə qəzanın kəndlərindən olmaqla 2 millət vəkilinin təmsilçiliyi nəzərdə



*Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvləri*

tutulurdu. Lakin araşdırmalar nəticəsində məlum olub ki, AXC parlamentində Göyçay qəzasını 4 millət vəkili təmsil edib. Bu qəzadan Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları kimi tarixə düşən şəxsiyyətlər — Sadıq bəy Hacı İsmayıl oğlu Ağabəyzadə (1865-1944), Mustafa Mahmudov (1878-1937), Rza bəy Həzrət bəy oğlu Ağabəyov, Hacı Hüseyn Əfəndiyev. (1887-1920)

Parlamentdə Göyçay qəzasına ayrılan 2 deputat yeri olduğu halda 4 deputatın təmsil olmasının səbəbini aydınlaşdırmaq üçün kiçik bir izahata ehtiyac var. Göyçay şəhərindən Sadıq bəy Hacı İsmayıl oğlu Ağabəyzadə parlamentə seçilib, İttihad fraksiyasının üzvü kimi 1918-ci il 15 dekabrdan - 1919-cu il fevralın 4-ə kimi parlamentdə deputat olub. Sonradan o, daxili işlər nazirinin müavini vəzifəsi daşıdığına görə deputatlıqdan istefa verib, onun yerinə Rza bəy Ağabəyov parlamentdə Müsavat və bitərəflər fraksiyasının üzvü kimi 7 aprel 1919 - 27 aprel 1920-ci il tarixlərində Göyçay şəhərini təmsil edib. Sadıq bəy Ağabəy-

zadə və Rza bəy Ağabəyovun eyni soydan - qədim Ağabəylilər soyadından olduğu bildirilir. [9] Hacı Hüseyn Əfəndiyev (1887–1920) isə parlamentdə Əhrar fraksiyasının üzvü kimi 15 dekabr 1918 - 27 aprel 1920-ci il tarixlərində Göyçay qəzasını təmsil edib. Bu deputatların hər üçü Göyçay qəzasından parlamentə seçiliblər. Mustafa Mahmudov (1878-1937) isə Zaqafqaziya Seymində Azərbaycanı təmsil edən 44 deputatdan biri kimi AXC yaranarkən parlamentin üzvü olub.

1917-ci ilin fevral burjua inqilabından sonra Müvəqqəti hökumətin Müəssislər Məclisinə (parlamentinə) seçkilər keçirilib və parlament formalaşdırılıb. Bolşeviklər Müəssislər Məclisinini (parlamenti) tanımasalar da, Azərbaycan, gürcü və erməni deputatlar Tiflisdə yaradılan Zaqafqaziya Komissarlığında fəaliyyət göstərirdilər. 1918-ci il fevralın 22-də keçirilən yığıncaqda Zaqafqaziya Komissarlığının buraxılması, yeni qanunvericilik orqanı kimi Zaqafqaziya Seyminin yaradılması  və yerli hakimiyyətin bu orqana verilməsi haqda qərar qəbul edilir.

28 fevral 1918-ci ildə Seymin Mandat komissiyası fraksiyalar üzrə Seym üzvlərinin ən son siyahısını təsdiqləyib. Həmin siyahıya "Müsavat və Zaqafqaziya Mərkəzi Müsəlman Komitəsindən olan partiyasızlar qrupu fraksiyası"ndan cəmi 30 nəfər düşüb: 1) Cəfərov Məhəmmədyusif, 2) Topçubaşov Əlimərdan bəy, 3) Rəsulzadə Məhəmmədəmin, 4) Yusifbəyov Nəsib bəy, 5) Ağayev Həsən bəy, 6) Sultanov Xosrov bəy, 7) Məhəmmədbəyov Qazıəhməd, 8) Mahmudov Mustafa, 9) Seyidov Mirhidayət, 10) Qardaşov Aslan bəy, 11) Rüstəmbəyov Şəfi bəy, 12) Xoyski Fətəli xan, 13) Xasməhəmmədov Xəlil bəy, 14) Hacınski Məhəmmədhəsən, 15) Məlikyeqanov Cavad bəy, 16) Hacıbababəyov Mehdi bəy, 17) Axundzadə Hacı Mirzə Səlim, 18) Axıcanov Müseyib bəy, 19) Məlikaslanov Xudadad bəy, 20) Behbudov Lütfəli

bəy, 21) Hacınski Mehdi bəy, 22) Köçərli Firidun bəy, 23) Mahmudbəyov Əliəsgər bəy, 24) Mikayılov Kərbəlayı Vəli, 25) Vəkilov İbrahim ağa, 26) Şahtaxtinski Həmid ağa, 27) Qulubəyov Əli bəy, 28) Vəkilov Rəhim bəy, 29) Əfəndizadə Yusif əfəndi, 30) Yusifzadə Mirzə Cəlal.  [29, 19 sentyabr 2015-ci il]

Zaqafqaziya Seymində Azərbaycanı təmsil edən 44 deputat isə kooptasiya (müvafiq orqanın qərarı ilə əlavə seçkilər keçirilmədən hər partiyanın aldığı səsin sayına müvafiq olaraq nümayəndələrin sayının artırılması) üsulu ilə formalaşdırılmışdır. [29, 5 dekabr 2018-ci il]

Göyçay qəzasından Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində təmsil olunan 4 deputat 3 partiyanı təmsil edib. Bunlardan ikisi Müsavat, biri İttihad, biri isə Əhrar partiyasının üzvü olub. Bu fakt Azərbaycan Xalq Cümhuriyyəti dövründə çoxpartiyalılğın, demokratiyanın nəinki paytaxtda, həm də  regionlarda, o cümlədən Göyçayda inkişaf etdiyini sübut edir.

Ədəbiyyat İnstitutunun professoru Gülər xanım Abdullabəyova Məhəmməd Sadıq bəy Ağabəyzadənin həyatı və fəaliyyəti barədə sənədləri Polşa Elmlər Akademiyasının Krakov filialında XX əsrin 80-ci illərində aşkar edib. Onun tapdığı sənədlər əsasında hazırladığı məqalə 1989-cu ildə "Azərbaycan SSR Elmlər Akademiyasının məruzəsi"ndə elmi ictimaiyyətə təqdim edilib. [16]

AMEA-nın Şərqşünaslıq İnstitutunun, Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan-Polşa Elmi-Mədəni Cəmiyyətinin birgə təşəbbüsü ilə M.S.Ağabəyzadənin anadan olmasının 140-cı ildönümünə həsr olunan sessiyada (mart, 2005-ci il) "Məhəmməd Sadıq bəy Ağabəyzadənin elmi fəaliyyəti", (məruzəçi - filologiya elmləri namizədi, Azərbaycan-Polşa Elmi-Mədəni Cəmiyyətinin sədri Gülər xanım Abdullabəyova); "Məhəmməd Sadıq bəy Ağabəyzadənin həyat yolu" (məruzəçi - yazı-

çı-dramaturq Əli Səmədli); "Azərbaycan Demokratik Respublikası dövründə Məhəmməd Sadıq bəy Ağabəyzadənin Daxili İşlər Nazirliyindəki fəaliyyəti" (məruzəçi - polis polkovniki, tarix elmləri namizədi Tahir Behbudov); "Məhəmməd Sadıq bəy Ağabəyzadənin Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu sahəsindəki fəaliyyəti" (məruzəçi - tarix elmləri namizədi İltifat Əliyarlı) və s. mövzularda məruzələr dinlənilib və müzakirələr aparılıbdır. Sessiyada Polşanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Marçin Novrat da iştirak edib.

2005-ci il noyabrın 9-da Azərbaycan Kinematoqrafçılar İttifaqının İdarə Heyəti və "Обозреватель" qəzetinin təşəbbüsü ilə general M.S.Ağabəyzadənin vəfatının 71-ci ildönümünə həsr olunan daha bir tədbir keçirilib. Tədbirdə Ukraynanın Azərbaycandakı səfirliyinin nümayəndəsi Boqdan Budyak, Ukrayna və Polşa diasporunun ölkəmizdəki təmsilçisi Vitali Rudenko, Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyinin nümayəndəsi Ramiz Abutalıbov və digər təmsilçilər iştirak edirdilər. [11, s.103-104]

Professor Vilayət Quliyev generala həsr etdiyi məqalədə yazır ki, elmi sessiya və anım mərasimində Sadıq bəy Ağabəyzadənin adının yaşadılması, xatirəsinin əbədiləşdirilməsi ilə bağlı bir sıra optimal təkliflər səsləndirib. Bunların sırasında Polis Akademiyasında Sadıq bəy Ağabəyzadə təqaüdünün təsis edilməsi, paytaxtımızın küçələrindən birinə adının verilməsi, Cümhuriyyət dövründə Bakıda yaşadığı binaya xatirə lövhəsi vurulması, ev muzeyinin yaradılması və s. daxil idi. Əli Səmədov onun haqqında "İki ömür yaşayan adam" povestini yazıb. Həmin əsərin motivləri əsasında "Çinarlı şəhərin generalları" adlı sənədli televiziya filmi çəkilib. [22]



*Sadıq bəy Hacı İsmayıl oğlu Ağabəyzadə*

***Məhəmməd Sadıq bəy Ağabəyzadə 1865-ci ildə Göycayda anadan olub. Orta təhsilini Bakıda realnı məktəbdə alıb. 1882-ci ildə realnı məktəbi bitirən M.S.Ağabəyzadə, sonradan təhsilini Peterburq Hərbi-Piyada və Artilleriya məktəbində davam etdirir. Hərbi Nazirliyin Baş qərargahının Şərq dilləri üzrə kursunu qiyabi oxuyur. 1886-ci ildə bu məktəbi bitirən Sadıq bəy Ağabəyzadə həmin ildə Mixaylovski artilleriya məktəbinin üçüncü kursuna dinləyici kimi daxil olur. Podporuçik rütbəsi alan M.S.Ağabəyzadə 1899-1913-cü illərdə Türküstan diyarının Aşqabad qarnizonunda hərbi xidmət edir.***

***M.S.Ağabəyzadə Sankt-Peterburqda Şərq Dilləri İnstitutunu bitirib. Elmə, biliyə, təhsilə böyük marağı olan M.S.Ağabəyzadə biliyini daha da təkmilləşdirmək üçün təcrübə keçməyin vacib olduğunu anlayır. O, bir zabit kimi xidməti fəaliyyətə başlamağı məqsədəuyğun sayaraq, əvvəl Rusiya ordusunun Qafqazdakı artilleriya bölmələrində, sonra isə Türküstan və***

*Zakaspi vilayətlərinin hərbi hissələrində xidmət etməyə başlayır. 1913-cü ildə M.S.Ağabəyzadəyə general-mayor rütbəsi verilib. General-mayor rütbəsində Sadıq bəy təqaüdə çıxaraq Göyçaya, valideynlərinin yanına gəlir və orada yaşamağa başlayır. O, bir müddət Göyçayda yaşadıqdan sonra, orada məktəb açmaq fikrinə düşür. Hazırlıq ərəfəsində I Dünya müharibəsinin başlanması Sadıq bəyin arzusunu yarımçıq qoyur. Sadıq bəy 1914-cü ildə təkrar orduya çağırılır və Qafqaz döyüşlərində iştirak edir. 1916-cı ildə Ukrayna cəbhəsinə yollanır. Dörd il orduda xidmət etdikdən sonra, 1918-ci ildə yenidən Göyçaya qayıdan Sadıq bəy təqaüddə olduğu illərini valideynlərinin yanında keçirmək istəyir.*

*S.Ağabəyzadə İttihad fraksiyasının üzvü və Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində 1918-ci il dekabrın 15-dən - 1919-cu il fevralın 4-nə kimi deputat olub. Daxili İşlər Nazirinin müavini təyin olunduqdan sonra, parlamentin 4 fevral 1919-cu il tarixli, sayca on ikinci iclasında seminariya müdiri Firudin bəy Köçərli və ədliyyə nazirinin müavini Teymur bəy Makinski, Bakı qubernatoru Müseyib bəy Əxicanov, Cəmil bəy Ləmbəranski, Əliağa Həsənov, Məmməd Yusif Cəfərov, Həmid bəy Şahtaxtinski ilə bərabər Sadıq bəy Ağabəyov da "ədəmi-ictimai" qanununa görə parlamentdən istefa vermişdir. [3, s.419]*

*Şərqşünas alim, pedaqoq, hərbçi general-mayor Məhəmməd Sadıqbəy İsmayıl oğlu Ağabəyzadə Azərbaycan Xalq Cümhiriyyəti dövründə 21 döyüş generalından biri olub, daxili işlər nazirinin müavini vəzifəsini icra edib, bu dövrdə polis işçisi rütbələrinin təsnifat sistemini işləyib hazırlayıbdır.*

*Göyçayda, öz malikanəsində, təminatlı həyat yaşayan Sadıq bəy milli hökumətin ilk çağırışı ilə 1918-ci il oktyabrın 23-də Cümhuriyyətin daxili işlər nazirliyində müavin vəzifəsində işləmək kimi ağır yükü çiyinlərinə götürür. Bir ildən çox xüsusi*

*təcrübə və səriştə tələb edən işin öhdəsindən bacarıqla gəlir. Əslində bütün bu müddət ərzində general Sadıq bəy Ağabəyzadənin nazir vəzifəsini yerinə yetirdiyini, milli polis təşkilatının yaradılmasına bilavasitə rəhbərlik etdiyini söyləmək daha doğru olardı. Onun müavinliyi dövründə daxili işlər naziri vəzifəsində Behbud xan Cavanşir (16 iyun 1918 – 26 dekabr 1918), Xəlil bəy Xasməmmədov (26 dekabr 1918 – 16 iyun 1919) və Nəsib bəy Yusifbəyli (16 iyun 1919 - 22 dekabr 1919) çalışıblar. Azərbaycan Cümhuriyyəti parlament respublikası olduğundan, hər üç nazir siyasi fəaliyyətə daha çox vaxt ayırırdı. Üstəlik, Nəsib bəy həm də baş nazir kimi hökumətə rəhbərlik edirdi.*

*S.Ağabəyzadə ilə əlaqədar olan sənədlərdə, habelə hökumətin reyestr jurnalında da (dövlət qərarlarının siyahısı yazılan dəftər) onunla əlaqədar çıxarıldığı qərarda (23 yanvar 1920-ci il), o cümlədən şəxsi işində Sadıq bəyə heç vaxt nazir müavini kimi deyil, ancaq "cənab nazir!", - deyə müraciət edilib... 1918-ci il noyabrın 1-dən 1918-ci il dekabrın 26-dək, 1919-cu il martın 14-dən 1919-cu il aprelin 16-dək Azərbaycan Xalq Cümhuriyyətinin daxili işlər naziri vəzifəsini daşıyan vitse-nazir M.S.Ağabəyzadə çox intizamlı, tabeliyində olanlara qarşı da olduqca tələbkar idi. Bunu onun yazdığı raportlardan da sezmək olardı... Sadıq bəyin Gəncə quberniyasının polis zabitlərinin geyim forması ilə təmin edilməsi, Göyçay və Cavad qəzalarında, Bakı quberniyasında təftiş (yoxlamalar) aparılması barədə əmrlərinin məzmunu da bunu sübut edir. Fətəli xan Xoyskinin 21 dekabr 1918-ci il tarixdə ona göndərdiyi məktub S.Ağabəyzadənin hökümət daxilində böyük nüfuza malik olduğunu təsdiq edir.*

*"Daxili işlər naziri əvəzi general-mayor Ağabəyova. Nazirlər Kabinetinin yeni tərkibinin toplanması ilə əlaqədar Əlahəzrətlərinizdən xahiş edirəm ki, yeni daxili işlər naziri Xə-*

*lil bəy Xasməmmədov gələnə qədər keçmiş daxili işlər naziri Behbud xan Cavanşirdən işləri təhvil götürəsiniz".*

*Nazirlər Şurasının sədri Fətəli xan Xoyski. [11, s.78]*

*Qısa müddət ərzində İçərişəhərdə "şəhər polisləri" (qorodovoylar) hazırlayan məktəbin əsası Sadıq bəy Ağabəyzadənin fəal iştirakı ilə qoyulmuşdu. Azərbaycan polisinin rütbə və dərəcə fərqlərini bildirən ilk uniforması hazırlanmışdı. Nəhayət, ölkənin hərbi müdaxilə təhdidi altında olduğu 1919-cu ilin ağır şəraitində də Sadıq bəy qətiyyətlə polisin siyasi proseslərə müdaxiləsinə qarşı çıxmışdı. [22]*

*S.Ağabəyzadə 1918-1920-ci illərdə daxili işlər orqanlarının təşkil edilməsində fəallıq nümayiş etdirir və ölkə daxilində nizam-intizam, qayda-qanun yaradılmasında, daxili işlər orqanları strukturunun formalaşdırılmasında, kabinetin fəaliyyətinin təşkilində yaxından iştirak edir. Azərbaycanda hökumət quruldudan sonra o, bu hökumətin daxili işlər nazirinin müavini vəzifəsinə təyin edilir və bu vəzifəni 1918-ci ilin 23 oktyabrından 1919-cu ilin dekabr ayına qədər icra edir.*

*Sadıq bəy AXC dövründə yüksək vəzifə tutmasına baxmayaraq, digər silahdaşları kimi dövlətin gücləndirilməsi üçün bilik, bacarığını sərf etməklə yanaşı, öz şəxsi əmlakını, konkret olaraq Göyçay və digər ərazilərdə olan mülklərini də dövlətin istifadəsinə vermişdir. 1918-ci ilin mart soyqırımını tədqiq edən Fövqəlqadə Komissiyanın Şamaxıda fəaliyyətini təşkil etmək üçün orada erməni-bolşevik quldurlarının törətdikləri dağıntılara görə yararlı bir bina yox idi. Buna görə də Bakı qubernatorunun göstərişilə Sadıq bəy Ağalarovun, Müstafabəyovların, Şıxəlibəyovların və Ağa Səlim Zeynalovun evləri təmir etdirilərək komissiyanın ixtiyarına verilmişdir. [34]*

*Sadıq bəy Ağabəyzadə 1919-cu il oktyabrın əvvəllərində yeni hökumətin tapşırığı ilə Batumi şəhərində ABŞ prezidenti*

*Vudro Vilsonun xüsusi nümayəndəsi kimi 1918-cu ilin avqustunda Qafqaza və Yaxın Şərqə göndərilən general Jeyms Harbordun (1866-1947) rəhbərliyi altındakı missiyanı qarşılayaraq 4-10 oktyabr tarixlərində Azərbaycana səfər zamanı əvvəldən sona qədər müşayiət edib. Bakıda H.Z.Tağıyevin qonağı olan Harbordun şərəfinə təşkil olunan ziyafətdə, qonaq Sadıq bəyin şəninə xüsusi sağlıq söyləyib və Sadıq bəyi yüksək intellektual xüsusiyyətə malik bir insan kimi dəyərləndirib. Amerika hərbçisi 1931-ci ildə çapdan çıxan "Leaves From a War Deary" ("Müharibə gündəliyindən səhifələr") kitabında Sadıq bəyi həyatı boyu hərbçilər arasında çox az rast gəldiyi böyük zəkaya, dərin biliyə malik maraqlı şəxsiyyətlərdən biri kimi xatırlayıb.*

*Hərtərəfli biliyə, intellektual səviyyəyə və təhsilə malik olan Məhəmməd Sadıq bəy Ağabəyzadə sonralar Şərq dillərindən dərs də deyir. Yəni, fars, ərəb, türk dilləri (müasir və qədim osmanlı dilləri), ərəb qrammatikası, islamşünaslıq üzrə fənləri, müsəlman paleoqrafiyası və epiqrafiyası fənlərini də tədris edib. Sadıq bəy Ağabəyovu "Türkmenskiy dialekt" kitabına görə, Buxara əmirliyinin hökmdarı Əbdüləhəd xan dövlətinin ali mükafatı - "Qızıl Buxara ulduzu" ordeni ilə təltif edib. O, eyni zamanda "Gümüş Buxara ulduzu" ordeninə də layiq görülübdür. Tam təsdiqini tapmayan bəzi məlumatlara görə, şərqşünas-general həm də "Özbək dili qrammatikası" kitabının müəllifidir. Sadıq bəyin fars dili və ədəbiyyatı sahəsindəki tədqiqatları İranda da diqqəti çəkibdir. İran şahı Rza Pəhləvi azərbaycanlı alimin iranşünaslıq sahəsindəki xidmətlərinə böyük önəm verərək onu 4-cü və 3-cü dərəcəli "Şiri-Xurşid" ordenləri ilə təltif edibdir. [22]*

*1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti süqut etdikdən və bolşeviklər hakimiyyəti ələ keçirdikdən sonra, Ağabəyzadə Turkiyəyə mühacirət edir və bir müddət İstan-*

***bulda yaşayır. O, İstanbulda əmisi oğlu, görkəmli ictimai-siyasi xadimi  Əlibəy Hüseynzadə ilə görüşür.***

***1920-ci il may ayının ortalarında qardaşları Rəhim bəy və Həzrət bəy Ağabəyovlar, habelə qardaşı oğlu Hüseyn bəy Ağabəyov (sonralar Azərbaycan Tibb İnstitutunun professoru, kafedra müdiri və dekanı olub) "Müsavat hökumətinin" nazir müavinini gizlətmək, sonra isə xaricə qaçırmaq adı ilə həbs ediliblər. Əmlakları müsadirə olunub. Sadıq bəyin qardaşı Rəhim bəyin Göyçayda dəyirmanı, pambıq təmizləyən zavodu, karvansaray və hamamı, həmçinin onlarca mağazaları, Ucarda çəltiktəmizləyən və pambıqtəmizləyən zavodları, Bakıda isə yağ və sabun zavodu var idi. [16]***

***Sadıq bəy 1921-ci ildə Fransaya köçərək orada yaşayır, iki il Sorbonna şəhərində fars və türk dillərindən (Şərq dilləri) dərs deməyə başlayır. Alim, Parisdə yaşadığı illərdə sevimli həyat yoldaşı Gülya xanımı itirir və onu Parisin müsəlman qəbiristanlığında dəfn etdikdən sonra, orada qalmaq istəmir. 1927-ci ilin fevralında Ziqmunt Smoqjevskinin dəvəti ilə Ukraynanın Lvov universitetinə Şərq dilləri fakültəsinə professor kimi dəvər edilir. Lvov şəhərinə köcən M.S.Ağabəyzadə Lvov universitetində 17 il işləyir. O, əvvəl Lvov universitetində fəlsəfə fakültəsində işləyir, az sonra isə Lvov Ali Ticarət Məktəbində türk, fars və ərəb dillərindən dərs deyir və eyni zamanda da polyak və ukrayna dillərini öyrənir. Sadıq bəy Ağabəyzadə Ziqmunt Smoqjevski, V.Kotviçlə birlikdə şərqşünaslıq məktəbinin təşkil edilməsində bilavasitə yaxından iştirak edib. Bu məktəb sonralar Lvovsko-Peterburqskiy adlandırılır.***

***Sadıq bəy Ağabəyzadənin Ukraynada şərqşünaslıq elminin inkişafında xüsusi xidməti olub. Sadıq bəy Ağabəyzadə polyak dilində türk dili dərsliyi, 1932-ci ildə elementar ərəb dili qrammatikası (fonetika və morfologiya) dərsliyini nəşr etdirib.***

***Ukraynada böyük nüfuza sahib olan Sadıq bəy Ağabəyzadə Böyük Vətən müharibəsi zamanında alman-faşist işğalçıları tərəfindən sıxışdırılır. Hörmətli alimi evindən çıxararaq heç bir şəraiti olmayan zirzəmi tipli evdə yerləşdirirlər. Yaşının ahıl çağında soyuqlayan Sadıq bəy ağır xəstələnir və 9 oktyabr 1944-cü ildə Lvov şəhəri alman işğalçılarından azad edildikdən sonra gözlərini əbədi olaraq yumur. Onun qəbirüstü daşında türk və polyak dillərində bu sözlər yazılıb: "Burada general və professor Məhəmməd Sadıq bəy Ağabəyzadə (Ağabəyov) dəfn olunub".***

***Lvov şəhərində dəfn olunan Sadıq bəy Ağabəyzadənin məzarı hal-hazırda həmin şəhərin Liçakovski qəbiristanlığının 84-cü sırasındadır. Orada yaşayan azərbaycanlılar vətənin ləyaqətli övladı general-mayor Məhəmməd Sadıq bəy Ağabəyzadənin məzarını tez-tez ziyarət edir və qəbrini çiçəklərlə bəzəyirlər. Ukrayna torpağında Lvov şəhərinin küçələrindən biri Sadıq bəy Ağabəyzadənin adını daşıyır. [27 , s.69-72]***

*Sadıq bəy Ağabəyzadənin üzvü olduğu* **İttihad partiyası** *1917-1920-ci illərdə Azərbaycanda açıq fəaliyyət göstərmiş, Ümumrusiya Müəssislər Məclisində, Zaqafqaziya Seymində, Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasında, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində təmsil olunan və Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində Müsavat və bitərəflər fraksiyasından sonra ən çox üzvü olan, ana müxalifət partiyası olub. Əvvəl 4, sonra isə 13 deputatla təmsil olunub. İslam ideologiyasını siyasət səviyyəsinə qaldırmağa çalışan aparıcı təşkilat idi. Parlamentdə fraksiyaya 1918-ci ilin sentyabrından Qara bəy Qarabəyli rəhbərlik edib. Göyçayda fəaliyyət göstərən İslamiyyə Cəmiyyəti İttihad partiyasına birləşib.*

*1919-cu ilin aprel ayının 10-da partiyanın I qurultayı keçirildi. Bakı Şəhər İdarəsinin binasında keçirilən qurultaya hər 20 nəfərə 1 nümayəndə prinsipi ilə 300 qurultay nümayəndəsi çağırıldı. Bu nü-*

*mayəndələr Bakı, Qazax, Ağdam, Ağdaş, Göyçay və Quba bölgələrindən idilər. Qurultaydan sonra partiyada təşkilatlanma sürətləndi və Quba, Göyçay, Gəncə, Zəngəzur, Qarabağ, Zaqatala, Şəki, Qax, Cavanşir, Ağdam, Şuşa, Cəbrayıl və Kürdəmir bölgələrində partiyanın yerli təşkilatları inkişaf etdi.*

*1919-cu ilin iyun ayında İttihad Nuru paşanın həbsdən azad edilməsi tələbiylə Qazax, Nuxa, Şuşa və Ağdamda etiraz mitinqləri keçirdi. İyul ayında Gəncədə, oktyabr ayının 22-də isə Bakıda Denikinin Şimali Qafqaza hücumuna qarşı mitinq təşkil etdi. İttihad cəmiyyətdə keçirdiyi "Bir piyalə çay" xeyriyyə məclisləri ilə də məşhurlaşıb. Ziyalılar tərəfindən xüsusi sevinclə qarşılanan bu məclislərdə Türkiyədən, İrandan qonaqlar iştirak edib.*

*Göyçaydan gələn üzvlərin də daxil olduğu 1 000 nəfər nümayəndənin iştirak etdiyi II qurultayda (25-29 yanvar 1920-ci il) torpaqların qeyd-şərtsiz və pulsuz əkinçilərə paylanması qərarı partiya məramnaməsinə əlavə olunub.*

*İttihad partiyası XI ordunun 1920-ci il 27 aprel işğalından sonra açıq fəaliyyətini dayandırdı. Partiyanın bir çox üzvləri 1920-1930-cu illərin antisovet üsyanlarında fəal iştirak etdi, repressiyaya məruz qaldılar. [1; 3, s.110; 14; 27; 31]*

### *Rza bəy Ağabəyov*

Rza bəy Həzrət bəy oğlu Ağabəyov 1894-cü il fevralın 14-də Göyçay şəhərində anadan olub. Aşqabad gimnaziyasını və İmperator Moskva Universitetini bitirib. AXC parlamentinə Göyçay şəhərindən seçilib. 1919-cu ilin oktyabrında Bitərəflər fraksiyasında parçalanma baş verdi. Səkkiz nəfərdən ibarət böyük əksəriyyət (Fətəli xan Xoyski, Mirzə Əsədullayev, Əsədulla Əhmədov, Cəmil bəy Sultanov, Yusif Əhmədov, Baxış bəy Rüstəmbəyov, Abuzər bəy Rzayev, Ağa Aşurov) Müsavat

fraksiyası ilə birləşərək parlamentdə həlledici səsə malik olan Müsavat və bitərəflər fraksiyasını yaratdılar. Müsavat fraksiyası ilə birləşən bitərəflər, eyni zamanda, müstəqil səsvermə hüquqlarını özlərində saxladılar. Rza bəy Həzrət bəy oğlu Ağabəyov Müsavat və bitərəflər fraksiyasının nümayəndəsi olaraq parlamentdə (7 aprel 1919 - 27 aprel 1920) Maliyyə və Təftiş komissiyalarının üzvü kimi fəaliyyət göstərib.

Rza bəy Həzrət bəy oğlu Ağabəyovun parlamentdə təmsil olunduğu “Müsavat və bitərəflər Fraksiysına” 40 parlament üzvü daxil idi:

1. Məhəmmədəmin Rəsulzadə
2. Həsən bəy Ağayev
3. Nəsib bəy Yusifbəyli
4. Xəlil bəy Xasməmmədov
5. Məmmədhəsən Hacınski
6. Abbasqulu Kazımzadə
7. Musa bəy Rəfiyev
8. Cavad bəy Məlikyeqanov
9. Mehdi bəy Hacınski
10. Mehdi bəy Hacıbababəyov
11. Rəhim bəy Vəkilov
12. Şəfi bəy Rüstəmbəyli
13. Hacı Səlim Axundzadə
14. Mustafa Mahmudov
15. Asəf bəy Şıxəlibəyov
16. Abuzər bəy Rzayev
17. Əhməd Həmdi Qaraağazadə
18. Ağa Əminov
19. Nəriman bəy Nərimanbəyli
20. Mirzə Sadıq Axundzadə
21. Müseyib bəy Əxicanov

22. Mustafa bəy Vəkilov
23. Məmmədbağır Şeyxzamanlı
24. Məhəmməd Əli Rəsulzadə
25. Murtuza Axundzadə
26. Rza bəy Ağabəyov
27. Məmmədrza ağa Vəkilov
28. Cəlil bəy Sultanov
29. Əşrəf bəy Tağıyev
30. Məmməd Yusif Cəfərov
31. Mirzə Əsədullayev
32. Yusif Əhmədzadə
33. Baxış bəy Rüstəmbəyov
34. Fətəli xan Xoyski
35. Ağa bəy Səfərəliyev
36. Əsədulla Əhmədov
37. Ağa Aşurov
38. Qulamhüseyn bəy Kazımbəyov
39. Yusifəli Əliyev
40. Mir Hidayətbəy Seyidov [4; 31]

Rza bəy Ağabəyov parlamentin işində fəal iştirak edib. Bunu onun parlamentin 9 iyun 1919-cu il tarixli iclasında etdiyi çıxışlardan da görmək olar. R.Ağabəyov həmin iclasda "Bakı gömrükxana pud vergisinin artırılması haqqında" layihəsi haqqında, maliyyə nəzarətində müfəttişlik təşkili haqqında" və "Yer töycü vergilərinin artırılması ilə bərabər torpaq, gəlir və məxaric smetasının 1919-cu sənə üçün təmdidi haqqında" məruzələrlə çıxış edib. Həmin məruzənin bəzi hissəsləri:

Rza bəy: "- 1914-cü ilin qanunu üzrə Bakı portuna gələn mallardan pul vergisi alınırdı. Bu vergi də üç qism idi. Birinci qismdən 1/4 qəpik, ikincidən 1/2 qəpik, üçüncüdən 1 qəpik. Dava zamanı bu miqdar az görünüb, 50 faiz artırılıb. Alınan

verginin yarısı xəzinəyə, yarısı da bələdiyyə idarəsinə (gedirdi). Bələdiyyə də şəhər üçün xərc edirdi. Bu cür vergilər hər sənə artırdı. İndi Bakı portu üçün böyük xərclər lazım olduğunu nəzərə alaraq, nəzarət bu vergilərin miqdarını artırmağı təklif edir. Fəqət, başqa hökumətlər öylə zənn edirlər ki, tamojna artıb, başqa portlara gedirlər. Bunu nəzərə alaraq təklif olunur. 50 faiz deyil 5 faiz artırılsın.

- Hökumət vergilərinin yığılmağı və o pulların vergiçilərin arasında bölünməsi inspektorların vəzifəsidir. Bunları təftiş etmək kazyonnı palata öhdəsindədir. Onun vəzifəsi çox olduğundan, müfəttişliyə vaxtı yoxdur. Buna görə köhnə zamanda maliyyə nəzarətində 9 müfəttiş təyin olunmuşdur. Bunlar lazım olan yerə göndərilirdi. İndi maliyyə nəzarəti onu mülahizə edib, maliyyə nəzarəti yanında bir müfəttişi təyin edib. Lazım olan təminnamə verilməsinə lüzum görmüş, binaən-ileyh, bu xüsusda bir layiheyi-qanuniyyə tərtib edərək parlamentə təqdim etmişdir. Komissiya bu təklifə baxıb, qəbul eləmişdir. Komissiya belə mülahizə etdi ki, bu saat bizdə hazırlanmış adam yoxdur ki, onların üstündə nəzarətçi olsun, onlara baxsın. Buna görə, deməli parlamentə təklif edir ki, qəbul etsin. Bu müfəttişin də idarəsi olmayıb tək özü olacaq, maaşı da ildə 20 min manatdır." [9]

Rza bəy Ağabəyovun "Türk ocağı" cəmiyyətinin fəaliyyətində də mühüm rolu olub. 1918-ci il senytabrın 24-də Əhməd Cavad Axundzadə, Abdula Şaiq, Abbasqulu Kazımzadə, Kərbalayi Vəli Mikayılzadə və Tağı Nağızadə Cümhuriyyətin Daxili İşlər Nazirliyinə müraciət edərək Azərbaycanda "Türk ocağı" cəmiyyətinin qurulmasına icazə istədilər. Az sonra, 1918-c il ilin oktyabrın 7-də buna icazə verildi.

Azərbaycan "Türk ocağı" özünü 1911-ci ildə Əhməd bəy Ağaoğlunun evində qeyri-rəsmi şəkildə qurulan, amma rəsmi şəkildə İstanbulda 1912-ci ildə yaradıldığını elan edən "Türk

ocağı"nın Bakı şöbəsi, qolu adlandırdı. Nizamnamədə heç bir dəyişiklik edilmədi. Azərbaycan "Türk ocağı" əsas qayəsinin Osmanlı türkləri ilə Azərbaycan türklərini bir-birinə tanıtmaq, Azərbaycan türklərinin milli yüksəlişinə, elm-təhsil sahəsindəki inkişafına kömək etməkdən ibarət olduğunu bəyan etdi.

Azərbaycanda "Türk ocağı"nın fəaliyyətə başlaması ilə bağlı Əhməd Cavad "Azərbaycan" qəzetində məlumat verərək yazırdı: "Çoxdan bəri dörd gözlə bəklədiyimiz Azərbaycan "Türk ocağı" işləməyə başladı".

1918-ci il noyabrın 17-də - ingilislərin Bakıya daxil olmasından sonra "Türk ocağı"nın fəaliyyətində müəyyən məhdudiyyətlər yarandı. Amma 1919-cu ilin dekabrından başlayaraq "Türk ocağı" yenidən əvvəlki qaydada fəaliyyətini bərpa etdi. Bu məqsədlə Məhəmmədəmin Rəsulzadə, Şəfi bəy Rüstəmbəyli, Rza bəy Ağabəyov, Seyid Hüseyn və Məmmədbağır Şeyxzamanlıdan ibarət komissiya yaradıldı.

Fəaliyyəti dönəmində Azərbaycan "Türk ocağı" gənc Cümhuriyyətin təhsil sisteminin milliləşdirilməsi proqramını icra etdi. Türkiyədən Azərbaycana müəllimlər çağırdı, dərs vəsaitləri gətirdi, dünyada və qonşu ölkələrdə baş verən hadisələri təhlil etdi, çoxsaylı konfranslar keçirdi. Türkiyə və Azərbaycan əlaqələrinin inkişafına çalışdı, "Türk gecələri" musiqi proqramları, ədəbi-bədii tədbirlər planlaşdırdı, Türkiyə-Azərbaycan ədəbi əlaqələrinin yaradılmasında iştirak etdi.

"Türk ocağı"nın qurucuları sırasında Rza bəy Ağabəyovla yanaşı, Azərbaycan ziyalılarından Abbasqulu Kazımzadə, Vəli Mikayıloğlu, Abdulla Şaiq, Şəfi bəy Rüstəmbəyli, Seyid Hüseyn, Məmmədbağır Şeyxzamanlının da əməyini xüsusi vurğulamaq lazımdır. Azərbaycan "Türk ocağı" 1920-ci ilin aprelində 28-də Azərbaycan Cümhuriyyətinin süqutu ilə fəaliyyətinə son verdi. [29, 24 sentyabr 2015-ci il]

Mustafa Mahmudovun fəaliyyəti haqqında tarix elmləri doktoru D.B.Seyidzadənin "Rusiya Dövlət Dumasında Azərbaycan deputatları" monoqrafiyasında, Zaqafqaziya Seyminin müsəlman deputatlarına aid sənədlərdə, eləcə də Azərbaycan Xalq Cümhuriyyətinin materiallarında məlumatlar verilib. Onun haqqında görkəmli türkoloq alim Əhməd Cəfəroğlunun 1962-ci ildə Türkiyədə "Mücahid" jurnalının 45-46-cı nömrəsində məqaləsi çap olunub. 1992-ci ildə Bakıda "Şərq-Qərb" nəşriyyatının "Yeddi möhür arxasında" adı ilə rus dilində çap etdiyi məqalələr toplusunda Mustafa Mahmudov haqqında maraqlı faktlar işıqlandırılıb.

Tədqiqatçı Nazim Nəsrəddinovun 1990-cı illərin əvvəllərindən başlayaraq, M.Mahmudov haqqında Azərbaycan və rus



*Mustafa Mahmudov*

*Göyçay qəzasının Kürdəmir kəndindən olan AXC parlamentinin deputatı, Müsavat və bitərəflər fraksiyasının üzvü*

dillərində yazdığı bir neçə yazısı "Xalq qəzeti", "Azərbaycan müəllimi", "Bakı" və "Baku" qəzetlərində çap edilib. Müəllifin bu mövzuda bir neçə yazısı "Strategiya.az", "Davam.az" kimi geniş oxucu kütləsi olan saytlarda yayımlanıb. Müəllif rus və Azərbaycan dillərində yazdğı bir neçə yazısını Azərbaycan, rus və türkdilli oxuculara ünvanlayıb. Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin (AR DTA) 2802 və 309-cu fondlarında M.Mahmudovun 1920-ci ilədək keçdiyi həyat yolunu işıqlandıran çoxlu material saxlanılır.

M.Mahmudov haqqında onun əməkdaşlıq etdiyi "İrşad" qəzetində, Bakıda rus dilində çıxan qəzetlərdə də maraqlı materiallara rast gəlinir.

**Mustafa Hacı Musa oğlu Mahmudov** 1878-ci ildə Bakı quberniyasının Göyçay qəzasının (uyezdinin) Kürdəmir kəndində (indiki Köhnəbazar kəndində) anadan olub. Mustafa Mahmudov ilk təhsilini, əsası 1881-ci il fevralın 9-da qoyulan Kürdəmir kənd məktəbində alıb, sonra bir necə il Göyçay qəza məktəbində oxuyub. O, sonrakı təhsilini Qori şəhərində yerləşən Zaqafqaziya Müəllimlər Seminariyasında davam etdirib, 1899-cu ildə seminariyanın müsəlman şöbəsini bitirib. Gənc müəllimin təyinatını Yelizavetpol quberniyasının Nuxa qəzasındakı Vəndam kəndinə versələr də, o, kənd məktəbi təyinatını şəhər məktəbinə dəyişdirə bilir.

Bakı Quberniyası və Dağıstan Vilayəti Xalq Məktəblər İdarəsində təşkil olunan qəbul imtahanlarında aparıcı komissiya üzvləri kimi iştirak edən H.Məlikov (Həsən bəy Zərdabi) və Ə.Topçubaşov gənc seminaristin elmi və pedaqoji ustalığını yüksək qiymətləndirir, M.Mahmudovun təyinatının neft və milyonlar şəhərinə - Bakıya dəyişdirməsinə şərait yaradır.

M.Mahmudovun Bakıda işləmək niyyəti baş tutur. Qori Müəllimlər Seminariyasının 1899-cu il məzununu, 1605 nömrə-

li attestatın sahibini illik əmək haqqı 675 manat olmaqla, Bakıdakı 3-cü rus-tatar məktəbinə müəllim vəzifəsinə təyin edirlər. 1904-cü il setyabrın 15-də M.Mahmudovu öz xahişi ilə S.M.Qəniyevin başçılıq etdiyi 2-ci rus-tatar məktəbinə işləməyə dəvət edirlər. Burada oxuyan şagirdlərin sonralar ölkənin ictimai-siyasi həyatında şərəfli yer tutmalarında bu məktəbin direktoru S.M.Qəniyevin və aparıcı müəllimlərin böyük rolu danılmazdır. Belə şagirdlərdən biri də M.Ə.Rəsulzadə idi.

1907-ci il fevralın 6-da M.Mahmudov II Dövlət Dumasına deputat seçilir. M.Mahmudov II Dövlət Dumasında rus dilini öz ana dili kimi yaxşı bilən ən fəal türkdilli deputatlardan biri kimi taleyüklü məsələlər barədə çıxışlar edib.

M.Mahmudov Rusiya II Dövlət Dumasının 9 şöbəsinin, 4 komissiyasının üzvü olub. O, II Dövlət Dumasının 13 mart



***M.Mahmudov II Dövlət Dumasında müsəlman deputatlar arasında***

1907-ci il tarixli 9-cu iclasında – "Hərbi-səhra məhkəməsinin ləğvi haqqında" qanun layihəsinə dair müzakirələrdə yaşadığı dövrün ziddiyyətlərini belə ifadə edib: "Cənab xalq nümayəndələri, iki gün ərzində burada deyilənlərə nəyi isə əlavə etmək mənim üçün çətindir. Yalnız bir şeyi deyə bilərəm: bütün böyük Rusiya hazırda çoxmilyonlu xəstələri olan lazaretə (kiçik hərbi xəstəxanaya) bənzəyir. Siz - xalq nümayəndələri həkimsiniz, buraya konsiliuma çağırılmışsınız. Siz diaqnoz qoymalı və dərhal işə başlamalısınız... Hər bir həkim lazeretə daxil olarkən, hər bir sanitar dəstəsi döyüş meydanına yola düşərkən ilkin kömək göstərir, ən əsas, ən ciddi xəstələrə, lakin heç də ümidsiz olmayan xəstələrə ilk növbədə kömək göstərir, diqqət verir. Hərbi-səhra məhkəmələrinin qurbanları belə xəstələrdəndir. Biz bunun səbəblərini araşdırmağa vaxt itirməməliyik. Faktların özü hər şeyi göstərir. Biz artıq, insanları xilas edən tədbirlərin həyata keçirilməsinə başlamalyıq. Mən qorxuram, siz də, xalq nümayəndələri də qorxun ki, hər gün həyatını xilas etmək xahişi ilə buraya müraciət edən, lakin cavab almayan həmin qurbanlar sizi bu cinayəti əlbir törətməkdə olmasa da, səhlənkarlıqda ittiham etsinlər. Cənablar iş görməyə tələsin. Unutmayın ki, dediklərimizi bir qulaqdan alıb o biri qulaqdan buraxırlar..."

Mustafa Mahmudovun Rusiya II Dövlət Duması xalq təhsili komissiyasının üzvü kimi çıxışları həmişə ciddi müzakirələrə səbəb olub. O, belə çıxışlarının birində xalq təhsili nazirini ana dillində olan təhsilə, müəllimlərin nüfuz və şərəfinin yüksəldilməsinə qayğı göstərməyə çağırırdı. [33, s.67]

Rusiya II Dövlət Duması 1907-ci il iyunun 3-də çar manifesti ilə buraxıldığına görə, onun fəaliyyəti cəmi 103 gün davam edir.

M.Mahmudov bir aydan sonra – 14 iyul 1907-ci ildə yenidən 1-ci rus-tatar məktəbində əvvəki işini davam etdirsə də, II

Dövlət Dumasındakı fəaliyyəti ilə bağlı 1908-ci ilin sentyabrında 1-ci rus-tatar məktəbinin direktoru vəzifəsindən azad edilir. O, bir də pedaqoji fəaliyyətə 1910-cu il avqustun 4-də bərpa oluna bilir.

M.Mahmudov 1918-ci il fevralın 9-da Müəllimlər Komissiyasının sədrinə yazdığı məktubda Zaqafqaziya Seyminə üzv seçildiyini bildirir. Zaqafqaziyadan seçilən deputatlar tərəfindən hakimiyyət orqanı kimi Tiflisdə 1918-ci ilin fevral ayında yaradılan Zaqafqaziya Seyminin 26 may 1918-ci ildə son iclası keçirildi. Həmin seymdə Azərbaycan 44 deputatdan ibarət dörd müsəlman partiyası – "Müsavat" və ona qoşulan demokratik bitərəflər qrupu, "Müsəlman sosialist bloku", "Rusiyada Müsəlmanlıq" ("İttihad"), "Hümmət" (menşevik) partiyaları tərəfindən təmsil olunurdu. Ertəsi gün, mayın 27-də, keçmiş Seymin Müsəlman fraksiyası tərəfindən fövqəladə iclas çağırıldı.

Azərbaycan Milli Şurasının üzvü M.Mahmudov, Milli Şuranın "Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun"una (1918-ci il, 19 noyabr) əsasən, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin deputatı seçildi.

Mayın 28-də Tiflisdə keçmiş Qafqaz canişininin sarayında Azərbaycan Milli Şurasının ilk iclası keçirildi. Milli Şura Cənub-Şərqi Qafqazda müstəqil Azərbaycan Xalq Cümhuriyyəti qurulması barədə və müstəqillik haqqında Akt - İstiqlal bəyannaməsi qəbul etdi. Tarixi iclasda Milli Şuranın aşağıdakı üzvləri iştirak ediblər: Həsən bəy Ağayev, Mustafa Mahmudov, Fətəli Xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyli, Mir Hidayət Seyidov, Nəriman bəy Nərimanov, Heybətqulu Məmmədbəyov, Mehdi bəy Hacınski, Əli Əsgər bəy Mahmudbəyov, Aslan bəy Qardaşov, Sultan Məcid Qənizadə, Əkbər ağa Şeyxülislamov, Mehdi bəy Hacıbababəyov, Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlik-Aslanov, Rəhim

bəy Vəkilov, Həmid bəy Şahtaxtinski, Firudin bəy Köçərli, Camo bəy Hacınski, Şəfi bəy Rüstəmbəyli, Xosrov Paşa bəy Sultanov, Cəfər Axundov, Məhəmməd Məhərrəmov, Cavad Məlik-Yeqanov və Hacı Molla Axundzadə. Səsvermədə 24 nəfər müstəqilliyin lehinə səs verdi, iki nəfər (S.M.Qənizadə və C.Axundov) bitərəf qaldı. Altı bənddən ibarət olan bəyannaməni Azərbaycan Milli Şurasının üzvlərindən Həsən bəy Agayev, Fətəli Xan Xoyski, Nəsib bəy Yusifbəyli, Camo bəy Hacınski, Şəfi bəy Rüstəmbəyli, Nəriman bəy Nərimanov, Cavad Məlik-Yeqanov, Mustafa Mahmudov imzaladılar. [19]

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin aktiv deputatı kimi M.Mahmudov Azərbaycan Kənd Təsərrüfatı Komissiyasına üzv təyin edilmişdir. [10] Parlamentin bütün qərar və qanunlarının qəbul edilməsində aktiv şəkildə iştirak edib. Ziya Bünyadov "Azərbaycan Parlamentinin son saatları" məqaləsində Mustafa Mahmudovun da nitqinə yer ayırıb. M. Mahmudov öz çıxışında deyib: "Danışığın səbəbi, qan tökülmə bəlasının qabağının alınmasıdır. Şimaldan gələn bu qüvvəni dəf etməyə təəssüf ki, cavan Azərbaycanın qüvvəsi olmadığına görə Parlament öz işini dayandırıb, hüquqlarını məsuliyyəti öz üzərinə götürən firqəyə verir" deyərək Azərbaycanın müstəqilliyinə zərər gəlməyəcəyinə inandığını ifadə edir. [10]

Mustafa Mahmudovun özündən başqa yaxın qohumlarının və ailə üzvlərinin bir çoxu sovet rejimi repressiyasının qurbanı olub. 1937-ci il noyabrın 23-də həbs edilən Mustafa Mahmudov, həmin il dekabr ayının 20-də güllələnib.

Hal-hazırda Azərbaycan Respublikasının Kürdəmir rayonunda adına küçə vardır. [3; 18; 19; 20; 24; 33; 35]

**Hacı Hüseyn Əfəndiyevin də** daxil olduğu **Əhrar Fraksiyasına** aşağıdakı 8 parlament üzvü daxil idi:

1. Aslan bəy Qardaşov

2. Hacı Molla Əhməd Nuruzadə
3. Muxtar Əfəndizadə
4. Qərib Kərimoğlu
5. Bayram Niyazi Kiçikxanlı
6. Hacı Hüseyn Əfəndiyev
7. Hacı Əli Qasımoğlu
8. Abdulla bəy Əfəndizadə. [4]

Əhrar partiyası 1918-ci ilin payızında Bakıda yaradılıb. Sədri Aslan bəy Qardaşov idi.



*Hacı Hüseyn Əfəndiyev*
*(1887–1920)*

***Göyçay qəzasından AXC parlamentinə seçilib. 15.12.1918-27.4.1920-ci il tarixlərində Parlamentin deputatı olub. Parlamentdə Əhrar Fraksiyasının deputatı kimi Etibarnamə, Maliyyə və büdcə komissiyalarının üzvü olub.***

Əhrar fəaliyyətini, əsasən Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində təmsil olunan eyni adlı fraksiya çərçivəsində həyata keçirirdi. Abdulla bəy Əfəndizadə tərəfindən dekabrın 26-da Parlamentin iclasında Əhrarın bəyannaməsi açıqlandı. Bəyannamədə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması alqışlanmaqla yanaşı, Hökumətin fəaliyyəti tənqid edilirdi. Əhrar aqrar islahatlarla bağlı mülkədar torpaqlarının kəndlilər arasında bölüşdürülməsi, fəhlə məsələsində isə 8 saatlıq iş günü, əməyin mühafizəsi tələblərinin tərəfdarı idi. Xarici siyasət sahəsində qonşu respublikalarla dostluq münasibətlərinin qurulmasına və inkişaf etdirilməsinə üstünlük verən partiya, Azərbaycan xalqı ilə yanaşı, bütün Qafqaz xalqlarının müstəqilliyinin və onların hüquqlarının müdafiə edilməsinin vacibliyinə xüsusi diqqət yetirirdi. [1; 2; 26]

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Göyçay qəzasını idarə edən görkəmli şəxsiyyətlər olub. Bunlardan biri də 23 iyun 1919-cu il - 14 fevral 1920-ci il tarixlərində Göyçay qəzasının rəisi olan **Lütvəli (Niftəli) bəy Zülqədərov** idi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Lütvəli bəy əvvəlcə Cəbrayıl (Qaryagin – indiki Füzuli) qəzasının 2-ci sahə polisinin, Yelizavetpol (Gəncə) qəza polisinin 3-cü sahə polisinin, habelə Ərəş qəzasının pristavı vəzifəsində işləyib, əhalinin böyük hörmətini qazanıb. Lütvəli bəy əvvəllər Peterburqda çar II Nikolayın sarayında qulluq edib, imperator və imperatriça Mariya Fyodorovna tərəfindən yüksək dövlət mükafatlarına layiq görülüb. O, 1918-ci il oktyabrın 12-də daxili işlər naziri Behbud xan Cavanşirin 78 nömrəli əmri ilə Şamaxı qəzasının müvəqqəti rəisi vəzifəsinə təyin edilib və bu vəzifədə 1919-cu ilin iyununadək xidmət göstərib. Daxili işlər naziri N.Yusifbəylinin 23 iyun 1919-cu il tarixli 85 nömrəli əmri ilə Göyçay qəzasının rəisi (1-ci dərəcə üzrə 3 000 manat əmək haqqı ilə) təyin olunub.



***Lütvəli (Niftəli) bəy Zülqədərov***

Lütvəli (Niftəli) bəy Zülqədərovun qəza rəisi kimi sonuncu vəzifəsi Cavad qəzasında olub. Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri M.H.Hacınskinin 1920-ci il 14 fevral tarixli 488 nömrəli əmri ilə L.Zülqədərov Göyçay qəzasaının rəisi vəzifəsindən azad olunaraq, mərkəzi Tərtər olan Cavanşir qəzasının rəisi təyin edilib. L.Zülqədərov Cavanşir qəza rəisi vəzifəsində cəmi bir ay xidmət göstərdi. 1920-ci il martın 19-da daxili işlər naziri M.Vəkilovun əmri ilə Lütvəli bəy bu vəzifədən azad olundu, onun yerinə Mustafa bəy Qabulov təyin edildi.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Lütvəli bəy Gəncədə yaşayıb. O, 1920-ci il Gəncə üsyanında (24 may-4 iyun) işğalçı XI orduya qarşı yerli əhalinin sırasında axıradək vuruşub. Üsyan yatırıldıqdan sonra, Türkiyədən ona Gəncədən çıxıb oraya gəlmək təklif olundu. Lakin Lütvəli bəy buna razı olmadı və sovet rejiminin əlaltıları onu tutub 1920-ci ilin iyun ayında güllələdilər. Bundan sonra onun ailəsi və nəs-

li də repressiyaya məruz qaldı. Zülqədərovlar sovet dövründə təqibdən yaxa qurtarmaq üçün Mehralıyev soyadını qəbul etdilər. [ 11, s.389-390]

Azərbaycan Xalq Cümhuriyyəti dövründə təhsilin inkişafına xüsusi qayğı göstərilirdi. Xalq maarif naziri N.Yusifbəyli 1918-ci il dekabrın 31-də Azərbaycan qubernatorlarına göndərdiyi məktubda göstərirdi ki, maarif sahəsində Azərbaycan Xalq Cümhuriyyətinin qarşısında çox böyük və çətin vəzifələr durur. Nazirlik yeni məktəblər, müəllim kursları açmaqla, təhsil sahəsində ölkəni mümkün qədər qısa müddətdə lazımi səviyyəyə qaldırmaq üçün bütün qüvvələri səfərbərliyə aldı. Məktubda qeyd edilirdi ki, indiki zamanda yalnız yüksək maarifə malik olan xalq tərəqqi edə bilər.

Cümhuriyyət Hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində artıq 1919-cu ilin əvvəllərində Azərbaycanda dövlət hesabına 23 orta ixtisas təhsili məktəbi və 637 ibtidai məktəb fəaliyyət göstərirdi. 1918-ci ildə Zaqafqaziya dairəsində 25 ibtidai məktəbin açılması üçün nazirlik 199 min manat pul ayırdı.

Qadınların təhsilinə xüsusi diqqət yetirilirdi. Orta təhsil müəssisələrində azərbaycanlı qızların sayı artırdı. Məsələn, əgər 1918-1919-cu tədris ilində Gəncə gimnaziyasında cəmi 4 azərbaycanlı qız oxuyurdusa, 1919-1920-ci tədris ilində onların sayı 296 nəfərə çatdı. [1]

Müəllimlər seminariyaları istisna olmaqla, 1919-1920-ci tədris ilində Azərbaycanın orta məktəblərində 9 611 şagird təhsil alırdı ki, onların da 3 115 nəfəri azərbaycanlı idi. Müəllimlərə olan ehtiyacı ödəmək üçün 1918-ci ildə Gəncə, Şəki və Zaqatalada qısamüddətli pedaqoji kurslar təşkil edildi və bu kurslarda 150 nəfər oxumağa başladı. Lakin Gəncədə fəaliyyət göstərən müəllim seminariyası kadrlara olan ehtiyacı ödəyə bilmirdi. Odur ki, Maarif Nazirliyi Qori Müəllimlər Seminariya-

sının Azərbaycan şöbəsinin müstəqil seminariya kimi Qazağa köçürülməsi haqqında qərar qəbul etdi. [15]

Məktəblərin tədris proqramları ilə təmin edilməsi məqsədilə 1919-cu ildə D.B.Rəfibəyovun sədrliyi ilə komissiya təşkil edildi. Birinci komissiyaya ümumi tarix və coğrafiya, türk tarixi və coğrafiyası üzrə proqramlar hazırlamaq həvalə edildi. Komissiyanın üzvləri H.Sadıqbəy, M.A.Şahtaxtınski, L.A.Zimin, İ.A.Belyayev, E.K.Akimov, E.A.Poxomov, Daşkeyev və başqaları idi. İkinci komissiya türk dili və ədəbiyyatı üzrə proqram hazırlamalı idi. Bu komissiyaya sədr M.B.Mahmudbəyov, üzvlər isə R.Əfəndiyev, M.A.Şahtaxtınski, D.Axundzadə, M.Əfəndi, H.Ə.Yaqubzadə, A.Talıbzadə və H.Cavid seçildilər. Üçüncü komissiya riyaziyyat üzrə proqram hazırlamalı idi. Bu komissiyanın sədri S.B.Acalov, üzvləri isə M.B.Hacıbəyov, Zeynalov və Sübhanverdixanov idi. Dördüncü komissiya təbiətşünaslıq fənni üzrə proqram hazırlamalı idi. Komissiyanın sədri M.Maqomayeva, üzvləri isə S.H.Yaqubova, C.Cəbrayılbəyov, S.Axundova təyin edildilər. Beşinci komissiya Şeyxülislamın rəhbərliyi ilə ilahiyyat üzrə proqram hazırlamalı idi və onun üzvləri müftilər A.Talıbzadə və R.Əfəndiyev idi. Birinci və ikinci komissiya həm orta, həm də ali məktəblər üçün proqramlar tərtib etməli idi. [32, s.109]

Xalq Maarifi Nazirliyinin 1918-ci il 22 dekabr tarixində keçirilən iclasının 9 №-li protokolunda əlifba məsələləri də qoyulub. 1918-1919-cu illərdə Xalq təhsili şöbəsi təhsil müəssisələri ilə Azərbaycan (türk) dilinin tədrisi, dərsliklərin hazırlanması istiqamətində yazışmalar aparırdı. S.M.Qəniyevə və A.B.Əfəndiyevə türk dilinin özəlliklərini nəzərə alan əlifba nümunələrinin hazırlanması həvalə olunmuşdu. [17]

1919-cu il sentyabrın 18-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin qərarı ilə xalq məktəbləri üçün Osmanlı dövlə-

tindən dərs kitabları almaq məqsədilə Xalq Maarif Nazirliyinə bir milyon manat vəsait ayrıldı.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Göyçayda da maarifin inkişafına xüsusi qayğı göstərilirdi. 1919-cu ildə Maarif Nazirliyi Bakı, Şəki, Şuşa, Göyçayda realnı və müəllim hazırlayan məktəblər açılması haqqında parlamentə qanun layihəsi təqdim etdi və layihə bəyənildi.

Müəllim seminariyasından başqa, xalq maarif sistemi üçün kadrlar hazırlayan müəssisələrdən biri də ali ibtidai məktəblər olmalı idi. Bu məqsədlə respublikanın Maarif Nazirliyi 1918-ci ildə bir sıra işlər gördü: Göyçayda məktəb açıldı, Ağdamda, Nuxa (Şəki) qəzasının Qutqaşen kəndində belə məktəblərin açılması haqqında qərar qəbul edildi.

Azərbaycan Parlamentinin 1919-cu il sentyabrın 1-də keçirilən 70-ci iclasında Bakı Dövlət Universitetinin təsisi ilə yanaşı, 1919-1920-ci tədris ilindən başlayaraq, yüz nəfər azərbaycanlı gəncin hökumət hesabına təhsil almaq üçün xarici ölkələrin nüfuzlu ali məktəblərinə göndərilməsi haqqında məsələ də müzakirə edildi. 1919-1920-ci tədris ilində Azərbaycan Cümhuriyyəti Parlamentinin xaricdə təhsil almağa göndərilən azərbaycanlı tələbələrə vəsait ödənilməsi haqqında qərarı ilə bu iş üçün dövlət xəzinəsindən Xalq Maarifı Nazirliyinin sərəncamına 7 milyon manat vəsait ayrıldı. [28]

Təhsilin inkişafı ilə bağlı yaradılan komissiyalarda Göyçay qəzasından olan ziyalılar da fəal iştirak edirdilər. Azərbaycan Xalq Cümhuriyyəti dövründə xarici dövlətlərə ali təhsil almaq üçün göndərilən 100 tələbənin arasında Göyçay qəzasını təmsil edən gənclər də var idi. 1919-1920-ci tədris ili üçün dövlət hesabına xaricə təhsil almağa göndərilən tələbələrdən 13 nəfəri İngiltərəyə (bunlardan 3 nəfər öz hesabına), 23 nəfəri İtaliyaya, 44 nəfəri Fransaya, 9 nəfəri Türkiyəyə ezam olundu.



***Azərbaycan Xalq Cümhuriyyəti dövründə xarici dövlətlərə ali təhsil almaq üçün göndərilən tələbələr***

14 yanvar 1920-ci ildə tələbələr Avropa ölkələrinə təhsil almaq üçün yollandılar. Yolasalma mərasimi təmtəraqlı təşkil edildi. Kürdəmir, Hacıqabul, Yevlax və Gəncə dayanacaqlarında adamlar gələcək tələbələri salamlayırdılar. Tiflisdən Batuma yollanmaq üçün gələcək tələbələrə xüsusi vaqon ayrıldı. [23]

Həmin siyahıda 69-cu yerdə olan Məmmədov Əlibəy Xəlilbəy oğlu Göyçay qəzasının İsmayıllı kəndindən və 76-cı yerdə olan Sədi Hacı Həsən oğlu Göyçay qəzasının Ucar kəndindən olmaqla Türkiyəyə oxumağa göndərilən tələbələrin sırasında idi. Onların sonrakı taleyi haqqında hələlik məlumat əldə etmək mümkün olmayıb. Fikrimizcə, bu sahədə aparılan araşdırmalar gələcəkdə yeni məlumatların əldə edilməsinə imkan verəcək. [21, s.40-47]

Azərbaycanın XX əsr tarixi üç respublika dövrü kimi xarakterizə olunur. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), Azərbaycan SSR (1920-1991), Azərbaycan Respublikası (1991-hazırkı dövr).

Sovet Rusiyasının 1920-ci ilin 27 aprel işğalı ilə Azərbaycan Xalq Cümhuriyyətinin varlığına son qoyuldu. 1920-ci ilin 27 aprel işğalı ilə 70 il Azərbaycan xalqını Moskvadan asılı vəziyyətə salan sovet rejimi bərqərar oldu. Bu dövr elmi ədəbiyyatda Azərbaycan SSR (1920-1991) və ya II Respublika dövrü adlanır.

## İstifadə olunan ədəbiyyat

1. "Azərbaycan tarixi. Yeddi cildlik. V cild", Bakı, 2008, 527 s.

2. "Azərbaycan Xalq Cümhuriyyəti (1918–1920)", Bakı, 1998

3. "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild", Bakı, 2005, 472 s.

4. "Azərbaycan Cümhuriyyəti Parlamenti (1918–1920). Parlament (stenoqrafik hesabatlar)", c.1-2, Bakı,1998

5. "Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar): 2 cilddə, I c.", Bakı, 1998

6. "Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar): 2 cilddə, II c.", Bakı: Azərbaycan, 1998

7. "Azərbaycan daxili işlər orqanlarının tarixi (ensiklopedik soraq kitabı), Birinci kitab", Bakı, 2003

8. "Azərbaycanın ilk polisi: Məhəmməd Sadıq bəy", "Yenisabah.az", 02.07.2020

9. Ağabəyov S.S., Ağabəyov Y.Ə., "Ağabəylilər", Bakı, 2008, 248 s.

10. Bünyadov Z., "Azərbaycan Parlamentinin son saatları: Azərbaycan Demokratik Respublikası Parlamentinin sonuncu fövqəladə iclası", "Elm" jurnalı, 11.05.1991

11. Əliyarlı İ., Behbudov T., "İstiqlal fədailəri – Azərbaycan Xalq Cümhuriyyətinin daxili işlər nazirləri və silahdaşları (1918-1920-ci illər)", Bakı, 2013, 491 s.

12. Əlyarlı M., Behbudov T.R., "Müstəqil Azərbaycan polisinin

yaranması və fəaliyyəti (1918–1920-ci illər)”, Bakı, 1998

13. “Generalımızın abidəsi Lvovda bərpa edildi", 17.01.2017 - https://axar.az/news/hadise/230409.html

14. Göyüşov A., “Azərbaycanda İttihadçılıq”, Bakı, 1997

15. Mirzəyev E,  Babayeva S., “Azərbaycan Xalq Cümhuriyyəti və təhsil”, “Xalq qəzeti”, 13.02.2018

16. Məmmədov M., “Bolşeviklərin qara dəftərində”, 02.02.2016 - http://regionplus.az/az/articles/view/5800

17. Məmmədova S., “Azərbaycan Xalq Cümhuriyyətinin təhsil siyasəti", "Strateji təhlil" Say 1-2 (23-24), 2018, s.297

18. Nəcəfov B., “Azərbaycan Demokratik Respublikası”, Bakı, 1992

19. Nəsrəddinov N., “Yaxşı tanımadığımız parlament üzvü - Mustafa Hacı Musa oğlu Mahmudov”, 28.05.2019 - https://az.strategiya.az/news.php?id=151287

20.  Nəsrəddinov N., “İstiqlal Bəyannaməsini imzalayanlardan biri - Kürdəmirli Mustafa Mahmudov”, 29.05.2016 - http://davam.az/27322-stiqlal-byannamsini-imzalayanlardan-biri-krdmirli-mustafa-mahmudov.html

21. Qurban T., “Yüz tələbə, yüz tale”, Bakı, 2018

22. Quliyev V., “Sadıq bəy Ağabəyzadənin sahibsiz məzarı” 23.02.2013, “525-ci qəzet”

23. Seyidbəyli M., “Azərbaycan təhsilində tarixi varislik“, ”Azərbaycan Xalq Cümhuriyyəti: tarixi retrospektivlik və müasirlik” mövzusunda elmi konfransın materialları", Bakı, 20.02.2018

24. Seyidov Ə., “Qori seminariyası”, Bakı, 1988

25. Süleymanov M., “Azərbaycan ordusu (1918-1920)”, B., 1998

26. Süleymanova S., “Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu - XX yüzilliyin əvvəlləri)”, Bakı, 1999

27. Zülfüqarlı M., “Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi. Göyçay döyüşləri (iyun-iyul 1918-ci il)” Bakı, 2017, 110 s.

28. https://azerforum.com/az/ 31.01.2021

29. "525-ci qəzet"

### *Rus dilində*

30. Агамалиева Н., Худиев Р., «Азербайджанская Республика. Страницы политической истории. 1918–1920», Б., 1994 г.

31. «Адрес-Календарь Азербайджанской Республики на 1920 г.», Б., 1920 г.

32. Назарли А.Э., «Народное образование в Азербайджанской Республике (1918-1920 гг.)», Баку, 2008 г., 224 с.

33. Сеидзаде Д.Б., «Азербайджанские депутаты в Государственной Думе России», Баку, 1991 г.

34. https://1918pogroms.com/1.jpg (1200×235)

### *Türk dilində*

35. Ahmet Caferoğlu., "İhtilalçı Mücahit Mahmudoğlu Mustafa", "Mücahid" jurnalı, 1962, N45-46

## Göyçay 1920-1930-cu illərdə

Sovet Rusiyası qoşunları tərəfindən 27 aprel 1920-ci il tarixində Bakı işğal olunduqdan az sonra regionların işğalı həyata keçirildi. XI  işğalçı ordu mayın 1-də Göyçaydan keçib Nuxa və Zaqatala tərəfə irəlilədi. Ağsu-Göyçay rayonunda hərəkət edən XI ordu hissələri mayın əvvəllərində Nuxanı, mayın 11-də Zaqatalanı tutdu. [1, s.243, 245]

Aprel işğalından dərhal sonra sovet rejimi kütləvi repressiyalara başladı. 1921-1922-ci illərdə Azərbaycanın Türkiyədə hərbi attaşesi vəzifəsində işləyən Ə.Ələsgərov "Azərbaycan faciəsi" memuarında yazırdı: "Azərbaycanda 1920-ci ilin aprelindən 1921-ci ilin avqustuna kimi 48 min adam qırmızı terrorun qurbanı olmuşdur ki, bunların da böyük bir hissəsi ziyalıların payına düşür". [12, s.35; 13, 6 aprel 1991-ci il]

Bolşeviklərin erməni daşnaklarla birlikdə müsəlman əhaliyə qarşı törətdikləri 1918-ci ilin mart soyqırımı və 1920-ci ilin aprel işğalından dərhal sonra həyata keçirdiyi repressiyalar Azərbaycan əhalisinin sayının kəskin şəkildə azalmasına səbəb oldu. Əgər 1917-ci ildə Azərbaycanda 2 milyon 353,7 min əhali var idisə, 1920-ci ildə 1 milyon 952,2 min nəfər olub, başqa sözlə 401,5 min nəfər azalıb. [12, s.442]

Azərbaycanın strateji cəhətdən əlverişli ərazilərindən biri olan Göyçayın əhalisinin də sayı məlum hadisələrlə əlaqədar azalaraq 1926-cı ildə 4.281 nəfər oldu. [16]

Bakıda təqiblər, Azərbaycan Demokratik Respublikası liderlərinin, görkəmli nümayəndələrinin, digər partiyaların, siyasi qrupların və cərəyanların rəhbərlərinin, Azərbaycan ordusunun, müdafiə nazirliyinin xadimlərinin həbsi baş verdi. Onların bir çoxu Nargin adasında güllələndi, bəziləri Rusiyanın müxtəlif həbs düşərgələrinə göndərildi. Bütün bunlar Azərbaycan İnqi-

lab Komitəsinin icazəsi olmadan, millətçi rus şovinistlərinin və erməni daşnaklarının başçılıq etdikləri XI ordunun xüsusi şöbəsi tərəfindən özbaşınalıqla edilirdi. Daşnak terrorçuları 1920-1921-ci illərdə F.Xoyskini və H.Ağayevi Tiflisdə; Behbudağa Cavanşiri isə Malta adasında vəhşicəsinə qətlə yetirdilər. General Süleyman Sulkeviç, hökumət üzvləri - X.Rəfibəyov, İ.Ziyadxanov, tanınmış pedaqoq və alim F.Köçərli, professor Zimin və başqaları aradan götürüldü. Bir fərziyyəyə görə, Nəsib bəy Usubbəyov Azərbaycanın Gürcüstanla sərhədini keçərkən qarətçi quldurlar tərəfindən öldürülmüşdü. [12, s.34]

1920-ci ilin mayında bolşeviklərin Azərbaycanı işğalından sonra M.Ə.Rəsulzadə təqib olunur, əvvəl Bakıda – Ramanada gizlənir, sonra isə Göyçay qəzasının Lahıc kəndinə gedərək orada bir müddət yaşayır. Burada özünün məşhur "Əsrimizin Səyavuşu" əsərini yazır.

1920-ci ilin 17 avqustunda Göyçay qəzasının Qaraməryəm kəndində bolşeviklər onu həbs edib Bakıya gətirir. [10, s.29]

AXC qurucularından biri olan göyçaylı general Sadıq bəy Ağabəyov çətinliklə də olsa bu dəhşətli vəziyyətdə mühacirətə gedərək repressiyalardan canını qurtardı.

İşğaldan sonra Azərbaycanın 114,5 min kv.km ərazisinin 29.338,2 kv.km-i itirilib, başqa sözlə Ermənistan və Gürcüstana hədiyyə edilib. Konkret olaraq, Ermənistana – İrəvan (qalan hissəsi) 3.100,2 kv.km, Zəngəzur (çox hissəsi) 5.115,4 kv.km, Qazax (dağlıq hissəsi) 2.980,3 kv.km, Dərələyəz 1.583,8 kv.km, Gürcüstana – Borçalı ( bir hissəsi) 5.161,4 kv.km, Sıqnax 6.832,6 kv.km və digər ərazilər (4.564,6 kv.km) verilib. [12, s.42,44] Bu siyasət sonrakı illərdə də davam etdirilərək, 1929-cu il fevralın 18-də Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Cəbrayıl qəzasının üç kəndi – Nüvədi, Ernəzur və Tuğut, Naxçıvan MSSR-in isə 657 kv.km ərazisi olan 9 kəndi öz torpaqları ilə birlik-

də Ermənistan SSR-ə verilib. 1930-cu ildə isə Əldərə, Lehvəz və Astazur kəndləri də Ermənistan SSR-ə verilib və həmin ərazidə Mehri rayonu yaradılaraq Naxçıvan MSSR ilə Azərbaycan arasında 45 kilometlik bir məsafə yaradılıb. [11, s.115; 12, s.44-45]

Sovet hakimiyyəti illərində təqib və repressiyalarla, yerli əhalinin əmlakını müsadirə etməklə yanaşı, insanları haqqı ödənilməyən müxtəlif işlər görməyə də məcbur edirdilər. Məsələn, 1921-ci ildən etibarən Mingəçevirdən Salyana qədər Kürün sol sahilində bənd qurmaq işində Göyçay, Ağdam, Ağdaş, Şamaxı və Salyan qəzalarının kəndlərindən 5 min kəndli iştirak etmişdi. [1, s.294]

Azərbaycanda aprel işğalından dərhal sonra sovet hakimiyyətinə qarşı Gəncədə (25-31 may 1920), Qarabağda (5-15 iyun 1920), Zaqatalada (9-20 iyun 1920) və s. ərazilərdə baş verən xalq üsyanları Azərbaycan xalqının sovet rejimini qəbul etmədiyini sübut edir. [1, s.256-257; 12, s.44]

1920-ci il dekabr ayının ortalarında üsyançılar Astara, Girdəni, Şahağacı və Pensəri yaşayış məntəqələrində sovet hakimiyyətini devirdilər. l921-ci ilin yayında qəzanın Astara hissəsində yenidən üsyan baş verdi. Xəzər dənizi hərbi qüvvələrinin köməyi ilə oktyabrın 5-də bu üsyan da yatırıldı. Bu üsyanlardan başqa, Nuxa qəzasındakı Hüseyn Əfəndinin başçılığı ilə üsyan, Əsədulla bəyin başçılığı altında Şuşa qəzasında, Adil bəyin başçılığı altında Kürdüstanda, Şamxor, Zaqatala, Salyan, Qazax və başqa yerlərdə müqavimət hərəkatları da baş verdi. Nuxa qəzasındakı üsyana başçılıq edən Hüseyn Əfəndinin Göyçayda, Ağdaşda, başqa qəzalarda olan dəstələri də sovet rejiminə qarşı mübarizə aparıb. [4; 11, s.57; 12, s.46-47]

Göyçay qəzasında sovet hakimiyyəti əleyinə baş verən üsyanlar haqqında hələlik ətraflı məlumat olmasa da, əldə etdiyimiz bəzi faktlar 1920-1923-cü illərdə Göyçayda sovet rejiminə

qarşı güclü üsyanın olduğunu təsdiq edir. Məsələn, 1923-cü il yanvar ayının 1-dən 1924-cü il yanvarın 1-dək (Az.ÇK-nın Kollegiya İclasının materiallarına əsasən) güllələnən 89 nəfərin siyahısında Göyçay üsyanında iştirak edən Sultanov Ağa bəy Səlim bəy oğlunun adı var. Gələcəkdə tədqiqatlar bu istiqamətdə davam etdirilərsə, çox güman ki, yeni məlumatlar əldə edilə, tariximizin bu səhifəsini ağ ləkələrdən təmizləyə bilərik. [9]

Azərbaycanın mühacir mətbuatı olan "Odlu Yurd" ("Birinci-kanun" dekabr - 1929, № 10) jurnalında cap olunan məqalədə sovet hakimiyyətinə qarşı digər bölgələrdə baş verən üsyanlarla yanaşı, Göyçay üsyanı haqqında da məlumat verilib:

"Millətimizin bu müqaviməti 1926 sənəsinə qədər davam etmiş və bolşeviklərin kəndi statistiklərinə görə, bu müddət zərfində 60-a qədər müsəlləh üsyan vaqe olmuşdur ki, ən mühümləri Gəncə üsyanı, Ağdam-Qarabağ üsyanı, Lənkəran üsyanı, Səlyan-Muğan üsyanı, Şəki-Zaqatala üsyanı, Göyçay üsyanı, Kürdəmir üsyanı və s. Bunların bir qismi həftələrlə, bir qismi aylarla, Lənkəran üsyanı isə illərlə davam etmişdir. 1926 sənəsinin sonlarına qədər Bakının "Qobustan" və "Daşlar" namilə *(adı ilə)* məruf *(məlum)* partizan hərəkatından maəda *(başqa, əlavə)* Lənkəran, Qazax, Göyçay, Zaqatala, Qarabağ, Gəncə və Quba dağları ilə Muğan və Səlyan steplərində 9 ildən bəri davam edən mücadiləsində inad göstərən müsəlləh müqavimətlər nəticəsində nə qədər qurban verilmişdir!" [15, 23 sentyabr 2017-ci il]

Bəzi məlumatlara görə, Azərbaycanda sovet hakimiyyəti əleyhinə 1923-cü ilə qədər 53, 1941-ci ilə qədər isə 200-ə qədər irili-xırdalı üsyan və silahlı çıxış baş verib. [13, 30 oktyabr 1990-cı il]

M.Ə.Rəsulzadə kommunist rejiminə qarşı baş verən üsyanlar haqqında deyib: "Bütün milli müəssisələr bağlanılır,

milli ordu dağıdılır, ziyalılar öldürülür, ...sinfi mübarizə alovlandırılır, ictimai nifrət qızışdırılır, qardaş qardaşa qarşı təhrik edilir, bir sözlə, məmləkət sovetləşirdi. Bütün bunlarla bərabər, milli müqavimət davam edirdi və Azərbaycanın hər tərəfində qanlı hadisələr olurdu”. [8, s.92]

1929-cu ilin yazında zorakılıqla əhalidən taxıl yığımı sovet hakimiyyətinə qarşı qiyamları daha da artırıb. Bu il ərzində SSRİ üzrə 1 300 kəndli qiyamları qeydə alınıb. [17, s.232]

Sovet rejiminə qarşı Azərbaycanın digər bölgələrində olduğu kimi Göyçay qəzasında da mübarizə kəskin gedirdi. Bu mübarizəyə aid yazılan dəyərli əsərlərdən biri Paşa Yaqubun “Cəlil bəy” kitabıdır. [7] Kitabda müəllif Göyçay tarixinə qısa ekskurs edib, Cəlil bəyin (1886-1930) həyat və fəaliyyəti haqqında məlumat verib. Kitabda, həmçinin 1922-ci ildə Göyçayda sovet hakimiyyəti tərəfindən müsadirə olunan 20 yaşayış evinin, 10 karvansaranın, 61 şərikli mülk sahibinin siyahısı qeyd olunub.

Göyçay qəzasında 1922-ci ildə müsadirə olunan mülklərin siyahısı: 1.Həmid və Hacı İslam Hacı Məmməd oğulları (xəstəxanaya verilib); 2.Naslednikov Mustafa bəy (Rüstəmbəyov); 3.Hacı Mir Tacəddin Mir Həşimov (hərbi komissarlıq və fəhlə ittifaqına verilib); 4.Məmməd-İsmayıl bəy Səlimbəyov; 5.Hacı Mir Zeynal Məstanzadə; 6.Məmməd bəy və Rəhim bəy Ağabəyovlar (komxoza verilib); 7.Hacı Məmməd Həsənov və Mirzə Məmmədov (poçta verilib); 8.Ağəli, Əbülfəz və Əbülqasım Əsgərovlar; 9.Hacı Əliqulu Zeynalov (milis idarəsinə verilib); 10.Abdul-Əhəd Musayev (türməyə verilib); 11.Səlim Hacı Cəfər oğlu Kərimov; 12.Xəlil Xəlilov (inispektor dəftərxanası); 13.Zari xanım Qocayeva (fəhlə klubu); 14.Umud bəy Dəmir bəy oğlu Mirabov (yataqxana); 15.Aleksandr Kuzmiç Uedinov (aqrar məntəqənin bağı); 16.Naslednikov Arşaka Minaeviça Belubekova (Qrenajnaya stansiya); 17.Tofiq Hacı Hüseyn oğlu

Əfəndiyev; 18.Hacı Mirtağı Mirhəşimov (elektrik stansiyası); 19.Əliməmməd Əliyev; 20.Həzrət bəy və Rəhim bəy Ağabəyovlar (uşaq evinə verilib).

Karvansaralar: 1.Heydər Kərimov; 2.Kərbəlayi Səftər Hacı Hüseyn oğlu; 3.Hacı Zeynal və Hacı Məcid İsmayılovlar; 4.Ağaisa, Firudin və Ağamusa Ağayevlər; 5.Həzrət bəy və Rəhim bəy Ağabəyovlar; 6.Eynulla və Məcid Əliyevlər; 7.Məşədi Məmmədağa Zeynalov; 8.Ağakərim Kərimov və Əbülfəz Əsgərov; 9.Seyid Hüseynov və Mir Səmədov; 10.Əlisgəndər Sultanov.

Hamam: Ağabəyovlar.

Şərikli mülklər: 1.Mir Hüseyn Mir Səmədov; 2.Məşədi Əbülfəz Əsgərov; 3.Ağakərim Kərimov; 4.Məşədi Məmmədağa Zeynalov; 5.Məşədi Yusif Kərimov; 6.Mixail Baqdanoviç Nazarov; 7.Əliheydər Musayev; 8.Məşədi Əli; 9.Həsən Həsən oğlu; 10.Hacı Əsəd Hacı Kərim oğlu; 11.Məşədi Mehti İsmailov; 12.Ağabəyovlar; 13.Əlibaba Sədi oğlu; 14.Rəsul bəy Sultanov; 15.Tofiq Hacı Hüseyn oğlu Əfəndiyev; 16.Hacı Mahmud Əfəndiyev; 17.Kərim Mikailzadə; 18.Məşədi Həşim Cəbrailov; 19.Rza bəy Mirabov və Cəfər bəy Cəbrailov; 20.Nəsrəddin Kərimov; 21.Sədrəddin Süleymanov; 22.Hacı Həmid Həmzə oğlu; 23.Seriy Terkasparov; 24.Kazandar Babalı oğlu; 25.Cəlil Cahangir oğlu və Məmməd Hacı Qubad oğlu - 17 ədəd; 26.Hacı Ömər bəy İbrahimbəyov; 27.Cəfər bəy Cəfəralıbəyov; 28.Ağamusa Hacı Məmməd oğlu; 29.Hacı Zeynal İsmayılov; 30.İsmayıl Novruz oğlu; 31.Veysəl Hacı İslam oğlu və Həmid Həmid oğlu; 32.Hacı Baba Abdullayev; 33.Qəzənfər Yusif Oğlu; 34.Cəfər bəy Cəfəralıbəyov və Rza bəy Mirabov; 35.Məmməd İsmail bəy Səlimbəyov; 36.Abduləsəd Musayev; 37.Məmmədbağır Məmmədov; 38.Ağamirzə Məmmədov; 39.Əlihəsən Məmmədov; 40.Hacı Mir Hüseyn Hacı Mir Ələsgər oğlu; 41.Əlimövsüm Musayev; 42.Mir Mövsüm Mir Abutalıb oğlu; 43.Məşədi Əhəd

Hacı Mustafa oğlu; 44.Məşədi Məmmədəli Musayev; 45.Məmmədmehti Hacı Məmmədalı oğlu; 46.Molla Abduləli Axdı Molla Mustafa oğlu; 47.Seyfəddin Xəlil oğlu; 48.Əhməd Hacı Nəbi oğlu; 49.Məşədi Ağabala Hacı Allahverdi oğlu; 50.Məmmədbağır Məmmədov; 51.Aleksandra Melik Alaxverdiyeva; 52.Ağəli Rəsul Məmmədov; 53.Ağalar Məmmədov; 54.Hacı Məmmədhəsən Məmmədov; 55.Əlisgəndər Sultanov; 56.Hacı Daşdəmirov; 57.Məşədi Məmmədağa Zeynalov; 58.Məcid və Eynulla Əliyevlər; 59.Heydər Kərimov; 60.Kərbəlayi Səftər Hacı Hüseyn oğlu; 61.Məşədi Əliqulu Musayev və s.

Araşdırmalar nəticəsində məlum olub ki, 1920-1938-ci illər ərzində Göyçay rayonu ərazisində minlərlə insanın mülkləri zorla əllərindən alınaraq, güllələnib, yaxud Sibirə sürgün olunublar. [7, s.105-109]

**Cəlil bəy Cahangir oğlu** - 1880-ci ildə Bakı quberniyasının Göyçay qəzasının Qubadlı Şıxlı kəndində doğulub. Babası Hacı Qubad əslən Borçalı mahalının Şıxlı kəndindən olmaqla, nəsilləri oradan əvvəlcə Qazaxın Şıxlı kəndinə, bir müddət burada yaşadıqdan sonra oradan da Göyçayın Mallı Şıxlı kəndinə köçüblər. Daha sonra (XIX əsrin ikinci yarısında) isə, indiki Qubadlı Şıxlı kəndinə köçərək, burada məskunlaşıblar.

Arxiv məlumatlarından görünür ki, 1831-ci ildə Köçəri Şıxlı kəndində ümumi əhalinin sayı 614 nəfər (qadınlarla birlikdə) olmaqla, həmin il kənddən 194 rubl 70 qəpik torpaq vergisi yığılıb. Köçəri Şıxlı kənd əhalisinin istifadəsində 2 625 baş iribuynuzlu heyvan olub. [7, s.10-11]

Cəlil bəy 1918-ci ilin iyununda erməni-bolşevik ordusuna qarşı baş verən Göyçay döyüşlərində Qafqaz İslam Ordusuna və Milli orduya yaxından köməklik edib, Qafqaz İslam Ordusunun ərzaq tələbatını və s. ehtiyaclarını qarşılamaq üçün H.Z.Tağıyev tərəfindən keçirilən xeyriyyə kampaniyası-

na qoşularaq 10 kiloqram qızıl və 20 baş atı etibarlı bir adamı ilə təşkilatçılara göndərib. Həmin hadisələr vaxtı Cəlil bəyin əmisi Hacı Qubadın oğlu, Abdulqəfər də erməni-bolşevik ordusuna qarşı döyüşlərdə qəhrəmanlıqla həlak olub. [7, s.17]

Sovet hakimiyyəti illərində Cəlil bəy və ona yaxın insanlara qarşı təzyiqlər gücləndirilib və onlar repressiyalara məruz qalıblar. Arxivdə saxlanılan istintaq sənədlərinin bəziləri Göyçayda baş verənlər barədə müəyyən təəssürat yaratmağa imkan verir.

1930-cu il 14 fevralda Göyçay şəhərində Şirvan mahalının I nahiyə müstəntiqi Bağırovun Cəlil bəyi ittiham etdiyi sənəddə qeyd olunur: "1929-cu ilin mart ayında Qubadlı Şıxlı kəndində kollektiv təsərrüfatı təşkil olunur. İbtidai təşkilatda kolxoza 16 nəfər üzv yazılır. 10-11 ay davam edən həmin kolxozun bir nəfər də olsun üzvü artmayaraq, öz əvvəlki formasında qalır. Müttəhimlər Cəlil və Cahangir həddən ziyadə nüfuzlu və əqrəbalı olduqlarından, həm də çar və Müsavat hökumətləri dövründə camaatın bağrını yardıqları üçün onların gücünü bilib, əks-təbliğatlarını daha da gücləndirmişlər. Cəlil öz kəndçisi İbad Canı oğluna demişdir ki, "Bu gün, sabah bu soyğunçu hökumət sənin iki mitilin varsa, onu da əlindən alasıdır." Əlavə, Əli Niftalı oğluna deyirmiş ki, "Bu hökumət müvəqqətidir, gəlin sizə kəl, kotan, torpaq verim, gedin əkin, becərin, kolxoza yazılmayın". Namət Məhəmməd oğluna demişdir ki, "Kolxoz-molxoz nədir? Bu hökumət gedəcək. Müvəqqəti bir şeydir. Bizim başlı adamlarımız başqa hökumətlərə gediblər, oradan adam gətirib, bu hökuməti qovacaqlar". Hökumət tərəfindən kəndçilərdən tələb olunan vahid vergiləri, həmçinin dəyirman vergisini verməyərək, acıqla dəyirman daşlarını maliyyə şöbəsinə gətirərək, vergi əvəzinə verməyə çalışmışdır. Buna görə məhkəmə ona 6 ay iş kəsmişdir.

Şübhəsiz Cəlilin bu cür hərəkəti onu sübut edir ki, məzqur *(varlı, qolçomaq)* hökumətin sərəncam və qərarlarına boyun əymək istəmirmiş. Bunların hamısından keçdikdən sonra, bu keçən yayda Cəlil oğlanları vasitəsiailə Məhəmmədəminin tayasını yandırmışdır. Cəlilin keçmişinə gəlincə, məzqur həddən ziyadə dövlətli, kulak və istismarçıdır. Onun sürü ilə atı, minlərlə qoyunu, Göyçayda karvansarası və motor dəyirmanı, evləri və neçə desyatin ilə əkin torpaqları olmuşdur. Şübhəsiz, belə bir şəxs ki, keçmişə nisbətən malı, dövləti, torpaqları və hakimiyyəti əlindən çıxmasından bir dəqiqə də olsun Şura hökumətinin xətt hərəkətindən ziddiyyət törətməsindən geri durmaz və kənddəki hökumət siyasətlərinə qarşı çıxardı. Müttəhimlər Cəlil və Cahangir özlərini həmin işdə müqəssir saymayaraq, bəraət qazanmaq üçün göstərirlər: - Həmin bu işi onların əleyhinə düzüb-qoşan Ulaşdı Şıxlı kənd sakini Mahmud Nuh oğlu olmuşdur. Fəqət göstərdiklərində isə sübutlu bir şey yoxdur". [7, s.24-29]

Göyçay şəhərində Şirvan mahal məhkəməsinin 1930-cu il 19-21 fevralda keçirilən açıq iclasının çıxardığı hökm: "Cəlil Cahangir oğlunun uzun müddət aktiv surətdə Şura hökumətinin zəifləməsinə və devrilməsinə çalışdığını, çar zamanından kulak və istismarçı olub da, proletar sinfinin fəal düşməni olmaqla, əvvəllər mühakimə olunmasını, sosializm quruluşuna yaramadığını nəzərə alaraq, Cinayət Məcəlləsinin 6, 10, 50, 52-ci maddələrinə, Mülki Məcəlləyə əsaslanaraq, digər tərəfdən Cahangir Cəlil oğlunun yuxarıdakı cinayətlərdə iştirakı atası Cəlilə nisbətən az olmasını, birinci dəfə mühakimə olunmasını, gələcəkdə onun islah edilə biləcəyini nəzərə alaraq və Cinayət Məcəlləsinin 57-ci maddəsinə əsaslanaraq, məhkəmə qət edir: 1.Cahangir Cəlil oğlu Cinayət Məcəlləsinin 72-ci maddəsinin II b bəndi üzrə 6 (altı) il müddətinə şədid *(şiddətli, sərt, çox ağır)*

təcridli azadlıqdan məhrum edilsin. Əmvalının *(malının)* hamısı hökumət nəfinə *(xeyrinə)* müsadirə edilsin. Cəzasını bitirdikdən sonra Şirvan mahalından Azərbaycanın başqa bir mahalına 3 (üç) il müddətinə sürgün edilsin. Cinayət Məcəlləsinin 32-ci maddəsinə əsasən, həbsdə olduğu müddət cəzasından çıxılsın. Yəni, cəzası 1930 sənə 22 yanvardan etibarən hesab edilsin. 2.Cəlil Cahangir oğlu Cinayət Məcəlləsinin 72-ci maddəsinin II bəndi üzrə ən ağır cəzaya məhkum edilsin, yəni, güllələnsin və əmvalının hamısı hökumət nəfinə müsadirə edilsin.

Göyçayın Şəkili kəndindən olan Mirzalı bəyin oğlu Niftalı bəy kömək üçün həmin vaxt Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri vəzifəsində işləyən yaxın dostu Sultanməcid Əfəndiyevə (1887-1938) müraciət edərək Cəlil Cahangir oğlunun ölüm hökmünün 10 il işlə əvəzlənməsinə nail olur. Lakin həbsxanada olarkən oğlu Cahangirin ölüm xəbərini alan Cəlil bəy bu dərdə dözməyərək 1930-cu ildə ürək xəstəliyindən həbsxanadaca vəfat edir. [7, s.76]

Azərbaycandakı kəndli üsyanları mühacirət mətbuatında da önəmli yer tutub. Xüsusən, "Bildiriş" qəzetinin əksər sayında hərəkat və onun liderləri haqqında müntəzəm məlumat verilib, mühacir Mirzəbala Məhəmmədzadə "Azərbaycanda kəndli hərəkatı" adlı silsilə məqalələr yazıb. Qəzetin 1930-cu ildə çap olunan 13-cü sayında sovet rejiminə qarşı üsyançılara yaxından köməklik edən qəhrəman azərbaycanlı qadınlardan bəhs olunur. Onların sırasında Göyçay qəzasının qadınları da olub. Məqalədə deyilir: "Gəncə, Qarabağ, Şəki, Ağdaş, Göyçay və Muğan vilayətlərində hərəkət edən partizanlara ərzaq və cəbbəxana daşımaqda ittiham edilən 200-dən çox Azərbaycan qadını rus qırmızı ordu komandanlığı tərəfindən həbs edilərək Şimali Rusiyaya sürgün ediliblər. Sürgün edilən qadınlar arasında 16-17 yaşlı gənc qızlar, qoca və hamilə qadınlar da vardır". [5]

Hələlik yazılı mənbələrdə rast gəlinməyən, lakin şifahi tarixə əsaslanan məlumatlara görə, sovet hakimiyyətinin elliklə kollektivləşmə siyasətinə qarşı Göyçay qəzasında Məhəmməd Həsən oğlu Xəlilovun başçılığı ilə Qaraməryəm üsyanı (noyabr 1930-cu il - noyabr 1931-ci il) baş verib. Təxminən bir il davam edən üsyan Göyçay qəzasının mərkəzi ilə yanaşı, Ucar, Zərdab, Kürdəmir və digər əraziləri də əhatə edib. Bu ərazilərdə rejimə qarşı mübarizə aparan dəstələr fəaliyyət göstərib. Üsyançılar qeyri-bərabər döyüşləri üzün müddət davam etdirə bilmədiklərinə görə, 1931-ci ilin noyabrında keçirilən əməliyyat nəticəsində məğlubiyyətə uğradılar. Sovet qoşunları üsyançılara qarşı xüsusi qəddarlıq, amansızlıq nümayiş etdirdiyindən, üsyançıların bir hissəsi Araz çayını keçərək Cənubi Azərbaycana gedib, repressiyalardan canlarını qurtara bildilər.

Göyçay qəzasında sovet rejiminə qarşı mübarizə haqqında müasir dövrdə nəşr olunan kitablarla yanaşı, sovet tarixşünaslığında da çoxlu sayda məlumatlara rast gəlmək olur. Sovet dövründə nəşr olunan “Azərbaycan” tarixinin 3-cü cildində aşağıdakı məlumatlar fərqli şəkildə qeyd olunub:

“1923-1924-cü illərdə beynəlxalq vəziyyətin xüsusilə kəskinləşdiyi zaman əksinqilabçı ünsürlər öz antisovet işlərini gücləndirdilər. Azərbaycanın bəzi rayonlarında silahlı qolçomaq quldur dəstələri fəaliyyət göstərməkdə davam edirdi. 1923-cü ilin fevral ayında Kürdəmir və Göyçay rayonlarında panislamisitlər tərəfindən təşkil edilmiş belə bir quldur dəstəsi çıxış etdi. [1, s.324]

“1927-ci ildə Sovetlərə seçkilər kəskin sinfi mübarizə şəraitində keçirildi. Qazax, Quba, Göyçay, Lənkəran, Qaryagin qəzalarının bəzi kəndlərində qolçomaqlar seçki komissiyalarına daxil ola bilmişlər. [1, s.357]

ÜİK(b)P Zaqafqaziya Ölkə Komitəsinin 1929-cu ilin dekabrında qəbul etdiyi qərar səhv idi. Bu qərar əsasında AK(b)P MK-nın dekabr Plenumu (1929-cu il) bir sıra digər ərazilərlə yanaşı, Göyçay qəzasının Ucar ( Şirvan okruqu) dairələrində 1930-cu ilin yaz əkini kampaniyasına kimi elliklə kollektivləşmənin başa çatdırılması haqqında qərar çıxardı.

1930-cu ilin əvvəllərində Şirvan okruqunun Ucar dairəsində beş kolxozçu və bir komsomolçu qolçomaqlar tərəfindən qətlə yetirilib. [1, s.386, 390]

Təkcə 1931-ci ilin birinci yarısında qolçomaqlar tərəfindən kolxoz hərəkatına qarşı 830 hadisə törədilib. 1831-ci ildə Ağdaş rayonunun Piraza kəndində Zaqafqaziya və Azərbaycan hökümətinin üzvü, Azərbaycan su idarəsinin rəisi Hüsü Hacıyev, Göyçay rayonunun Mollakənd kəndində kolxoz sədri T. Həsənov öldürülmüşdür. [1, s.408]

AK(b)P MK-nın elliklə kollektivləşməyə keçməklə əlaqədar qolçomaqların bir sinif kimi ləğv edilməsi haqqında 23 fevral 1930-cu il tarixli qərarı ilə Azərbaycanın digər bölgələrində olduğu kimi Şirvan, Göyçay, Ucar və s. ərazilərdə qolçomaqlar kütləvi şəkildə məhv edilirdi.

1934-cü il sovetlərin hesabat kampaniyası dövründə Dəvəçi, Göyçay və Xaçmaz rayonlarında sovet fəalları öldürülmüşdür. [6]

Sovet dövrünə aid faktların çox az hissəsi görülən işin tənqidinə əsaslanırdı ki, bunlar da məqsədli, siyasi xarakter daşıyırdı. Məsələn, Göyçayda kolxozların yaradılmasında yol verilmiş noqsanlara aid faktların birində qeyd olunur ki, 1931-ci ilin əvvəllərində Göyçay rayonunun 6 yaşayış məntəqəsində 21 kolxoz var idi ki, bunların da çoxu qohumluq əlamətinə görə təşkil olunmuşdu. [1, s.410]

Sovet tarixşünaslığında Göyçayın tarixi ilə bağlı obyektivlikdən uzaq, reallığı əks etdirməyən fərqli faktlara, əsasən dinc

quruculuq, savadsızlığın ləğvi, kollektivləşmənin kəndlilərə yaratdığı firavan həyat və s. məsələlərə daha çox yer verilib.

Məsələn, 1920-ci illərin əvvəllərində ərzaq sapalağı vasitəsilə kəndlilərin əllərindən ərzağın zorla alındığı bir dövrdə şəhərin kəndə hamiliyi kimi saxta bir hərəkat sovet tarixşünaslığında təbliğ olunurdu. 1921-ci ilin martından yeni iqtisadi siyasətə keçilməsinə baxmayaraq, Azərbaycan kəndində vəziyyətin ağır olduğu bir vaxtda Suraxanı neftçilərinin Göyçay qəzasına hamiliyinin təbliği reallığı əks etdirmir. Sovet tarixşünaslığında qeyd olunur ki, 1923-cü ilin iyun ayından 1924-cü ilin aprel ayınadək Bakı fəhlələri kəndə 230 nümayəndə göndəriblər. Onlar kənd təsərrüfatı avadanlıqlarının təmirinə kömək edir, zəhmətkeş kəndliləri qolçomaqlara qarşı mübarizə üçün təşkil edirdilər. 1929-cu ilin avqust ayından 1930-cu ilin aprel ayınadək Bakıdan kəndə 3 300-dən çox fəhlə göndərilib. [1, s.339, 388] Bu kimi faktlar sübut edir ki, Bakıdan sovet rejiminin kəndlərə fəhlələri göndərməsi, əsasən kənd əhalisi arasında qarşıdurmanı təşkil etmək, vətəndaş müharibəsi üçün zəmin yaratmaq və ərzaq dəstələri vasitəsilə müsəlman kəndlilərin əlindən ərzağın zorla alınaraq beynəlmiləl tərkibli Bakıya aparılması məqsədi daşıyıb.

Dövlət müstəqilliyinin bərpasından sonra nəşr olunan "Azərbaycan tarixi" kitablarında Göyçayın 1920-1930-cu illərdəki vəziyyətinə dair aşağıdakı məlumatlar verilib:

1930-cu ildə Göyçay və Alpoutda traktorçular, Prişibdə isə kombaynçılar məktəbi təşkil edildi. Bir il ərzində bu məktəblərdə 490 traktorçu, 219 briqadir, 34 mexanik, 34 tornaçı briqadir və 34 kombayınçı hazırlanıb. [2, s.324] 1930-cu ilin oktyabrında Xalq Maarif komissarlığı tərəfindən Göyçayda savadsızlığın ləğv edilməsi işində çalışan müəllimlər üçün kurslar təşkil edildi. [2, s.337]

Traxoma kimi, malyariya xəstəliyi də 1920-ci illərdə Azərbaycanda geniş yayılmışdı. Malyariya ilə mübarizəyə operativ rəhbərlik Səhiyyə Komissarlığına və Tropik İnstituttuna (1931) həvalə edildi. Yevlax, Ləki, Ucar, Kürdəmir kimi malyariya ocaqlarına xüsusi diqqət verilirdi. Eyni zamanda, yeddi malyariya rayonu ayrıldı ki, bunlardan biri də Şirvan rayonu idi. [2, s.431]

1940-cı ildə həyata keçirilən səhiyyədə "Göyçay hərəkatı" adlı bir tədbirin təmizlik və sağlamlığın inkişafına xeyli kömək etdiyi vurğulanır.

1930-cu illərin sonlarında ölkə daxilində repressiyalar pik həddə çatdığı bir zaman, sovet rejiminin tələblərinə uyğun olaraq Azərbaycan əhalisi Avropa ölkələrində həbsxanalarda olan kommunust yönümlü siyasi dustaqlara kömək aksiyaları keçiriblər. BİKT (Beynəlxalq İnqilabçılara Kömək Təşkilatı) adlı qurum tərəfindən həyata keçirilən bu tədbirlərdə respublikanın digər rayon sakinləri kimi, göyçaylılar da fəal iştirak edirdilər.

1940-cı il martın 8-də Beynəlxalq İnqilabçılara Kömək Təşkilatı "Kapitalın dustaqlarına köməyi gücləndirmək haqqında" xüsusi qərar qəbul etdi. Qərar barədə məlumat alan Göyçay rayon zəhmətkeşləri bildirdilər ki, onlar yeni qüvvə ilə xarici siyasi dustaqlara kömək edəcəklər. Təkcə 1941-ci ildə Azərbaycan BİKT-i xarici siyasi dustaqlara kömək üçün 136 min manat könüllü ianə yığdı, Azərbaycan dilində ədəbiyyat nəşr etdirdi. [2, s.440]

Sovet hakimiyyəti illərində ölkəni cənginə alan 1930-cu illər repressiyası Göyçaydan da yan keçmədi. Həmin repressiyaların qurbanı olan şəxslərdən biri, Azərbaycanın görkəmli yazıçısı, göyçaylı Qantəmir – Əfəndiyev Qafur Sədrəddin oğludur.

**Əfəndiyev Qafur Sədrəddin oğlu** – nasir, 1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 1888-ci ildə Azərbaycanın Göyçay şəhəri yaxınlığında Potu kəndində doğulub. İbtidai təhsilini mədrəsədə, orta təhsilini dövrün mütərəqqi fikirli maarifpərvər ziyalılarından İbrahim Həqqinin yeni üsulda açdığı rus-müsəlman məktəbində alıb. Ağdaş, Göyçay rayonlarında müəllimlik edib. Bir müddət Göyçayda "İqbal" məktəbinin müdiri olub, məhz həmin vaxtlar "Təzə həyat", "Tərəqqi" və s. qəzetlərdə elmi-pedaqoji məqalələrlə çıxış edib. M.Ə.Sabir və A.Səhhətlə şəxsən tanışlığı ona ciddi təsir bağışlayıb.



*Qantəmir*

Türkiyənin İstanbul Universitetinin tarix-filologiya fakültəsini bitirib (1911-1914). 1916-cı ildə "Nəşri-maarif" cəmiyyətinin dəvəti ilə Qubaya gedib, yeni üsullu məktəbin açılmasında iş-

tirak edib, həmin məktəbdə əvvəlcə müəllim, sonra direktor vəzifəsində çalışıb. Bakı Ali Pedaqoji İnstitutunun nəzdində fəaliyyət göstərən "Şaiq" məktəbinə rəhbərlik edib. Sovet hakimiyyəti qurulduqdan sonra Bakıda ADU-nun tibb fakültəsində təhsil alıb (1924-1929). "Molla Nəsrəddin" ədəbi məktəbinin ənənələri əsasında satirik hekayələr qələmə almaqla Azərbaycan sovet satirik nəsrinin təşəkkülünə müəyyən təsir göstərib. Onun əsərlərində yeni həyat tərənnüm olunur, ictimai tərəqqiyə mane olan köhnəlik və azadlıq düşmənləri kəskin satira atəşinə tutulur.

Müəllim, yazıçı olan Qantəmir diş həkimi kimi də həmvətənlərinə xidmət göstərib. Bütün fəaliyyəti müddətində əsl vətəndaş yanğısı ilə xalqın maariflənməsinə çalışan Qantəmir həm də millətin mənəvi və fiziki sağlamlığı yolunda da öz töhfəsini əsirgəməyib.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra da xalq maarifi sahəsində işləyib, Göyçayda müəllim hazırlamaq üçün qısamüddətli pedaqoji kurslar təşkil edib. Sonralar Bakıda Ali Pedaqoji İnstitutunun nəzdində təşkil edilən Abdulla Şaiq adına ikinci dərəcəli nümunə məktəbində direktor vəzifəsində çalışıb, 1937-ci ildə Ağsu rayonuna köçərək diş həkimi işləyib, 1939-cu ildə həbs olunaraq, Orta Asiyaya sürgün edilib.

SSRİ DİXK-in 21 iyun 1939-cu il tarixli xüsusi iclasının qərarı ilə cəzasını islah-əmək düşərgəsində çəkməklə, 8 il müddətinə azadlıqdan məhrum edilib.

Sağlığında bir neçə kitabı işıq üzü görən Qantəmir ölkəni bürüyən repressiyalardan çəkdiyi mənəvi əzablar nəticəsində 1944-cü ildə 56 yaşında dünyasını dəyişib.

Azərbaycan SSR Ali Məhkəməsi cinayət işləri üzrə məhkəmə kollegiyasının 30 iyul 1956-cı il tarixli qərarı ilə Q.S.Əfəndiyevə bəraət verilib. [14; 15; 15 oktyabr 2015-ci il]

Xalq yazıçısı Anar "Söz dünyası" kitabında və "Unudulmuş yazıçı – Aydınlarımız" məqaləsində Qantəmirin yaradıcılığı haqqında qısa məlumat verib. Əhali arasında görkəmli yazıçının yaradıcılığı haqqında məlumatın azlığını nəzərə alaraq, bu məqalədə yazılanları qısa şəkildə təqdim etməyi lazım bildik. Məqalədə qeyd olunur ki, "Qantəmir (1888-1944) təəssüf ki, az qala unudulan, amma ədəbiyyatımızda tutduğu yerə görə unudulası olmayan nasirlərimizdəndir. 37-ci ilin repressiya qurbanlarından olan yazıçının həbsə qədər üç kitabı - "Ağıl dəryası" (1930), "Şarlatanlar" (1934), "Kolxozstan" (1935), bəraət aldıqdan sonra kiril əlifbasıyla "Seçilmiş əsərləri" (1964 və 1972-ci illərdə) çıxıb. 1975-ci ildə nəşr olunan kiçik "Hekayələr" kitabı hələ ki, işıq üzü görən son kitabıdır. Beləliklə, çağdaş oxucuların Qantəmirin əsərlərini latın əlifbasıyla oxumaq imkanı yoxdur. Halbuki, zənnimcə, Qantəmir dahi Mirzə Cəlil Məmmədquluzadə və Əbdürrəhim bəy Haqverdiyevdən sonra "Molla Nəsrəddin" ədəbi məktəbinə mənsub olan üçüncü görkəmli nasirdir". Daha sonra müəllif yazır ki, iyirminci-otuzuncu illərin Azərbaycan ədəbiyyatında gerçəkliyə ironik yanaşma ən çox iki yazıçının yaradıcılığında əksini tapıb: Səməd Mənsurun bir sıra şeirində, Qantəmirin bir neçə hekayəsində və "Kolxozstan" povestində. Yazıçının ən böyük əsəri "Kolxozstan" povestidir. "Kolxozstan" adının özündə xəfif bir ironiya gizlənib. Əsrlərdən keçib gələn mənəvi dəyərlərimizin aşınması, insan münasibətlərini vecinə almayan sırf sinfi yanaşma yazıçını narahat edən məsələdir.

Kəndə ova gələn üç dostdan biri – Mirzə Ələkbər o birilərindən fərqli olaraq firqəçidir. Evinə qonaq gəldikləri Qara Hüseyn isə varlı kəndli, o vaxtın təbiriylə, qolçomaqdır. Həmin bu qolçomaq qonaqları xalqımıza xas olan müsafirpərvərliklə qəbul edir, qeydlərinə qalır, yedizdirib içizdirir, səhərisi gün ova

aparır və firqəçi meşədə azıb az qala ölüm təhlükəsiylə qarşılaşanda, onu xilas edir.

Həmin kəndə rəsmi firqə nümayəndəsi kimi gələn Zeynəb öyrənir ki, Qara Hüseynin bacısı qızıdır, Hüseynin evində nökər kimi işləyən Əliqulu isə onun itkin qardaşıdır. Bütün bunlar açılandan sonra Zeynəbin dayısına sinfi münasibəti dəyişmir, onu bada verməyə hazırdır. Bu, sovet təbliğatının ideallaşdırdığı və örnək göstərdiyi həmin o Pavlik Morozov "əxlaqıdır" ki, sinfi sayıqlıq sayəsində öz atasını bada verir.

Qantəmir "Ağlayan Züleyxa" hekayəsində Züleyxanı "müsbət qəhrəman" kimi lağa qoyur. Həmin hekayədə sovet təhsil sistemi də ələ salınır: ictimaiyyət müəllimi get-gedə əsəbiləşirdi ki, tələbələrindən istədiyi cavabı ala bilmir. "Firqə qurultaylarından, çarizmdən, Fransa inqilabından az-çox cavab verə bilən tələbələr "Beşillik plan", "Çin hadisələri", "Sağ təmayül", "Sənayeləşdirmə" mövzularından bir turş alça qədər dadmamışlardı".

Qantəmirin hekayələrində dövrü səciyyələndirən sətiraltı işarələr, eyhamlar boldur və hamısında dövrə, zamana ironik münasibət duyulur:

"Mənim canım şura hökumətinə qurban olsun! Başımı kəssə, mən bu hökumətdən zərrə qədər incimərəm. Sağ olsun bolşeviklər, yaxşı qeydimizə qalırlar, bizi də adam cərgəsinə qoyurlar, o ki lazımdır elmə fikir verir, hər şey havayıdır, kitab, kağız, qələm, mürəkkəb, amma "Quran" dərsi yoxdur... Biz müsəlmanıq, müsəlmanın başı "Quran"a bağlıdır" ("Aybikə xala" hekayəsi).

"Qız, oğlan hamısı doluşub məktəbə, o bunu çimdikləyir, bu onu. O bunun dalına tullanır, bu onun. Yaxşı, böyüyəndə nə olacaq? Sən, mən, olmayacaqlar ki. Odur ki, keşnişin dəstəsi çıxıb iki abbasıya da!!! ("Xanım Əminə" hekayəsi).

Ən maraqlı əsərlərindən biri "Qonağımın səyahətnaməsi"dir. Bir tramvay vaqonunda şəhəri dolaşan müəllif çeşidli sərnişinləri müşahidə edir, şəhərin müxtəlif rayonlarından keçərək onlar haqqında maraqlı söhbətlərlə, əhvalatlarla tanış olur. Şəhər panoramasının dinamik, dəyişən mənzərəsi bu üslubu kino sənətinə yaxınlaşdırır. Ümumiyyətlə, Qantəmir o dövr Bakı həyatının tipik səhnələrini təsvir etməkdə ustadır. Cürbəcür mallara uzun-uzadı növbələr, bu növbələrdə cürbəcür söhbətlər, qeybətlər, dava-dalaş, kooperativlər, torqsin, lombard, o vaxtkı şəhər həyatının tipik ünsürləri... Demək olar ki, Qantəmir sırf urbanistik nəsrimizin ilk örnəklərini yaradıb. [3]

Şair **Abdulla Faruq (Abdulla Musa oğlu Əfəndiyev)** 1907-ci il aprel ayının 24-də Göyçay rayonunun Potu kəndində



*Abdulla Faruq*

anadan olub. Səkkiz yaşında əmisi, tanınmış müəllim Əbdülkərim Əfəndiyevin himayəsinə keçən kiçik Abdulla onun tərbiyəsini alıb. 1917-1921-ci illərdə ilk təhsilini burada alandan sonra Bakı müəllimlər seminariyasını, 1930-cu ildə isə Azərbaycan Dövlət Universitetini bitirir. Bakı məktəblərində, ADU-nun hazırlıq kurslarında müəllimlik edir. 1930-cu ildə Moskvaya, Sovet Şərq xalqları Elmi-Tədqiqat İnstitutunun aspiranturasına göndərilir, ailə vəziyyətilə əlaqədar olaraq bir ildən sonra Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutuna köçürülür.

Ali məktəblərin fəhlə fakültəsində, "Kommunist" qəzeti redaksiyasında, Nərimanov adına texnikumda müəllim kimi çalışıb və maarif şöbələrinin birində pedaqoji kabinetin müdiri olub. "Qızıl Şərq" mətbəəsində işlədiyi vaxt ordu sıralarına çağırılan Faruq, qayıdandan sonra Baş Mətbuat İdarəsində çalışıb, "Ədəbiyyat qəzeti" və "Şərq qadını" jurnalları redaksiyasında işləyib.

A.Faruq ədəbi yaradıcılığa hələ universitetdə oxuduğu illərdə başlayıb. Bu illərdə şair öz şeirlərini bir sıra qəzet və jurnallarda çap etdirir.Əsrin nəbzini tutmağı bacaran yeni hissli, yeni duyğulu mübariz bir şair kimi Abdulla Faruqun şeirləri mərdlik və qəhrəmanlıq motivlərinin güclülüyü etibarilə diqqəti cəlb edir. Öz şeir və məqalələrilə geriliyə və bürokratizmə qarşı mübarizə aparır, hər cür yeniliyi təbliğ etməyə çalişan A.Faruq ürəyi odlu şair idi. Doğma yurdun gözəlliklərini öz şeirlərində ön plana çəkən şairin "Üfüqlər qızaranda" (1929), "Yarış" (1932), "Talış dağları" (1935), "Döyüş yollarında" (1936), "Dalğalar" (1937), "Qızıl əskər şerləri" (1938) kitabları, habelə dövri mətbuatda yüzdən çox şeiri, onlarla poeması çap olunub. 1930-cu illərdə, sovet rejiminin ən sərt dövründə latın əlifbasından kirilə keçidi tənqid edən A.Faruq əsl ziyalı mövqeyi ortaya qoyub. Əlifba islahatı ilə bağlı etirazına görə cəzalandırılaraq, Böyük

Vətən Müharibəsinin başlandığı ilk günlərindən cəbhəyə göndərilir. Şair cəbhədə döyüşdüyü vaxtlarda da müxtəlif şeirlər yazaraq azərbaycanlı balaları döyüşə ruhlandırırdı. Döyüşlərin birində ağır yaralanan A.Faruq hərbi xəstəxanada müalicədən sonra yenidən cəbhəyə qayıdarkən “Yolumu gözlə” şeirini yazıb “Ədəbiyyat qəzeti” redaksiyasına göndərir. Həmin şeir qəzetin 24 sentyabr 1943-cü il tarixli sayında dərc olunur. Vətənpərvər şair A.Faruq yaradıcılığının çiçəkləndiyi bir dövrdə - 1943-cü ildə cəbhədə qəhrəmanlıqla həlak olur.

Göyçayın 1920-1930-cu illərə aid çox zəngin tarixinin hələlik çox az bir qısmi araşdırılıb. Gələcəkdə tədqiqatçıların bu sahədə araşdırmaları davam etdirməsinə ciddi ehtiyac var.

## İstifadə olunan ədəbiyyat


1. “Azərbaycan tarixi. Üç cilddə. Biinci hissə”, Bakı, 1973, 548s.

2. “Azərbaycan tarixi. Yeddi cilddə. VI cild (aprel 1920 - iyun 1941)", Bakı, 2008, 568 səh. + 48 səh. illüstrasiya

3. Anar, “Unudulmuş yazıçı – Aydınlarımız”, ”Ədəbiyyat” qəzeti, 10.12.2019

4. Bayramova R.M., "Azərbaycan rəhbərliyində ixtilaflar və daxili siyasi çəkişmələr. (1920-1925-ci illər)", Bakı, 2007

5. "Dilqəm Əhməd" "Ruslara qarşı vuruşan partizanlar - Azərbaycanda kəndli üsyanları" - http://teleqraf.com/news/toplum/146243.html

6. Məmmədov N.Z., "Sovet hakimiyyətinin səhv siyasətinə qarşı genişlənən kəndli hərəkatı (1920-1930-cu illər)", "Bakı Universitetinin Xəbərləri", 2014, № 2, s.50-57

7. Paşa Yaqub, “Cəlil bəy”, Bakı, 2015, 120 s.

8. Rəsulzadə M.Ə., “Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi”, Bakı, 1991, 110 s.

9. “Yaddaşın Bərpası”, “Sərhəd" qəzetinin xüsusi buraxılışı, №1, 1999

10. Yaqublu N., “Məhəmməd Əmin Rəsulzdə Ensklopediyası”, Bakı, 2013, 504 s

11. Zülfüqarlı M.P., “Tarixşünaslıq (1920-1991-ci illər). Azərbaycan tarixi - Dərslik", Bakı, 2017, 486 s.

12. Zülfüqarlı M.P., “İkinci Respublikanın tarixi (1920-1991-ci illər)”, Bakı, 2020, 310 s.

13. “Tarix” qəzeti

14. http://azyb.az/index.php/repression/post/29

15. “525-ci qəzet”

### *Rus dilində*

16. «Всесоюзная перепись населения 1926 г., Геокчайский уезд» - http://www.demoscope.ru/weekly/ssp/ussr_26_b.php?reg=66

17. «Страницы истории советского общества. факты, пролемы, люди», Москва, Политиздат, 1989, 447 с.

## II Dünya müharibəsində göyçaylıların iştirakı

Azərbaycan tarixinin ən gərgin və ziddiyyətli dövrlərindən biri də 61 ölkəni, Yer Kürəsi əhalisinin 80 faizini özünə cəlb edən İkinci Dünya müharibəsi, onun tərkib hissəsi olan, 1 418 gün davam edən və 20 milyondan artıq sovet vətəndaşının tələfatı ilə nəticələnən Böyük Vətən müharibəsi dövrüdür. [6, s.162]

II Dünya müharibəsi illərində göyçaylılar da böyük rəşadət göstərib, faşizm üzərində qələbənin qazanılmasına həm döyüşən orduda, həm də arxa cəbhədə öz töhfələrini veriblər. Göyçay rayonundan 6 000-dən çox insan Böyük Vətən müharibəsində iştirak edib, onlardan təxminən yarısı geri qayıtmayıb. [8]

Müharibə illərində azərbaycanlıların ən çox həlak olduğu döyüşlərdən biri Krım yarımadasının Kerç ərazisində baş verib. Müharibənin ilk illərində Azərbayanın kənd rayonlarından, o cümlədən Göyçaydan səfərbərliyə alınan, əksəriyyəti rus dilini bilməyən gənclərin heç bir döyüş hazırlığı keçmədən birbaşa ön cəbhəyə, o cümlədən Krımın müdafiəsinə göndərilməsi onların faciəsi ilə nəticələnib. Göyçaydan orduya səfərbər edilən əsgərlərin əksəriyyəti azərbaycanlılardan təşkil olunan milli diviziyaların tərkibində Krım yarımadasında gedən qanlı döyüşlərdə iştirak edibdir.

Azərbaycanda 1941-ci ilin avqustunda 402-ci, oktyabrında 223-cü, 1942-ci ilin mart-sentyabr aylarında 416-cı, avqust-sentyabr aylarında isə 271-ci diviziyalar təşkil olundu. 1941-ci ilin dekabr ayında Krımın müdafiəsində iştirak edən, Ağ Manay rayonundakı döyüşlərdə şəxsi heyətinin bir hissəsini itirən 77-ci diviziya da 1942-ci ilin mayında yenidən respublikada komplektləşdirildi. [1, s.9]

416-cı diviziya Göyçay və Ucar ərazisində formalaşdırılıb. 1943-cü il avqustun 17-də 416-cı diviziya Taqanroq istiqamətin-

də başlayan hücumlarda iştirak etdi, avqustun 30-da isə 28-ci ordunun tərkibində Taqanroq şəhərinin düşməndən azad edilməsində böyük qəhrəmanlıq göstərərək “Taqanroq diviziyası” fəxri adını aldı. [2, s.15-17]

1944-cü il aprel ayının 9-da 416-cı diviziya Odessa şəhərinin düşməndən azad edilməsində fəal iştirakına görə “II dərəcəli Suvorov Ordeni” ilə təltif edildi.

Əvvəlki illərdə II Dünya müharibəsində iştirak edən şəxslər, o cümlədən göyçaylı döyüşçülər haqqında məlumat əldə etmək çətin olsa da, hazırda bu problem nisbətən həll olunub. Göyçaydan döyüşən orduya 6 000 nəfər göndərilsə də, onların qəhrəmanlıqları haqqında yazılı ədəbiyyatda müəyyən məlumatlar olsa da, əksəriyyəti haqqında məlumat əldə etmək çox çətindir. Rusiya Federasiyası Müdafiə nazirinin “Qızıl Ordu və Hərbi-Dəniz Donanmasının Böyük Vətən müharibəsi dövrünə aid arxiv sənədlərinin məxfilikdən çıxarılması haqqında” 8 may 2007-ci il tarixili N 181 saylı əmri tədqiqatçıların bu sahədə işlərini nisbətən yüngülləşdirib. Bu əmrə 30 may 2009-cu ildə dəyişikliyin edilməsi, Rusiya Federasiyası Müdafiə Nazirliyi və ELAR Korporasiyası tərəfindən 1939-1945-ci illər II Dünya müharibəsi və Böyük Vətən müharibəsinə aid sənədləri geniş əhatə edən ”pamyat-naroda.ru” internet-portalının yaradılması, digər döyüşçülər kimi, göyçaylı qəhrəmanlar haqqında da məlumatlar əldə etməyə imkan verib. “Pamyat-naroda.ru” saytı vasitəsilə həm barələrində yazılı ədəbiyyatda müəyyən məlumatlar olan göyçaylı döyüşçülər, həm də bugünə qədər, ümumiyyətlə heç bir yerdə adı yazılmayan döyüşçülərin bəziləri haqqında məlumat əldə etmək mümkün olub. Hər bir şəxs müharibədə iştirak edən döyüşçünün adı, atasının adı və soyadını yazmaqla az da olsa məlumat əldə etmək imkanına malikdir. Deməli, Göyçaydan II Dünya müharibəsi cəbhələrinə göndərilən 6 000

döyüşçünün adı dəqiqləşərsə, həmin arxiv sənədləri əsasında onlar haqqında ayrıca kitab tərtib etmək olar. Biz məhz bundan istifadə edərək Göyçaydan döyüşən orduya göndərilən qəhrəmanlarımızın bəziləri haqqında sizlərə ilk dəfə olaraq qısa da olsa məlumat təqdim etmək imkanına malik olduq.

### *1. Sovet İttifaqı Qəhrəmanı adına təqdim olunan göyçaylı Xalid Əli oğlu Mehdiyev*

1924-cü ildə Göyçayın Qaraman kəndində anadan olub. Böyük Vətən müharibəsi başlayarkən Göyçay hərbi komissarlığı tərəfindən döyüşən orduya göndərilib. Alman-faşist qoşunlarına qarşı döyüşlərdə böyük şücaət, qəhrəmanlıqlar göstərdiyinə görə, I dərəcəli "Vətən müharibəsi" ordeni və "İgidliyə görə" medalı ilə təltif olunub. [15, ЦАМО, шкаф 38, ящик 12] Yaxınlarının verdiyi məlumata görə, müharibədən sonra Mehdiyev Xalid Əli oğlunun göstərdiyi igidliyə görə Sovet İttifaqı Qəhrəmanı adına layıq görülməsi haqqında təqdimat verilsə də, naməlum səbəbdən bu reallaşmayıb. SSRİ Müdafiə Nazirliyindən bununla bağlı qəhrəmanın ailəsinə ayrıca məktub da göndərilib.

### *2. Sapun dağına bayraq sancan qəhrəman Əbdüləziz Abdulla oğlu Qurbanov*

Krımda ən qanlı döyüşlərdən biri Sapun dağı uğrunda döyüş olub. Bu şiddətli döyüşlərdə qəhrəmanlıqlar göstərərək Sapun dağının üzərinə qələbə bayrağını sancan qəhrəman, göyçaylı Əbdüləziz Qurbanov olub. Qəhrəmanlıq göstərdiyi döyüşlər haqqında yazılı mənbələrdə onun adı çəkilsə də, əksər ədəbiyyatlarda Ə.Qurbanovun Göyçayda anadan olması haqqında məlumat verilmir. Böyük Vətən müharibəsi iştirakçı-

larına aid “pamyat-naroda.ru” saytında onun haqqında aşağıda qısa məlumat verilir.

Əbdüləziz Abdulla oğlu Qurbanov 1924-cü ildə Göyçayda anadan olub. 1942-ci ildən döyüşən orduda qəhrəmanlıqlar göstərib. 77-ci atıcı diviziyanın 324-cü atıcı alayında xidmət edib. Döyüşlərdə göstərdiyi qəhrəmanlıqlara görə “Qırmızı Bayraq”, III dərəcəli “Şərəf” ordenləri və “İgidliyə görə" medalı ilə təltif olunub. [15, ЦАМО, шкаф 48а, ящик 16]

Yazılı mənbələrdə Ə.Qurbanovun qəhrəmanlığı haqqında aşağıdakı məlumatlar verilib:

1944-cü il mayın 9-da Sevastopol üzərində qırmızı bayraq dalğalanırdı. Sevastopol və Sapun dağından qaçan faşist orduları yaxınlıqdakı Xersones burnunda özlərinə yeni müdafiə mövqeyi tutdular. Sovet ordusu burada da düşmən səflərini dağıtdı, iki gündə Xersones burnunda düşmənin iyirmi beş min əsgərini əsir alıb, çoxlu texnikasını ələ keçirdi. 1944-cü il mayın 12-də Qara dənizin əsas bazası olan Sevastopol düşməndən tamamilə təmizləndi.

Məşhur Sapun dağı Simferopoldan Sevastopola gedən şose yolunun üstündədir. Qəhrəman şəhər dağla qövs şəklində əhatə olunub. “Sapun” türk sözüdür. “Sabun” deməkdir. Sabun kimi sürüşkən olan bu dağda indi möhtəşəm bir abidə - “7 may 1944-cü il, Sapun dağına hücum” dioramı ucaldılıb. Burada mərdliklə döyüşüb, həlak olan qəhrəmanların adı mərmər sütunlara həkk olunub. Tən ortada əbədi məşəl yanır, hər beş dəqiqədən bir insanın qəlbinə, ruhuna işləyən musiqi səslənir. Bu musiqi parçası məşhur “Sevastopol qəhrəmanlarına” mahnısından götürülüb. Hər gün qəhrəmanlıq abidəsini ziyarətə gələn yüzlərlə adam bu musiqini dinləyir, Böyük Vətən müharibəsində həlak olanların xatirəsini gül-çiçəklə yad edirlər. Sapun dağının şərq yamacındakı əzəmətli abidə isə Azərbaycan

zəhmətkeşləri tərəfindən 77-ci atıcı diviziyanın əsgər və zabitlərinin qəhrəmanlığı şərəfinə ucaldılıb. Serqo Orconikidzenin adını daşıyan 77-ci Qırmızı Bayraq və Suvorov ordenli Simferopol atıcı diviziyası 1920-ci ildə respublikamızda təşkil olunub.

1944-cü il aprelin 30-da Simferopolu azad etdiyi üçün diviziya “Simferopol diviziyası” fəxri adını alıb. Diviziya 51-ci ordunun tərkibində Sapun dağının və Sevastopolun düşməndən təmizlənməsində göstərdiyi əsgəri şücaətinə görə II dərəcəli "Suvorov" ordeni ilə təltif olunub. Bu diviziyanın döyüşçüsünü, ilk dəfə Sapun dağına bayraq sancanlardan birini, həmyerlimiz, göyçaylı Əbdüləziz Qurbanovu sevastopollular hörmətlə xatırlayırlar. [4, s.5-6]

1944-cü il mayın 7-də diviziya Sapun dağını ələ keçirdi. Tikanlı məftillərlə əhatə olunan dəmir-beton örtüklü bir neçə pulemyot və minomyotun atəş mövqeyini susduran Əmir Piriyevin dəstəsi düşmənə yaxınlaşaraq, qumbaralarla 20 hitlerçini öldürdü. Komandirin yaralandığını görən Ə.Piriyev qvardiya rotasını hücuma apararaq, Sapun dağın zirvəsində düşmənin mühüm atəş nöqtəsini ələ keçirib, şəxsən özü 16 hitlerçini məhv etdi. Döyüş şücaətinə görə Ə.Piriyevə Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Sapun dağı uğrunda döyüşlərdə Məmməd Dadaşov düşmən müdafiə xəttinə birinci olaraq çatdı və 17 faşisti öldürdü. Komandanlıq onu “Qırmızı Ulduz” ordeni ilə təltif etdi. Əbdüləziz Qurbanov bir qrup avtomatçı ilə düşmən səngərlərinə yaxınlaşıb qumbara ilə onlarla hitlerçini məhv edərək, Sapun dağın zirvəsinə qələbə bayrağı sancdı. Ə.Qurbanov “Qırmızı Bayraq” ordeninə layiq görüldü. [1, s.50]

Ümummilli lider Heydər Əliyev 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik edərkən, digər məsələlərlə yanaşı, Sapun dağında azərbaycanlı əsgərlərin, o cümlədən göyçaylı Əbdüləziz

Qurbanovun xatirəsinin əbədiləşdirilməsinə xüsusi fikir verib. Onun təşəbbüsü ilə Taqanroqda 416-cı Azərbaycan diviziyasının böyük qələbəsinə möhtəşəm xatirə ansamblı, Sevastopolda Sapun dağda 77-ci Azərbaycan diviziyasının şərəfinə böyük abidə ucaldılıb. [1, s.178]



***3. Göyçaylı partizan***
***İsmayıl Əlibala oğlu Əliyev***

Qvardiya kapitanı İsmayıl Əlibala oğlu Əliyev 1921-ci ildə Göyçay şəhərində anadan olub. Arxiv sənədlərində onun Göyçay şəhəri, Lenin küçəsi 53 ünvanında yaşadığı qeyd olunur. 1940-cı ildə Sovet Ordusu sıralarına səfərbər edilib. II Dünya müharibəsi illərində Moskva ətrafında vuruşan İ.Əliyev partizan mübarizəsi təşkil etmək üçün düşmən arxasına göndərilir. O, Kalinin vilayətində partizan briqadasının təşkilatçılarından biri, briqadanın qərargah rəisi idi. 1942-ci ilin dekabrında briqadanın döyüşçüləri Çernoyarovo kəndində düşmən qarnizonu-

nu məhv edərək, zəngin qənimətlər ələ keçirdilər. 1943-cü ilin fevralında Əliyevin rəhbərliyilə təxribat qrupu Konokovo və Bensanitsa kəndləri arasındakı körpünü partladaraq, düşməni ağır itkilərə məruz qoydular. Alman komandanlığı bu briqadanın məhv edilməsi üçün üç diviziya qədər qüvvə göndərir. 1943-cü il martın 27-də partizanlar düşmən qüvvələrini dayaq məntəqəsindən çıxarmağa nail olurlar. Döyüşlərin gedişində 25 alman əsgəri məhv edilir, 49 əsgər və zabit isə yaralanır. 5 pulemyot, 1 minomyot ələ keçirilir. Artıq, briqada sıx mühasirə halqası şəraitində döyüş əməliyyatları aparırdı. Ən ağır döyüşlər aprelin 16-dan 23-dək Kudeveri kəndi yaxınlığında baş verdi. Həmin döyüşlərdə mühasirənin yarılması üçün partizan əməliyyatına şəxsən rəhbərlik edən İ.Əliyev döyüş meydanında qəhrəmancasına həlak oldu və Samolukovo stansiyası yaxınlığındakı meşədə dəfn olundu.

Arxiv sənədlərində düşmən arxasında fəaliyyəti ilə əlaqədar ilkin verilən məlumatda İ.Əliyev baş leytenant olaraq göstərilir və itkin düşən kimi qeyd olunur. [15, ГАРФ Фонд Р7523, Опись 36, Дело 70 ]

Lakin arxivdə olan digər sənəddə partizan dəstəsinin komandiri, kapitan İsmayıl Əliyevin ölümündən sonra, №: 207/183 30.11.1946 tarixli fərmanla I dərəcəli "Vətən müharibəsi " ordeni ilə təltif olunduğu göstərilir. [15, ЦАМО, F.58, OP. 818883, Дело 1301 ]

Sovet dövründə Göyçayda İsmayıl Əliyev adına pionerlər evi fəaliyyət göstərirdi.

SSRİ XKS və ÜİK(b)P MK-nın 1941-ci il 29 iyun tarixli direktivində və ÜİK(b)P MK-nın 1941-ci il 19 iyul tarixli "Alman ordularının arxasında mübarizənin təşkili haqqında" qərarında, digər bir sıra qərar və direktivlərində müvəqqəti işğal edilən rayonlarda düşmən və onun əlaltıları üçün dözülməz şə-

rait yaratmaq, süvari və piyada partizan dəstələri təşkil etmək, işğalçılara qarşı bütün mübarizə formalarına rəhbərlik etmək üçün gizli partiya təşkilatları şəbəkəsi yaratmaq və genişləndirmək vəzifələri müəyyən olunub. Böyük Vətən müharibəsinin ilk aylarında sovet ordusunun bir sıra uğursuzluğu nəticəsində xeyli döyüşçü düşmən tərəfindən əsir alındı. Lakin dözülməz əzab və işgəncələr, təbliğat və təxribat onların böyük əksəriyyətinin iradəsini qıra bilmədi, faşizmə qarşı mübarizədən çəkindirmədi. Mükəmməl hərbi təlim və təcrübəyə malik olan bu döyüşçülər əsir düşərgələrindən qaçaraq, partizan dəstələrinə qoşulurdular. [1, s.52] Belə partizan dəstələrindən birinin təşkilatçısı və komandiri göyçaylı İsmayıl Əliyev olub.

Bəzi mənbələrdə qvardiya kapitanı İsmayıl Əlibala oğlu Əliyevin ölümündən sonra I dərəcəli "Vətən Müharibəsi Partizanına" medalı ilə təltif olunması haqqında məlumat verilib. [10] Lakin İsmayıl Əliyevə aid arxiv sənədlərində onun birinci dərəcəli "Vətən Müharibəsi Partizanına" medalı ilə deyil, I dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif edilməsi haqqında rəsmi məlumat var. [15, ЦАМО, F.58, OP. 818883, *Дело* 1301]

"Pamyat-naroda.ru" saytında Göyçaydan Böyük Vətən müharibəsi cəbhələrinə göndərilən qəhrəmanlardan Mirzəyev Məhyəddin Şahvətdin oğlu haqqında verilən məlumatla, İsmayıllıdan cəbhəyə göndərilən Mirzəyev Bahəddin Şahvələddin oğlu haqqında verilən məlumatlarda çox oxşarlıq var. Hətta hər ikisinin 1914-cü ildə anadan olması, 1936-cı ildə orduya çağırılması, müharibə illərində 416-cı atıcı dviziyanın 1054-cü alayında xidmət etməsi, "Qırmızı Ulduz" və I dərəcəli "Vətən müharibəsi" ordenləri ilə təltif edilməsi qeyd olunub. Lakin arxiv sənədlərində Mirzəyev Bahəddin Şahvələddin oğluna Sovet İttifaqı Qəhrəmanı adı verilməsi haqqında məlumat verilsə də, Mirzəyev Məhyəddin Şahvətdin oğlu haqqında belə məlumat yoxdur.

Bəlkə də arxiv sənədlərində məlum olmayan səbəblərdən ayrı şəxlər kimi göstərilən bu iki veteran eyni adamdır. Hətta bəzi sosial şəbəkələrdə Mirzəyev Məhyəddin Şahvətdin oğlu göyçaylı Sovet İttifaqı Qəhrəmanı kimi göstərilir. Bu anlaşılmazlığı aradan qaldırmaq  üçün arxiv sənədləri əsasında bu iki müharibə iştirakçısı haqında qısa məlumat verməyi lazım bilirik.

**Mirzəyev Məhyəddin Şahvətdin oğlu** - 7 mart 1914-cü ildə Göyçayda anadan olub. 1936-cı ildə ordu sıralarına çağırılıb. Kapitan rütbəsinə qədər yüksəlib. Müharibə illərində 416-cı atıcı diviziyasının 1054-cü alayında xidmət edib. Müharibədə göstərdiyi qəhrəmanlıqlara görə "Qırmızı Ulduz" və I dərəcəli "Vətən müharibəsi" ordenləri ilə təltif olunub. [15, Архив: ЦАМО Фонд ист. информации: 33, Опись ист. информации: 686044, Дело ист. информации: 2519]

**Mirzəyev Bahəddin Şahvələddin oğlu** – 1914-cü ildə



İsmayıllı rayonunun Sulut kəndində anadan olub. 1936-cı ildə İsmayıllı RHK-dan orduya çağırılıb. Leytenant Bahəddin Mirzəyev 416-cı Taqanroq atıcı diviziyasının 1054-cü nişançı alayının taqım komandiri olub. Mozdok, Kostroma şəhərləri uğrunda gedən döyüşlərdə rəşadət göstərib. Melitopol, Nikolayev, Odessa, Kişinyov şəhərlərinin faşistlərdən azad edilməsində iştirak edib.

Mirzəyevin batareyası Visladakı, Oderdəki, Şpreedəki döyüşlərdə xüsusilə fərqlənib. Təkcə Küstrin uğrundakı döyüşlərdə onun artilleriyaçıları 7 tankı və bir bölük düşmən əsgərini məhv edib.

Polşanın Byalobeki şəhərindəki küçə döyüşlərində Mirzəyevin batareyası piyadalara dəstək verərək, 6 tankı zərərsizləşdirib.

1945-ci ilin fevral ayının əvvəlində batareya piyada qoşunları yeddi günlük qanlı vuruşma nəticəsində Oder çayının qərb sahilindəki meydanı ələ keçirib. Bununla da sovet qoşunlarının irəliləmək üçün yolu açıldı. Kapitan Mirzəyev ağır yaralanmasına baxmayaraq, döyüşün sonunadək batareyasına başçılıq etdi.

Berlin uğrunda gedən döyüşlərdə yaralanıb. SSRİ Ali Sovetinin 1945-ci il 24 mart tarixli qərarına əsasən Mirzəyev Bahəddin Şahvələddin oğluna "Lenin" ordeni və “Qızıl Ulduz” medalı təqdim olunmaqla, Sovet İttifaqı Qəhrəmanı adı verilib. Bundan əlavə, I dərəcəli “Vətən müharibəsi”, “Qırmızı Ulduz” ordenləri, “Qafqazın müdafiəsinə görə”, “Berlinin alınmasına görə”, “1941-1945-ci illərdə Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə” medalları ilə təltif edilib. [15, ЦАМО шкаф 57, ящик 5] Şamaxı və İsmayıllı şəhərlərində adına küçə var.

*1994-cü ildən Göyçay şəhərinin Fəxri vətəndaşı, Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Bünyadov*



1923-cü il dekabr ayının 21-də Astara şəhərində anadan olsa da, atası xidməti işi ilə əlaqədar olaraq Göyçaya göndərildiyinə görə, Bünyadov orta məktəb illərini Göyçayda keçirib. Onun bir şəxsiyyət kimi formalaşmasında Göyçay mühitinin də böyük rolu olub. 1939-cu ildə orta məktəbi bitirdikdən sonra, o, təyyarəçilik məktəbinə daxil olmaq məqsədilə Bakıya getdi. Lakin tibb komissiyasından keçə bilmədiyindən, yaşına iki il əlavə etdirərək S.Orconikidze adına Bakı Piyadalar Məktəbində təhsilini davam etdirdi. 1941-ci ilin mayında hərbi məktəbi leytenant rütbəsində əlaçı diplomu ilə bitirdi. Bünyadovu yubatmadan gələcək xidmət yerinə – Bessarabiyaya göndərdilər. O, burada – Dnestr çayı üzərindəki kiçik liman şəhəri olan Bəndərdə İkinci Dünya müharibəsi başladıqdan cəmi bir saat sonra, həyatında ilk döyüşünə girdi. Xəstəxanalarda ke-

çirdiyi vaxtı (iki dəfə yaralanma və kontuziya) çıxmaqla, Ziya Bünyadov İkinci Dünya müharibəsində cəbhədə Berlinədək vuruşaraq, şərəfli döyüş yolu keçib.

O, Ukrayna və Moldova uğrunda döyüşlərdə, Mozdok və Tuapse, Belorusiya və Polşa uğrunda savaşlarda fəal surətdə iştirak edib. Düşdüyü mühasirədən döyüşərək çıxıb və polkun bayrağını xilas edərək hərbi hissənin əsgəri şərəfini qoruya bilib. Bünyadov Şimali Qafqazda gedən döyüşlərin iştirakçısı olub, yarısı Saratov matroslarından təşkil olunan 120 nəfərlik rotaya başçılıq edib.

Özünün haqlı olduğunu sübut etməyə çalışarkən, komandirə ağır cavab verdiyinə görə, o, cərimə rotasına göndərilib və bir il orada qalıb. Gənc leytenant olmasına baxmayaraq, orada yaşca və təcrübəcə özündən böyük olan cəzalıların hörmətini qazanmağa nail olub. Bunu diqqətdən qaçırmayan komandanlıq, artıq atıcı batalyonun komandiri olan Bünyadova cərimə rotasına başçılıq etməyi təklif edir. O, heç fikirləşmədən bu təyinatı qəbul edir.

Visla-Oder əməliyyatı zamanı kapitan Bünyadovun komandanlığı altında 123-cü cərimə rotası Pilitsa çayı üzərindəki 80 metrlik minalanan körpünü ələ keçirir və əsas qüvvələr gəlib çıxına qədər bir neçə saat ərzində onu düşmənin aramsız hücumlarından qoruyub saxlaya bilir. Bu müddət ərzində 670 nəfər döyüşçüsü olan rotadan cəmi 47 nəfər sağ qalır.

Kapitan Z.M.Bünyadovun 123-cü əlahiddə ordu rotası 1945-ci il yanvar ayının 14-16-da düşmənin Manquşevsk sahəsindəki müdafiə xəttinin yarılmasında iştirak edib. O, Domburovki kəndinin cənub kənarından və dəmir yolu xəttindən keçərək yanvarın 14-də Pilitsa çayının sol sahilində ələ keçirdiyi döyüş mövqeyini 89-cu qvardiya diviziyasının əsas atıcı hissələri gəlib çıxana qədər saxlayıb. Rota düşmənin 160 əsgər və zabitini öldürdü, 45 əsgərini əsir götürdü, 5 ədəd altılülə-

li minomyot, 3 top, çoxlu sayda avtomat, tüfəng, sursat, ərzaq və başqa qənimətlər ələ keçirdi... Rota komandiri kapitan Z.M. Bünyadov Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. [5]

**Hacı Abdulqafar oğlu Qafarov** - 1919-cu ildə Göyçayda anadan olub. Cəbhədə göstərdiyi igidliklərə görə I dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif edilib. [15, ЦАМО шкаф 24, ящик 19]

II Dünya müharibəsinin göyçaylı iştirakçılarının bəzilərindən fərqli olaraq 3 000 nəfərdən artıq müharibə iştirakşılarının mütləq əksəriyyəti haqqında bu günə qədər yazılı ədəbiyyatda heç bir məlumat verilməməsi narahatlıq doğurmaya bilməz. Belə qəhrəmanlardan bir neçəsini oxuculara təqdim edirik:

**Hümbət Bilal oğlu İbrahimov -** 1904-cü ildə Göyçay rayonu Bığır kəndində anadan olub. Gənc yaşlarından sovet quruculuğuna ümüd bəsləyərək bolşevik partiyasına üzv olur.



*Hümbət İbrahimov*

İsmayıllı rayonunun Quşencə kəndində kənd sovetinin sədri işləyib. Böyük Vətən müharibəsi başlayanda, onu Bığır kəndindəki Voroşilov adına kolxozun sədri təyin edirlər. Kolxoz sədri olarkən, xalq malının talanmasına qarşı ciddi mübarizə aparıb. Bir səhər işə gedərkən, həyat yoldaşı ona bildirir ki, evdə çörək bişirməyə un yoxdur, anbardara tapşır bizə bir neçə kilo buğda versin. Cavabı belə olur: "Nə zaman eşitsən ki, əsgər ailələrinə buğda paylanır, onda uşağı göndərərsən, buğda gətirər". 1943-cü ildə guya müharibədən qaçan qaynını müdafiə etdiyi üçün onu həbs edirlər. Həbsxanadan rayon rəhbərliyinə yazdığı ərizədə əsassız olaraq həbs edildiyini bildirir və döyüşən orduya göndərilməsini xahiş edir. 1943-cü ilin dekabrında ön cəbhəyə göndərilir, 589-cu atıcı alayın 216-cı atıcı diviziyasının tərkibində Krımdan Polşaya qədər döyüş yolu keçir. Krım, Kiyev, Minsk, Litva, Polşa ərazilərində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşur. 1944-cü ilin mart ayında yaralansa da, müalicə olunmaqdan boyun qaçırır. 1944-cü il iyul ayının 24-27-də Litvanın Skaşipkis kəndi uğrunda gedən döyüşlərdə 2 düşmən snayperini məhv edir, kəşfiyyatdan qiymətli məlumatlarla geri dönür, birinci olaraq kəndə daxil olur və düşmənin canlı qüvvəsini məhv edir. Bu şücaətinə görə 3-cü dərəcəli "Şöhrət" ordeni ilə təltif edilir. Evinə yazdığı məktublarda müharibədə bəraət aldığını, geriyə qayıdandan sonra hər şeyin yaxşı olacağını qeyd edirdi. Təəssüf ki, geriyə qayıtmaq ona nəsib olmadı. Üç oğlu və bir qızı olan Hümbət İbrahimov müharibənin sonlarında itkin düşür. Hazırda 1941-ci il təvəllüdlü kiçik oğlu Ramiz Bilalov Bığır kəndində yaşayır.

Hümbət Bilal oğlu İbrahimovun keçdiyi döyüş yolu, təltif edildiyi orden və medallar haqqında arxiv sənədlərində az da olsa məlumatlar var. Lakin onun harada həlak olduğu və dəfn

edildiyi yer haqqında hələ də məlumat əldə etmək mümkün olmayıb. [14;15, ЦАМО шкаф 35б, ящик 1]



*Paşa Məmmədov*

Göyçay hərbi komissarlığı tərəfindən Paşa Zülfüqar oğlu Məmmədov və onun qardaşı Novruz Zülfüqar oğlu Məmmədov döyüşən orduya göndərilsə də, arxiv sənədlərində onlar haqqında məlumat çox azdır. Novruz Məmmədov haqqında arxivdə 1942-ci ildə Göyçay hərbi komissarlığı tərəfindən döyüşən orduya göndərilməsi, 92-ci qvardiya alayının tərkibində döyüşməsi, hərbi tibb işçisi olması, 1945-ci il 14 iyunda ordudan tərxis olunması haqqında çox qısa məlumat var. Qardaşına nisbətən Paşa Məmmədov haqqında daha ətraflı məlumat əldə etmək mümkün olub.

P.Məmmədovun döyüş yolu Luqansk şəhərindən başlayaraq Krasnodar, Novorossiysk, Kerç, Krım, Moldova, Rumuniya, Macarıstan, Slovakiya, Polşanın Lyublin, Lodz, Zelenaya-Qura şəhərinə qədər davam edib.

O, birbaşa qızğın döyüşlərin getdiyi cəbhəyə göndərilib və qələbəyə qədər döyüşlərdə iştirak edib. 3-cü motoatıcı batalyonun bölük komandıri kimi, 27 noyabr 1942-ci il tarixdə Rusiyanın Şimali Osetiya Muxtar Respublikasının paytaxtı Orconikidze şəhəri (hazırda Vladiqafqaz) uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq ağır yaralanıb. Həmin döyüşdə göstərdiyi qəhrəmanlığa görə o, 10 aprel 1944-cü ildə "Döyüş xidmətlərinə görə" medalı ilə təltif olunub. [15, ЦАМО, Издан: 694 сп 383 сд]

30 aprel 1944-cü il tarixdə Sevastopol yaxınlığındakı Balaklava şəhəri (mənası "Balıqlı hava"- Krım-tatar dilindən götürülüb) uğrunda gedən döyüşlərdə xüsusi qəhrəmanlıq göstərib. O, düşmənin müxtəlif növ silahlardan dolu kimi yağdırdığı atəşi altında xüsusi igidlik göstərərək, qəfil faşistlərin ön xəttinə keçə bilib, avtomatdan açdığı atəşlə almanların diqqətini özünə cəlb edərək, şəhərin tezliklə azad edilməsinə layiqincə kömək göstərib. Döyüşdə göstərdiyi qəhrəmanlığa görə "İgidliyə görə" medalı ilə təltif olunub. [15, ЦАМО, шкаф 55, ящик 9,фонда 33, описи 686044, 4281,]


Секретно
Экз. № 2

Именной список

Безвозвратных потерь личного состава РККА за период с 1941-1945 г.г. на фронтах Отечественной войны.

| №№ пп | Фамилия имя отчество | Военное звание | Должн. | Партийность | Год рождения | Уроженец | Когда и каким РВК призван | Когда по каким причинам выбыл | Где похоронен | Степень родства и адрес. |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | Мамедов Исмаил Медхат оглы | Рядов. | Кр-ц | б/п. | 1920 | Геокч.р-н Потинский с/с.с.У.Пих. | Геокч.ОРВК 24.Х.1940 г. | Можно считать проп. б/в. 28.VII-41 г. | Извещ. о смерти нет | Сестра Алиева Ганаиля Гусейн кызы, Потинский с/с.с.Улм-Пихлы |
| 2. | Касумов Таптык Касум ог. | Рядов. | Кр-ц | б/п. | 1909 | Уджар.р-н с.Карасерк. | Геокч.РВК 24 Июня 41г. | Можно считать пропавшим б/вести 25.Июля 1941 г. | Извещении о смерти нет. | Жена Касумова Шахова Солтан кызы сел.Карасерк. |

Военком Геокчайского ОРВК
майор (Мирзоев)

Начальник 1 части ОРВК
капитан а/сл. (Бегагаев)

Отп. в 2-х экз.
экз. № 1 адресату
№ 2 в дело
Исп.Бегагаев
печ.Пукорова
30.09.48 г.
№ 120

Yuxarıda təqdim olunan arxiv sənədi 30 sentyabr 1948-ci ildə Göyçay rayon hərbi komissarı mayor Mirzəyev, hərbi ko-

missarlığın 1-ci şöbəsinin rəisi Beqaqayev tərəfindən imzalanıb. Sənəddə Göyçay rayon hərbi komissarlığından orduya göndərilən və itkin düşən iki sıravi əsgər haqqında məlumat verilib:

**Məmmədov İsmayıl Məcid oğlu** - 1920-ci ildə Göyçayın Potu kəndində anadan olub. 24 oktyabr 1940-cı ildə Göyçay hərbi komissarlığı tərəfindən orduya çağırılıb. 28 iyul 1941-ci il tarixdən itkin düşüb. Bacısı Əliyeva Tənzilə Hüseyn qızı Göyçay rayonunun Potu kənd sovetliyinin Ulu-Şıxlı kəndində yaşayır.

**Qasımov Tapdıq Qasım oğlu** - Göyçay hərbi komissarlığı tərfindən 24 iyun 1941-ci ildə cəbhəyə göndərilib. 25 iyul 1941-ci il tarixdən itkin düşüb. Həlak olması haqqında məlumat yoxdur. Həyat yoldaşı Qasımova Şaxoaz Soltan qızı Ucar rayonunun Qarabörk kəndində yaşayır.

Müharibədən sonra Göyçay şəhərində Böyük Vətən müharibəsində iştirak edən göyçaylıların xatirəsinə "Ana" abidə kompleksi ucaldılıb. Hər il rayon rəhbərliyi və rayonda fəaliyyət göstərən özəl şirkətlərin nümayəndləri Böyük Vətən müharibəsi veteranları ilə görüşlər keçirir, onların sosial problemlərinin həllində yaxından iştirak edirlər. [15, ЦАМО, Фонд 58 Опись 977521, Дело 729]

Azərbaycanda müharibə dövründə dəmir yolu, hava və su nəqiliyyatı ilə yanaşı, şose yollarının da salınması və bərpasına xüsusi fikir veriliridi. 1941-1945-ci illərdə qara çınqıldan örtük salınan 919 km yol istismara verildi ki, bunların arasında Göyçaydan keçən Bakı-Şamaxı-Gəncə-Ağstafa-Qazax-Qırmızı körpü-Gürcüstan sərhədinədək olan yol da var idi. Bu dövrdə Kür çayı, Əlincəçay, Qumbaşı, Pensərçay və digər yerlərdə salınan iri körpülərlə yanaşı, Göyçay çayı üzərində də iri metal və dəmir-beton körpülər tikilib. Bu da Bakı-Şamaxı-Gəncə-Ağstafa-Qazax-Qırmızı körpü-Gürcüstan magistral yolunun işləməsinə şərait yaradıb. [3, s.15-17]

Böyük Vətən müharibəsi dövründə göyçaylıların arxa cəbhədə fədakarlığı, azad edilən ərazilərə onların qardaş köməyinə aid "Bakinskiy raboçiy" qəzeti ayrıca məqalə həsr edib. Qəzetin 2 aprel 1943-cü il tarixli 627-ci nömrəsində "Kolxozda azad edilmiş rayonlara qardaşlıq köməyi günü" adlı Göyçay rayonundan məlumat-yazıda deyilir: "Stalinqrada hitlerçi işğalçılar şiddətli hücuma başlayanda, Lenin adına kənd təsərrüfatı artelinin kolxozçuları, qəhrəmanlara kömək etməyə can ataraq, Volqa qalasının müdafiəçilərinə kömək üçün öz aralarında "Stalınqradın Müdafiə günü" təşkil etdilər. Kolxozçular tərəfindən həmin gün əldə edilmiş bütün məhsullar Qırmızı Ordunun fonduna köçürüldü. İndi vətənpərvər kolxozçular həmin təşəbbüsə uyğun olaraq "Alman faşist işğalından azad edilmiş rayonlara Qardaş Yardımı Günü" təşkili etdilər. Həmin gün bütün kolxozçular xüsusi ruh yüksəkliyi ilə işləyirdilər. Staxanovçular - Mirzəliyev, Qarayeva, Muradov və başqaları normaları xeyli artıqlaması ilə yerinə yetirərək 2.5-3 iş günü normasını yerinə yetirdilər. Ümumilikdə bu gün kolxozçular 165 iş günü normasını yerinə yetirdilər ki, bu da 6 500 rubldan çox vəsait əldə edilməsi demək idi. Lakin kolxozçular bununla da kifayətlənmədilər. Onlar işğaldan azad edilmiş ərazilərə qardaş yardımı fonduna vermək üçün plandan artıq 3 hektar pambıq və bir hektar darı əkmək qərarına gəldilər. Buna qədər isə kolxozçular bu fonda 4 qoyun, 320 kq taxıl və 160-a yaxın müxtəlif məişət əşyaları təhvil vermişdilər. [1,s. 270;12]

Faktlar sübut edir ki, Azərbaycanın digər bölgələrinin əhalisi kimi Göyçay əhalisi də II Dünya müharibəsi dövründə həm ön cəbhədə, həm də arxa cəbhədə fədakarlıqlar göstərib, faşizm üzərində qələbəyə öz layiqli töhfəsini verib.

Göyçayda Böyük Vətən müharibəsi iştirakçıları daim ehtiramla yad edilir. Onların xatirəsini əbədiləşdirmək üçün Göy-

çay şəhərində 1941-1945-ci illərdə Böyük Vətən Müharibəsində həlak olan göyçaylıların xatirə abidəsi, Şəhadət, Çərəkə, Xəlitli, Alpout, Yeniarx, Məlikkənd, Müskürlü, Malı-Şıxlı, Qaraməryəm, Ləkçılpaq və Çayarxı kəndlərində 1941-1945-ci illərdə həlak olanların xatirə abidələri ucaldılıb.

## İstifadə olunan ədəbiyyat


1. "Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər)", Bakı, 2008

2. "Azərbaycan 1941-1945-ci illər Böyük Vətən müharibəsində: biblioqrafiya", Kitab 1: (Azərbaycan dilində), Bakı, 2020

3. Hüseyn İ., "Azərbaycanın yol tarixi. II kitab", Bakı, 1995, s.51

4. Nəzirli Ş., "Krım dəftəri", Bakı, 2004

5. "Bünyadov Ziya Musa oğlu, Biblioqrafiya", Bakı, 2004

6. Zülfüqarlı M.P., "Tarixşünaslıq (1920-1991-ci illər) Azərbaycan tarixi - Dərslik", Bakı, 2017

7. Zülfüqarlı M.P. "İknci Respublikanın tarixi (1920-1991-ci illər)", Bakı, 2020

8. "Azərtac" 10.05.2012

9. "Kommunist» qəzeti, 04.10.1944


### *Rus dilində*


10. «Азербайджанская ССР в период Великой Отечественной войны (1941-1945 гг.), В 2 т. Т. II, Сб. док. и материалов», Баку, 1977, 277 с.

11. Алиева С., «Азербайджанцы в годы Великой Отечественной войны 1941-1945 года на Северном Кавказе», "От Античности к Возрождению. Материалы IX Дзагуровских чтений. Сборник трудов кафедры истории стран Европы и Америки. Вып. IX", Махачкала, 2010 г., с.92-94;

12. “Бакинский рабочий», 02.04.1943 г.
13. «Герои Советского Союза - сыны Азербайджана», Баку, 1963 г., с.188
14. Гусейнов А., «Мужество как знамя пронесли», «Азербайджанский Конгресс», 08.05.2008, № 17-18 (68)
15. pamyat-naroda.ru

*Azərbaycanın ilk ədliyyə generalı*
*Əjdər Mahmud oğlu Xaspoladov*



1901-ci il fevral ayının 22-də Göyçayda doğulub. Çox kiçik yaşlarından atasını itirib. Acından ölməmək üçün rus keşişinin evində qulluq edib. O, keşiş və uşaqlarından rus dilini öyrənir. Anasının ölümündən sonra Bakıya gəlir və orada işə düzəlir. Göyçaydan min bir əzab-əziyyətlə Bakıya gələn Əjdər aclıq və səfalət içində yaşayır. Bir müddət sonra Nəriman Nərimanov 1919-cu ilin payızında Əjdər Xaspoladovu bir qrup gənclə oxumaq üçün Moskvaya göndərir. M.İ.Kalinin onları əvvəl əsgər kamerаlarında yerləşdirir, paltar və yeməklə təmin etdirir, bir neçə gündən sonra "Şərq zəhmətkeşləri universitetinə" qəbul etdirir.

Otuzuncu illərin əvvəllərində Orta Asiya Hərbi Dairəsi üzrə hərbi tribunalın sədri təyin edilən və ilk ədliyyə general-mayoru rütbəsi alanlardan biri olan Əjdər Xaspoladov kimi milli prokurorluq və məhkəmə kadrları formalaşırdı. [1; 3]

Professor Əziz Əsədov Böyük Vətən müharibəsi illərin-

də iki dəfə Ə.Xaspoladovla görüşüb. Ə.Əsədov bildirir ki, mən 1941-ci ildə cəbhə qəzetlərinin birində Ə.Xaspoladovun Ədliyyə general- mayoru olduğunu oxudum. Müharibə illərində general Ə.Xaspoladov 56-cı ordunun hərbi tribunalının sədri kimi məsul vəzifədə çalışırdı. Müharibə qurtarandan sonra Ə.Xaspoladovla maraqlandım. Moskvaya ezam olundum, SSRİ Ədliyyə Nazirliyinə gedib ədliyyə generalının ad-familiyasını söylədim. Dedilər ki, general şəxsi təqaüddədir. Onun ünvanını mənə verdilər. Evinə getdim, onun haqqında yazmaq istədiyimi bildirəndə "olmaz" dedi, - mənim haqqımda yazmağa icazə verilmir. Stalin xofu hələ də onun canından çıxmamışdı. Son dəfə ayrılanda soruşdum ki, bəlkə sizə vətəndən bir şey lazımdır. Utancaq təbəssümlə üzümə baxıb, Sabirin "Hophopnamə"sini ərəbcə mənə göndərə bilsəniz, sizə minnətdar olaram dedi. Bakıya qayıdan kimi "Hophopnamə"ni Moskvaya göndərdim.

Sovet rejiminin qadağalarına görə "Azərbaycan Sovet Ensiklopediyası"na düşməyən ədliyyə general-mayoru Əjdər Xaspoladov 1986-cı ildə, 85 yaşında Moskvada vəfat edib, Kuntsevo qəbiristanlığında dəfn olunubdur. [1; 2]

**İstifadə olunan ədəbiyyat**


1. "Göyçaylı generallar", Göyçay, 2016
2. "Xalq qəzeti", 30.12.2008-ci il
3. "Xalq qəzeti", 27.09.2020-ci il

## Göyçay 1945-1991-ci illərdə

II Dünya müharibəsi SSRİ-nin, o cümlədən Azərbaycan SSR-in iqtisadiyyatına ağır zərbə vurdu. Müharibə dövründə Azərbaycanda sənaye istehsalının əsas göstəriciləri kəskin surətdə aşağı düşdü. Sənayenin ümumi məhsulu 1940-cı illə müqayisədə 22 faiz aşağı endi. 1945-ci ildə 1940-cı ilə nisbətən neft hasilatı təqribən yarıbayarı, pambıq istehsalı 154 min tondan 65 min tona, barama istehsalı 2.384 tondan 1.615 tona qədər azaldı. Müharibə dövründə texniki bitki məhsullarının xeyli azalması nəticəsində istehlak malları istehsalı kəskin surətdə aşağı düşdü. 1940-cı ildən 1946-cı ilədək iribuynuzlu mal-qaranın sayı 1.382 min başdan 1.203,5 minə endi. Kənd təsərrüfatının maddi-texniki bazası xeyli zəiflədi. Əhalinin sayında da kəskin azalma baş verdi. Azərbaycan əhalisi 1940-cı ildə 3.304,1 min nəfər olduğu halda, 1945-ci ildə onun sayı 17,65 faiz azalıb. Müharibə ölkənin əmək ehtiyatlarının istifadəsinə də mənfi təsir göstərdi.

Azərbaycanın xalq təsərrüfatında fəhlə və qulluqçuların sayı 1940-cı ilin oktyabrında 456 min olduğu halda, 1945-ci ilin sentyabrında 396 min nəfərə qədər azalıb. [1, s.76]

Sovet dövründə, 1947-1952-ci illərdə qiymətlərin beş dəfə aşağı salınması çox geniş təbliğ olunsa da, reallığı əks etdirən alternativ faktlar da mövcuddur. Məsələn, arxiv sənədlərində deyilir: "Qiymətləri 300 faiz artırır, 30 faiz aşağı salır və bütün dünyaya hay-küy salırlar", - "Bu qiymət aşağı salma məsələsi ilə bizi idarə edənlər xalqı öz tərəfinə çəkmək istəyir. Bu, alverçilərin tədbiridir", - "Bu qiymət aşağı salma mənə nə verir? Malların qiyməti qramla, əmək haqqı isə kiloqramla aşağı salınır" və s. [15, s.31-32]

Azərbaycanda 1945-1953-cü illərdə baş verən bir sıra mü-

hüm hadisələr digər regionlar kimi, Göyçayın da həyatına bu və ya digər şəkildə təsir edir. Bunlardan xalq təsərrüfatının dinc dövrün tələblərinə uyğun qurulmasının başa çatdırılması (1946), yeni sənaye şəhərlərinin inşa edilməsi (1946-1949), kartoçka sisteminin ləğv edilməsi (sentyabr 1947-ci il), SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar qəbul etməsi (23 dekabr 1947-ci il), azərbaycanlıların Ermənistandan köçürülməsinə dair SSRİ Nazirlər Kabinetinin daha bir qərar qəbul etməsi (10 mart 1948-ci il), İ.Stalinin ölümü (5 mart 1953-cü il) və digər hadisələri göstərmək olar. [12, s.169]

SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli qərarı ilə Ermənistandan Azərbaycana köçürülən əhali əsasən onların Ermənistanda yaşadıqları rayonların iqlim şəraitinə uyğun olmayan Zərdab, Əli-Bayramlı (Şirvan), Kürdəmir, Göyçay, Mirbəşir (Tərtər), Salyan, İmişli, Sabirabad, Jdanov (Beyləqan), Yevlax, Ucar, Saatlı rayonlarında yerləşdirildilər ki, onların da bir qismi yoluxucu xəstəliklərə düçar olaraq tələf oldular.

Köçürülənlər üçün yeni mənzillər tikilib istifadəyə verilmədiyindən, onlar əsasən ictimai binalarda, yararsız tikililərdə, anbarlarda, tövlələrdə, yerli əhalini sıxışdırmaq yolu ilə onların mənzillərində yerləşdirildi. 1948-1950-ci illərdə Ermənistandan köçürülən 8 110 ailədən yalnız 3 232-si yaşayış evləri ilə təmin olundu. 1950-ci ildə köçürülənlər üçün 3 500 ev tikmək qərara alınsa da, 470 ev tikildi. Yalnız 1 488 köçkün ailəsi həyətyanı təsərrüfat sahəsi ilə təmin olundu. 1951-ci ildə köçkünlər üçün 5 000 yaşayış evinin tikintisi planlaşdırılsa da, cəmisi 3 074 ev tikilib istifadəyə verildi. 1952-ci ildə Ermənistan SSR-dən Kür-Araz ovalığına 600 təsərrüfatın köçürülməsi haqqında qərar qəbul olunub. [9]

1949-cu ildə Ermənistandan Azərbaycanın Saatlı, Göyçay, Mirbəşir (Tərtər), İmişli, Əli Bayramlı, Zərdab, Salyan, Kürdəmir, Xaldan, Sabirabad, Jdanov (Beyləqan), Yevlax, Ucar, Gədəbəy və Bərdə rayonlarına 15 276 adam köçürüldü. [1, s.112]

Azərbaycanlıların Ermənistandan digər rayonlarla yanaşı, Göyçaya köçürülməsi, rayonda yeni "İrəvanlılar" məhəlləsinin meydana gəlməsinə səbəb oldu. İrəvanlılar adlı məhəllə qonşu Ucar rayonunda da var. Yerli əhali vəziyyətinin ağır olmasına baxmayaraq, öz ata-baba yurdlarından zorla köçürülən soydaşlarına hər cür yardım göstərir, onların sosial problemlərinin həllində dövlət qurumları ilə birlikdə yaxından iştirak edirdilər.

Göyçayın mikrotoponim sisteminə rayon ərazisində qeydə alınan ümumilikdə 51 küçə və 184 məhəllənin adları daxildir. Şəhərdəki əsas məhəllə adları bunlardır: Türkmanlar (məhəlləsi), Qurdlar (məhəlləsi), Yeravanlılar (İrəvanlılar) (məhəlləsi), Salyanstroy (məhəlləsi), Cuhudlar (məhəlləsi), Əlbətlilər (məhəlləsi), Dəyirmanın başı (məhəlləsi), Qastronomun tini (məhəlləsi). [6; 7, s.10]

Müharibədən sonra Göyçayın SSRİ Müdafiə Nazirliyinin Baş Qərargahı tərəfindən Məxfi Topoqrafik Xəritəsi hazırlanıb. [10; 17]

1946-cı ilin sonunda Layihə-Axtarış İdarəsinin 217 nəfərdən ibarət işçisi Azərbaycanın digər bölgələri ilə yanaşı, Türyançay və Göyçay üzərində hidroqovşağın layihə-axtarış işlərinin görülməsinə başladı.

Mingəçevir hidroqovşağı tikildikdən sonra, Yuxarı Şirvan kanalının 1959-cu ildə istismara verilməsi ilə Şirvan düzündə 112 min hektar suvarılan sahə, bitkilərin su tələbatına uyğun olaraq su ilə təmin olundu. Bundan sonra Kür çayının axını nizamlandığına görə, aşağı hissələrdə baş verə biləcək daşqın-



***Göyçayın topoqrafik xəritəsi***

ların qarşısı alındı və məhsuldar əkin sahələrinin suvarılması mümkün oldu. Mingəçevir dəryaçası yarandıqdan və tikintisi mümkün olan Yuxarı Qarabağ və Yuxarı Şirvan kanalları istismara verilməsi ilə, Qarabağ, Mil, Muğan və Şirvan düzlərində 234 min hektar sahə su tələbatına müvafiq suvarma suyu ilə təmin edilib. Yuxarı Şirvan kanalı suyu Xanabat bəndindəki baş qurğudan alır. Su qəbul edilən yerdə kanalın dib yüksəkliyi 65,33 m-dir. Anbardan baş qurğuya su nəql edən kanalın uzunluğu 2,9 km-dir. Yuxarı Şirvan kanalı Şirvan düzündə, Yevlax, Ağdaş, Göyçay, Ucar, Zərdab, Ağsu, Kürdəmir və Hacıqabul rayonlarının ərazisindəki əkinə yararlı torpaq sahələrini suvarma suyu ilə təmin edəcəkdi.

Baş Şirvan kollektorunun tikintisinə 1960-cı ildə başlanıb və 1964-cü ildə istismara verilib. Kollektorun uzunluğu 216 km-dir. [10, s.60-61]

Yuxarı Şirvan kanalının istifadəyə verilməsi ilə kanalın keçdiyi digər ərazilərlə yanaşı, Göyçay ərazisində də kənd təsərrüfatının daha sürətli inkişafı üçün münbit şərait yarandı.

İ.Stalinin ölümü (5 mart 1953-cü il) ilə onun 31 illik hakimiyyətinə son qoyuldu və Sov.İKP-nin XX qurultayından (1956) sonra ictimai-siyasi həyatda "yumşalma" dövrü başladı. Bundan sonra Azərbaycanın şair və yazıçılarının fəaliyyəti çoxşaxəli olub. Onların bəziləri iki sistem arasında gedən soyuq müharibə dövründə sovet rejiminə haqq qazandırır, bəziləri isə sovet dövrü qadağalarına baxmayaraq, nöqsanları tənqid etməkdən çəkinmirdilər. Belə şairlərdən biri, əslən Göyçaydan olan, Azərbaycanın görkəmli şairi, dramaturqu Rəsul Rzadır.

Görkəmli Azərbaycan şairi, dramaturq, tərcüməçi, ictimai xadim, 1934-cü ildən Azərbaycan YB-nın üzvü, Sosialist Əməyi Qəhrəmanı (1980), Azərbaycan SSR xalq şairi (1960), Azərbaycan SSR əməkdar incəsənət xadimi (1943), 1960-cı ildən Azərbaycanın Xalq şairi **Rəsul Rza (Rəsul İbrahim oğlu Rzayev)** 1910-cu il mayın 19-da Azərbaycanın Göyçay şəhərində maarifpərvər ailədə doğulmuşdur. 1980-ci ildə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb. Bir neçə çağırış Azərbaycan Ali Sovetinin deputatı olub. Hazırda Göyçay şəhərində şairin ev muzeyi fəaliyyət göstərir.

Rəsul Rzanın ulu babası Məmmədxanlılar nəslindən Məmməd xan Məmmədyar oğlu Çiyni və ətraf kəndlərin mülkədarı olub. Qədim Bayat boyundan, Şahsevən tayfasından olan Məmməd xan XIX əsrin ortalarında rus işğalçılarına qarşı mübarizədə həlak olub. Məmmədxanın nəticəsi, Rəsul Rzanın atası İbrahim Məmmədxanlı Göyçayda mirzəlik edib və ticarətlə məşğul



***Rəsul Rza***

olub, 1915-ci ildə Bakıda vəfat edib və burada dəfn olunub. Anası Məryəm poetik istedada malik olub, öz şeirlərini əzbər yadda saxlayıb. Atasını erkən itirib, anasının və yaxın qohumlarının himayəsində boya-başa çatıb. Rəsul öz tərcümeyi-halında daha sonra yazırdı ki, onun ata evinə qəzet və jurnallar gələrdi, "Molla Nəsrəddin", rus dilində çıxan "Niva", "Probujdeniye" nəşrlərini alırdı. Bütün bu amillərin Rəsulun mənəvi tərbiyəsində mühüm rolu olub. O, uşaqlıqdan ədəbi söhbətlərin getdiyi bir ailədə tərbiyə alıbdır.

Rəsul Rzanın həyat yoldaşı Rəfibəyli Nigar Xudadat bəy qızı (1913-1981) məşhur Rəfibəylilər nəslindəndir. "Ana səsi" (1969), "Günəşdən gənclik istədim" (1974), "Bir həzin axşamda düşsəm yadına" (1982), "Şanlı nəsillərin yadigarıyam" (1993) kitablarının müəllifidir. 1993 və 2004-cü illərdə "Seçilmiş əsərləri"

çapdan çıxıb. Azərbaycanın Xalq şairi adına layiq görülüb. Onların 1938-ci ildə doğulan övladları Anar görkəmli dramaturq, ssenarist və kinorejissor, Xalq yazıçısı və Azərbaycan Yazıçılar Birliyinin sədridir.

Rəsul Rza altı yaşı olarkən Göyçayda məktəbə gedib və onun ağır təhsil və iş illəri başlayıb. On dörd yaşında ikən oxumaqla yanaşı, həm də şəhər kitabxanasında işləyib. 1925-ci ildə isə Gəncə Sənaye və Kənd Təsərrüfatı Texnikumuna daxil olub, ancaq təhsili yarımçıq qoyub bir neçə aydan sonra evə, anasının yanına qayıdıb. O, 1930-cu ildə Bakıya köçür; o vaxt boyük bacıları şəhərdə yaşayırdı.

Bakıda bədii yaradıcılıqla yanaşı R.Rza təhsilini də davam etdirir. Təhsil aldığı məktəblər, institutlar sırasında şair Tiflisdəki Zaqafqaziya Kommunist Universitetini, Azərbaycan Tibb İnstitutunun hazırlıq kursunu, Azərbaycan Tibb İnstitutunu, Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunu, Moskva Millətlər İnstitutunu, Ümumittifaq Kino Akademiyasını və s. elm və təhsil ocaqlarını qeyd edib.

1941-ci ilin axırlarında şair bir qrup siyasi işçilərlə hərbi müxbir kimi Krıma gedir, Azərbaycan diviziyasında hərbi müxbir vəzifəsində çalışır, cəbhə qəzeti "Döyüşən Krım"da işləməyə başlayır. O, müxbir kimi tez-tez ön cəbhə xəttinə gedir, müharibəni bilavasitə müşahidə edir, cəbhə həyatının çətinliklərini mənən yaşayır, bütün bunlar da şeirlərində öz təkrarsız ifadəsini tapıb.

1927-ci ildən çap olunmağa başlayan R.Rza XX əsrin 30-cu illərinin əvvəllərində "Qadınlar", "Çinar", "Almaniya", "Madrid", "İnqaleyso" adlı antifaşist şeirlər yazaraq oxucuların rəğbətini qazanır. 1941-1945-ci illərdə sovet-alman müharibəsinə qarşı şeir və hekayələri ilə çıxış edib, "Ölməz qəhrəmanlar", "Qəzəb və məhəbbət" adlı məcmuələri nəşr etdirib. Cənubi Azərbay-

canda olan qardaşlara "Hilal" adlı poema həsr edib. 50-ci illərdə R.Rza yaradıcılığı rəngarəng fəlsəfi motivlər daşıyıcısına çevrildi. 1961-ci ildə Nəriman Nərimanova həsr etdiyi "Xalq həkimi" poemasını, 70-ci illərdə "Dünən, bu gün və sabah", "1418", "Üzü küləyə" poemalarını yazdı. R.Rzanın 1960-cı illər fəlsəfi lirikası bir silsilə təsir bağışlayırdı; bu şeirlər şairin kitablarında bir-biri ilə bağlı, əlaqədar olduğu kimi, həm də bir vəhdət təşkil edirdi. R.Rzanın bu dövr poeziyasında "Rənglər" silsiləsinin ayrıca yeri vardır.

Rəsul Rza uşaqlar üçün də şeir və hekayələrin, elmi publisistik məqalə və oçerklərin müəllifidir. H.Lonqfello, C.Bayron, Lope de Veqa, Ş.Petefi, A.Blok, P.Elyuar, A.Puşkin, M.Lermontov, N.Nekrasov, T.Şevçenko, M.Mayakovski və bir sıra başqa şairlərin əsərlərini Azərbaycan dilinə tərcümə edib. Rəsul Rzanın əsərləri bir sıra xarici dillərə tərcümə olunub.

Rəsul Rza Azərbaycan Yazıçılar İttifaqına rəhbərlik edib, SSRİ Yazıçılar İttifaqı İdarə heyətinin üzvü, Bakı kinostudiyasında ssenari şöbəsinin rəisi (1937–1938), Azərbaycan Dövlət Filarmoniyasının müdiri (1938), Azərbaycan Sovet Yazıçıları İttifaqının sədri (1938–1939), Bakı kinostudiyasının müdiri (1942–1944), Kinematoqrafiya idarəsində rəis (1944–1946), Azərbaycan SSR Kinematoqrafiya naziri (1946–1949), Azərbaycan Sovet Ensiklopediyasının baş redaktoru, Ümumdünya Sülhü Müdafiə Komitəsi Rəyasət Heyətinin üzvü, Afrika və Asiya Ölkələri Sovet Həmrəylik Komitəsi rəyasət heyətinin üzvü və respublika üzrə sədri, SSRİ Yazıçılar İttifaqı rəyasət heyətinin üzvü, "Novosti" Mətbuat Agentliyinin Azərbaycan şöbəsinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin (VII çağırış) deputatı, Azərbaycan KP təftiş komissiyasının üzvü seçilib, Lenin və SSRİ Dövlət mükafatları komitəsinin üzvü olub. Dəfələrlə Azərbaycan Ali Sovetinə deputat seçilib, orden və medallarla təltif olunubdur.




***Rəsul Rzanın ev muzeyi***

Fəaliyyəti haqqında çox yazılsa da, əksəriyyət R.Rzanın 1950-ci illərin axırında totalitar rejimi tənqid edən, sovet rejimi əleyhinə yazdığı şeirlərdən xəbərsizdir. Onun 1977-ci ilin may-oktyabr aylarında Bakı və Göyçayda tarixi mövzuda yazdığı "Babək"("Xəyanət qurbanı") şeirində işğalçıya qarşı kəskin nifrət öz əksini tapır. O dövrdə işğalçıların "Gəlmələr, itlər" adlandırılması böyük hünər tələb edirdi. Çünki bu sözlərin məntiqiylə işğalçı kəlməsi digər işğalçılar kimi, XI sovet ordusuna da aid edilə bilərdi. Şeirin sonunda yazılan misralardakı "Qarşıda, gələcəkdə Vətən uğrunda... döyüş günləri vardı. Bu günün qurbanları, sabaha yadigardı." sözləri sanki "44 günlük Vətən müharibəsi" üçün şairin böyük uzaqgörənliklə etdiyi xəbərdarlıq idi. [14]

Bakıda nəşr olunan "Azərbaycan" jurnalının 1959-cu il fevral nömrəsində Rəsul Rzanın çap olunan "İnsan" və bir sıra digər şeirlərinə kommunist rəhbərləri qərəzli münasibət bəs-

ləyib, jurnal işıq üzü gördükdən sonra onu kəskin tənqid edib və hətta bu şeir Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ideoloji işin vəziyyətinə dair 1959-cu ilin aprelində Bakıda keçirilən fəallar iclasında müzakirə edilibdir. Mərkəzi Komitənin katibi öz çıxışında qeyd edib ki, yaradıcı işçilərimizin heç də hamısı həyatla ayaqlaşmır. Bəzən ədəbiyyat və incəsənətimizdə ideya və bədii cəhətdən zəif əsərlər meydana çıxır. Rəsul Rzanın "İnsan" şeiri buna misal göstərilə bilər. Yazıçılarımız, bəstəkarlarımız, rəssamlarımız həyatı daha dərindən öyrənməli, sovet xalqının böyük qələbələrini öz əsərlərində parlaq əks etdirməlidirlər. Kommunizm qurucusu olan sovet adamı, ədəbiyyat və incəsənət əsərlərinin əsas qəhrəmanı olmalıdır.

R.Rza "Sarı dana və balaca qız" şeirində sovet dövlətinin antihumanist planlı siyasətini dolayı yolla tənqid edir. Şeirin əsas məzmunu budur ki, fermada sarı dana xəstələndiyi üçün, bütün kənd əl-ayağa düşür. Lakin kənddəki xəstə uşağa baxan olmur. Hamı ciddi bir şəkildə sarı dana ilə məşğul olur və çox keçmir sarı dana sağalır. Sağıcı Gülxanımın uşağı isə baxımsızlıqdan ölür. [12, s.193-194]

Rəsul Rzanın "İnsan" şeirindən başqa, "Anket əhvalatı", "Sadə səbəb", "Təcrübəsizlik", "Ceyran dedi", "Divar daşı", "Sığorta" şeirləri də bu dövrdə kommunust partiyası ideoloqlarının kəskin tənqid hədəfinə çevrilmişdi. [11, s.263]

"Sığorta" şeirində şairin sığortaçıya müraciətlə dediyi:

"De görüm böhtandan, qaradan,
Yalandan, riyadan,
Nahaq sözün acısından,
Adamın nacinsindən
Sığorta edə bilərsənmi?

...Mən ölümdən sığorta istəmirəm” fikirləri kommunist ideologöyasına zidd fikirlər kimi o zaman sovet mətbuatında kəskin tənqid olunub. [12, s.210]

Görkəmli şair, ictimai xadim Rəsul Rza 1981-ci il aprelin 1-də Bakıda vəfat edib, Fəxri Xiyabanda dəfn olunub.

Göyçayın görkəmli ziyalılarından biri olan **Ənvər Qafar oğlu Məmmədxanlı** 15 (28) fevral 1913-cü ildə Göyçayda anadan olub. Yazıçı, nasir, kinodramaturq, ssenarist, tərcüməçi, 1938-ci ildən Azərbaycan Yazıçılar Birliyinn üzvü, "Azərbaycanfilm" kinostudiyasının redaksiya heyətinin baş redaktoru (1946–1964), Azərbaycan SSR əməkdar incəsənət xadimi (1963), Azərbaycan SSR xalq yazıçısı (1987) Ə.Məmmədxanlının aşağıdakı əsərləri nəşr olunub:



*Ənvər Məmmədxanlı*

"Burulğan" (1934), "Bakı gecələri" (hekayələr) (1936), "Ayna" (kinossenari) (1939), "Qərbə atəş" (1943), "Analar və yollar" (1943), "Dirilik çeşməsi" (1944), "25 bahar" (oçerk) (1945), "And" (1947), "Hekayələr" (1954), "Balaca Nərgiz" (1955), "Hekayələr" (1956), "Seçilmiş əsərləri" (1960), "Seçilmiş əsərləri" (iki cilddə). I və II cildlər (1985), "Qızıl qönçələr" (1988), "Buz heykəl" (1944).

Yazıçı Maksim Qorkinin "Özgə qapılarında" və "Uşaqlıq" əsərlərini Azərbaycan dilinə tərcümə edib, həmçinin "Bəxtiyar (1942)", Sovqat (1942), "İran Azərbaycanının paytaxtında" (1945) , "Fətəli xan" ( 1947), "Leyli və Məcnun" (1961), "Cazibə qüvvəsi (1964)", "İntizar" (1969), "Babək" (1979) filmlərinin ssenarisini yazıb.

İki dəfə "Şərəf nişanı" (1946–1949), "Qırmızı Əmək bayrağı" (1980–1983) və "İkinci Dünya müharibəsi" (ikinci dərəcəli) ordenləri, döyüş medalları ilə təltif olunub.

1990-cı il dekabrın 19-da Bakıda vəfat edib. Fəxri xiyabanda dəfn olunub.

Görkəmli şair **Əli Kərim** (**Kərimov Əli Paşa oğlu)** 18 mart 1931-ci ildə Göyçay şəhərində anadan olub. 1948-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olub, az sonra Teatr İnstitutunun teatrşünaslıq fakültəsinə keçib. III kursdan Moskvada, M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda təhsilini davam etdirib və 1955-ci ildə oranı fərqlənmə diplomu ilə bitirib.

"İki sevgi" (1960), "Həmişə səfərdə" (1963), "Qızıl qanad" (1965), "Qaytar ana borcunu" (1970), "Uşaqlar və ulduzlar" (1971) "Səfərdən sonra" (1972), "Tənbəl ayı balası" (1973), "Seçilmiş əsərləri. I cild" (1974, 1991, 2012, 2013), "Seçilmiş əsərləri. II cild" (1975, 1991, 2012, 2014), "Pillələr" (1978, 1987), "Gül və çörək" (1978), "Qız və kəpənək" (1979), "Qayıt" (1983), "Mavi



*Əli Kərim*

nəğmənin sahilində" (1991), "Neyləyim, şeirlə dərd söyləyirəm" (1999), "Nə xoşbəxt imişəm bir zaman, Allah!" (2015), "Metronun yaylı qapıları" (2019) və s. kitabları nəşr edilib.

Şeirlərinə "Nə gəlməz oldun", "Yar gəldi", "Azərbaycanım mənim", "Qayıt", "Yar gəldi", "Nə xoşbəxt imişəm" və s. manhılar bəstələnilib. Yaradıcılığı haqqında çoxlu sayda kitab və məqalələr yazılıb.

1969-cu ilin 30 iyununda Bakıda vəfat edib, Göyçayda dəfn olunub. Dəfn edildiyi yerdə Əli Kərim parkı salınıb, heykəli ucaldılıb. Bundan başqa, Bakı, Göyçay, Sabirabad şəhərlərində Əli Kərimin adını daşıyan küçə, Sumqayıtda Əli Kərim adına poeziya klubu vardır.

Göyçayın yetirdiyi böyük şəxsiyyət, Azərbaycanın görkəmli ziyalısı, xalq şairi Rəsul Rzanın yaradıcılığını onun oğlu, xalq



*Anar*

yazıçısı **Anar** (**Rzayev Anar Rəsul oğlu)** ləyaqətlə davam etdirir. Görkəmli nasir, dramaturq, kinodramaturq olan Anar 1938-ci il martın 14-də anadan olub. Anası şairə Nigar Rəfibəyli Azərbaycan Xalq Cümhuriyyətinin ilk səhiyyə naziri və Gəncə şəhərinin general-qubernatoru olan Xudadat bəy Rəfibəylinin qızıdır.

Məşhur Rəfibəylilər nəslindən olan Nigar xanım 1913-cü il iyunun 29-da Gəncədə anadan olub. Ata tərəfdən babası Ələkbər bəy Rəfibəyli – el ağsaqqalı, maarifçi, Azərbaycanda ilk siyası partiya olan "Difai" partiyasının yaradıcılarındandır. Ələkbər bəyin yeganə oğlu, Nigar xanımın atası Xudadat bəy ilk ali təhsilli cərrahlardandır. Xarkov Tibb Universitetini bitirdikdən sonra 17 il Gəncə xəstəxanasının baş həkimi və həkimlər cəmiyyətinin sədri kimi çalışıb.

1918-ci ildə Gəncədə müstəqil Azərbaycan Cümhuriyyəti qurulan zaman Xudadat bəy Rəfibəyli Fətəli xan Xoyskinin hö-

kumətində ilk səhiyyə naziri olub, bir il sonra isə Gəncə general-qubernatoru vəzifəsinə təyin edilib. 1920-ci il aprel bolşevik çevrilişindən sonra həbs edilib, Gəncə üsyanının təşkilində ittiham edilərək güllələnib.

Anar 1945-ci ildə 10 illik musiqi məktəbinə (indiki Bülbül adına məktəb) daxil olub və 1955-ci ildə həmin məktəbi gümüş medalla bitirərək, təhsilini Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində davam etdirib.

Anar yaradıcılıq fəaliyyətinə yeniyetməlik yaşlarından başlayıb. Onun "Keçən ilin son gecəsi" və "Bayram həsrətində" adlı ilk  hekayələri 1960-cı ildə "Azərbaycan" jurnalının dekabr nömrəsində çap olunub.

Anarın geniş oxucu kütləsinin diqqətini cəlb edən, dərin fəlsəfi-mənəvi mətləbləri və müasirliyin aktual ictimai-əxlaqi məsələlərini yüksək bədii səviyyədə əks etdirən müxtəlif ölkələrdə nəşr olunan kitablarının ümumi sayı 50-dən artıqdır. Bu əsərlərdən bir çoxu, o cümlədən "Ağ liman", "Dantenin yubileyi", “Mən, sən, o və telefon”, “Gürcü familiyası”, "Əlaqə", "Beşmərtəbəli evin altıncı mərtəbəsi", “Ağ qoç və qara qoç” kimi bir çox məşhur əsərləri müxtəlif dillərə tərcümə edilərək xarici ölkələrdə çap olunub.

Anar həm də kəskin ictimai problemləri əks etdirən satirik, dramatik nəsr və dram əsərlərinin, milli mənliyimizin, mədəniyyətimizin müxtəlif məsələlərinə həsr olunan esselərin müəllifidir.

Azərbaycanın bütün teatrlarında Anarın pyesləri tamaşaya qoyulub, on bir bədii filmin ("Torpaq. Dəniz. Od. Səma", "Gün keçdi", "Dədə Qoqud"- ilk iki hissəli Azərbaycan filmi, "Dantenin yubileyi", "Üzeyir ömrü", "Ötən ilin son gecəsi", "Qəm pəncərəsi", "İmtahan", "Əlaqə", "Təhminə", "Otel otağı"), bir neçə sənədli və televiziya filminin ("Dəniz", "Qobustan", "Daş saatın səsi", "Qədim Gəncə - Yeni Gəncə", "Bu - Səttar Bəhlulzadədir", "Bu - Ca-

vaddır", "Dindirir əsr bizi", "Evləri köndələn yar") ssenari müəllifidir. "Dantenin yubileyi" filminin, habelə iki hissəli "Üzeyir ömrü", və "Qəm pəncərəsi" filmlərinin quruluşçu rejissoru olub.

Şekspirin "Fırtına", B.Brextin "Qalileo Qaliley" pyeslərini, R.Taqorun "Bağban" mənsur şeirlərini, A.Blokun, V.Mayakovskinin, S.Yeseninin, B.Pasternakın şeirlərini Azərbaycan dilinə tərcümə edib.

Vətənpərvər ziyalı olan Anar həm də xalqımızın, ölkəmizin taleyində mühüm əhəmiyyət kəsb edən ümummilli məsələlərə öz mövqeyini bildirən fəal ictimai xadimdir. Onun təşəbbüs və rəhbərliyi ilə sovet dövründən dərc edilən “Qobustan” jurnalı, televiziya kanallarında apardığı verilişlər milli və dərin məzmunu ilə gənclərin maariflənməsində, vətənpərvərlik ruhunda tərbiyəsində, bəşəri mədəni dəyərlərə yiyələnməsində böyük rol oynayıb.

Görkəmli yazıçı Anar həm də ictimai xadimdir, hələ sovet dövründən müxtəlif tribunalardan, o cümlədən parlament kürsülərindən milli maraqlarımızı ifadə edən çıxışları, mərkəzi mətbuatda dərc olunan məqalələri və müsahibələri miili yaddaşımıza və istiqlal tariximizə əbədi həkk olunub.

Anar 1991-ci ilin martında Yazıçıların IX Qurultayında Azərbaycan Yazıçılar Birliyinin sədri seçilib və hazırda bu vəzifəni icra edir. 1995-ci və 2000-ci illərdə Milli Məclisin deputatı, Milli Məclisin mədəniyyət komissiyasının sədri olub.

Azərbaycan SSR əməkdar incəsənət xadimi, Azərbaycan SSR Dövlət mükafatı laureatı adına layiq görülüb. "İstiqlal", "Şöhrət", "Şərəf" ordenləri, "Heydər Əliyev Mükafatı", "Humay" mükafatı, Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) "Şərəf" medalı, "Üzeyir Hacıbəyli" medalı ilə təltif olunub. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsüdür.

Şair, dramaturq, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Əməkdar incəsənət xadimi **İsgəndər Coşqun (İsgəndər Məhəmməd oğlu Hümmətov)** 1927-ci ildə Göyçay şəhərində fəhlə ailəsində anadan olub. Burada orta təhsil alandan sonra Bakıda M.A.Əliyev adına Teatr İnstitutunun teatrşünaslıq fakültəsinə daxil olub. Həmin il "Mavzoleydə" adlı ilk mətbu şeiri "Ədəbiyyat və incəsənət" qəzetində çapdan çıxıb.



***İsgəndər Coşqun***

1952-ci ildə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunun poeziya şöbəsinə daxil olaraq, 1955-ci ildə oranı bitirib. 1962-ci ildən M.Qorki adına Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında ədəbi hissə müdiri işləyib.

Müxtəlif illərdə "Gəmidə söhbət", "Qığılcımlar", "Mən atamı düşünərkən", "Nəğmə dolu ürək" və s. kitabları çap olunub.

1986-cı ildə"Bakı Komissarları" pyesi tamaşaya qoyulub. Tamaşaya görə ona Azərbaycan Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı verilib.

S.Vurğunun "Komsomol poeması" əsasında yazdığı pyesinə görə Respublika Lenin Komsomolu mükafatına layiq görülüb. 22 may 1991-ci ildə "Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi" adına layiq görülüb.

Tanınmış incəsənət xadimi, məçhur dramaturq, şair, naşir, 1954-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olan İsgəndər Coşqun 1996-cı il dekabr ayının 10-da vəfat edib.

Azərbaycanın görkəmli şairi və jurnalisti, Azərbaycan Yazıçılar Birliyinin üzvü **İbrahim Göyçaylı (İbrahim Məmməd oğlu Əsgərov)** 1936-cı il noyabrın 12-də Göyçay rayonunun



*İbrahim Göyçaylı*

Alıkənd kəndində anadan olub. 1953-cü ildə Göyçay şəhərində orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsində təhsil alıb. 1958-ci ildə Universiteti bitirən İbrahim Göyçaylı əmək fəaliyyətinə qəzetdə müxbir kimi başlayıb. Sonra Azərbaycan Dövlət Nəşriyyatında redaktor, "Mədəni ticarət" qəzetində baş redaktor, Azərbaycan Televiziya və Radio Verilişləri Şirkətində redaktor, şöbə müdiri, baş redaktor kimi vəzifələrdə çalışıb. 1983-cü ildən 2007-ci ilə qədər baş redaktor müavini vəzifəsində fəaliyyət göstərib. Azərbaycan Dövlət Radiosunda 40 ilə yaxın müddətdə fəaliyyət göstərən İbrahim Göyçaylının milli radionun formalaşmasında xüsusi xidmətləri olub.

2006-cı ildə prezident İlham Əliyevin Sərəncamı ilə Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülüb. Gəncliyindən mətbuatda müxtəlif məzmunlu lirik şeirləri dərc olunub. “Dalğalar qoynunda”, “Yadigar sözlər”, “Gözlərinin işığında”, “Qərənfil işığı”, “Qoymayın qızları kədərlənməyə”, “Uzaq haraylara isinmir ürək”, “Ümiddən uzun gecə”, “Vaxt soruşsa”, “Lirika”, “Ulduzlar nədən danışır” və başqa kitabları nəşr olunub. Rusiyada, Gürcüstanda və İranda kitabları çap olunub. Yüzdən çox şeirinə mahnılar bəstələnib, tanınmış sənətkarlar tərəfindən ifa olunub. Dünya ədəbiyyatından bir çox tərcümələri var. 2007-ci il fevral ayının 24-də uzun sürən xəstəlikdən sonra vəfat edən məşhur şair İbrahim Göyçaylının xatirəsi doğulduğu rayonda da əziz tutulur. Hazırda Göyçay şəhərinin küçələrindən biri onun adını daşıyır.

Görkəmli şair, dramaturq **Feyruz Dadaş oğlu Məmmədov** 1940-cı il iyulun 4-ü Göyçay şəhərində anadan olub. Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirib. Əməkdar mədəniyyət işçisidir.

Feyruz Məmmədov hələ kiçik yaşlarında şeir yazmağa

böyük həvəs göstərib. 15 yaşında yazdığı "Ana" şeiri festivalda 1-ci yerə layiq görülüb. Qələmə aldığı minə yaxın şeiri, 20-dən artıq pyesi, qəzəlləri, rübailəri, poemaları müxtəlif illərdə dövri mətbuatda dərc olunub.



*Feyruz Dadaş oğlu Məmmədov*

Onun 1970-1980-ci illərdə Azərbaycan teatrının inkişafında önəmli rol oynayan - "Sirli dəyirman", "Dəli dünya", "Meşədə döyüş", "Ayrılıq", "Taleyin cəzası", "Anasının gül balası", "Ac qulağım, dinc qulağım", "Ayrılmırıq, vəssalam", "Tələ quran özü düşər", "Təlxəyin nağılı", "Ən ağır cəza" və s. pyesləri teatrsevənlərin yaxşı xatirindədir. Həmin pyeslərin ən böyük əhəmiyyəti ondan ibarətdir ki, onlar dünənimizi özündə əks etdirməklə, bu günümüzdə də aktuallığını itirməyib. Əsərlərində daima ikiüzlü, əhdinə, ilqarına dönük çıxan-

ları, əqidəsizləri ifşa etməklə bərabər, insanın saf amalla yaşamasını ön plana çəkib. İctimai-fəlsəfi əsərlərində də insana xas olmayan lovğalıq, şöhrətpərəstlik tənqid atəşinə tutulub. Onun 1980-ci ildə tamaşa qoyulan "Sirli dəyirman" əsəri öz dövrü üçün unudulmaz iz buraxıb. Pyes Musiqili Dram Teatrında tamaşaya qoyulub və Moskva şəhərində qızıl medal ilə təltif olunub. Əsərləri Musiqili Komediya Teatrı, Kukla Teatrı və Gənc Tamaşaçılar Teatrında səhnəyə qoyulub.

Feyruz Məmmədovun bir çox mahnıları Qızıl Fonda düşüb. "Körpə balam dil açır", "Xəzərin sahilində", "Səninlə olsam" və s. mahnıların sözlərinin müəllifidir. Eyni zamanda, bir çox uşaq əsərləri və şeirlər - "Tənbəl", "Sual-cavab", "İynə deyil, tikandır" və s. əsərlər yazıb.

2004-cü ildə F.Məmmədovdan bəhs edən "Ürəyi işıqlı insan" kitabı çapdan çıxıb.

Feyruz Məmmədov 27 noyabr 2002-ci ildə rəhmətə gedib.

Görkəmli alim, Azərbaycanda ekoloji təhsilin yaradıcılarından biri, coğrafiya elmləri doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar müəllimi, "Şöhrət" ordenli **Şövqi Yusifziya oğlu Göyçaylı** 20 may 1935-ci ildə Göyçay şəhərində ziyalı ailəsində anadan olub. 1958-ci ildə Azərbaycan Dövlət Universitetinin Geologiya-coğrafiya fakültəsinin coğrafiya şöbəsini bitirərək 1960-cı ildə ADU-nun "iqtisadi coğrafiya" ixtisası üzrə aspiranturasına qəbul olunub. 1965-ci ildə namizədlik, 1987-ci ildə isə Sankt-Peterburq Universitetində «Kənd əhalisinin məskunlaşması və onun yenidən qurulması» mövzusunda doktorluq dissertasiyalarını müdafiə edib.

1982-ci ildən BDU-da "Ətraf mühiti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə" kafedrasının (2015-ci ildən bu kafedra Coğrafi ekologiya kafedrası adlanır) müdiridir, 1989-cu ildən professordur. Ş.Y.Göyçaylının elmi yaradıcılığı əhali məs-



*Şövqi Yusifziya oğlu Göyçaylı*

kunlaşmasının nəzəri və tətbiqi problemlərinə, təbiətlə cəmiyyət arasındakı qarşılıqlı əlaqələrin coğrafi məsələlərinə, coğrafi ekologiyanın inkişafına və tədrisi məsələlərinə həsr olunub. 130-dan çox elmi əsərin, o cümlədən monoqrafiyaların, dərslik və dərs vəsaitlərinin müəllifidir. Azərbaycanın iri miqyaslı İqtisadi və Əhali xəritələrinin həmmüəllifi və müəllifidir. Azərbaycanda ekologiyaya həsr edilən bir şox toplu və məcmuələrin elmi redaktorudur. Azərbaycanın əhalisi, təbiətin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadəyə dair bir neçə proqramın tərtibində iştirak edib. Ş.Y.Göyçaylının təşəbbüsü və səyi nəticəsində ilk dəfə Azərbaycanda "coğrafiyaçı-ekoloq" ixtisası yaradılıb.

Ş.Y.Göyçayl altı namizədlik dissertasiyasının rəhbəri, üç doktorluq dissertasiyasının məsləhətçisi olub. O, Azərbaycan Coğrafiya Cəmiyyətinin Rəyasət Heyətində İqtisadi və Sosial

Coğrafiya bölməsinin rəhbəri, Elm və Texnika Komitəsi yanında Ekologiya komissiyasının üzvü, Coğrafiya üzrə ixtisaslaşmış müdafiə şurasının həmsədri, AAK-da Yer elmləri bölməsi üzrə ekspert şurasının, BDU-nun Böyük Elmi Şurasının üzvüdür. Respublika elmi konfranslarında, beynəlxalq konqreslərdə və simpoziumlarda, xüsusilə MAB-6, Abitat-II Beynəlxalq konfransların işində əməli fəaliyyət göstərib və məruzələrlə çıxış edib. Beynəlxalq Elmi İnkişaf və Beynəlxalq Ekologiya akademiyalarının həqiqi üzvüdür. Ş.Y. Göyçaylı müvafiq nazirliklərin fəxri fərmanları ilə təltif olunub, 2000-ci ildə "Əməkdar müəllim" fəxri adına layiq görülüb. 2009-cu ildə Bakı Dövlət Universitetinin 90 illik yubileyi ilə bağlı "Şöhrət" ordeni ilə təltif edilib.

Görkəmli teatrşünas alim, sənətşünaslıq elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü **İnqilab Saleh oğlu Kərimov** 1931-ci il aprelin 4-də Göyçay şəhərində anadan olub. Burada orta məktəbi bitirdikdən sonra 1948-1953-cü illərdə Azərbaycan Dövlət Teatr İnstitutunun Teatrşünaslıq fakültəsində təhsil alıb. 1957-ci il noyabrın 25-dən Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunda çalışan Kərimov burada kiçik elmi işçi, baş elmi işçi (1966-1985) olub. O, aspirantlıqdan şöbə müdiri vəzifəsinədək yüksəlib və 1985-ci ildən ömrünün sonunadək AMEA Memarlıq və İncəsənət institutunun Teatr, kino və televiziya şöbəsinin müdiri vəzifəsində çalışıbdır.

İnqilab Kərimov 1963-cü ildə "Sovet Azərbaycanının gənclər teatrı" adlı namizədlik, 1988-ci ildə "Azərbaycan teatrının yaranması, təşəkkülü və inkişafı problemləri (XIX əsrin sonu, XX əsrin əvvəlləri)" adlı doktorluq dissertasiyanı Moskvada müdafiə edərək sənətşünaslıq doktoru alimlik dərəcəsi alıb. 1988-ci ildə professor elmi adına layiq görülən İnqilab Kərimov 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilib.



*İnqilab Saleh oğlu Kərimov*

Alim-tədqiqatçı İnqilab Kərimov 1968-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində teatr tarixi, teatr tənqidi və dram nəzəriyyəsi fənlərini tədris edib. Həmin universitetin professoru olub.

İnqilab Kərimov Azərbaycan teatrının tarixinə, teatr sənətinin müxtəlif problemlərinə, tənqidinə və nəzəri məsələlərinə həsr olunan yüzlərlə məqalənin, həmçinin 200-ə yaxın elmi əsərin, habelə 25 monoqrafiya və kitabın müəllifidir. Onun "Abdulla Şaiq və teatr", "Ağadadaş Qurbanov", "Azərbaycan və gürcü səhnə ustalarının dostluğu", "Xalq istedadları", "Sovet Azərbaycanının gənclər teatrı", "Azərbaycan Dövlət Dram Teatrı", "Əbdürrəhim bəy Haqverdiyev və teatr", "Cəfər Cabbarlı adına Kirovabad Dövlət Dram Teatrı", "Əbdürrəhim bəy Haqverdiyev və teatr", "Gənclik və gözəllik teatrı", "Sənət yolu, dostluq yolu",

"Nəriman Nərimanov və teatr", "Azərbaycan teatrının təşəkkülü və inkişafı", "Türkiyə və Azərbaycan teatr əlaqələri", "Şuşa Ağdam teatrı", "Azərbaycan teatrı 125" və s. əsərləri var. Elmi əsərlərindən bir neçəsi rus dilində çap olunub. İnqilab Kərimov mətbuatda "İnqilab" imzası ilə də çıxış edib.

İnqilab Kərimov 22 iyul 2011-ci ildə uzun sürən xəstəlikdən sonra Bakı şəhərində 80 yaşında vəfat edib.

Göyçay rayonunda müharibədən sonra sənaye və kənd təsərrüfatı tədricən inkişaf edib. Rayonda fəaliyyət göstərən Toxuculuq Kombinatı, Konserv Zavodu, Yeyinti Məhsulları Kombinatı, Avtomobil Təmiri Zavodu respublikanın iri müəssisələrindən sayılırdı. Rayonda sənaye inkişaf etsə də, aqrar sahə rayonun əsas istehsal sahəsi olaraq qalırdı.

Müharibədən sonra rayonun əmək qabaqcılları müxtəlif dövlət mükafatları ilə təltif olunublar. Belə əmək qabaqcıllarından biri 1950-ci ildə Sosialist Əməyi Qəhrəmanı adı alan **Abdullayeva Nazlı Mürşüd qızı** (1 iyul 1902, Ərəbşahverdi, Bakı qu-



*Nazlı Mürşüd qızı Abdullayeva*

berniyası – 17 oktyabr 1978, Mallı Şıxlı, Göyçay rayonu) idi.

N.M.Abdullayeva 1 iyul 1902-ci ildə indiki Göyçay rayonunun Ərəbşahverdi kəndində anadan olub. 1948-ci ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olub. 1950-ci ildə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülən Nazlı Abdullayeva 1927-1965-ci illərdə Göyçay rayonunun "Yeni yol", "Azərbaycan" kolxozlarında işləyib, 1965-ci ildən isə ittifaq əhəmiyyətli fərdi pensiyaçı olub. 17 oktyabr 1978-ci ildə (76 yaşında) vəfat edib, Mallı Şıxlı  kəndində dəfn olunub. [2, s.39]

Göyçayın əmək qabaqcılları arasında Azərbaycan SSR Dövlət mükafatı laureatları da var. Bunlardan biri Məmmədnəbi Məhəmməd oğlu Daşdəmirov 1986-cı ildə bu yüksək ada layiq görülüb. O, Göyçay rayonunda M.Əzizbəyov adına kolxozun taxılçılıq briqadasının briqadiri kimi əldə etdiyi yüksək nailiyyətlərə görə bu şərəfə nail olub.

Sovet dövrünün 50-ci illərində Göyçay rayonu Qızılağac kəndindəki  "Bolqarıstan" adına kolxoz demək olar ki, rayonun ən qabaqcıl təsərrüfatı olub. Bu kolxozun nailiyyətləri haqqında hətta çoxcildlik "Azərbaycan tarixi" kitabında da  məlumat verilib:

"Azərbaycan kəndlərinin siması xeyli dəyişdi. Məsələn, Göyçay rayonunun "Bolqarıstan" kolxozunda geniş asfalt küçələr salınmış, şəhərtipli çoxlu evlər tikilmişdi. Gecələr küçələr elektriklə işıqlandırılırdı. Kolxozun öz univermağı, onillik məktəbi və xəstəxanası var idi. [1, s.128]

Göyçay rayonu "Bolqarıstan" kolxozunun əldə etdiyi uğurlara görə, kolxozun sədri  Qafur Əbilqasım oğlu Qasımov SSRİ Ali Sovetinə 5-ci (1958-1962) və 6-cı çağırış (1962-1966) seçkilərində Göyçaydan SSRİ Millətlər Sovetinə deputat seçilib.

Sovet hakimiyyəti dövründə fəaliyyəti ilə ölkə gündəmində olan Göyçayın tanınan şəxsiyyətlərindən biri də **Abdulla Cəbrayılov** olub.



*Abdulla Cəbrayılov*

Filologiya üzrə fəlsəfə doktoru Əkbər Əlioğlu "Göyçay - nə bilirik" kitabında qeyd edir ki, Abdulla Cəbrayılov uzun illər Göyçayın Potu və Çərəkə kəndlərinin kolxoz sədri vəzifəsində çalışıb. Bugün bütün Azərbaycanda məşhur olan "Çərəkə gölü" də məhz Abdulla Cəbrayılovun əməyi nəticəsində yaradılıb.

Sovet dövründə cəmiyyət həyatında əsas rol oynayan hadisələrdən biri - ali dövlət hakimiyyəti olan SSRİ Ali Sovetinə, Azərbaycan SSR Ali Sovetinə və yerli sovetlərə keçirilən seçkilər idi. Bu seçkilər ölkənin hər yerində böyük təntənə və şadyanalıqla keçirilirdi. Ölkənin hər yerində olduğu kimi Göyçayda da həm yerli sovetlərə, həm də SSRİ Ali Sovetinə deputatlar seçilirdi. SSRİ Ali Soveti - Sovet İttifaqının ən yüksək orqanı idi. Bu orqana deputatlar 4 il (sonradan 5 il) müddətinə gizli səsvermə yolu, bərabər və birbaşa seçkilər ilə seçilirdi.

Azərbaycan SSR-dən (Naxçıvan MSSR və Dağlıq Qarabağ MV ilə birlikdə) İttifaq və Millətlər Sovetinə 1938-1991-ci illərdə cəmi 710 nəfər seçilib ki, bunların arasında Göyçaydan seçilən deputatlar da var.

Göyçaydan SSRİ Ali Soveti Millətlər Sovetinə seçilən deputatların mənşəyini təhlil etdikdə məlum olur ki, 1938-1958-ci illər arası seçilən deputatlar Göyçayın özündən, yerli əhalinin içərisindən deyil, kənar şəxslər olub. 1958-1984-cü illərdə, xüsusilə də Ümummilli lider Heydər Əliyevin Respublikaya rəhbərlik etdiyi dövrdə seçilənlər isə Göyçayın yerli əhalisini təmsil edən şəxslər olub. Lakin sonradan, yəni 1984-1991-ci illərdə yenə də məlum olmayan səbəblərdən Göyçaydan seçilən deputatlar qonşu rayonların nümayəndələri olub.

SSRİ Ali Soveti Millətlər Sovetinə Göyçay seçki dairəsindən 1938-ci ildən 1991-ci ilə qədər aşağıdakı deputatlar seçilib:

**I çağırış (1938-1946)**

- Kazım Heydər oğlu İsmayılov (1905–1981) - Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin birinci katibi, Azərbaycan KP Ağdaş rayon Partiya Komitəsinin birinci katibi, Azərbaycan KP Salyan rayon Partiya komitəsinin birinci katibi

**II çağırış (1946-1950)**

- Pərigül Hacırza qızı (?–?) "Leninneft" trestinin zəhmətkeşi

**III çağırış (1950-1954)**

- Qəzənfər Cəfər oğlu Məmmədov (1905–1973) - "Kommunist" qəzetinin redaktoru

**IV çağırış (1954-1958)**

- Sadıq Hacıyarəli oğlu Rəhimov (1914–1975) - Azərbaycan SSR Nazirlər Sovetinin sədri

**V çağırış (1958-1962)**




- Qafur Əbilqasım oğlu Qasımov (1909–?) - Göyçay rayonundakı “Bolqarıstan” kolxozunun sədri

**VI çağırış (1962-1966)**

- Qafur Əbilqasım oğlu Qasımov (1909–?) - Göyçay rayonundakı “Bolqarıstan” kolxozunun sədri

**VII çağırış (1966-1970)**

- Səməd Ağalar oğlu Xəlilov (1911–1974) - Göyçay rayonundakı Əzizbəyov adına kolxozun kolxozçusu

**VIII çağırış (1970-1974)**

- Qüdrət Osman oğlu Vəliyev (d.1935) - Göyçay rayonundakı Kalinin adına kolxozun mexanizatoru

**IX çağırış (1974-1979)**

- Naibə İsmayıl qızı İsmayılova (d.1950) - Göyçay rayonundakı “Azərbaycan” kolxozunun manqabaşçısı

**X çağırış (1979-1984)**

- Naibə İsmayıl qızı İsmayılova (d.1950) - Göyçay rayonundakı “Azərbaycan” kolxozunun manqabaşçısı

**XI çağırış (1984-1989)**

- Yeganə Gülalı qızı Abdullayeva (d.1961) - Kürdəmir rayonundakı “Moskva” kolxozunun kolxozçusu

SSRİ-nin süqutu ərəfəsində, konkret olaraq 1989-cu ildə ölkədə həyata keçirilən yenidənqurma, aşkarlıq konsepsiyası və milli azadlıq hərəkatlarının təsiri ilə SSRİ Ali Sovetinə XII çağırış seçkilər Xalq deputatlarının qurultayına seçkilərlə əvəz olundu.

**Xalq deputatlarının qurultayı (1989–1991)**

- Ruhi Mürsəl qızı Ələsgərova (d.1934) - İsmayıllı rayonundakı Lahıc qəsəbə XDS sədri [8].

Yeni qəbul edilən Konstitusiyaya əsasən Azərbaycanın qanunvericilik orqanı 1938-ci ildə yeni formatda – Respublikanın Ali Soveti kimi təşkil olundu. Lakin bu, adi forma dəyişikliyi deyildi. Deputatların tərkibi, kimlərin seçilməsi, parlamentdə neçə nəfər fəhlə, kolxozçu, qulluqçu, qadın, gənc, bitərəf və s. olması yuxarıdan müəyyən edilirdi. I çağırış Azərbaycan SSR Ali Sovetinə birbaşa seçkilərdə (24 iyun 1938-ci il) seçilən 310 deputatdan 107-si fəhlə, 88-i kolxozçu, 115-i ziyalı-qulluqçu, bunlardan 72-si qadın idi. Bu seçkidən sonra II (1946-1950); III (1950-1954); IV (1954-1958); V (1958-1962); VI (1962-1966); VII (1966-1970); VIII (1970-1974); IX (1974-1979); X (1979-1984); XI (1984-1989); XII (1989-1991) çağırış Azərbaycan SSR Ali Sovetinə seçkilər olub və bu seçkilərin hər birindən sonra qanunvericilik orqanında Göyçay əhalisini 3 deputat təmsil edib. Məsələn, Azərbaycan SSR Ali Sovetinin IX çağırış seçkilərində (təkrar seçkilər - 1976-cı il iyulun 4-də) seçilən 400 deputat sırasında Göyçaydan aşağıdakı deputatlar olub:

- Cəfərova  Şərəf Əliqulu qızı (d.1953) - Göyçay rayonundakı “Şirvan” kolxozunun pambıqçısı - 191 nöm-

rəli Qaraməryam seçki dairəsi;

- Əsgərov İsmayıl Nəsrulla oğlu (d.1914) - Azərbaycan KP MK təşkilat partiya işi şöbəsinin müdiri - 190 nömrəli Göyçay kənd seçki dairəsi;
- Tahirov Heybət Adil oğlu (d.1933) - Azərbaycan KP Göyçay RPK-nın birinci katibi - 189 nömrəli Göyçay şəhər seçki dairəsi. [3; 4]

Sovet dövründə deputatlar kimi, SSRİ-nin yüksək səviyyəli ordenləri ilə təltif olunan şəxslər də toxunulmaz hesab olunur, onların qanuna zidd əməllərinə göz yumulurdu. Lakin faktlar sübut edir ki, bu məsələdə istisnalar da olub. Məsələn, Azərbaycan KP MK-nın I katibi M.C.Bağırovun rəhbərliyi dövründə, konkret olaraq 1948-ci ildə SSRİ Dövlət Nəzarəti nazirliyi, 26 Bakı komissarlarından biri olan Məşədi Əzizbəyovun oğlu Əzizağa Əzizbəyovun öz vəzifə səlahiyyətlərindən sui-istifadə etməsi, Abşeron yarımadasında 7 hektar kolxoz torpağını mənimsəyərək Bakının Şüvəlan kəndindəki bağına birləşdirməsi haqqında faktı aşkara çıxarıb. Bundan başqa, müəyyən edilib ki, Ə.Əzizbəyov həmin ərazidə meyvə-tərəvəz yetişdirib satdıraraq böyük gəlir əldə edib, dövlət hesabına böyük ev və hovuz tikdirib. Məhz buna görə Ə.Əzizbəyov nəinki işdən çıxarılıb, hətta kommunist partiyası sıralarından qovulub. [15, s.131]

Buna oxşar hadisə Göyçayda da baş verib. Göyçayda prokuror işləyən C.Hüseynovun kitabının “Göyçay rayonunda fəaliyyətim və cinayətkarlıqla mübarizə” başlıqlı bölməsində digər məsələlərlə yanaşı, oğurluq edən "Lenin" ordenli bir rəisin həbsi haqqında məlumat verilir. Məlumatda qeyd olunur ki, Ucar rayonu Müsüslü dəmir yolunun rəisi, "Lenin" ordenli Dəmir Dəmirov Göyçay rayonu Cəfər Cəbbarlı adına Qaraməryəm sovxozunun qoyun fermasından ferma müdiri və bir çobanla razılaşaraq, sovxozun qoyun sürüsündən 9 baş iri, kök, qulağına nişanə vu-

rulan erkək toğlunu götürərək kəsdirib, oğlunun toy mərasimini keçirib. Cinayətin üstü dərhal açıldı, 9 qoyunun dərisi D.Dəmirovun həyətində aşkar edilərək götürüldü. Qoyun fermasının müdiri və çoban həbs olunsa da, Dəmir Dəmirov "Lenin" ordenli olduğuna görə, onun haqqında qaldırılan cinayət işinin icrasına xitam verildi. Məhbuslar, şahidlər məhkəməyə gəlsə də, D. Dəmirova teleqram göndərilməsinə baxmayaraq, məhkəməyə gəlməkdən imtina edirdi. Ucar rayonunun rəhbər işçiləri də xəbərdarlıq etsələr də, D.Dəmirov gəlmək istəmirdi. Bir xeyli vaxt keçmişdi ki, günün ikinci yarısı otağa yekəpər, uzun adam girdi. Çəkisi 140-150 kilo olardı, otağa girdikdən sonra bildirdi ki, Dəmir Dəmirov mənəm. "Lenin" ordenini də döşündən asmışdı. Məhkəmədə o, bütün əməllərini etiraf etdi. Müşavirə keçirildi. İşi əlavə istintaqa qaytarmaqla D.Dəmirov haqqında cinayət işi qaldırıldı, qəti imkan tədbiri olan həbs seçildi. Milislər məhbusu apararkən "Lenin" ordenini açıb məhkəməyə verdilər. Hər iki rayonun rəhbərliyi onu müdafiə etməyə çalışsa da, D.Dəmirov həbsdən yaxasını qurtara bilmədi. [5, s.48-50]




***"Göyçay" gəmisi***

Bəzi mənbələrdə sovet dövründə SSRİ Xəzər Gəmiçiliyinə aid mühəndis Belovun layihəsi əsasında Oka gəmiqayırma zavodunda 28 oktyabr 1960-cı il tarixində istehsal olunan, 31 dekabr 1983-cü ildə Xəzər dənizində batan"Göyçay" adlı gəmi haqqında da məlumat var. Hadisə gəmi Bakıdan Aktau limanına üzərkən, güclü fırtınaya düşdüyü Dərbənd yaxınlığında baş verib. [16]

Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə Göyçay rayonunun iqtisadi inkişafına yaxından köməklik edib, Göyçayda çoxmərtəbəli yaşayış evləri, yaraşıqlı məktəb binaları, uşaq bağçaları, mədəniyyət evi, çörək zavodu, Nar emalı zavodu kimi nəhəng sənaye obyektlərinin inşasına diqqət göstəribdir.

Respublikada hakimiyyətinin birinci dövründə (1969-1982) Heydər Əliyev üç dəfə - 1972, 1978, 1981-ci illərdə Göyçay rayonuna səfər edib və hər gəlişində rayonun çox ciddi problemlərinin, taleyüklü məsələlərin həllinə yaxından köməklik edib.

Heydər Əliyev 1972-ci ildə "S.Vurğun" kolxozunda, 1978-ci ildə "Şirvan" və "Engels" kolxozlarında, 1981-ci ildə isə Bığır və İnçə kəndlərində olub. Bundan sonra onun göstərişi ilə 75 çarpayılıq xəstəxana tikilib.

Ümummilli lider Heydər Əliyev 1972-ci ildə Göyçay şəhərini sel sularından mühafizə edən bəndin tikintisinə, 1978-ci ildə rayonda olarkən, Törə və Çərmədil dağlarında əkinə yararlı torpaqların suvarma suyu ilə təminatı probleminin həll edilməsi üçün lazımi göstərişlər verib. Qısa müddət ərzində 800 hektar torpaq sahəsi rayonun əkin dövriyyəsinə daxil edilib. Bundan başqa, 1982-ci ildə Göyçay rayonunda olarkən, rayon sakinləri həyətyanı torpaq sahələrində becərdikləri nar məhsulunun dövlət tərəfindən qəbulu, tədarükü və emalı üçün rayonda yeni müəssisə yaradılmasını xahiş edir, həmin ildə də



*Heydər Əliyev Göyçayda - 29-30 sentyabr 1978-ci il*
*Mənbə: Azərbaycan Respublikası Kino-Foto Sənədləri Arxivi*

Heydər Əliyevin sərəncamı ilə rayonda nar emalı zavodunun tikintisinə başlanılır və qısa müddət ərzində istifadəyə verilməsi təmin olunur.

Göyçayda Heydər Əliyevin tapşırığı və ardıcıl diqqəti sayəsində Göyçay çayı üzərində respublikamız üçün strateji, rayonumuz üçün həyati təminatlı yeni körpü tikilib. Məhz Heydər Əliyevin köməkliyi nəticəsində Göyçay çayında sahilbərkitmə və seldən mühafizə məqsədi ilə 7 metr hündürlüyündə, 252 metr uzunluğunda beton bənd çəkilib. Bu, sahil boyunca yaşayan 200 nəfərdən artıq ailənin ev və həyətyanı torpaq sahələrinin sel sularından dağılmaq təhlükəsini aradan qaldırıb. Heydər Əliyevin Göyçaya etdiyi səfəri əks etdirən eksponatlar rayonun Tarix Diyarşünaslıq Muzeyində və Heydər Əliyev mərkəzində saxlanılır. [5, s.48-50]

SSRİ rəhbərliyinin 1985-ci ilin aprel ayında irəli sürdüyü yenidənqurma, aşkarlıq konsepsiyası ölkədə olan ziddiyyətlərin, millətlərarası münasibətlərin daha da kəskinləşməsinə səbəb oldu. Sovet rəhbərliyinin səhv siyasəti və beynəlxalq qüvvələrin dəstəyi ilə Azərbaycanın Dağlıq Qarabağ ərazisində və Ermənistan SSR-də tarixən öz ata-baba yurdlarında yaşayan azərbaycanlılara qarşı erməni radikal qüvvələrinin düşmənçiliyi günü-gündən artırdı. Azərbaycanlıların öz ata-baba yürdlarından kütləvi şəkildə qovulması və sovet rəhbərliyinin bunun qarşısını almaması, respublikada 1988-1991-ci illərdə milli-azadlıq hərəkatına səbəb oldu. Bu mübarizədə Azərbaycanın digər rayon və şəhərlərinin əhalisi kimi göyçaylılar da fəal iştirak ediblər.

Azərbaycanda günü-gündən yüksələn milli-azadlıq hərəkatının qarşısını almaq üçün SSRİ rəhbərliyinin göstərişi ilə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıya müxtəlif istiqamətlərdən yeridilən qoşun qırğın törətdi. 1990-cı il yanvarın 20-də Bakı faciəsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarında qeyd olunurdu ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə və Azərbaycanın bir neçə rayonuna keçmiş Sovet İttifaqının qoşun hissələri fövqəladə vəziyyət elan edilmədən yeridilib, dinc əhaliyə divan tutulub, Bakıda və respublikanın rayonlarında 131 nəfər öldürülüb, 744 nəfər yaralanıb, yüzlərlə adam qanunsuz həbs olunub, dövlət əmlakına, ictimai və şəxsi əmlaka böyük zərər vurulub. [12,s.294]

Bakıda 20 yanvarda qətlə yetirilənlərin arasında göyçaylı şəhidlər Mehman Muradov və Rauf İsayev da var. Onlar "Göyçayın Şəhidlər Xiyabanında" dəfn olunublar.

Hər il 20 Yanvar faciəsinin ildönümü ilə bağlı minlərlə göyçaylı Şəhidlər xiyabanını ziyarət edir, müstəqillik uğrunda şəhid olan soydaşlarımızın xatirəsini ehtiramla anırlar. "Bu fa-



*Göyçaylı 20 Yanvar şəhidlərinin məzarları*

ciənin ağır nəticələrini xatırlayan rayon sakinləri qətliam zamanı həlak olan iki göyçaylının da xatirəsini kədər hissi ilə yad ediblər. 20 Yanvar faciəsəni xalqımıza qarşı ən qəddar terror aktı kimi qiymətləndirən rayon sakinləri bildiriblər ki, sovet imperiyasının məqsədi xalqımızın azadlıq əzmini qırmaq olsa da, məqsədinə nail ola bilməyib. Əksinə, millətimizin mübarizliyi daha da artıb". [18]

Azərbaycanın dövlət müstəqilliyinin bərpası uğrunda mübarizə 20 Yanvar faciəsindən sonra daha da gücləndi. Bunun nəticəsində Azərbaycan 18 oktyabr 1991-ci ildə özünün dövlət müstəqilliyini bərpa etdi. SSRİ-nin süqutu digər respublikalar kimi Azərbaycanın, o cümlədən Göyçayın da iqtisadiyyatına ağır zərbə vurdu. Ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illərdən fərqli olaraq, sonrakı illərdə Göyçayın iqtisadiyyatı inkişaf etmək əvəzinə tədricən geriledi, SSRİ-nin süqutu ərəfəsində isə iflic vəziyyətə düşdü.

Rayonun təsərrüfatında keçid dövrünün yaratdığı böhran sonrakı illərdə tədricən aradan qaldırıldı.

**İstifadə olunan ədəbiyyat**


1. "Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər)", Bakı, 2008

2. "Azərbaycan Milli Ensiklopediyası. I cild", Bakı, 2009

3. "Azərbaycan SSR Ali Soveti (1920–1991-ci illər)" - https://meclis.gov.az/

4. "Азәрбајҹан ССР Али Советинин депутатлары. Доггузунҹу чағырыш (aze-ru)", Бакы, 1976

5. Hüseynov C., "Mənim xidməti və siyasi fəaliyyətim", Bakı, 2012

6. Kərimova İ.M., "Göyçay rayonu toponimlərinin linqvistik təhlili", "Filologiya məsələləri", №4, Bakı, 2012, s. 98-101

7. Kərimova İ.M., "Göyçay rayonu toponimlərinin linqvistik təhlili", "Azərbaycan dili Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı", Bakı, 2013

8. Musayev M., "Azərbaycanlı deputatlar SSRİ Parlamentində 1938–1988", Bakı, 2002

9. Nazim Mustafa, "Erməni cinayətləri - 1948-1953-cü illər" , "Xalq qəzeti", 06-07.01.2009

10. Paşayev E.P., Həsənov F.H., "Azdövsutəslayihə İnstitutunun tarixi və inkişaf yolu", Bakı, 2010, 192 s.

11. Zülfüqarlı M.P., "Tarixşünaslıq (1920-1991-ci illər) Azərbaycan tarixi - Dərslik", Bakı, 2017, 486 s.

12. Zülfüqarlı M.P., "İknci Respublikanın tarixi (1920-1991-ci illər)" Bakı, 2020. 310 s.

13. https://heydaraliyev-centers.az/goychay/heydar-aliyev-ganja

14.http://rasulrza.musigi-dunya.az/poemalar/babek.shtml

### *Rus dilində*

15. Исмаилов Е.Р., «Власть и народ. Послевоенний сталинизм в Азербайджане. 1945-1953», Баку, 2003 г., 344 с.

16. https://tumba.kz

17. https://www.vokrugsveta.ru

18. http://goychay-ih.gov.az/news/318.html

# Göyçay Azərbaycanın dövlət müstəqilliyinin bərpası və inkişafı dövründə

## *1. Azərbaycanın istiqlalı və ərazi bütövlüyünün bərpası uğrunda canlarını fəda edən Göyçay şəhidləri*

Azərbaycanın Dağlıq Qarabağ bölgəsində 1988-ci ildən başlanan erməni seperatizmi respublika ərazisinin 20%-nin Ermənistan silahlı qüvvələri tərəfindən işğalına səbəb oldu. Respublikanın ərazi bütövlüyü uğrunda 1988-ci ildə başlayan Vətən müharibəsinin I mərhələsi (1988–1994) 1994-cü ilin may ayında Bişkek sazişi ilə başa çatdı. Buna baxmayaraq, cəbhə bölgəsində ermənilər tərəfindən atəşkəs rejiminin tez-tez pozulması canlı qüvvə sarıdan yeni itkilərə səbəb olurdu.

2016-cı il aprel ayının əvvəllərində Azərbaycanın cəbhə xəttindəki mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə məruz qalanda, ordumuzun bölmələri əks-həmlə ilə təxribatların qarşısını aldı. Döyüşlər Azərbaycan ordusunun qələbəsi ilə nəticələndi. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqelər düşməndən azad olundu.

Aprelin 4-ü Ermənistan ordusu itirilən mövqelərini geri qaytarmaq məqsədilə cəbhənin, əsasən Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində mövqelərimizə yenidən hücum etdi, təmas xəttinə yaxın yaşayış məntəqələrimizi intensiv atəşə tutdu. Amma döyüşçülərimizin şücaəti sayəsində düşmən məqsədinə nail ola bilmədi.

2016-cı il Aprel döyüşləri zamanı şəhid olan qəhrəmanlar arasında göyçaylı Teymur Qasımov da var idi. Şəhidin adını əbə-

diləşdirmək üçün Göyçayın mərkəzi küçələrindən birinə onun adı verilib. Həmin küçədə Teymur Qasımovun büstü qoyulub.

Erməni silahlı qüvvələri Aprel döyüşlərində böyük itkilərə məruz qaldı. 320-dən artıq düşmən məhv edildi və 500-dən artıq erməni hərbi qulluqçusu yaralandı. Qarşı tərəfin 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı, Madagiz yaşayış məntəqəsinə yerləşən qərargahı və əsas hərbi hissələri məhv edildi. Azərbaycan Milli Ordusu Ağdərə-Madagiz, Cəbrayıl istiqamətindəki yolların nəzarətdə saxlanılması imkanı əldə etdi. [15]

Birləşmiş Millətlər Təşkilatının 1993-cü ildə qəbul etdiyi bütün işğalçı qüvvələrin Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsinə (822, 853, 874 və 884 saylı) baxmayaraq, Ermənistan işğalı davam etdirməklə beynəlxalq hüququn əsas prinsipini kobud şəkildə pozurdu. ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə uzun illər aparılan danışıqların heç bir nəticə verməməsi, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin 30 ilə yaxın icra olunmaması xalqın səbr kasasanı doldururdu.

2020-ci ilin iyul ayında Ermənistanın Azərbaycanla dövlət sərhədinin Tovuz istiqamətində növbəti hərbi təxribatı, həmin ilin avqust ayında terror aktları törətmək məqsədilə Azərbaycana diversiya qrupu göndərməsi düşmənin günü-gündən azğınlaşmasını sübut edirdi. Məlumat üçün qeyd edək ki, Tovuz rayonu Azərbaycanın mühüm nəqliyyat və enerji yollarını qlobal bazara bağlayan strateji bir bölgədir. Məsələn, Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri, Cənubi Qafqaz təbii qaz boru kəməri (SCP) və Bakı-Tbilisi-Qars (BTK) dəmir yolu Tovuz rayonundan keçir. Sərhəddə baş verən həmin toqquşmalar nəticəsində 61 fərdi yaşayış evi dağıldı və əkin sahələri məhv edildi. [1, s.7]

2020-ci il sentyabrın 24-də Azərbaycan Prezidenti İlham

Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasında çıxışı zamanı Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlaşması barədə dünya birliyini yenidən xəbərdar etdi. 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti irimiqyaslı hərbi əməliyyatlara başlamasına, Azərbaycan Ordusunun mövqelərinə və mülki yaşayış məntəqələrinə atəş zərbələri endirməsinə cavab olaraq, Azərbaycan ordusu əks-hücum əməliyyatına başladı. Bununla da tariximizin ən şərəfli səhifələrindən biri olan - işğal olunan ərazilərin azad edilməsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi (27 sentyabr-10 noyabr 2020-ci il) baş verdi.

Azərbaycan ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib. 44 gün ərzində həyata keçirilən sürətli döyüş əməliyyatları ilə Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olunub. İran İslam Respublikası ilə dövlət sərhədimizin 132 km-lik hissəsi işğaldan azad edilib və orada sərhəd zastavaları qurulub.

2020-ci il noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistan Baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzaladılar. Bəyanata əsasən, noyabrın 20-də Ağdam rayonu, noyabrın 25-də Kəlbəcər rayonu, dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verilirdi. Noyabrın 10-da hərbi əməliyyatlar dayandırıldıqdan sonra, Qarabağ ərazisindəki digər şəhər, qəsəbə

və kəndlər üzərində də Azərbaycanın suveren hüquqları tanındı, Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu. [5]

Azərbaycan Respublikasının digər bölgələrinin əhalisi kimi Göyçayın qəhrəman gəncləri də dövlət müstəqilliyinin və ərazi bütövlüyünün bərpası uğrunda mübarizənin daim ön sıralarında olub və vətən uğrunda canlarını fəda etməyə daim hazır olduqlarını döyüşlərdə şərəflə sübut ediblər. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi - Prezident Kitabxanasının hazırladığı sənəddə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə Göyçay rayonunun 163 şəhid verdiyi, 44 nəfərin itkin düşdüyü, 106 nəfərin şikəst olduğu bildirilir. [21]

Sonrakı illərdə aparılan araşdırmalar bu rəqəmin daha da dəqiqləşdirilməsinə imkan verib. Bu araşdırmaların nəticəsində məlum olub ki, vətən torpaqlarının azadlığı uğrunda Göyçay rayonu 195 şəhid verib. Göyçaylı qəhrəmanların 149 nəfəri 2016-cı il iyun ayının 14-nə kimi, 46 nəfəri isə 44 günlük Vətən müharibəsində (27 sentyabr - 10 noyabr 2020-ci il) şəhid olub. Göyçaylı şəhidlər haqqında dəqiq statistik məlumatların əldə edilməsində Göyçay rayonunun vətənpərvər və zəhmətkeş kitabxana işçilərinin əməyi xüsusi qeyd edilməlidir. Məhz bu vətənpərvər insanların apardığı tədqiqatlar nəticəsində 2016-cı il iyun ayının 14-nə kimi, aşağıdakı 149 göyçaylı şəhidin adı dəqiqləşdirilib:

***Abbasov Babək Xeyrəddin oğlu, Baxışov Nemət Şərif oğlu, Abdulxalıqov Teymur Sayəddinoğlu, Beydullayev Dəyanət Qiyas oğlu, Bəkirov Hasil Cəlil oğlu, Abdullayev Elman Tapdıq oğlu, Bəkirov Yusif Sədi oğlu, Abdullayev Elşən Miri oğlu, Cavadov Eldəniz İsrafil oğlu, Abdullayev Nahid Abdulla oğlu, Cəfərov Aydın Yasin oğlu, Abdullayev Səbuhi Bayram oğlu, Cəfərov Xocrov Mirzə oğlu, Abdullayev Teymur Ağarəhim***

*oğlu, Çəndirli Elşad Məmməd oğlu, Dadaşov Səxavət İnqilab oğlu, Abdullayev Teyyub Abdulla oğlu, Daşdəmirov Elşad Şaban oğlu, Abseyidov Vahid Seyid oğlu, Eminov Mübariz Şirin oğlu, Abdullayev Salman Süleyman oğlu, Eyvazov Məsud Eynulla oğlu, Ağamalıyev Qüdrət Malik oğlu, Əhmədov Əhməd İqnat oğlu, Ağayev Ağaəli Biləndər oğlu, Əhmədov Sərdar Aslan oğlu, Babayev Rəhman Əlibala oğlu, Əkbərov Elton Əsgər oğlu, Baxışov Qeys Dövlətxan oğlu, Əliyev Əli Feyzi oğlu, Əliyev Laçın Hacalı oğlu, İsmayılov Hümbət Məhəmməd oğlu, Əliyev Ruslan Tofiq oğlu, Əliyev Şair Heydər oğlu, İsmayılov İsmayıl Arif oğlu, Əliyev Vüqar Hacağa oğlu, İsmayılov Mansur Yaşar oğlu, Əmirov Teymur Yelmar oğlu, İsmayılov Natiq Paşa oğlu, Əsədov Bəxtiyar Salam oğlu, İsmayılov Nəsimi Əliyar oğlu, Əsədov Vahid Nəriman oğlu, İsmayılov Zaur Alxan oğlu, Əsgərov Əlvan Nurəddin oğlu, İsrəfilov Ceyhun Malik oğlu, Əzizov Cəsarət Əhməd oğlu, Kərimov Elşən Kərim oğlu, Əzizov Davud Əhməd oğlu, Kərimov Qədir Qulu oğlu, Əzizov Elman İmran oğlu, Kərimov Mayis Vaqif oğlu, Əzizov Əziz Lətif oğlu, Kərimov Nəsimi Əliyoldaş oğlu, Feyziyev Məzahir Məmmədkərim oğlu, Kərimov Seymur Məhəmməd oğlu, Kovalyov Yuri Petroviç, Hacıyev Araz Mahir oğlu, Qədirov Ceyhun Səlim oğlu, Hacıyev Faiq Qədir oğlu, Qədirov Mayis Firidun oğlu, Hacıyev Mais Qərib oğlu, Quliyev Azər İsfəndiyar oğlu, Hacıyev Zəfər Qüdrət oğlu, Quliyev Xeybər Mehdiqulu oğlu, Həkimov Lətif Rafiq oğlu, Qurbanov Elsən Ağasəf oğlu, Həmidov Habil Abdul oğlu, Qurbanov Şahkərəm Böyükağa oğlu, Həmidov Şəmsi Şakir oğlu, Həsənov Niyaz Əlisa oğlu, Mahmudov Anar Ağabəy oğlu, Həsənov Nizami Saday oğlu, Maqsudov İxtiyar Nəcməddin oğlu, Hüseynov Əvəz Nəsib oğlu, Mehdiyev Əlfağa Nadir oğlu, Hüseynov Həsrət Hüseyn oğlu, Mehdiyev Kamran Mehdi oğlu, Hüseynov Mirzağa Mirhüseyn oğlu, Meh-*

*tiyev Cəlal Hətəm oğlu, Məcidov Elşən Qafur oğlu, Xalidov Fuad Faiq oğlu, Məhərrəmov Eldar Aydın oğlu, Xəlilov Ceyhun Əhməd oğlu, Məmmədov Aydın Nüsrət oğlu, Xəlilov Mübariz Yaqub oğlu, Məmmədov Cavanşir Heydər oğlu, İbrahimov Ceyhun Rəşad oğlu, Məmmədov Ceyhun Ənvər oğlu, İbrahimov Xəlil Bahadur oğlu, Məmmədov Coşqun Ərzuman oğlu, İbrahimov İsmayıl Nurəddin oğlu, Məmmədov Daşqın Baloğlan oğlu, İcmayılov Zabit Maqsud oğlu, Məmmədov Ədalət Həsən oğlu, İsayev Rauf Soltanməcid oğlu, Məmmədov Fuad Məmməd oğlu, İsayev Zaur Qurban oğlu, Məmmədov Habil Firuddin oğlu, İsgəndərov Raqib Fərhad oğlu, Məmmədov Sahib Əlibala oğlu, İsgəndərov Sarvan Nürəddin oğlu, Məmmədov Səid Qoca oğlu, İslamov İslam Aslan oğlu, Məmmədov Şaiq Əjdər oğlu, İsmayılov Ayaz Feyruz oğlu, Məmmədov Təbriz Fikrət oğlu, İsmayılov Əli Fərzalı oğlu, Mikayılov Ziyad Alı oğlu, Mirzəyev Səyavuş Sabir oğlu, Sadıqov Ceyhun Surxay oğlu, Mövsümov Ceyhun Ədalət oğlu, Salahov Sakit Akif oğlu, Muradov Mehman Əsəd oğlu, Salehov Siracəddin Firidun oğlu, Muradov Mütalib İnqilab oğlu, Seyidov Elnur Müseyib oğlu, Muradov Varis Arif oğlu. Süleymanov Famil Şakir oğlu, Musayev Sahib Yunis oğlu, Süleymanov Sədi Heydər oğlu, Mustafayev Fariz Kamal oğlu,Süleymanov Süleyman Abduləli oğlu, Nəbiyev Coşqun Bəxtiyar oğlu, Nəcəfov Zakir Tahir oğlu, Şıxəliyev Ramiz Məhəmməd oğlu, Nəsirov Fuad Məhərrəm oğlu, Şıxəliyev Vüqar Faiq oğlu, Nəzərov Fuad Elbrus oğlu, Şirəliyev Mehman Qaçay oğlu, Niftalıyev Habil Əlövsət oğlu, Şirinov Tofiq Rafael oğlu, Osmanov Samir Valik oğlu, Tağıyev Sahib Zabit oğlu, Ömərov Kamal Paşa oğlu, Tahirov Nadir Məmmədhəsən oğlu, Rəhimov Ələsgər Ələkbər oğlu, Tarverdiyev Müşfiq Feyzulla oğlu, Rəhimov Qorxmaz Nazim oğlu, Zahidov Anar Ənvər oğlu, Rəhimov Oqtay Abdulhəmid oğlu, Zeynalov Anar Niyaz oğlu, Rəhimov*

***Şəfaət Sabit oğlu, Zeynalov Eldar Əlisahib oğlu, Rəsulov Seymur Xasay oğlu, Zeynalov Elnur Tahir oğlu, Rüstəmov Elçin Vaqif oğlu, Zeynalov İkram Əli oğlu, Saabov Şirbala Mirzə oğlu, Zülfüqarov Zülfiqar Emin oğlu. [6]***

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi saytında (2 mart 2021-ci il tarixinə olan məlumat) 44 günlük Vətən müharibəsində şəhid olan 2 881 nəfərin, eləcə də itkin düşmüş hesab olunan 28 nəfərin fotoşəkilləri, adları, soyadları, hərbi rütbələri və doğum tarixləri haqqında yenilənən məlumatlar yer alıb ki, onların da sırasında Göyçayın 46 şəhidinin adı var. [7]

Azərbaycanın çağdaş qəhrəmanlıq tarixini yaradan bu igidlərin hər biri haqqında tarixçilər tədqiqatlar aparmalı, çoxlu sayda ayrıca məqalə və kitablar yazmalıdırlar. Bu, onların vətən igidləri qarşısında, vücudunu vicdanına qurban verən qəhrəmanlar qarşısında həyata keçirməli olduqları mənəvi borcdur. Bu kitabda qəhrəmanların hamısı haqqında ətraflı məlumat verməyin qeyri-mümkün olduğunu nəzərə alaraq, əldə etdiyimiz materiallar əsasında onların bəzilərinin keçdiyi həyat yolu haqqında aşağıdakı məlumatları təqdim edirik:

**Kovalyov Yuri Petroviç** 29 noyabr 1965-ci ildə Göyçay rayonunda anadan olub. 1972-ci ildə ailəliklə Rusiyanın Krasnodar vilayətinə köçüb, 5 ildən sonra isə Bakıya qayıdıb. 1981-ci ildə Bakının Nizami rayonundakı 229 saylı orta məktəbi bitirib. 1982-ci ilə kimi Azərittifaqın reklam istehsalat kombinatında çalışıb. 1983-cü ildə ordu sıralarına çağırılıb, 1985-ci ildə isə tərxis olunub. 1987-ci ildə Qırmızı bayraqlı Qara Dəniz Hərbi Donanmasının 109 saylı Miçmanlar və Praporşiklər Məktəbinə daxil olub.

Azərbaycan torpaqlarının işğala məruz qalması və soydaşlarımızm öz dədə-baba torpaqlarından zorla qovulması bir insan kimi Yurini də narahat edirdi. Elə bu səbəbdən də o, 1990-



*Yuri Kovalyov*

cı il sentyabr ayının 15-də Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsinə qəbul edilir, respublikanın bir çox döyüş bölgələrində mərdliklə vuruşur. O, Goranboy rayonunun kəndlərinin azad edilməsində böyük şücaət göstərir. Düşmən snayperləri onu dağlar, daşlar arasında da axtarırdı. Başına yüz min rubl qiymət qoyulur.

1991-ci il oktyabr ayının 3-də polis starşinası Yuri Kovalyov Xocavənd rayonu ərazisində aparılan növbəti əməliyyatdan qayıdırdı. İdarə etdiyi maşın Ağdama tərəf irəliləyirdi. Maşın qəflətən atəşə tutuldu. Yuri Kovalyov ağır yaralandı. Atəş səngimək bilmirdi. Bütün varlığı ilə Azərbaycanı sevən, onu özünə əsl Vətən bilən Yuri Qarabağın Xocavənd rayonu ərazisində qəhrəmancasına həlak oldu. Ailəli idi. İki qızı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli

831 saylı fərmanı ilə Kovalyov Yuri Petroviç ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib. Bakıda 229 saylı orta məktəb qəhrəmanın adını daşıyır. [10]

**Süleymanov Sədi Heydər oğlu** - 1973-cü il avqust ayının 15-də Göyçay rayonunun Alpout kəndində anadan olub. İlk təhsilini öz kəndlərində alıb. 1989-cu ildə orta məktəbi bitirdikdən sonra sənədlərini 106 nömrəli texniki peşə məktəbinə verib. Bu məktəbdə 6 aylıq sürücülük kursunu bitirib.

Sədinin həyatının yeniyetməlik və gənclik çağları ölkə tarixinin ən təlatümlü bir dövrünə təsadüf edir. Mənfur erməni daşnaklarının torpaqlarımıza təcavüzü fonunda ölkədə baş verən proseslər təbii ki, gənc nəslin formalaşan dünyagörüşündə və psixologiyasında vətənpərvərlik ruhunun yüksəlməsi və düşmənə nifrət hissinin daha da alovlanmasına zəmin yaradırdı. Məhz buna görə də tariximizə qanlı hərflərlə yazılan "20 Yanvar", "Xocalı soyqırımı" və digər dəhşətli hadisələr gənc Sədinin düşmənə olan nifrət hissini aşıb-daşdırırdı...

Beləliklə, 1992-ci ilin martın 5-də Göyçay RHK tərəfindən hərbi xidmətə çağırılan S.Süleymanov Vətənə olan müqəddəs borcunu Daxili Qoşunların sıralarında şərəflə yerinə yetirməyə başlayır. Qoşunların Sumqayıt şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmət edən Sədi qısa bir zamanda yoldaşlarının hörmət və etibarını qazanır.

Baş gizir P.Süleymanov cəsur silahdaşı ilə birgə iştirak etdiyi döyüşlərdə Sədinin fərqləndiyini qeyd edir: "1992-ci ilin iyunun 9-da onunla birlikdə Ağdamın Papravənd kəndinə gəldik. Sonra "Qrod-2" deyilən yüksəklikdə Sədi ilə ilk döyüşə başladıq. İyulun 29-da ermənilər Qazançı-Gülyataq istiqamətindən Qalayçılara hücum etmişdi. Təpədən-dırnağadək silahlanmış düşmənin hücumunun qarşısı qətiyyətlə alındı. Məqsədinə

nail ola bilməyən daşnaklar böyük itki verərək geri çəkilmək məcburiyyətində qaldılar. Bu döyüşlərdə bizim bölüyün hərbi qulluqçuları, xüsusi ilə də S.Süleymanov daha çox fərqləndi. Sonralar isə onunla Papravənd, Qalayçılar, Canyataq, Gülyataq, Çıldıran və Qazançı kəndləri uğrunda gedən döyüşlərdə birgə iştirak etmişdik... Lakin 1993-cü ilin iyunun 3-də Qazançı uğrunda gedən döyüş Sədinin son döyüşü oldu... Bu döyüşdə igid silahdaşımız Vətənin azadlığı uğrunda gözlərini əbədi yumaraq şəhidlik zirvəsinə yüksəldi...".

Onun həyat və döyüş yolu barədə məlumatlara görkəmli ziyalımız Əkbər Əlioğlunun 1995-ci ildə Bakıda nəşr olunan və Göyçay şəhidlərindən bəhs edən "Ruhların səsi" adlı kitabında da rast gəlmək olar. Müəllif qeyd olunan kitabında Sədinin 1991-ci il mart ayının 1-də əsgəri xidmətə çağırıldığını, bir müddət hərbi təlim keçdikdən sonra döyüş bölgələrinə yola düşdüyünü və Ağdama göndərildiyini qeyd edir. Daha sonra müəllif burada onun Qalayçı, Xındırıstan və Seyidlər kəndlərindəki döyüşlərdə iştirak etdiyini bildirir: "... 1992-ci ilin dekabrında Ağdərə bölgəsində döyüşən əsgərlərimiz üçün sursat daşıyıb. 1993-cü ildə yenidən Ağdam cəbhəsinə qayıtmış, burada döyüşlərdə iştirak etməklə, yenə də hərbi sursat daşımalı olmuşdur. Ağır döyüşlər zamanı Sədi bir neçə mühasirəyə düşmüş, düşmənlə üz-üzə dursa da, ölümün gözünə dik baxmış, yeddi günlük mühasirəni yarıb azad olmuşdur. Sədi çox igid və cəsur, pəhləvan cüssəli oğlan idi. Komandirinin və döyüş yoldaşlarının hörmətini qazanmışdı. Sədi Süleymanov 8 qardaşın sonbeşiyi və ən istiqanlısı idi. Böyük qardaşı İlqar da Laçın, Qubadlı və Güləbird döyüşlərində iştirak edib.

Ermənilər Sədini öldürənə mükafat təyin etmişdilər. 1993-cü il iyun ayının 3-də döyüş bölgələrinə hərbi sursat apararkən Sədi başından aldığı yaradan şəhid olmuşdur. Sədi Süleyma-

nov iyunun 4-də Alpout qəbiristanlığında dəfn olunmuşdur".

Bundan əlavə, "Əsgər" qəzetinin 20 yanvar 1993-cü il tarixli 4-cü sayında İlham Babayevin imzası ilə dərc edilən "Zaman cəsarətlə ölçülür" başlıqlı məqalədə Sədinin igid döyüşçü kimi adı və soyadı qeyd olunub. Hələ onun sağlığında işıq üzü görən bu yazıda, müəllif, Sədinin sürücü yoldaşları ilə birgə həm də döyüşçü kimi ön mövqelərimizi qoruduğunu qeyd edib.

Sıravi S.Süleymanovun ömür yolu qısa olsa da, döyüş yolu qəhrəmanlıq nümunələrilə zəngin olub. O, yurdumuza göz dikən neçə-neçə düşmən yaraqlısını məhv etməklə onların mənfur niyyətlərini gözlərində qoyub. [2]

**Əliyev Vüqar Hacağa oğlu** 1968-ci ildə Göyçayda anadan olub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Neft və Kimya İnstitutuna qəbul olunub. II kursda oxuyarkən hərbi xidmətə çağırılıb. Hərbi xidmətini Novqorod və Krasnodar şəhərlərində yerinə yetirib. Vüqar 1992-ci ilin iyun ayında ailələrinə xəbər vermədən könüllü olaraq cəbhəyə yollanıb. Çox keçmədən Vüqarın sinəsi düşmən gülləsinə tuş gəldi. O, cəmi 24 il ömür sürdü. 1992-ci il oktyabr ayının 14-də qəhrəmancasına həlak oldu.

**Ağamalıyev Qüdrət Malik oğlu** 1967-ci il mart ayının 2-də Göyçay şəhərində anadan olub. Şəhərin 2 nömrəli məktəbində oxuyub. Orta təhsilini Bakıda Naxçıvanski adına hərbi təmayüllü ixtisaslaşdırılmış məktəbdə tamamlayıb. Üç il orada oxuduqdan sonra əsgəri xidmətə çağırılıb. Uzaq Murmanskda qulluq edib. 1991-ci ildə könüllü olaraq Şahin Tağıyevin başçılıq etdiyi dəstəyə qoşulub, Mərgüşavan, Şuşa, Daşaltı, Malıbəyli, Kərkicahan, Sırxavənd uğrunda döyüşlərdə hünər və cəsarət göstərib. Leytenant Qüdrət Ağamalıyevin son döyüş yeri Tərtər ətrafı - Yuxarı və Aşağı Çaylı kəndlərinin alınması uğrundakı qanlı döyüşlər oldu. Buraya o, aprel ayında gəldi, iyunun 16-da isə qəhrəmancasına şəhid oldu.

**Əkbərov Elton** 1954-cü ildə Göyçay şəhərində doğulub boya-başa çatıb. 1971-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olub. Ali təhsilini başa vurduqdan sonra, rayona qayıdır, ailəni dolandırmaq işində anasına həyan olur. Hələ 20 Yanvar hadisəsi baş verəndə o, Bakıda idi, yaralılara köməklik göstərəndə ayağından yüngül yara alıb. Qarabağa döyüşə yollanandan az sonra qardaşı Səbuhi də azğın düşmənə öz sözünü deməyə getdi. Ağdamın Şelli kəndində müdafiəçilərimizə qoşuldu. Elton isə öz batalyonunda cəsarətlə döyüşürdü. Onun son döyüşü Kosalar kəndi yaxınlığında "Hacı Talası" adlanan yer olub. 2 saat çəkən qanlı döyüşdə Elton Vətən qarşısındakı borcunu qəhrəmancasına yerinə yetirdi və əbədiyyətə qovuşdu.

**Qədirov Ceyhun Səlim oğlu** 1970-ci il iyun ayının 15-də Göyçayda anadan olub. Məktəbi bitirdikdən sonra, 1988-ci ildə əsgəri xidmətə çağırılıb, snayper olub. O, 1993-cü il dekabrın 23-də döyüşə yollanır və 1994-cü il dekabr ayının 25-də şəhid olur.

**Quliyev Azər İsfəndiyar oğlu** 1968-ci ildə Göyçayda anadan olub. Bakıda Dənizçilik məktəbini bitirir, Qara dəniz sahillərində hərbi xidmətdə olur. 1992-ci il noyabrın 5-də cəbhəyə yola düşür, Suarası kəndi uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla həlak olur.

**Zeynalov Elnur Tahir oğlu** 1975-ci il martın 28-də Göyçayda anadan olub. 1992-ci ildə 3 nömrəli orta məktəbi bitirib. 1993-cü il avqustun 18-də əsgəri xidmətə yollanıb. Elnur iki ay Gəncədə təlim məşqi keçirir. Oktyabrın son günlərində isə Füzuli bölgəsində radiooperator kimi Əhmədbəyli, Alıxanlı, Seyidbəyli və Qaraxanbəyli kəndlərinin düşmənlərdən təmizlənməsində yaxından iştirak edir. Döyüşlərdə həmişə ön cərgədə olardı. Cəbhə yoldaşları onun başına and içirdi. Müharibə qurtarandan sonra ali təhsil almaq arzusundaydı. Elnur şeir də yazırdı. Onlardan bir bəndinə nəzər salaq:

Mən sənə dedim ey qoca dünya,
Səndə dərd çəkən də, şad olan da var.
Ömrünü, gününü kefl ə keçirən,
20 yaşında qocalan da var.

Füzuli bölgəsində qəhrəmanlıqla şəhid olan, Vətən torpağının hər qarışını göz bəbəyi kimi qoruyan Elnur Zeynalov Göyçay Şəhidlər Xiyabanında dəfn olunub. Allah ona rəhmət eləsin, qəbri nurla dolsun!

**Çəndirli Elşad Məmməd oğlu** 1958-ci il mart ayının 7-də Göyçayda anadan olub. Şəhər 3 saylı orta məktəbini bitirib. Uzaq Çita şəhərində əsgəri xidmətini keçirib. Azərbaycan Dövlət İqtisad İnstitutunu bitirib. Əvvəl Gəncədə, sonra isə Göyçay tikiş fabrikində baş mühasib vəzifəsində işləyib.

O, 1992-ci il martın 13-də könüllü olaraq hərbi komissarlığa müraciət edir və cəbhəyə gedir. Laçın, Ağdam cəbhələrində və Xanlar rayonunun Sarısu kəndindəki döyüşlərdə böyük hörmət qazanır. Elə bu cəhətinə görə çox keçmir ki, ona gizir rütbəsi verilir. Lakin iyun ayının 13-də Sarısu Balacanbaz yüksəkliyi ətrafında gedən döyüş onun üçün sonuncu olur. Aldığı yaradan sonra onu yalnız iki gün saxlamaq mümkün olur.

Elşad Çəndirli Göyçay Şəhidlər Xiyabanında dəfn olunub. Allah rəhmət eləsin! [6]

**Polkovnik Səmidli Babək Mətləb oğlu** 1974-cü il yanvarın 7-də Göyçay şəhərində anadan olub. 1980-1991-ci illərdə Göyçay şəhəri 6 nömrəli orta məktəbində təhsil alıb. 1993-cü ildə Türkiyə Respublikasının Ankara şəhərində yerləşən Quru Qoşunları Ali Hərbi Məktəbinə daxil olub və 1997-ci il 30 avqust tarixində həmin məktəbin motoatıcı ixtisası üzrə məzunu olub. 1997-ci ilin sentyabr ayından 1998-ci ilin may ayına qədər İstanbulda yerləşən Tuzla Piyada Məktəbində zabit ixtisaslaşma



***Polkovnik Babək Səmidli***

kursunda təhsil alıb. 1998-ci ilin avqust ayına qədər Türkiyə Quru Qoşunlarının Birinci ordusunun N saylı briqadasında motoatıcı tağım komandiri vəzifəsində təcrübə keçib. B.Səmidli 1998-ci ilin sentyabr ayından Azərbaycan Respublikasının Silahlı  Qüvvələrinin H.Z.Tağıyev qəsəbəsində yerləşən N saylı hərbi hissəsində motoatıcı tağım komandiri, 2000-ci ildə Heydər Əliyev adına Ali Hərbi məktəbə tağım komandiri vəzifəsinə təyin olunub.

Azərbaycan Ordusunun yaranmasının 100 illiyi münasibətilə və xüsusi xidmətlərinə, qarşıda qoyulan tapşırıqları yerinə yetirən zaman fərqləndiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25 iyun 2018-ci il tarixli sərəncamına əsasən Babək Səmidli "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib.

Səmidli Babək 2020-ci ilin sentyabrında başlayan Vətən

müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsi, Talış kəndi ətrafındakı bir neçə əlverişli yüksəkliyin və Murov yüksəkliyinin işğaldan azad edilməsi uğrunda gedən döyüşləri idarə edənlərdən biri olub. O, həmçinin Beynəlxalq Qızıl Xaç Komitəsi, Rusiya tərəfinin sülhməramlıları və Ermənistan tərəfinin rəsmilərindən ibarət qrupun üzvü idi. Qrupun məqsədi döyüş meydanında qalan meyitlərin çıxarılması idi.

Daima ön xətdə olaraq şəxsi heyəti ruhlandırıb, onlarla bərabər döyüşə qatılıb. Döyüş zamanı dəfələrlə həyatını təhlükəyə atıb, 30 nəfərdən artıq yaralını döyüş meydanından çıxararaq həyatlarını xilas edib. 10 noyabr tarixində qələbə sevincini yaşasa da, şəhidlərimizin nəşinin düşmən nəzarətində olan ərazilərdə qalması onu çox narahat edirdi və 2020-ci il 23 noyabr tarixində onların nəşini almaq üçün danışıqlar apararkən, Suqovuşanda minaya düşərək şəhid olur. Mina partlaması nəticəsində həmçinin 4 erməni rəsmisi və 1 rus sülhməramlısı da yaralanır. Şəhid Babək Səmidli 2020-ci il noyabrın 24-də Göyçay şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunan ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulan döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9.12.2020-ci il tarixli sərəncamına əsasən Babək Səmidli ölümündən sonra "Zəfər" ordeni ilə təltif edilib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan Babək Səmidli hərbi hissə qarşısında qoyulan tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezi-

denti İlham Əliyevin 15.12.2020-ci il tarixli sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli sərəncamına əsasən Babək Səmidli ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib. [13]

**Polkovnik-leytenant Xəlilov Vidadi Vaqif oğlu** 1982-ci il iyulun 16-da Göyçayda ziyalı ailəsində doğulub. 1989-1999-cu illərdə Göyçay rayonu akademik Ziya Bünyadov adına 3 saylı tam orta məktəbdə təhsil alıb. 1999-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə yüksək qiymətlə qəbul olu-



*Polkovnik-leytenant Vidadi Xəlilov*

nub. 2003-cü ildə həmin məktəbi motoatıcı ixtisası üzrə bitirib və leytenant rütbəsi alıb. O, 2003-2004-cü illərdə Müdafiə Nazirliyinin təlim-tədris mərkəzində ixtisas kursu keçib. 2004-cü ildə Müdafiə Nazirliyinin əmrinə əsasən xidməti davam etdirmək üçün Azərbaycan Respublikası Silahlı qüvvələrinin N saylı hərbi hissəsinə göndərilib. V.Xəlilov müxtəlif hərbi hissələrdə işini şərəf və ləyaqətlə yerinə yetirərək polkovnik-leytenant rütbəsinə qədər yüksəlib.

Polkovnik-leytenant Vidadi Xəlilov və əsgərləri II Qarabağ müharibəsi döyüşlərində Füzuli, Murov, Qubadlı, Laçın istiqamətlərində hərbi əməliyyatlar apararaq, həmin ərazilərin işğaldan azad edilməsinə nail olublar. O, 2020-ci il oktyabrın 31-də Laçın dəhlizində şəhidlik zirvəsinə yüksəlib. Doğma yurdu olan Göyçay şəhəri Şəhidlər xiyabanında dəfn edilib.

Ailəli olan şəhidimizin Vətənə əmanət iki övladı qalıb.

Sağlığında "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" (1918-2013) yubiley medalı, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalına layiq görülən polkovnik-leytenant Vidadi Xəlilov şəhadətindən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunub.

Xəzər rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi şəhid polkovnik-leytenant Vidadi Xəlilov haqqında məlumat saatı keçirib. Məlumat saatında şəhid haqqında verilən geniş məlumat kitabxananın sosial şəbəkələrində yerləşdirilib. [9]

**Həsənov Maarif Rahim oğlu** 1999-cu il noyabr ayının 19-da Göyçay rayonunda anadan olub. 2020-ci il sentyabr ayının 29-da qismən səfərbərlik haqqında sərəncama əsasən Vətən

müharibəsinə gedib. O, bundan təxminən 7 ay əvvəl həqiqi hərbi xidmətdən qayıtsa da, vətənın çağırışına ürəklə cavab ver-



***Maarif Həsənov***

di. 35 gündən sonra Maarif Ağdərə uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu. Öz komandiri ilə şiddətli döyüşdən geri dönərkən, gözlənilmədən 7 nəfər erməni əsgəri ilə qarşılaşan Maarif özünü itirmir və əlindəki qumbara ilə 4 ermənini məhv edir. Sağ qalan 3 ermənidən biri Maarifə atəş açır və o, həlak olur. Maarifin komandiri isə qalan 3 ermənini öldürür, özü isə ağır yaralanır. Sonradan hərbi xəstəxanada müalicə olunarkən Maarifin valideynlərinə zəng edərək Maarifin onun həyatını xilas etdiyini bildirir və belə igid, qeyrətli, vətənpərvər oğul böyütdüklərinə görə onlara ürəkdən təşəkkür edir. Maarif Həsənov Göyçay rayonunda Şəhidlər Xiyabanında dəfn edilib. [3]

**Qaçayev İntizam Əkbər oğlu** 2001-ci il dekabrın 14-də Göyçay rayonunun 2-ci Ərəbcəbirli кəndində anadan olub.




***İntizam Qaçayev***

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak edib. 23 oktyabr 2020-ci il tarixində həlak olub. Göyçay rayonunda dəfn edilib. [4]

Göyçayın qədirbilən əhalisi heç zaman şəhidləri unutmur, Şəhidlər xiyabanında hər il anım mərasimləri keçirilir, onların adının əbədiləşdirilməsi üçün müxtəlif tədbirlər təşkil edilir.

Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə 2014-cü il iyunun 19-dan 26-dək keçirilən sənədli filmlər həftəsi çərçivəsində Göyçay rayon Mədəniyyət Evində Milli Qəhrəman Yuri Kovalyov haqqında çəkilən "Azərbaycanlı Yura"

filmi nümayiş olunub. Tədbirdə Milli Qəhrəman Yuri Kovalyovun həyatı və döyüş yolu barədə ətraflı məlumat verilib. [11]

Vətən müharibəsi qazisi Denis Quzlayevin Azərbaycanın Milli Qəhrəmanı Yuri Kovalyovun qızı Regina Kovalyova ilə ailə həyatı qurmağa hazırlaşması haqqında KİV-də və sosial şəbəkələrdə məlumat paylaşılıb.

**Quzlayev Denis** 1999-cu ildə Bakıda anadan olub. O, müharibədən öncə paytaxtda fəaliyyət göstərən restoranların birində aşpaz işləyib. Səfərbərliklə döyüşlərə qatılan 22 yaşlı qazi, düşmənin atdığı mərmilər nəticəsində üzündən ağır yaralanıb. Milliyətcə rus olan Denis, müharibə zamanı aldığı xəsarətə görə bir neçə çətin əməliyyat keçirib, hətta 10 gün komada qalıb. Denis Quzlayev "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilib. [14]

Göyçayda 20 Yanvar şəhidlərinin şərəfinə rayondakı küçələrin birinə "20 Yanvar" adı verilib. Bundan başqa I və II Qarabağ müharibəsi, Aprel döyüşləri zamanı şəhid olan qəhrəmanların da adının əbədiləşdirilməsi istiqamətində işlər davam edir. Kütləvi informasiya vasitələrində verilən məlumatlar bunu təsdiq edir:

2019-cu il aprelin 5-də vətənpərvərlik həftəsi çərçivəsində Göyçayda "Aprel şəhidləri unudulmur" adlı tədbir keçirilib. Tədbirdə Azərbaycanın Milli Qəhrəmanı Adil Kərimov, Qarabağ qazisi Rüfət Həsənov, Qarabağ qazisi Natiq Mehdiyev, Qarabağ qazisi  ehtiyatda olan kapitan Anar Məmmədov və  polkovnik Babək Səmədli iştirak ediblər. Tədbirin sonunda iştirakçılar rayon mərkəzində aprel şəhidi Teymur Qasımovun adını daşıyan küçədəki büstün önünə əklil qoyublar. [12]

Bu tədbirdə iştirak edən polkovnik Babək Səmədlinin özü də 2020-ci ildə 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucaldı.

Göyçay rayonunda 7 may 2021-ci il tarixində respublikamızın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olan polkovnik Babək Səmidli, polkovnik-leytenant Vidadi Xəlilov və əsgər Tərlan İsmayılovun adları verilən küçələrin əsaslı təmirdən sonra açılışı olub. Bu münasibətlə keçirilən tədbirdə rayon rəhbərliyi, ictimaiyyət nümayəndələri və şəhidlərin ailə üzvləri iştirak ediblər.

Torpaqlarımız uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Göyçay şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi rayon sakinləri tərəfindən böyük rəğbət və minnətdarlıq hissi ilə qarşılanıb. Rayonda şəhidlərin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı tədbirlər davam etdirilir. [8]

Göyçayda şəhid Fərid Mövsümovun adı verilən küçənin açılışı olub. **Mövsümov Fərid Zakir oğlu** 1987-ci ildə Göyçay şəhərində anadan olub. Gənc yaşlarından valideynlərini itirən Fərid qohumlarının himayəsində böyüyüb. Vətənpərvərlik hissi güclü olub, daim mübarizəyə can atıb. Vətən müharibəsində kəşfiyyatçı kimi peşəkarlıq göstərib.

Tədbirə toplaşanlar Şəhidlər Xiyabınına gedərək, qəhrəmanın xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstəsi düzüblər. Tədbirdə şəhidin şərəfli döyüş yolundan və göstərdiyi şücaətdən danışılıb. Torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan Fərid Mövsümov ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edilib. [18]

31 oktyabr 2020-ci il tarixində Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhəddinin Laçın istiqamətində mövqelərimizi ələ keçirmək məqsədilə artilleriya atəşindən istifadə edərək hücuma keçməyə cəhd göstərib, ancaq əks-hücuma keçən Azərbaycan ordusu işğal altında olan torpaqlarımızın azad olunması əməliyyatını davam etdirib. Döyüşlərdən birində polkovnik-leytenant Vidadi Xəlilov

qəhrəmancasına şəhid olub. Şəhid böyük izdihamla doğulduğu Göyçay şəhərində Fəxri Xiyabanda torpağa tapşırılıb.




***Şəhidlər - Vidadi Xəlilov və Babək Səmidlinin məzarları***

Şəhid polkovnik-leytenant Vidadi Xəlilovun oğlu Əli Xəlilova üç rəngli Azərbaycan bayrağı və Göyçay rayon icra hakimiyyətinin təsis etdiyi fəxri xatirə nişanı təqdim edilib. İzdihamlı mərasimdə polkovnik-leytenant Vidadi Xəlilovun Qarabağ döyüşlərində qəhrəmanlığından, döyüşlərdə yüksək igidlik göstərməsindən danışılıb. Mərasimdə çıxış edənlər Silahlı Qüvvələrimizin Azərbaycan cəmiyyətində hər bir vətəndaşın qürur mənbəyi kimi xalq birliyinin yaranmasında xüsusi rolunu qeyd ediblər.

Hazırda Göyçayın ən abad küçələrindən biri şəhid polkovnik-leytenant Vidadi Xəlilovun adını daşıyır. Habelə, şəhidin yaşadığı küçədə adına bulaq inşa edilib. [20]

Göyçay rayonunun Birinci Ərəbcəbirli kənd sakini, Vətən müharibəsi şəhidi **Həsən Bayramovun** əziz xatirəsinə tikilən bulağın açılışı olub. Açılışda rayon rəhbərliyi, şəhidin qohumları, döyüş yoldaşları, qazilər, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Şəhid Həsən Bayramov orta məktəbi bitirdikdən sonra Göyçay Peşə Liseyinə daxil olub. Həmin liseyin məzunu olduğundan, onun adına olan məzun diplomu ailəsinə təhvil verilib.

Çıxışlar zamanı qeyd edilib ki, Həsən Ağaisa oğlu Bayramov 22 iyun 2001-ci ildə Göyçay rayonunun Birinci Ərəbcəbirli kəndində anadan olub. O, elə ilk gündən II Qarabağ müharibəsinə qatılıb, Ağdərə istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. 13 dekabr 2020-ci ildə Göyçay Şəhidlər Xiyabanında dəfn olunub. Xatırladaq ki, şəhidin doğulub boya-başa çatdığı küçə də onun adını daşıyır. [16]

Göyçay şəhəri ilə Ərəbcəbirli kəndi arasında şəhid Xəyal Məmmədovun adına körpü istifadəyə verilib.

Göyçay şəhəri ilə Ərəbcəbirli kəndi arasındakı dağ çayı üzərində köhnə körpü istismar müddətini başa vurduğu üçün şəhərə gediş-gəliş zamanı əhali əziyyət çəkirdi. Rayon əhalisinin maddi vəsaiti ilə uzunluğu 11 metr, eni 7,5 metr olan beton körpü inşa edilib. Kənd əhalisi körpüyə şəhid hərbçi Xəyal Məmmədovun adını verərək, onu "Xəyal körpüsü" adlandırıb. Xəyal Məmmədov orduda şərəflə qulluq edib, 44 günlük Vətən müharibəsində fəal iştirak edərək, 2020-ci il oktyabrın 2-də Tərtər ərazisində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Körpü şəhidin ad günü 13 fevral 2021-ci ildə istifadəyə verilib. Körpünün açılış mərasimində kənd sakinləri, şəhidin ailə üzvləri, qazilər, müharibə iştirakçıları çıxış edərək Xəyal Məmmədovun müharibədəki şücaətindən, onun xatirəsini əbədiləşdirmək üçün görülən bu xeyriyyə işlərindən danışıblar. [17]




*Göyçay şəhərində Anım Günü - 27 sentyabr 2021-ci il*

Göyçayda 2021-ci il 27 sentyabr tarixində Vətən müharibəsinin başlanmasının ildönümünə həsr olunan Anım Günü keçirilib.Tədbir iştirakçıları əvvəlcə Göyçay şəhər Şəhidlər Xiyabanını ziyarət edib, məzarların üzərinə tər qərənfillər düzərək, şəhidlərin ruhlarını ehtiramla yad ediblər. Daha sonra mərasimdə Vətən müharibəsində qəhrəmancasına döyüşən, Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandıran, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda edən əsgər və zabitlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Anım tədbirində bildirildi ki, Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ölkənin ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi. Tarixi qələbə nəticəsində dədə-baba yurdlarımız təxminən 30 ildən sonra düşməndən azad edildi. Bu tarixi qələbə bir milyondan çox Azərbaycan vətəndaşının uzun illər davam edən Vətən həsrətinə və nisgilinə son qoydu.

Mərasim 27 sentyabr 2020-ci ildə Göyçay rayonunun ilk şəhidi - Ləkçıplaq kənd sakini Zamiq Əhmədovun ailəsinin ziyarəti ilə yekunlaşıb.

Qeyd edək ki, şəhidlərin xatirəsinə ucaldılan bulaq kompleksi və Şəhidlər Xiyabanına gedən yol asfaltlanaraq istifadəyə verilib. Şəhidlərin xatirəsinə keçirilən ağacəkmə aksiyasında mindən çox ağac, o cümlədən Şəhidlər Xiyabanında İkinci Qarabağ müharibəsində həlak olan göyçaylı şəhidlərin sayı qədər – 46 ağac əkilib. [17]

## İstifadə olunan ədəbiyyat


1. “44 günlük Qarabağ müharibəsi: Mülahizə və nəticələr”, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, Bakı, 2021

2. Əhmədov A., "Süleymanov Sədi Heydər oğlu, “Son nəfəsimizədək döyüşməliyik” - http://m.dq.mia.gov.az/?/az/menu/148

3. İbrahimov M., “Qəhrəman doğulmurlar, qəhrəman olurlar...” - https://525.az/news/157553-qehreman-dogulmurlar-qehreman-olurlar

4. Xeyrulla Xəyal, “Vətən müharibəsi şəhidləri: Göyçaylı İntizam Qaçayev”, 14.12.2020 - https://ochagsamara.wordpress.com/2020/12/14/vətən-muharibəsi-səhidləri-goycayli-intizam-qacayev/

5. https://azerbaijan.az/related-information/308

6. http://goychay.cls.az/more/text/37741

7. https://azertag.az/xeber/Mudafie_Nazirliyi_Veten_muharibesinde_sehid_olmus_herbi_qulluqchularin_yenilenmis_siyahisini_derc_edib-1661267

8. http://www.goychay-ih.gov.az/news/858.html

9. https://azertag.az/xeber/Sehid_Vidadi_Xelilov_haqqinda_melumat_saati_kechirilib-1808259

10. "veten-ugrunda.az", 09-09-2015

11. https://azertag.az/ 26.06.2014

12. https://sfera.az/gycayda-aprel-sehidleri-unudulmur-adli-tedbir-kecrilib
13. https://xalqqazeti.com/az/news/72950
14. https://qafqazinfo.az/ 29.12.2021
15. https://mod.gov.az/az/pre/21662.html
16. https://ikisahil.az/post/228890-20-yashli-shehidin-xatiresine-tikilen-bulaq-ad-gununde-istifadeye-verildi-foto
17. https://aztimes.az/ 09.27.2021
18. “Respublika”, 21.09.2021
19. http://azpress.info.az
20. “Azərtac” 01.11.2021 - https://azertag.az/xeber/Goychayda_sehid_Vidadi_Xelilovun_xatiresi_anilib-1913880
21. https://files.preslib.az/projects/azerbaijan/gl2.pdf
22. https://azertag.az//xeber/Goychayda_sehid_Xeyal_Memmedovun_adini_dasiyan_korpu_istifadeye_verilib_VIDEO-1711703

## *2. Göyçay müasir dövrdə*

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi - Prezident Kitabxanasının inzibati-ərazi vahidlərinə aid hazırladığı sənədin 80-81-ci səhifələrində Göyçaya aid aşağıdakı məlumat verilib:

Yaranma tarixi - 08.08.1930; ərazisi - 0,74 min kv. km; əhalinin sayı - 121,7 min nəfər (1 yanvar, 2020-cı il); əhalinin sıxlığı – 1 kv.km 164 nəfər (1 yanvar 2020-cı il); şəhər – 1, kəndlərin sayı – 55, Göyçay rayonu ilə Bakı arasında olan məsafə - 226 km.

Göyçay rayonu Azərbaycan Respublikasının mərkəzində, Şirvan düzünün şimal hissəsində, Böyük Qafqaz dağlarının ətəklərində yerləşir. Rayon şimaldan cənuba təxminən 25 km, şərqdən qərbə isə 40 km uzanaraq 736 kv.km sahəni əhatə edir. Rayonun tərkibinə 1 şəhər, 55 kənd daxildir. Bakı-Qazax magistral yolunun 216 kilometrliyində, Ucar dəmir yolu stansiyasından 18 km məsafədə yerləşir. Göyçay rayonu şimal-şərqdə İsmayıllı, cənub-şərqdə Kürdəmir, cənubda Ucar və qərbdə Ağdaş rayonu ilə həmsərhəddir. Mərkəzi Göyçay şəhəridir. Rayona Göyçay şəhəri və Potu, Ulaşlı-Şıxlı, Hüngütlü, Kürd, Yeniarx, Hacıağabəyli, Xalidli, Müskürlü, Qəbələ-Müskürlü, Mallı-Şıxlı, Ərəbşahverdi, Şəhadət, Qarabağlar, Mirzəhüseynli, Birinci Ərəbcəbirli, İkinci Ərəbcəbirli, Çərəkə, Cəyirli, Qubadlı-Şıxlı, Kürdəmiş, Türkmən, Qızılağac, Şəkili, Mollahacılı, Məlikkənd, Şıxbəy, Şıxmir, Kürdşaban, Yenikənd, Çaxırlı, Ləkçılpaq, Qaraman, Yalman, Mırtı, Alıkənd, Qaraxıdır, Şəkər, Veysəlli, Alpout, Bəydövül, İncə, Aşağı Qaraməryəm, Dövranlı, Alxasova, Şahsoltanlı, Yekəxana, Qaraməryəm, Qarayazı, Bığır, Qarabaqqal, Cəyirli, Hacalıkənd, Çayarxı, Cırkürd, Çərəcə kəndləri daxildir.

Göyçay çayı dərəsinin və Cəyirli kəndinin yaxınlığında tikintidə istifadə olunan çaydaşı, çınqıl, qum çıxarılır. Bundan

başqa, rayonun Qarabaqqal kəndinin ərazisində zəngin gil yataqları vardır ki, bundan da yüksək keyfiyyətli kərpic hazırlanır. Göyçay rayonunun iqlimi yayı quru keçən mülayim-isti, yarımsəhra və quru subtropik iqlim tipinə aiddir. Bu iqlim tipi zəif nəmliyi, mülayim qışı və isti-quru yayı ilə səciyyələnir. İllik yağıntının miqdarı 400-600 mm-dir. Rayonda kənd təsərrüfatının əsasını taxılçılıq, pambıqçılıq, heyvandarlıq, baramaçılıq və meyvəçilik təşkil edir. Kənd təsərrüfatına yararlı torpaqlar 44 171 hektardır, bundan 24 403 hektarı suvarılan torpaqlardır. Kənd təsərrüfatına yararlı torpaqların 23 478 hektarı əkin, 4 700 hektarı bağ, 16 686 hektarı örüş torpaqlarıdır. Rayon ərazisindəki torpaqların 28 078 hektarı xüsusi mülkiyyətdə, 35 397 hektarı bələdiyyə mülkiyyətində, 4 777 hektarı isə dövlət mülkiyyətindədir.

Rayonda 1930-cu ildən "Göyçay" qəzeti fəaliyyət göstərir. Qəzet ayda bir dəfə dərc olunur. Rayon radio verilişləri redaksiyası 1974-cü ildən fəaliyyət göstərir. 30 dəqiqə çəkən verilişlər həftədə 2 gün verilir.

**Avtomobil, dəmir yolları haqda məlumat.** Göyçay rayonu Ucar dəmir yolu stansiyasından 18 km məsafədə yerləşir. Rayonun ərazisindən aşağıdakı avtomobil yolları keçir: Bakı-Qazax yolu - uzunluğu 45 km, II kateqoriyalı; Müsüslü stansiyasına giriş avtomobil yolu - 21 km, III kateqoriyalı; Bərgüşad stansiyasına giriş avtomobil yolu - 16 km, III kateqoriyalı; Ucar stansiyasına giriş avtomobil yolu - 15 km, III kateqoriyalı. [7]

Göyçay rayon İcra Hakimiyyətinin verdiyi məlumata görə, 1 yanvar 2021-ci il tarixində rayon əhalisinin sayı 122 512 nəfər olub. Əhalinin sıxlığı hər kv.km üçün 163 nəfərdir. Əhalinin 30,5 faizi şəhərdə, 69,5 faizi kəndlərdə yaşayır. Rayonun ərazisi 0,74 min kv.km-dir. [8]

Göyçayda 10 mədəniyyət evi, o cümlədən 1 rayon mədəniyyət mərkəzi və 9 kənd mədəniyyət evi, 7 kənd klubu, 37 ki-

tabxana, o cümlədən 1 rayon Mərkəzi kitabxanası, 2 şəhər və 34 kənd kitabxana filialı, Heydər Əliyev Muzeyi, Tarix-Diyarşünaslıq muzeyi, xalq şairi R.Rzanın ev muzeyi, Uşaq Musiqi məktəbi fəaliyyət göstərir. [9]

Sovetlər İttifaqının dağılması ilə digər respublikalarla iqtisadi əlaqələrin qırılması rayonun iri sənaye müəssisələrinin fəaliyyətinin müvəqqəti dayanması ilə nəticələnib. Rayonda sənaye müəssisələrinin işləməməsi, kolxozların ləğv edilib, yerində yeni təsərrüfat formalarının yaradılmaması işsizliyin səviyyəsini daha da yüksəldib. 80-ci illərin axırı - 90-cı illərin əvvəllərində olan bu böhranlı vəziyyət digər rayonlar kimi Göyçay rayonunda da Ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərliyinin ikinci dövründə (1993-2003-cü illər) tədricən aradan qaldırıldı.

Rayonda yeni istehsal sahələri yaratmaq üçün kifayət qədər yerli xammal ehtiyatları vardır. Belə ki, rayonda hələ keçən əsrin əvvəllərində yerli gil xammalından yüksək keyfiyyətli örtük materialı – kirəmit istehsal olunurdu. Daha müasir texnoloji avadanlıqlar tətbiq etməklə şiddətli şaxtalara, doluya, həmçinin radiasiyaya qarşı davamlı dam örtüyü istehsalını bərpa etmək imkanları vardır. Yerli gildən həm də sanitariya qovşaqları üçün avadanlıqlar, tüstü boruları üçün boşluqlu kərpiclər, saxsı su boruları istehsal etmək olar. Rayonun mövcud emal müəssisələrində yeyinti sənayesinin ən müxtəlif sahələrini inkişaf etdirmək üçün real şərait vardır. [10]

"Göyçay-Süd" Açıq Tipli Səhmdar Cəmiyyətinin istehsal etdiyi süd məhsulları respublikanın paytaxtı Bakı şəhərinin ticarət şəbəkələrində ən rəqabət qabiliyyətli məhsullardan hesab olunur. Bu məhsullar həmçinin qonşu Gürcüstan Respublikasına ixrac edilir. Müəssisənin istehsal etdiyi meyvə şirələri, əsasən, Rusiya, Ukrayna, Estoniya, Moldova, İsrail kimi ölkələrə

göndərilir. SSRİ dövründə Sovetlər İttifaqının ən iri şəhərlərinə nar şirəsi göndərən Göyçay nar emalı zavodunda da hazırda intensiv yenidənqurma işləri aparılır. Rayonda ətlik və yumurta istehsalı istiqamətində quşçuluğu inkişaf etdirmək üçün münbit imkanlar vardır. Rayon ərazisində 528 min başlıq broyler və 45 min başlıq quşçuluq kompleksləri vardır. İstər heyvandarlıq, istərsə də quşçuluq sahəsinin yemə olan tələbatını ödəmək üçün 100 tonluq yüksək keyfiyyətli yem istehsal edən zavod vardır.

Göyçayda nar şirəsi istehsalı şirkətinin tarixi ötən əsrin 60-cı illərindən başlanır. Həmin illərdə Azərbaycan SSR-in Göyçay rayonunda rayonlararası tədarük kontorunun bazasında konservləşdirilmiş tomat və alma şirələri istehsalı üzrə zavod yaradılıb. Zavod ilk fəaliyyətinə ənənəvi alma və pomidor şirələrinin istehsalından başlasa da, 1969-cu ildə xammal qismində nar və heyvadan istifadəyə üstünlük verilib. 1978-ci ildə Göyçay zavodunun nar şirəsi Erfrut-78 (Almaniya) və Plovdiv-86 (Bolqarıstan) beynəlxalq sərgilərində 2 qızıl medala layiq görülüb.

Artıq 1984-cü ildə zavodun məhsulları bütün sovet respublikalarına və bəzi xarici ölkələrə ixrac edilirdi.

SSRİ-nin dağılması, iqtisadi böhran və istehsalın azalması Göyçay  zavoduna da təsir edir. Lakin 2006-cı ildən başlayaraq göyçaylı iş adamı Fərhad Əhmədovun rəhbərliyi ilə AzNar zavodu yenidən bərpa edildi, baxımsız qalan və qırılan bağların yerində yeni nar bağları salındı. Görülən işlərin nəticəsində 2008-ci ildə Rusiyada Grante nar şirəsi “Bioloji Cəhətdən təhlükəsiz məhsul” sertifikatını aldı. Bundan əlavə, Göyçayın Grante nar şirəsi 2009-2010-cu illərdə mötəbər beynəlxalq müsabiqələrdə aşağıdakı mükafatlara layiq görülüb:

1. “Qida məhsulları ekspozisiyası (Продэкспо) - 2009” 16-cı beynəlxalq qida məhsulları, içkilər və onların istehsalı üçün xammal sərgisində 3 qızıl medal;

2. “Bütün qida aləmi/WorldFood Moscow 2009”, “İlin məhsulu - 2009” 18-ci beynəlxalq qida və içki məhsulları sərgisinin dequstasiya müsabiqəsində Qran-pri;

3. “Ən gözəl məhsul - 2009” beynəlxalq müsabiqəsində qızıl medal;

4. “Продэкспо-2009” müsabiqəsində “Məhsulun tərkibində innovasiya” qızıl medalı, yüksək istehlak xassələrinə görə birinci dərəcəli diplom və “keyfiyyətə görə” qızıl medal;

5. Alma şirəsi “Продэкспо-2010” 17-ci beynəlxalq qida məhsulları, içkilər və onların istehsalı üçün xammal sərgisinin “Ən yaxşı məhsul” beynəlxalq müsabiqəsinin laureatı olur, Qran-pri alır;

6. Heyva şirəsi "WorldFood Moscow" sərgisi çərçivəsində “İlin Məhsulu 2010” beynəlxalq peşəkar qida və içki məhsulları müsabiqəsinin laureatı kimi Qran-pri alır.

Brend Grante öz çeşidini genişləndirir. İndi istehlakçılar ağ və qırmızı üzüm şirəsi, həmçinin nar-üzüm və alma-üzüm qarışığı içmək imkanı əldə ediblər.

2011-ci ildə zavod Azərbaycandan başlanan istehsal coğrafiyasını üç müxtəlif saat qurşaqlarında yerləşən ölkələrə qədər genişləndirib və Grante məhsul brendinin tərkibinə yeni meyvə-giləmeyvə nektar və şirələr cərgəsini daxil edir. Malın keyfiyyətinə əvvəlki kimi ciddi nəzarət edilir, istehsal məhsulları isə sağlamlıq üçün ekoloji cəhətdən təhlükəsiz olan şüşələrdə qablaşdırılır. Artıq 2013-cü ildən Grante şirələri bütün dünyada təmsil olunur: məmulat Rusiya Federasiyası, Macarıstan, Çexiya, Belarus, Polşa, ABŞ, Kanada, İsrail, Avstraliya və Yeni Zellandiya kimi ölkələrdə satılır. [11]

Göyçayda 27 Sentyabr 2019-cu il tarixdə Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə Azərbaycanın 8 rayonunda nar istehsalı ilə məşğul olan 220-yə yaxın fermerin iştirak etdiyi “Nar-




*Göyçay rayonunda 10-cu Nar bayramı - 7 noyabr 2015-ci il*

çılığın inkişafı: qarşıda duran vəzifələr" mövzusunda respublika müşavirəsi keçirilib. Kənd Təsərrüfatı Nazirliyi Aparatının nümayəndələri, müxtəlif rayonların icra hakimiyyəti strukturlarının məsul şəxsləri, nazirliyin tabeli qurumlarının və Dövlət Aqrar İnkişaf Mərkəzlərinin direktorları, Elmi-Tədqiqat İnstitutlarının nümayəndələrinin iştirak etdiyi müşavirədə qeyd olundu ki, son illər Göyçay rayonunda 1 000 hektar sahədə yeni nar bağları salınıb. Respublikada tədarük olunan nar məhsulunun 20%-i Göyçayın payına düşür. Ötən il Göyçayda 31 min 103 ton nar istehsal edilib ki, nəticədə fermerlərimiz nar istehsalından 20 milyon manat vəsait əldə edib. Hər il rayonumuzda nar festivalının keçirilməsi bu gəlirli sahənin inkişafına öz töhfəsini verir". Müşavirədə həmçinin göstərilib ki, Azərbaycan nar müxtəlifliyi və nar sortlarının miqdarına görə dünyada birinci yerdədir. Respublikada "Çəhrayı gülöyşə", "Bala Mürsəl", "Azərbaycan gülöyşəsi", "Nazik qabıq", "Vələs", "İri gilə" və s. sortlar becərilir.

Hazırda narın əkin sahəsi təxminən 23 min hektara, nar istehsalı 155 min tona çatdırılıb. Nar istehsalına görə hər hektardan məhsuldarlıq təxminən 7 ton təşkil edir. Gələcəkdə məhsuldarlığı hər hektardan 15 tona çatdırmaq nəzərdə tutulur. [12]

Göyçay AzNar zavodu istehsalı ildən-ilə artırır, əldə etdiyi nailiyyətləri daha da inkişaf etdirir. Zavodun kollektivi 2012-ci ildə "Mənim Göyçayım. Narım sərvətimdir" ümumrespublika yaradıcılıq müsabiqəsinin keçirilməsinə sponsor dəstəyi göstərib, 2015-ci ildə Göyçay şəhərində televiziya qülləsinin bərpa işlərini maliyyələşdirib və digər xeyriyyəçilik işlərini həyata keçirib. Bununla yanaşı, kollektiv, idmanın da inkişafına yaxından köməklik göstərib.

Teymur Əhmədov adına "AzNar" idman klubunun təşkilatçılığı ilə 2017-ci il mayın 6-da Göyçay şəhər stadionunda ilk dəfə olaraq tanınmış peşəkar idmançıların iştirakı ilə qaydasız döyüş növləri və kontakt karate üzrə "Nar kuboku" uğrunda yarışlar təşkil edilib. Tədbirdə "AzNar" QSC-nin maliyyə dəstəyi ilə Azərbaycan Çoxmübarizəli İdman Döyüş Növləri Federasiyasının və "AzNar" İdman Klubunun fəaliyyət göstərməsi yüksək qiymətləndirilib. Tədbirin sonunda ölkəmizdə bir çox sahələrin inkişafına göstərdiyi dəstəyə və humanitar layihələrin maliyyələşdirməsinə, yeni iş yerləri açmasına görə Rusiyada yaşayan azərbaycanlı iş adamı, "AzNar" QSC-nin sahibi Fərhad Əhmədova Göyçay Rayon İcra Hakimiyyəti adından "Dostluq və xeyriyyəçilik" mükafatı təqdim edilib.

2017-ci il mayın 7-də Göyçay sakinləri daha bir idman bayramına qatılıblar. Bu dəfə rayonun yeni yaradılan "AzNar" futbol komandası Bakı Slavyan Universitetinin həvəskarlar liqasında yarışan "Slavyan" komandası ilə qarşılaşıb. Oyun Göyçay şəhər stadionunda baş tutub. 7 mindən yuxarı tamaşaçının izlədiyi oyun 5-1 hesabı ilə "AzNar" komandasının xeyrinə başa çatıb.



***Göyçayın "AzNar" futbol komandası ilə Bakının "Neftçi PFK" komandası arasında yoldaşlıq oyunu, 4 noyabr 2017-ci il***

"AzNar" müstəqilliyin bərpasından sonra Göyçayda yaradılan ilk futbol komandasıdır. Sovet dövründə rayonun "Çinar" futbol komandası ölkə çempionatında yarışsa da, sonradan fəaliyyətini dayandırıb. "AzNar" QSC-nin təşəbbüsü və dəstəyi ilə Göyçayın "AzNar" futbol komandası yaradılıb. Komandanın oyunçuları Göyçay şəhərində və rayonun kəndlərində yaşayan gənclərdən ibarətdir. Komandanın formalaşdırılması üçün rayonda bir neçə seçim mərhələsi təşkil edilib, bu seçimlərə 500-ə yaxın gənc qatılıb və onların arasından ən istedadlı, ən bacarıqlı futbolçular seçilərək komanda formalaşdırılıb. Komandanın fəaliyyəti, təlim-məşq toplantıları üçün Göyçay şəhər stadionunda əsaslı təmir-bərpa işləri görülüb. Məqsəd "AzNar" komandasının yaxın gələcəkdə peşəkarlardan ibarət ölkə çempionatına qatılmasına nail olmaqdır.

Göyçayda, digər regionlarda olduğu kimi Prezident, Milli Məclis və Bələdiyyələrə keçirilən seçkilər daim ciddi siyasi fəal-

lıq şəraitində keçirilir. Göyçay seçicilərini 1995-ci ildən başlayaraq Milli Məclisdə aşağıdakı deputatlar təmsil ediblər:

**Azərbaycan Respublikası Milli Məclisinin I çağırış deputatları (1995-ci il)**

- **Rzayev Anar Rəsul oğlu** – 1938 - Ali təhsilli, bitərəf - 75 saylı Göyçay Seçki dairəsi - Majoritar
- **Səfərov Səttar İsmayıl oğlu** – 1937 - Ali təhsilli, bitərəf - 89 saylı Ucar-Göyçay Seçki dairəsi - Majoritar – (26.11.1995 - təkrar səsvermə)

**Azərbaycan Respublikası Milli Məclisinin II çağırış deputatları (5 noyabr 2000-ci il)**

- **Rzayev Anar Rəsul oğlu** – 1938 - Ali təhsilli, bitərəf - 75 saylı Göyçay Seçki dairəsi - Majoritar
- **Qəndilov Bəhruz Seyfəddin oğlu** – 1958 - Ali təhsilli, bitərəf - 34 saylı Tərtər-Yevlax-Ağdaş-Göyçay Seçki dairəsi

**Azərbaycan Respublikası Milli Məclisinin III çağırış deputatları (6 noyabr 2005-ci il)**

- **Hacıyev Sabir Kamal oğlu** – 1954 - Ali təhsilli, VBP - 88 saylı Göyçay Seçki dairəsi
- **Hacıyev Şəmsəddin Hümmət oğlu** – 1950 - Ali təhsilli, YAP - 89 saylı Göyçay-Ağsu Seçki dairəsi

**Azərbaycan Respublikası Milli Məclisinin IV çağırış deputatları (7 noyabr 2010-cu il)**

- **Hacıyev Sabir Kamal oğlu** – 1954 - Ali təhsilli, VBP - 88 saylı Göyçay Seçki dairəsi
- **Hacıyev Şəmsəddin Hümmət oğlu** - 1950 - Ali təhsilli, YAP - 89 saylı Göyçay-Ağsu Seçki dairəsi

**Azərbaycan Respublikası Milli Məclisinin V çağırış deputatları (1 noyabr 2015-ci il)**

- **Hacıyev Sabir Kamal oğlu** – 1954 - Ali təhsilli, VBP -

88 saylı Göyçay Seçki dairəsi

- **Nəsirov Elman Xudam oğlu** – 1968 - Ali təhsilli, YAP - 89 saylı Göyçay-Ağsu Seçki dairəsi

**Azərbaycan Respublikası Milli Məclisinin VI çağırış deputatları (9 fevral 2020-ci il)**

- **Hacıyev Sabir Kamal oğlu** – 1954 - Ali təhsilli, VBP - 88 saylı Göyçay Seçki dairəsi
- **Əfəndiyev Məzahir Cavid oğlu** – 1976 - Ali təhsilli, bitərəf - 89 saylı Göyçay-Ağsu Seçki dairəsi [1; 2; 3; 4; 5; 6]

## İstifadə olunan ədəbiyyat


1. "Azərbaycan Respublikasının Milli Məclisi, Birinci çağırış", Bakı, 1997
2. "Azərbaycan Respublikasının Milli Məclisi, İkinci çağırış", Bakı, 2001
3. "Azərbaycan Respublikasının Milli Məclisi, Üçüncü çağırış", Bakı, 2009
4. "Azərbaycan Respublikasının Milli Məclisi, Dördüncü çağırış" Bakı, 2012
5. "Azərbaycan Respublikasının Milli Məclisi, Beşinci çağırış", Bakı, 2016
6. "Azərbaycan Respublikasının Milli Məclisi, Altıncı çağırış", Bakı, 2021
7. https://files.preslib.az/projects/azerbaijan/gl2.pdf
8. http://goychay-ih.gov.az/page/12.html
9. http://goychay-ih.gov.az/page/16.html
10. http://goychay-ih.gov.az/page/14.html
11. https://aznar.az/az/factory/history_aznar/
12. https://agro.gov.az

## Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Göyçayın inkişafında rolu

Ümummilli lider Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev respublikanın digər rayonları kimi Göyçayın da inkişafına xüsusi qayğı göstərir.

Prezident 2005-ci ilin iyul ayında Göyçayda olarkən “Göyçay-Konserv” ASC-nin işi ilə yaxından tanış olub, 2010-cu ilin fevralında isə Heydər Əliyev Mərkəzinin açılışı və Göyçay su elektrik stansiyasının təməlqoyma mərasimlərində iştirak edib.

Göyçayın inkişafı üçün həyata keçirilən işlər daim planlı şəkildə həyata keçirilir. Buna görə də birinci növbədə rayonun dəqiq xəritəsinin tərtib edilməsi mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2015-ci il oktyabrın 6-da üçüncü dəfə Göyçay rayonuna səfər edib. Dövlətimizin başçısı əvvəlcə Göyçay şəhərinin mərkəzində xalqımızın Ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoyub. Daha sonra Gənclər Mərkəzinin açılışında iştirak edib, Bayraq Meydanı kompleksində yaradılan şəraitlə tanış olub, Göyçay Şəhər Uşaq Musiqi Məktəbi binasının, Yeni Azərbaycan Partiyası Göyçay rayon təşkilatının yeni inzibati binasının, Şahmat Məktəbinin açılışında iştirak edib və Göyçay Rayon Mərkəzi Xəstəxanasının binasında əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.

Dövlət başçısı “Göyçay şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsi ilə tanış olduqdan sonra, Göyçay şəhərinə təmiz içməli suyun verilməsini bildirən düyməni basıb. [1]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişinə əsasən Göyçay-Ucar avtomobil yolu yenidən qurulub. Bu yolda yenidənqurma işləri tərtib olunan qrafikə uyğun




***Göyçay-Ucar avtomobil yolu***

olaraq "Azəryolservis" ASC rəhbərliyinin nəzarəti altında aparılıb. İki hərəkət zolağından ibarət yenidən qurulan Göyçay-Ucar avtomobil yolunun ümumi uzunluğu 19 km-dir. Yolun hərəkət hissəsinin eni 7 metr, çiyinlərinin eni 2,5 metr olmaqla avtomobil yolunun ümumi eni 12 metr təşkil edir. Ümumilikdə yolun yerləşmə ərazisi 230.400 kv.m sahəni əhatə edir.

Göyçay-Ucar avtomobil yolunda aparılan işlər zamanı 4 ədəd yeni körpü də inşa edilib. Onlardan 3-ü hidravlik, 1-i isə dəmiryolu körpüsüdür. Hidravlik körpülərdən ikisi 1 aşırımlı olmaqla birinin uzunluğu 35 metr, digərininki isə 22 metr təşkil edir. Üçüncü körpünün uzunluğu 44 metr olmaqla 3 aşırımdan ibarətdir. Dəmiryolu üzərində inşa edilən körpünün də uzunluğu 44 metr olmaqla 3 aşırımdan ibarətdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2015-ci il oktyabrın 6-da yenidən qurulan Göyçay-Ucar avtomobil yolunun açılışında iştirak edib.

Prezident İlham Əliyevin 2009-cu il 16 noyabr tarixli sərəncamı ilə kiçik su elektrik stansiyalarının respublikada geniş tətbiq edilməsi məqsədilə xüsusi proqramlar hazırlanıb. Mütəxəssislərin araşdırmalarına görə, respublikanın müxtəlif bölgələrində dağ çayları və suvarma kanalları üzərində yüzlərlə kiçik su elektrik stansiyasının tikintisini həyata keçirmək mümkündür. Bu stansiyalardan istifadə bir tərəfdən elektrik enerjisinin istehsalında yanacağa qənaət edilməsinə imkan verir, digər tərəfdən isə ətraf mühitə heç bir zərər yetirmir. Dövlətimizin başçısının sərəncamına uyğun olaraq, respublikanın bir sıra bölgələrində kiçik su elektrik stansiyalarının tikintisi davam etdirilir. 2010-cu ilin fevralında Prezident İlham Əliyev tərəfindən təməli qoyulan, gücü 3,1 meqavat olan "Göyçay" kiçik su elektrik stansiyası artıq istismara hazır olduğundan, Prezident 2015-ci il oktybarın 6-da stansiyanı işə saldı.

Şirvan kanalının Göyçay rayonunun Bığır kəndi ərazisindən keçən hissəsində tikilən stansiya ildə 20 milyon kilovat-saat elektrik enerjisi istehsal etməyə imkan verəcək. Bu isə Göyçay rayonunun tələbatının 25 faizini təşkil edir. Stansiyanın ərazisi 5 hektardır, burada geniş yaşıllaşdırma və abadlıq işləri aparılıb, köməkçi tikililər inşa edilib. Stansiyada hər birinin gücü 1,03 meqavat olan üç hidroaqreqat, suqəbuledici və tutumu 4 500 kubmetr olan təzyiq hovuzu, hər birinin uzunluğu 28,4 metr olan üç dəmir-beton təzyiq qurğusu quraşdırılıb. Bundan başqa, turbin zalı və su nəqledici kanal yaradılıb, 10 kilovoltluq yarımstansiya və elektrikverici xətlər çəkilib. [3]

Prezident İlham Əliyev Göyçayın gələcək inkişafına, abadlıq və yol tikintisinə xüsusi qayğı göstərir. Bu məqsədlə Prezident bir sıra sərəncamlar imzalayıb.

Prezident İlham Əliyev oktyabrın 6-da "Göyçay rayonunun Bığır-Cırqurd-Şəkər-Veysəlli-Alıkənd-Mırtı avtomobil yo-

lunun tikintisi ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. On bir min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Bığır-Cırqurd-Şəkər-Veysəlli-Alıkənd-Mırtı avtomobil yolunun tikintisi məqsədilə, 2017-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulan vəsaitin 6,4 milyon manatı "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə ayrılıb. [4]

Prezident İlham Əliyev Göyçay rayonunun Cəyirli-Alpout avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında imzaladığı sərəncama əsasən, iyirmi bir min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirən Cəyirli-Alpout avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulan vəsaitin 8,0 (səkkiz) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb. [5]

Prezident İlham Əliyevin Ağsu və Göyçay rayonlarını birləşdirən Göyçay çayı üzərindəki körpünün bərpası haqqında sərəncamna əsasən, Bakı-Şamaxı-Yevlax magistral avtomobil yolunun 217-ci kilometrində Ağsu və Göyçay rayonlarını birləşdirən Göyçay çayı üzərindəki körpünün bərpası üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulan Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 3,5 milyon (üç milyon beş yüz min) manat ayrılıb. [6]

Prezident İlham Əliyev Göyçay rayonunun Kürd-Şəhadət-Qarabağlar-İkinci Ərəbcəbirli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.

"Report" xəbər verir ki, sərəncama əsasən, dörd min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən

Kürd-Şəhadət-Qarabağlar-İkinci Ərəbcəbirli avtomobil yolunun tikintisi məqsədilə, Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərcləri bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulan vəsaitin 4,1 milyon (dörd milyon bir yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb. [7]

Respublika Prezidenti Göyçayın problemlərinin həllinə daim diqqət göstərir. Bunu 2018-ci ilin 3 iyununda güclü sel nəticəsində Bakı-Şamaxı-Yevlax magistral yolunun Göyçay çayı üzərindən keçən avtomobil körpüsü dağılan zaman göyçaylılar yaxından hiss etdilər. Selin təsiri nəticəsində körpü yararsız hala düşdü, onun yanındakı piyada körpüsünü də sel apardı. Sel suları körpünün altındakı beton plitələri, sahil mühafizə bəndini dağıdaraq, torpaq qatını yuyub apardı və çay yatağını 20 metr genişləndirdi.



***Əli Kərim adına Göyçay şəhər parkının "Əbədiyaşar Ədiblər" Kompleksi***

Prezidentin tapşırığı ilə müvafiq qurumların nümayəndələri Göyçaya gəlib, əraziyə baxış keçirdilər. Qısa müddətə körpü ilə yanaşı, dağılaraq yararsız hala düşən təbii qaz, içməli su, rabitə, internet, elektrik xətlərinin bərpası üçün işlər görülməyə başlandı. [8]

Son illər Göyçayda Gənclər Mərkəzi, Bayraq Meydanı, YAP rayon təşkilatının binası istifadəyə verilib, Heydər Əliyev Mərkəzinin qarşısındakı ərazi abadlaşdırılıb, Ulu Öndərin ağ mərmərdən yeni abidəsi ucaldılıb, Mərkəzin ərazisində yeni işıqlandırma sistemi quraşdırılıb, Ana və uşaq kafesi, Fəvvarə kompleksləri inşa edilib. Rayon İcra Hakimiyyətinin inzibati binasında, Yuxarı Məsciddə əsaslı təmir işləri aparılıb, şəhərin giriş qapıları yenidən qurulub. Qaraməryəm kəndində Bayraq meydanı inşa edilib, ərazidəki yol dairəsi abadlaşdırılıb. Aşağı Qaraməryəm kəndində sel sularının uçurduğu körpü yenidən tikilib. Şəhərin mərkəzində müasir tələblərə cavab verən kənd təsərrüfatı məhsullarının pərakəndə satışı üçün örtülü bazar istifadəyə verilib. Əli Kərim adına parkda abadlıq işləri başa çatdırılıb, orada müharibə veteranları üçün kafe, Azərbaycanın görkəmli şair və yazıçılarının "Əbədiyaşar Ədiblər" xatirə kompleksi inşa edilib, Şəhidlər Xiyabanında Azərbaycanlıların soyqırımına həsr olunan abidə ucaldılıb. Heydər Əliyev prospektindəki parkın yenidən qurulması işləri başa çatdırılıb, Bayraq muzeyi inşa edilib. Həmçinin rayonda yeni avtovağzal binası tikilib istifadəyə verilib və digər işlər görülübdür.

2019-cu il dekabrın 29-da məcburi köçkünlər üçün Göyçay rayonunda 80 mənzilli bina istifadəyə verilib. [9]

Göyçayda son illər digər sahələrlə yanaşı təhsil sahəsi də inkişaf edib. Rayonda 56 məktəb, o cümlədən 41 tam orta, 11 ümumi orta, 4 ibtidai məktəb fəaliyyət göstərir. 16 792 nəfər şagirdin təhsili ilə 2 166 nəfər müəllim məşğul olur ki, onların da



*“Göyçay-Konserv” Açıq Səhmdar Cəmiyyətində - 7 iyul 2005-ci il*




*“Göyçay-Süd” ASC-nin müəssisəsi ilə tanışlıq - 7 iyul 2005-ci il*





*Göyçay şəhərindəki Heydər Əliyev seyrəngahında - 7 iyul 2005-ci il*



*Göyçay rayon ictimaiyyətinin nümayəndələri ilə görüş - 12 fevral 2010-cu il*



*Göyçay şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihəsi ilə tanışlıq - 12 fevral 2010-cu il*



*"Göyçay-1" SES-in təməlqoyma mərasimində - 12 fevral 2010-cu il*



*Göyçay şəhərində Heydər Əliyev Mərkəzinin açılışında - 12 fevral 2010-cu il*



*Göyçay şəhərində Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət - 6 oktyabr 2015-ci il*



*Göyçay Gənclər Mərkəzinin açılışında - 6 oktyabr 2015-ci il*



*Göyçay şəhərinə içməli suyun verilməsi mərasimində - 6 oktyabr 2015-ci il*



*Göyçay Uşaq Musiqi Məktəbi binasının açılışında - 6 oktyabr 2015-ci il*




*Göyçay Şahmat Məktəbinin açılışında - 6 oktyabr 2015-ci il*



*Göyçay Rayon Mərkəzi Xəstəxanasının binasında təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanışlıq - 6 oktyabr 2015-ci il*




*"Göyçay" Su Elektrik Stansiyasının açılışında - 6 oktyabr 2015-ci il*

2 087 nəfəri diaqnostik qiymətləndirmədən keçən müəllimlərdir. Rayonda həmçinin Uşaq Gənclər idman şahmat məktəbi, Uşaq Gənclər İnkişaf Mərkəzi də gənclərin təlim və tərbiyəsi ilə məşğuldur. Bundan başqa, 26 avqust 2002-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarına əsasən, Göyçay Kənd Təsərrüfatının Mexanikləşdirilməsi və Elektrikləşdirilməsi Texnikumunun bazasında yaradılan Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci də fəaliyyət göstərir. [10]

2019-2020-ci dərs ilində Çaxırlı kənd tam orta məktəbində modul tipli 5 sinif otağı və Ləkçılpaq kənd 1 saylı tam orta məktəbi əsaslı təmir edilib. Rayonun Hacağabəyli kəndində 24 yerlik modul tipli sinif kompleksi, Ərəbşahverdi kəndində 40 yerlik modul tipli ibtidai məktəb binası tikilib istifadəyə verilib, şəhər 2 saylı, Qaraman və Potu kənd tam orta məktəbləri əsaslı təmir olunub. Alıkənd kəndində 40 yerlik modul tipli məktəb binası-




*Göyçay şəhərində Əli Kərimin heykəli*

nın tikintisi başa çatdırılıb, Alpout kəndində 40 yerlik uşaq bağçası tikilib istifadəyə verilib. Veysəlli kəndində 20 yerlik modul tipli məktəb binasının tikintisi üçün torpaq sahəsi ayrılıb. [11]

2018-ci il iyunun 2-də Göyçay çayı üzərində körpünün uçması böyük problemlərə səbəb oldu. Bu dövrdə Prezident İlham Əliyevin xüsusi diqqəti nəticəsində Göyçay rayonu böyük sel fəlakətindən xilas ola bildi. Bundan sonra millət vəkili Elxan Süleymanov da daxil olmaqla 100-dən çox yerli sakin Göyçay əhalisi adından ölkə başçısına təşəkkür məktubu göndərdi. Məktubda deyilir:

- Hörmətli İlham Əliyev!

2018-ci il iyun ayının 2-də Göyçay çayı üzərində olan körpünü sel yuyub dağıtmışdı. Bəzi korporativ maraqlarını güdən sahibkarlar, məmurlar uzun müddət Göyçay çayının məcrasında qum-çınqıl karxanaları inşa edərək, çayın yatağını taladıqlarından həmin acınacaqlı vəziyyət yaranmışdı. Göyçay çayının üzərindəki körpü dağıldıqdan sonra rayon faktiki ikiyə bölünmüş, bir tərəfdən digər tərəfə gediş-gəliş kəsilmişdi. Sizin məsələyə dərhal müdaxiləniz nəticəsində körpü çox qısa bir müddətdə yenidən qurularaq, istifadəyə verildi.

Siz yaranmış vəziyyəti ciddi nəzarətə aldınız və Göyçay çayını talayan, hətta məcrasını süni şəkildə dəyişən, körpünün uçmasına səbəb olan şəxslər cəzalandırıldı.

Siz bununla da kifayətlənmədiniz. Göyçay çayının məcrasının durumu ilə bağlı məlumat aldıqdan dərhal sonra orada yeni bəndlərin qurulmasına, çayın məcrasının əvvəlki vəziyyətinə qaytarılmasına dair müvafiq göstərişlər verdiniz. Bununla Siz faktiki olaraq Göyçay rayonunu gözləyən böyük bir fəlakətdən xilas etmiş oldunuz! 2018-ci ilin iyununda körpü uçarkən, Prezidentin ehtiyat fondundan təmir-bərpa işlərinə dərhal 3,5 milyon manat ayırmışdınız.

Siz bu gün də həmin məsələni diqqətdə saxlayırsınız. Göyçayın qarşıdakı müddətdə də fəlakətdən - qış və yaz aylarında əkin sahələrinə, fərdi evlərə ziyan dəyməsindən, körpüyə yaranan təhlükədən birdəfəlik xilas olması üçün Siz bir neçə gün öncə daha bir sərəncam imzaladınız və "Göyçay rayonu ərazisində Göyçay çayında baş suqəbuledici qurğunun təmir-bərpası və selə qarşı mühafizə tədbirləri"nin başa çatdırılması üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə 7.0 (yeddi) milyon manat ayırdınız.

Sizin qayğıkeşliyiniz, diqqətiniz nəticəsində artıq bir neçə aydır ki, mərhələli şəkildə çay yatağında əsaslı təmir işlərinə başlanılıb. Göyçay çayının məcrasının dəyişdirilməsi ilə bağlı aparılan təmir işləri zamanı çayın üzərində standartlara uyğun olaraq alternativ körpü də inşa edilib. Bununla göyçaylılara yaranmış çox qorxulu vəziyyət aradan qalxdı, evimizin, yurd- yuvamızın dağıldılmasının qarşısının alınması üçün çayın yatağının əvvəlki – tarixi yerinə dəyişdirilməsi ilə, təhlükə bizdən uzaqlaşdı.

Cənab Prezident!

Biz göyçaylılar Sizin göstərdiyiniz bu diqqət və qayğını heç zaman unutmayacağıq. Sizə dərin təşəkkürümüzü bildiririk! Allah Sizi və ailənizi qorusun!" [12]

Göyçay çayının hər iki sahilində yerləşən kəndlərin əhalisi çayın daşmasından əziyyət çəkirdilər. 2018-ci ildə Göyçay çayında selin dağıtdığı avtomobil körpüsünün yerində yeni körpünün, 200 metr aralıda isə alternativ körpünün tikintisinə başlanıldı. Bundan bir il sonra körpü tikintisi ilə bağlı yeni sərəncam verilməsi Prezidentin rayon əhalisinə göstərdiyi qayğının daha

bir nümunəsi idi. “Göyçay rayonu ərazisində Göyçay çayında selə qarşı mübarizə ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı”nda (16 oktyabr 2019-cu il) Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə əsasən, "Göyçay rayonu ərazisində Göyçay çayında baş suqəbuledici qurğunun təmir-bərpası və selə qarşı mühafizə tədbirləri”nin başa çatdırılması üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulan Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə 7.0 (yeddi) milyon manat ayrılması nəzərdə tutulurdu. [13]

Göyçayın inkişafına dövlət daim qayğı göstərir. Azərbaycan Respubklikası Prezidentinin Göyçayın inkişafı ilə bağlı sərəncamları ilə yanaşı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları da bu qayğının bariz nümunələridir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Göyçay şəhərinin 2035-ci ilə qədərki dövrdə inkişafına dair “Göyçay şəhərinin Baş planı”nın təsdiq edilməsi haqqında 21 dekabr 2020-ci il 503 nömrəli qərarı buna misal ola biər. Hazırda Göyçayda quruculuq işləri uğurla davam etdirilir.

## İstifadə olunan ədəbiyyat


1. “Yeni Azərbaycan” qəzeti, 07.10.2015
2. Aayda.gov.az
3. https://president.az//articles/16345
4. “Azertag” 06.10.2017
5. “Azertag” 19.07.2018
6. https://azxeber.com/az/ 07.06.2018
7. https://report.az/ 05.04.2019
8. “Azertag” 03.06.2018

9. https://report.az/ 05.04.2019

10. “Orta ixtisas təhsili müəssisələri şəbəkəsinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 avqust 2002-ci il tarixli, 140 nömrəli Qərarı

11. http://goychay-ih.gov.az/page/15.html

12. “Prezident Göyçayı böyük fəlakətdən qurtardı" - rayon sakinlərinin təşəkkürü" - https://musavat.com/news/prezident-goycayi-boyuk-felaketden-qurtardi-rayon-sakinlerinin-tesekkuru_650828.html

13. https://president.az/az/articles/view/34456

## Göyçayın tarixi abidələri

Göyçay şəhərində qədim Əbülfəzlil Abbas məscidi yanğından sonra Teymur Əhmədov adına "AzNar QSC" tərəfindən 2009-cu ildə tam bərpa edilib.

Məscid Göyçay şəhərinin mərkəzindədir. Həyətyanı sahəsi 500 kv.m, iç sahəsi 360 kv.m, hündürlüyü isə 7 m-dir. Məscidin layihəsini mülki mühəndis Zivər bəy Əhmədbəyov verib. Layihə Nəcəf şəhərindən gətirilib. Tikilmə tarixi 1902-ci ilə aiddir. Məscidin günbəzi dəyirmi formada olub, hündürlüyü 2 metrdir. Günbəzin üstü dəmir təbəqə ilə işlənib. Minbəri taxtadandır və doqquzpilləlidir. Mehrabı isə divarın içərisində olub, hündürlüyü 2 metrdir. Məscidin iç divarları sement məhlulu ilə suvanıb və açıq yaşılı rənglə işlənib. Divarlarda isə ərəb dilində Quran ayələri yazılıb. Dam dəmir təbəqə ilə örtülüb. Məscidin fasad tərəfdən divarları bişmiş kərpiclə işlənib. Divarlarda "Allah, Məhəmməd, Əli, Fatimə, Həsən, Hüseyn" sözləri yazılıb.




*Əbülfəzlil Əbbas məscidinin lövhəsi*



*Əbülfəzlil Əbbas məscidi və ya Göyçay şəhər Mərkəz məscidi*

1996-cı ildə məscidin yan tərəfində ikimərtəbəli daha bir bina tikilib. Məsciddə ibadət üçün bütün şərait mövcuddur. 1921-ci ildə məscidin bağlanılması barədə göstəriş verilib. Bundan sonra anbar kimi istifadə edilib. 1930-cu ildə məscid yenidən açılıb. 1944-cü ildə rəsmi olaraq məscidin fəaliyyətinə icazə verilib. Qeyd edək ki, bu məscidin yerində vaxtilə palçıqdan tikilən məscid var idi. Lakin həmin məscid 1896-cı ildə dağıdılıb.

Bu məsciddə Axund Hacı, Qazi Hacı Xanməhəmməd, Molla Şirəli, Kərbəlayı Ağasəlim, Kərbəlayı Ağa Nuh, Mirfazilağa, Molla Bülbül, Axund Hacı Mirqəzənfər ağa kimi məşhur adamlar axundluq ediblər. [1]

Tarixi abidələrdən biri də Göyçay rayonunun Qaraman kəndində yerləşib. İç sahəsi 256 kv.m. (16x16 m.), həyətyanı sahəsi 2 000 kv.metrdir. Məscidin tikilmə tarixçəsi belədir: əs-



*Qaraman kənd məscidi*

lən Göyçayın Alpout kəndindən olan Hacı Rəhim Əfəndi 1889-cu ildə Türkiyəyə səfər edir. O, buradakı möhtəşəm məscidləri, ibadət evlərini görüb, öz doğma yurdunda məscid tikdirmək qərarına gəlir. 1891-ci ildə vətənə qayıdıraq kənd camaatının köməkliyi ilə Qaraman kəndində məscidin tikintisinə başlayır. Həmin il kənd camaatı və şəxsən onun iştirakı ilə məscidin təntənəli açılışı olur. Məscidin açılmasında onun əsas məqsədi müsəlmanlar üçün ibadət evi yaratmaq, habelə uşaqlara ilahiyyatdan və ümumiyyətlə, islam elmlərindən bilik vermək idi. Lakin, çox təəssüf ki, Hacı Rəhim Əfəndinin tikdirdiyi və öz memarlıq üslubu ilə Göyçay qəzasında yeganə olan bu məscid sovetlər dövründə bərbad hala salınıb. Belə ki, o, anbar kimi istifadə olunaraq uzun müddət baxımsız vəziyyətdə qalıb. Yalnız möhkəm memarlıq keyfiyyətinə görə məscid tamamilə uçub-dağılmayıb, bu günə gəlib çatıbdır. Hal-hazırda məscid binası Hacı Rəhim Əfəndinin nəvəsi Elxan Süleymanovun şəxsi vəsaiti hesabına təmir olunub. Məscidin 16 metr hündürlüyü olan minarəsi də var. Minarə bişmiş kərpicdən tikilib. [1]



*Göyçay şəhərindəki Yeraltı hamam*

Göyçay şəhərinin tarixi abidələrindən biri də XIX əsrə aid edilən yeraltı hamamdır.

Uzun illər insanlara xidmət göstərən bu nadir tikilinin bir sirri indiyədək açılmayıb. Hamamın çirkab suları hara və necə axıdılırmış? Aparılan araşdırmalara baxmayaraq, bu sual hələ də cavabsız qalır. "Yeraltı hamam" adı ona əsas hissəsi torpağın səthindən 2 metr dərinlikdə yerləşdiyi üçün verilib. Kvadrat formasında olan tikilinin oval şəkilli üç böyük salonu var. Onlardan ikisi qadınlar, biri isə kişilər üçün idi. Hamamdan eyni vaxtda 70 nəfər istifadə edə bilirdi.

Hamamın özəlliklərindən biri də onun qış vaxtı qızdırılması ilə bağlıdır. Belə ki, araşdırmalar zamanı içəridə heç bir xüsusi qızdırıcı şəbəkə aşkarlanmayıb. Məlum olub ki, ocaqxanada qızdırılan isti su bişmiş kərpicdən tikilən döşəmənin altındakı borularla dövr edərək hər üç salonu qızdırıb. [2]

Göyçayın imkanlı şəxslərindən olan Həzrət bəy Ağazadə bu hamamı qızına cehiz olaraq tikdirib.

## İstifadə olunan ədəbiyyat

1. Azərbaycan Respublikası məscidlərinin ensiklopediyası - http://anl.az/el/a/248998.pdf
2. https://azertag.az/xeber/Goychay_Yeralti_hamamin_sirri-927147



*Göyçay şəhər Mərkəzi Cümə məscidi*

# Summary

*The book is dedicated to the history of Goychay, one of the districts of Azerbaijan with an ancient history. As an outcome of the comprehensive scientific research, the history of Goychay from the 2nd millennium BC to present has been compiled in a book for the first time.*

*Goychay uyezd was established within the Baku Governorate on December 9, 1867 and included the present-day territories of seven districts, namely, Goychay, Ujar, Agdash, Ismayilli, Agsu, Kurdamir, Zardab districts. At present, there are 55 villages and a town in Goychay district. Taking the abovementioned into account, this book presents the history of Goychay in two separate periods.*

*I period - the history of the period from ancient times to August 8, 1930, that is, the date when Goychay was transited from the uyezd center to the district center;*

*II period - the history of the period since August 8, 1930, i.e., after zonation (Azerbaijan SSR (August 8, 1930 - October 18, 1991) and the Republic of Azerbaijan (1991 - present period).*

*Since this book is the first comprehensive research about the history of Goychay, we consider different opinions and attitudes normal. There is a serious necessity that the study of the history of Azerbaijan's districts, including Goychay should be paid more attention by the historians. We believe that the historians will be more interested in studying the history of the districts, including Goychay and present new works thereof in the future.*

*The book is intended for the use by the students of Bachelor's, Master's and Doctorate academic degrees, scholars and people who are interested in the history of the region.*

# Mündəricat

Ön söz ........................................................................................ 5
Giriş ........................................................................................ 7
Göyçay adının mənşəyi ........................................................................................ 15
Göyçayın qədim dövr tarixi ........................................................................................ 17
Orta əsrlərin Çöyçayı ........................................................................................ 31
*1. Ərəblərin Azərbaycana və Arrana köçürülməsi* ........................................ 31
*2. Qaramanlıların Göyçaya gəlişi* ........................................ 37
*3. Xətai və Füzulinin formalaşmasında rolu olan şair Həbibi* .......... 43
*4. XVIII əsr tarixi abidəsi – Surxay qalası* ........................................ 45
Göyçay XIX-XX əsrin əvvəllərində ........................................ 61
*1. Göyçay yəhudilərinin mənşəyi* ........................................ 63
*2. Göyçay qəzasının kəndləri* ........................................ 65
*3. Ucar-Göyçay-Şəki dəmir yolu layihəsi* ........................................ 68
*4. Göyçayda Fərhad Mirzə Qacar adına küçə* ........................................ 73
*5. Görkəmli din xadimi, ziyalı və xeyriyyəçi Hacı Rəhim Əfəndi (1862-1924)* ........................................ 74
Göyçay qəzası 1918-1920-ci illərdə ........................................ 100
*1. Göyçay qəzası ərazisində yerli əhaliyə qarşı bolşevik-erməni soyqırımı* ........................................ 100
*2. Göyçaya sığınan Ağsu köçkünləri* ........................................ 103
*3. Göyçay döyüşləri ( 18 iyun - 2 iyul 1918-ci il)* ........................................ 107
*4. Döyüşlər ərəfəsi və döyüşlər zamanı Göyçay ətrafında baş verən hadisələr* ........................................ 108
*5. Birinci Qaraməryəm döyüşü (16-18 iyun 1918-ci il)* .................. 116
*6. Göyçay şəhəri uğrunda döyüşlər (27 iyun - 1 iyul 1918-ci il)* ....... 123
*7. İkinci Qaraməryəm döyüşü (29 iyun -2 iyul 1918-ci il)* .................. 128
Azərbaycan Xalq Cümhuriyyətinin göyçaylı qurucuları .............. 140
Göyçay 1920-1930-cu illərdə ........................................ 173
II Dünya müharibəsində göyçaylıların iştirakı ........................................ 195

*1. Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən göyçaylı* ............. 197
*2. Sapun dağına bayraq sancan qəhrəman* ...................................... 197
*3. Göyçaylı partizan* ........................................................................ 200
Azərbaycanın ilk ədliyyə generalı .................................................. 215
Göyçay 1946-1991-ci illərdə ............................................................... 217
Göyçay Azərbaycanın dövlət müstəqilliyinin bərpası və inkişafı dövründə ...................................................................................... 255
*1. Azərbaycanın istiqlalı və ərazi bütövlüyünün bərpası uğrunda canlarını fəda edən Göyçay şəhidləri* ................................. 255
*2. Göyçay müasir dövrdə* .................................................................. 281
Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Göyçayın inkişafında rolu ............................................................... 291
Göyçayın tarixi abidələri .................................................................. 302
Summary ............................................................................................ 307

Göyçay ensiklopediyası

"Göyçay Ensiklopediyası" ilk növbədə bölgəmizin insanları haqqında məlumat verməlidir. Ensiklopediyaya Göyçay doğumlu şəxslər haqqında məqalələr daxil ediləcək. Azərbaycan tarixinə düşmüş dövlət xadimləri, görkəmli şair və mütəfəkkirlər, tanınmış yazıçılar, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi və müxbir üzvləri, xarici ölkələrin elmlər akademiyasının həqiqi və müxbir üzvləri, Elmlər doktorları və professorlar, Göyçay tarixini tədqiq edən alimlər, Sovet İttifaqı Qəhrəmanları, Sosialist Əməyi Qəhrəmanları, Şöhrət ordeninin hər üç dərəcəsi ilə təltif olunan şəxslər, Lenin, SSRİ və Azərbaycan dövlət mükafatları laureatları, Birinci və İkinci Qarabağ müharibələrində şəhidlik zirvəsinə ucalmış qəhrəmanlarımız, generallar, Azərbaycan Respublikasının fəxri adlarına layiq görülmüş incəsənət xadimləri, dünya, Avropa və SSRİ çempionatlarının mükafatçısı olan idmançılar haqqında yazılar hazırlanacaq. Əlbəttə, Göyçayda doğulmayan, amma Göyçayı tədqiq etmiş alimlər haqqında da informasiyalar ensiklopediyaya daxil ediləcək. Yeni ensiklopediya Göyçayın təbiətindən, tarixindən, ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatından bəhs edəcək. Burada Azərbaycanın bu qədim diyarına həsr olunmuş oçerklərlə yanaşı, rayonun bütün inzibati-ərazi vahidləri, fiziki-coğrafi obyektləri, geoloji quruluşu, yeraltı və yerüstü təbii sərvətləri haqqında da məqalələr veriləcək.

**Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının prezidenti Elxan Süleymanovun 11 may 2022-ci il tarixdə "Musavat.com" saytında dərc edilən müsahibəsindən**

**https://goychay-encyclopedia.az**

1905.az
STUDIO

**Məhərrəm Zülfüqarlı**
**„Göyçay tarixi“**

**Məsul redaktorlar**
Təmkin Məmmədli
Mehman İbrahimov
**Bədii redaktor**
Mətanət Babayeva
**Texniki redaktor**
İrina Muxtarova
**Korrektorlar**
Laləzər Abbasova
Ləman Carçalova
Fatmaxanım Həsənova
**Tərcüməçi**
Sevda Zeynalova

*“1905.az STUDİO”da çapa hazırlanıb*

Çapa imzalanıb: 01.06.2022.
Həcmi: 19,5 ç.v. Format: 60x84 1/16
Sifariş № 62

POLYGRAPHIC PRODUCTION
Azərbaycan, Bakı
A. Şərifzadə küç., 29-31